Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Dövlət Universiteti

Xəqani Məmməd oğlu MƏMMƏDOV

# AZƏRBAYCAN XALQININ MİLLİ İSTİQLAL MÜBARİZƏSİ
## (XIX yüzilliyin sonları–XX yüzilliyin əvvəlləri)

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «Tarix» bölməsinin 23.02.2005-ci il tarixli 02 saylı iclas protokolu əsasında Azərbaycan Respublikası Təhsil Nazirinin 11.03.2005-ci il tarixli 171 saylı əmri ilə ali məktəb tələbələri üçün dərs vəsaiti kimi qrif verilmişdir.*

BAKI – 2005

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Elmi redaktor: *tarix elmləri doktoru, professor, əməkdar elm xadimi S.S.Əliyarlı*

Rəyçilər: *tarix elmləri doktoru, professor C.P.Həsənli*
*tarix elmləri doktoru, professor F.F.İbrahimli*

**Məmmədov X.M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları–XX yüzilliyin əvvəlləri), Bakı "Elm" 2005. 249 səh.**

*Dərs vəsaiti XIX yüzilliyin sonları–XX yüzilliyin əvvəllərində Azərbaycanın istiqlalı uğrunda xalqımızın apardığı gərgin mübarizənin tarixinin öyrənilməsinə həsr edilmişdir. Tədqiq edilən dövrdə Azərbaycanın sosial-siyasi, iqtisadi və mənəvi vəziyyəti, maarifçilik hərəkatı və milli-mənəvi oyanışın başlanması, milli-demokratik ideyaların formalaşmasında görkəmli ictimai-siyasi xadimlərin rolu tədqiq edilmişdir. Birinci rus inqilabı illərində milli-demokratik hərəkatın əsas istiqamətləri, 1905-1906-cı illər erməni-azərbaycanlı münaqişəsinin istiqlal mübarizəsinin inikişafına təsiri, milli-siyasi partiyaların yaradılması öyrənilmişdir. Dərs vəsaitində birinci dünya müharibəsi dövründə istiqlal mübarizəsinin yüksəlişi, 1917-ci il Fevral inqilabından sonra istiqlal hərəkatının ümummilli prosesə çevrilməsi, 1918-ci il mart soyqırımının milli istiqlal uğrunda mübarizənin inkişafında rolu, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, yeni faktik materiallar, arxiv sənədləri, dövrü mətbuat materialları və mövcud elmi ədəbiyyatlar əsasında tənqidi təhlil əsasında araşdırılmışdır.*

*Dərs vəsaitinin ali məktəb müəllimləri, aspirantlar, tələbələr və geniş oxucu kütləsi üçün əhəmiyyətli olacağına, onların maraq və diqqətinə səbəb olacağına ümid edirik.*

İSBN 5-8066-1705-X

М $\frac{0503020907}{655\ (07) - 2005}$

© Elm nəşriyyatı

## Ön söz

Azərbaycan xalqının rus çarizminin sümürgəçlik siyasətinə qarşı istiqlal mübarizəsi çox mürəkkəb, çətin, eyni zamanda şərəfli bir inkişaf yolu keçmişdir. Milli istiqlal mübarizəsi ana dilli mətbuatın nəşri uğrunda mübarizədən, maarifçilik hərəkatından başlayaraq demokratik azadlıqlar, Rusiya imperiyasındakı türk müsəlman xalqlarının birliyinə nail olmaq uğrunda mübarizə, milli ərazi muxtariyyəti və müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına qədər yüksələn təkamül mərhələlərindən ibarət olmuşdur.

Xalqımızın milli lideri H.Ə.Əliyev tarixçi alimlərin qarşısında duran vəzifələrdən danışarkən, XIX-XX yüzilliklərə aid Vətən tarixinin obyektiv yazılmasının, düzgün və doğru-dürüst tədqiq edilməsinin zəruri olduğunu qeyd edərək bildirmişdir ki, alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix, şübhəsiz ki, indi bizi qane edə bilməz.

Sovet hakimiyyəti illərində sovet siyasi ideologiyasının təsiri ilə formalaşan, onun siyasi tələblərini yerinə yetirən Azərbaycan tarix elmi xalqımızın tarixini saxtalaşdırmaq istiqamətində fəaliyyət göstərmişdir. Tarixi keçmişimizə birtərəfli yanaşmanın nəticəsində tariximizdə ağ ləkələr yaranmışdır. Ölkəmizdəki bütün tarixi və sosial-siyasi hadisələrin gedişi təhrif olunmuş formada, qeyri-obyektiv şəkildə xalqa çatdırılırdı.

Azərbaycan xalqının milli istiqlal uğrunda mübarizəsinin XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri dövrünün tədqiqi bu mənada istisnalıq təşkil etməmişdir. Azərbaycan sovet tarix elmi xalqımızın tarixinin bu mühüm və şərəfli dövrünü düzgün, obyektiv qiymətlən-

dirə bilməmiş, onu kommunist ideologiyasının prinsipləri baxımından izləməyə çalışmışdır. Nəticədə xalqımızın milli azadlıq, müstəqil dövlətçilik uğrunda mübarizəsinə yanlış qiymət verilmiş, Vətən tarixinin mühüm bir dövrünün sonrakı nəsillər tərəfindən unutdurulmasına cəhd göstərilmişdir.

Sovet İttifaqının dağılması və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi ərəfəsində və sonrakı dövrlərdə köhnə elmi stereotiplərin dağılması, mənəvi aləmdə fikir plüralizminə siyasi, ideoloji və elmi axtarışlarda milli mənafeyə üstünlük verilməsi bir çox yeni elmi obyektiv tarixi tədqiqatların yaranmasına səbəb olmuşdur.

Azərbaycan xalqının milli dövlətçiliyinin bərpa edilməsi milli ideologiyanın formalaşdırılması və təbliğini zəruri edir. Müasir dövrdə Azərbaycanın müstəqil inkişaf yolunun müəyyən edilməsi tarix elmindən Azərbaycanın istiqlalı uğrunda mübarizə tarixini obyektiv araşdırmağı, o dövrün müsbət təcrübəsindən bəhrələnməyi, səhvlərindən ibrət götürməyi, onları təkrar etməməyi tələb edir.

Xalqımızın istiqlalı uğrunda mübarizə tarixi dövrləşdirilərkən tarixçi alim S.S.Əliyarlının «Azərbaycan milli hərəkatının ilkin dönəmləri» adlı elmi əsərində irəli sürülən dövrləşdirilməyə istinad edilmişdir. Müəllif həmin dövrü geniş şəkildə səciyyətəndirərək, aşağıdakı elmi mülahizələrini irəli sürmüşdür: «1875-1905-ci illər hərəkatın başlanğıc dönəmidir. Şərti olaraq «Əkinçi» dövrü adlanan bu illərdə hərəkatın başlıca fikir sahibləri dünyaya gətirilmişdir. 1905-1917-ci illər boyu davam edən hərəkat açıq siyasi savaş səhnəsinə çıxaraq öz siyasi tələblərini Rusiya İmperatorluğunun yüksək idarələri (Dövlət Duması, baş nazir və s.) qarşısına vəzifə olaraq qoydu, öz məramının gerçəkləşməsi yolunda çarpışan siyasi partiyalar («İttifaqi-müslüman», «Difai», «Müsavat») şəklində təşkilati birliklər yaratdı, xalq, onun aydınları arasında geniş miqyasda saygı qazandı. («Molla Nəsrəddin» dərgisi ətrafında birləşənlər və başqaları).

Mart-oktyabr 1917-ci il: milli hərəkat Rusiyanı demokratik federasyon cümhuriyyətə çevirmək, onun tərkibində Azərbaycan türklərinin milli muxtar cümhuriyyətini yaratmaq məramına yüksəldi, «islamçılıq» qandalını qırıb atdı. Tam müstəqil demokratik Azərbaycan milli dövlətinin yaradılması məramına buradan yalnız bir addım qalır».

Problemi tədqiq edərkən yuxarıda qeyd olunan dövrləşdirilmə tərəfimizdən daha da inkişaf etdirilmiş, onun inkişafında təkanverici amil rolunu oynayan tarixi hadisələrə və proseslərə söykənilmişdir. XIX yüzilliyin sonları iqtisadi və sosial-siyasi sahədə sənaye çevrilişi, milli burjuaziyanın və proletariatın yaranması, Azərbaycan millətinin formalaşması, kənddə kapitalist münasibətlərinin inkişafı, çarizmin sümürgəçilik siyasətinə və feodal istismarına qarşı kəndli hərəkatının meydana gəlməsi ilə mədəni-maarif sahəsində anadilli mətbuatın, yenilikçi maarif ocaqlarının, yeni üsul məktəblərinin, milli teatrın yaranması milli-demokratik ideyaların formlaşmasında böyük rol oynayan aydınların böyük bir dəstəsinin mübarizəyə qoşulması, milli birlik ideyasının yaranması və s. ilə müşayiət edilmişdir. Maarifçiliyin üstünlüyü ilə seçilən bu dövrü «istiqlal mübarizəsinin oyanış dövrü» kimi səciyyələndirmişik.

1905-ci il birinci rus inqilabı ilə başlayan ikinci dövr birinci dünya müharibəsinin başlandığı 1914-cü ilə qədərki mərhələni əhatə edir. Bu dövrdə Azərbaycanda milli-demokratik hərəkat canlanmağa başlamış, ilk maarifçi-dinçi xeyriyyə cəmiyyətləri, siyasi partiyalar və milli-siyasi təşkilatlar yaranmışdır. Azərbaycanın milli demo-

kratik aydınlarının görkəmli nümayəndələri Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, Ü.Hacıbəyov və başqalarının siyasi proseslərə fəal müdaxilə etmələri sayəsində Azərbaycan xalqı islam hümmətçiliyi ilə vidalaşıb, islam millətçiliyinə və oradan da türk millətçiliyinə tarixi keçid etdi. Onlar «Rusiya Müsəlmanları İttifaqı»nın–«İttihadi-islam birliyi»nin yaranmasında mühüm rol oynadılar, Rusiya Dövlət Dumasının fəaliyyətində yaxından iştirak etdilər. Aydınların fəaliyyəti sahəsində getdikcə güclənən erməni təcavüzü qarşısında Azərbaycan türklərinin mənafeyini qorumaq məqsədi ilə «Difai», «Qeyrət», «Müdafiə» və s. milli-siyasi qurumlar yaradıldı. 1911-ci ildə əsası qoyulan «Müsavat» partiyası isə Azərbaycanın istiqlalı uğrunda mübarizənin önündə getməyə başladı. İslami birlik xəttinin qabarıqlığı ilə seçilən bu dövr milli istiqlal uğrunda mübarizə tarixinin «canlanma» dövrü kimi dəyərləndirilmişdir.

1914-cü il birinci dünya müharibəsi ilə başlayan üçüncü mərhələ 1918-ci ilin mayına qədərki dövrü əhatə edir. Bu dövrdə Azərbaycan türkləri arasında millətçilik ideyası güclənmiş, Rusiya imperiyasının caynağında əzilən müsəlman türkləri arasında türk birliyinin yaradılmasında irəliyə doğru mühüm addımlar atılmış, bir-birinin ardınca baş verən tarixi hadisələrin təsiri ilə Azərbaycan istiqlal hərəkatı ümummilli prosesə çevrilmiş, milli-mədəni muxtariyyət prinsiplərindən məhəlli-ərazi muxtariyyəti mövqeyinə, sonra isə Azərbaycanın istiqlalı uğrunda açıq mübarizəyə keçilmişdir. Əvvəlcə Seymin tərkibinə Zaqafqaziyanın Rusiyadan ayrılıb özünün müstəqilliyinin elan edilməsinə nail olunmuşdur. 1918-ci ilin yazında S.Şaumyan başda olmaqla bolşevik-daşnak birləşmələrinin Bakıda və Azərbaycanın digər bölgələrində törətdikləri soyqırımı Azərbaycan milli demokratiyasının məhəlli-ərazi muxtariyyətinə olan ümidlərini qıraraq milli *birlik ideyasını daha da gücləndirdi və müstəqil dövlətçiliyin* bərpası uğrunda mübarizə keyfiyyətcə yeni, daha yüksək pilləyə qalxdı. 1918-ci il may ayının 28-də Azərbaycan milli istiqlal hərəkatının görkəmli liderləri Azərbaycanın istiqlaliyyətini elan edərək müstəqil Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar. Millətçilik və istiqlalçılıq təzahürləri ilə müşayiət olunan bu dövr «Azərbaycan istiqlal mübarizəsinin yüksəlişi» dövrü kimi qiymətləndirilmişdir.

Araşdırma göstərir ki, indiyədək Azərbaycanın istiqlalı uğrunda mübarizə tarixinin böyük bir zaman kəsiyində – XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri mərhələsi ayrıca tədqiqat obyekti olmamışdar. Bu mövzuda ilk dəfə elmi-tədqiqat işi aparıldığından, bu dövrün bütün problemlərinin tamamilə əhatəli, bütün dərinliyi ilə öyrənildiyini iddia etmək fikrindən uzağıq. Bu dövr tariximizin ən mürəkkəb, keşməkeşli dövrlərindən biridir. Tədqiqat işində Vətənimizin 40 ildən artıq bir dövrünü əhatə edən istiqlal mübarizəsi tarixi araşdırılmış, onun yalnız aparıcı istiqamətləri, aspektləri tədqiqat obyektinə çevrilmişdir.

Gələcəkdə əsərin ayrı-ayrı fəsillərinin və problemlərinin müstəqil araşdırmalar üçün mövzu mənbəyi olacağına şübhə etmirik. Bu mənada əsər haqqında öz arzu və təkliflərini, xeyirxah qeydlərini bildirəcək şəxslərə öncədən minnətdarlığımızı bildiririk.

*I Bölüm.* **AZƏRBAYCAN XALQININ MİLLİ İSTİQLAL MÜBARİZƏSİNİN BAŞLANĞIC DÖVRÜ (1875-1904-CÜ İLLƏR)**

### *1.1. Milli istiqlal mübarizəsinin sosial-iqtisadi və siyasi təməli.*

XIX əsrin son rübü Azərbaycanda feodalizm münasibətlərinin tənəzzülü, kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı ilə səciyyələnir. Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra kapitalizmin inkişafında ciddi dönüş yaranmağa başlandı. Ölkənin xammala olan ehtiyacını ödəmək məqsədilə çar hökuməti müstəmləkə ucqarlarında sosial-iqtisadi münasibətləri tənzimləmək istiqamətində islahatlar aparmağa məcbur oldu. 1870-ci ilin may ayının 14-də çarın fərmanı ilə Zaqafqaziya quberniyaları Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında «Əsasnamə» qüvvəyə mindi.

Bu «Əsasnamə»də torpaq, vergi və kəndlilərin şəxsi asılılığı məsələsi öz əksini tapmışdı. Burada kəndlilərin şəxsən asılı olmaması, hər 15 yaşına çatmış kəndliyə (kişiyə) 5 desyatin pay torpağı verilməsi nəzərdə tutulmuşdu. Əslində torpağı 5 desyatindən az olan kəndlilərin əksəriyyətinə əlavə torpaq payı verilmədi. Kəndliyə pay torpağını satın alıb öz mülkiyyətinə keçirmək hüququ verilmişdi, lakin kəndlilərin əksəriyyəti bu pulu vermək iqtidarında deyildi. Rusiyadan fərqli olaraq Azərbaycan kəndlisinə torpağı satın almaq üçün borc pul verilmirdi. Bu da çarizmin milli-müstəmləkə siyasətinin təzahürü idi. Milli müstəmləkəçilik siyasətinin aşkar nəticəsi olan bu



fərmanı səciyyələndirən H. Baykara doğru olaraq qeyd edir ki, «. Köləlik rejiminin ləğv edilməsinə aid fərmanda bu hüquq rus və gürcü kəndlilərinə aid edilmiş, Azərbaycan kəndlisindən əsirgənmişdi. Çünki torpaq mülkiyyətinə sahib olan kəndli maddi və mənəvi cəhətdən inkişaf edə bilərdi, öz müqəddəratının sahibi olardı, mədəni və siyasi hüquqlar əldə etməyə çalışardı. Bu vəziyyət Rus çarlıq rejimini təmin etmirdi».

Rusiyada kapitalizmin inkişafı milli ucqarlarda, o cümlədən Azərbaycanda da islahatlar keçirməyi tələb edirdi. Buna görə də kəndli islahatı ilə yanaşı, Azərbaycanda məhkəmə, şəhər və inzibati idarə sahəsində də islahatlar keçirildi. Milli ayrı-seçgilik və müstəmləkəçilik siyasəti burada da nəzərə çarpırdı. Rusiyada hakimlər seçildiyi halda, ucqarlarda təyin olunurdu. Hakimlər yalnız ruslardan təyin olunur və məhkəmə işləri rus dilində aparılırdı. Xalqın dili, adət-ənənəsi ilə tanış olmayan hakimlərin hökm çıxarmalarında özbaşınalıq hökm sürürdü.

1870-ci ildə çar hökuməti şəhərlərin idarəsi sahəsində də islahatların başlanması haqqında fərman imzaladı. Lakin həmin islahatlar Azərbaycana, həm də yalnız Bakı şəhərinə 1878-ci ildən şamil edilməyə başladı. Şəhərlərin idarəsi sahəsində islahatın mahiyyəti ondan ibarət idi ki, əgər əvvəllər şəhər dumalarına seçgilərdə yalnız imtiyazlı silkə malik olanların iştirak etmək hüququ var idisə, yeni «Əsasnamə» fəhlə, qulluqçu və ziyalılara silk fərqi qoymadan vergi ödəyən hər kəsin seçkilərdə iştirak hüququnu təmin edirdi. Yalnız qadınlar və 25 yaşına çatmamış kişilər seçkilərdə iştirak etmək hüququndan məhrum edilirdi. Lakin çar hökumətinin müstəmləkəçilik siyasəti şəhər dumalarının hüquqlarını son dərəcə məhdudlaşdırmışdı. Dumanın abadlıq, yanğına qarşı mühafizə, ticarət,

sənaye, səhiyyə və maarifi himayə etməkdən savayı heç bir hüququ yox idi. Çar hökumətinin Azərbaycanda müstəmləkəçilik siyasəti imperiyanın digər milli ucqarlarına nisbətən daha sərt idi. Məsələn, hökumət gürcü torpaq sahiblərinin hüquqlarını tanıyaraq, onları siyasi baxımdan da rus zadəganlarına bərabər tuturdu. Azərbaycanın xan və bəyləri isə «ali müsəlman zümrəsi» kimi rəsmi olaraq tanınsa da, rus zadəganlarının hüquq və imtiyazları onlara aid edilmirdi. Məhz bunun nəticəsi kimi gürcü zadəganlarından qubernator təyin olunduğu halda, azərbaycanlı xan və bəylər belə rütbəyə yüksələ bilməmişdilər.

Çar hökumətinin 1867-ci ildə verdiyi «Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında» fərmanla Zaqafqaziyadakı Bakı, İrəvan və Tiflis quberniyaları hesabına Yelizavetpol quberniyası yaradılmışdı ki, bunun da mərkəzi Yelizavetpol şəhəri idi.

Yelizavetpol quberniyası Zəngəzur, Şuşa, Nuxa və Yelizavetpol qəzalarını əhatə edirli. Bakı quberniyasına isə Bakı, Şamaxı, Quba və Lənkəran qəzaları daxil idi. Bir qədər sonra quberniyaya Cavad və Göyçay qəzalarını da qatdılar. 1883-cü ildə isə Yelizavetpol quberniyası daxilində daha iki- Cavanşir və Cəbrayıl qəzaları təşkil olundu. Qafqaz canişinliyinin həmin ildə ləğv edilməsindən sonra Qafqazın idarəsi hüququ Qafqaz baş hərbi rəisinə verildi. İnzibati bölgülər yaradılarkən əhalinin milli tərkibi, onun məişəti, iqtisadi həyat tərzi nəzərə alınmırdı. Özünün ruslaşdırma siyasətini gücləndirən çarizm Azərbaycan kəndlilərinin torpaqlarını əllərindən zorla alaraq, Rusiyadan köçürülənlərə verirdi. Köçürmə siyasəti yerli əhali ilə köçürülənlər arasında toqquşma və düşmənçiliklə müşayiət olunurdu.

Köçürmə mahiyyət etibarı ilə Azərbaycanda ruslara,



xristianlara əksəriyyəti təmin etmək məqsədi daşıyırdı. Gəncə yaxınlığında Handorf, Malakan, Slovakiya və s. adlarında rus-xristian kəndləri, Muğanda xeyli miqdarda yaşayış məskənləri bu məqsədlə salınmışdı. «Azərbaycanda xristianlara əksəriyyəti təmin eyləmək və hüdud boylarında İran və osmanlı dindaşları ilə Azərbaycanın təmasını yasaq etmək üçün buralara erməni, alman və daxili Rusiyadan xoxol, malakan deyilən rus kəndlilərini məskunlaşdırdığı kimi, mühacirəti asanlaşdırmaq üçün bir də mühacirətin müdiriyyəti təsis edilmişdi. Bütün bu təşkilat Azərbaycanı ruslaşdırmaq və xristianlara Azərbaycanda əksəriyyəti təmin eyləmək üçün edilmişdi».

Köçürmə siyasətinin arxasında Azərbaycanın iqtisadi sərvətlərinə sahib olmaq kimi müstəmləkəçi niyyət dayanırdı. Neft sənayesi ilə yanaşı, Muğan zonasında pambıqçılığın inkişafına sərmayə qoyan Azərbaycan milyonçularının fəaliyyətinə mane olmaq məqsədilə Qafqaz canişinliyi xüsusi tədbirlər planı hazırlamışdı. Bakı general-qubernatoruna verilən 7 noyabr 1898-ci il tarixli 103 №-li əmrdə göstərilirdi ki, Bakı milyonçularının pambıq istehsalına vəsait qoyuluşunun qarşısını almaq məqsədilə Muğanda rus millətindən olan əhalinin yerləşdirilməsi üçün bütün imkanlardan istifadə edilsin.

Çar hökumətinin köçürmə siyasəti yalnız kəndlərdə deyil, şəhərlərdə də sistemli şəkildə aparılırdı. M.Ə.Rəsulzadə yazırdı ki, «Qafqaziyanın istilası əsnasında tək bir rus əhalisi olmayan Şərqi Qafqaziyanın hal-hazırda nüfuzi- ümumiyyəsinin 10 faizi rusdur. Hələ şəhərlərin, bilxassə Bakının ruslaşdırılması fəci bir hadisədir. Bakı nüfuzunun 30 faizi rusdur. Rus idarəsi türk Qafqaziyanın yalnız rus ünsürünü deyil, erməni ünsürünü, dəxi qismən təkviyə etmişdir. Məsələn, Bakı xanlığında

erməni əhalisi 3-5 ailəyə münhəsir ikən, hal -hazırda erməni əhalisi miqdarca şəhərin üçüncü ünsürünü təşkil etməkdədir».

Azərbaycan xalqı yerli feodalların və çar məmurlarının zülmünə, milli müstəmləkəçilik əleyhinə mübarizə edir, haqsızlığa və köləliyə dözmürdü. Sinfi mübarizənin kəskinləşməsi qaçaqçılıq hərakatının genişlənməsində özünü büruzə verirdi. XIX əsrin sonlarında qaçaqçılıq hərəkatı Azərbaycanın bütün dairə və qəzalarını əhatə edirdi. Qazax qəzasında Kərəm və Tanrıverdi, Yelizavetpolda Dəli Əli, Zəngəzurda Nəbi, Nuxada Kərim Əfəndi oğlu, Qubada Məşədi Məcid, Şamaxıda Adıgözəl və Cahangir, Qarabağda Xanış, Əbdülhəsən, Qəhrəman, Rüstəm, Ağacan, Təhmasib, Nurulla və başqaları qaçaqçılıq edirdilər .

Qaçaqlar fürsət düşdükcə yerli bəy və xanlardan, çar məmurlarından qisas alırdılar. 50-70 nəfərlik dəstələrdən ibarət olan qaçaqlar cəld hərəkət edir, tez-tez yerlərini dəyişirdilər. Xalqın qaçaqları dəstəkləməsi onları polis idarələrinin təhlükəsindən, ələ keçməkdən qoruyurdu. Qaçaqlar çar qoşunları ilə toqquşmağa məcbur olurdu. Məsələn, Quba qəzasında 1877-ci ilin sentyabr-noyabr aylarında qaçaqlarla çar qoşunları toqquşmuşdur. Bu toqquşmadan qorxuya düşən qəza polis idarəsi 21 noyabr 1877-ci il tarixli raportla Yelizavetpol quberniyasına yardım üçün müraciət etmişdi. Quba qəzasının Yalama və Xudat stansiyalarında başlanan bu toqquşma Nuxa qəzasına və Zaqatala dairəsinə də keçmişdi.

Azərbaycanda Qaçaq Nəbi, Qaçaq Kərəm və başqa qaçaqların qəhrəmancasına mübarizəsi haqqında dastanlar qoşulmuş, kitablar yazılmışdır. 1891-ci ilin aprelindən Rusiyanı səyahətə çıxmış M. Qorki 1892-ci ilin yay aylarını Tiflisdə keçirmişdir. Yazıçı «Qafqazda qaçaqlar» adlı



məqaləsində qaçaq hərəkatına rəğbətlə yanaşır, Qaçaq Kərəmə olan heyranlığını gizlətmirdi. Çar hökuməti qaçaqçılıqla mübarizə üçün böyük qüvvə və vəsait sərf etməyə məcbur olurdu. Hökumət qaçaqçılıqla mübarizə üçün 5 min nəfər əsgər ayırmışdı. 1893-cü il 13 sentyabr tarixli fərmanla qaçaqçılıqla mübarizə üçün hərbi-səhra məhkəmələri yaradılmasına icazə verilmişdi. Həmin məhkəmələrə əvvəlcə müddətsiz sürgün, 1897-ci ilin payızından isə ölüm hökmü çıxarmağa icazə verilirdi.

Lakin bu cəza tədbirləri qaçaqçılıq hərəkatının qarşısını ala bilmirdi. Qaçaqların mübarizəsi çox zaman məğlubiyyətlə bitirdi. Çünki onların mübarizəsi kortəbii səciyyə daşıyır, vahid səmtə yönəldilmirdi. Bununla belə zülm və haqsızlıq, müstəmləkəçilik əleyhinə yönəldilmiş qaçaqçılıq Azərbaycan milli hərəkatının təşəkkülü və formalaşmasında mühüm rol oynadı.

XİX-cu əsrin son rübündə Azərbaycanda neft sənayesi sürətlə inkişaf etməyə başladı. Xüsusilə 1872-ci il fevral ayının 1-də elan edilmiş «Neft mədənləri haqqında qaydalar və fotogen istehsalından aksiz alınmasına dair» çar hökumətinin fərmanı ilə mədən işlərinin tam azad olunmasının elan edilməsi, fevral ayının 17-də isə ikinci bir fərmanla iltizam sisteminin ləvğ edilməsi, xəzinə neft mənbələrinin hərrac yolu ilə xüsusi adamlara satılmasına icazə verilməsi neft sənayesinin inkişafına böyük təkan verdi. Carın 1872-ci il 17 fevral tarixli fərmanı ilə dövlət kəndlilərinə pay torpaqlarının təkini istismar etmək, mədənlər açmaq və ya torpaq sahəsini başqasının icarəsinə keçirmək hüququ verildi. Bakının general-qubernatorunun 1873-cü il sərəncamına əsasən kənd icmalarına neftçıxarma şərti altında pay torpaqlarının şirkətlərə və ayrı-ayrı şəxslərə verilməsi haqqında müqavilələr bağlanmışdır.

1872-ci ildə Abşeronda neftlə zəngin olan 174 desyatin torpaq hərraca qoyulmuşdur. Bu zəngin yataqlardan çoxu iri sahibkarlardan B.A.Kokorev, P.Q.Qubonin və keçmiş iltizamçı Mirzoyevə çatmışdır. Azərbaycanlı sahibkar H.Z.Tağıyev Bibiheybətdə 9 min manata 10 desyatin neftli torpaq sahəsi almış və həmin sahədən çıxarılan neftin hesabına milyonlarla manat sərvətə sahib olmuşdur.

İltizam sistemi ləğv edilənə qədər Azərbaycanın neft sənayesi başlıca olaraq milli burjuaziyanın nəzarətində idi. Lakin neftli ərazilərin xüsusi mülkiyytə verilməsi və xarici kapital üçün əlverişli şərait yaradılması, çarizmin milli müstəmləkəçilik siyasəti nəticəsində zəif və imkansız milli burjuaziya güclü rəqabətə davam gətirə bilməyərək xeyli dərəcədə sıxışdırıldı. Müstəmləkə rejimi milli burjuaziyanın inkişafına, iqtisadiyyatda və siyasi həyatda möhkəm yer tutmasına mane olurdu. 1870-ci ildə bütün Bakı neftinin yarısını istehsal edən quyuların 88%-i milli burjuaziyanın əlində olduğu halda, 1872-ci ildə onların ixtiayrındakı quyuların payı 13%-ə qədər azalmışdır. Qafqazdakı müstəmləkəçilik siyasətində ermənilərdən müəyyən bir vasitə kimi istifadə edən çarizm onların Azərbaycanda iqtisadi və siyasi cəhətdən möhkəmlənməsinə çalışır, buna maksimum şərait yaradırdı. Nəticədə XİX yüzilliyin sonlarında Bakıdakı 167 neft şirkətindən 49-u Azərbaycan milli burjuaziyasına, 55-i isə erməni burjuaziyasına məxsus idi. 1900-cü ildə Bakı quberniyasında fəaliyyət göstərən 115 müxtəlif sənaye şirkətinin 29%-i erməni burjuaziyasına, 18%-i isə milli burjuaziyaya məxsus idi.

Kapitalist neft sənayesi təşəkkül taparkən Azərbaycan Rusiyadan kapital axını hesabına iki mühüm kapital qoyuluşu mənbəyinə malik idi. Birinci mənbə H.Z.Tağıyev, M.Nağıyev, A.İ.Mantaşov, Q.M.Lianozov və başqalarının



timsalında azərbaycan və erməni kapitalı tərəfindən, ikinci mənbə Peterburq metal zavodları sahibkarları A.E.Nobel, P.A.Bilderlinq, S.M.Şibayev və s. tərəfindən təmsil olunurdular. 1879-cu ildə əsas kapitalı 3 milyon manat olmaqla «Nobel qardaşları» şirkəti meydana gəldi. 80-ci illlərin ortalarında Rotşildlərin Paris Bankir Evi Rusiyada alınmış müəssisələrin birləşdirilməsi əsasında yeni «Xəzər-Qara dəniz» cəmiyyətinin əsasını qoydu. Artıq 90-cı illərdə Azərbaycanda 6 ingilis, 3 fransız, 2 alman, 2 belçika və 1 yunan şirkəti fəaliyyət göstərirdi.

Əcnəbilərin Bakı rayonundakı neft mədənlərinə buraxılması haqqında məsələ üzrə xüsusi müşavirənin 1880-ci il mayın 1-də qəbul edilmiş qərarında «Əcnəbilərin və əcnəbi cəmiyyətlərinin hazırkı zamanda rus neft sənayesində iştirakının faydalı və arzuedilən» olduğu elan edilmişdi. Çarizmin himayədarlığından sui- istifadə edən xarici şirkətlər tərəfindən neftli torpaq sahələrinin, «xəzinə və xəzinə-icma torpaqlarının» özbaşına tutulması halları geniş miqyas almışdır. Bu işdə «Nobel qardaşları», «Oyl», «Şell», «Neft» və s. şirkətlər və cəmiyyətlər xüsusilə fərqlənirdilər. Xəzinə və icma torpaqlarının özbaşına zəbt edilməsi ilə əlaqədar dövlət və sərməyadarlar arasında qalxan mübarizələr bir qayda olaraq, ikincilərin qələbəsi ilə nəticələnirdi.

Kapital axınının artması hasilat və emal texnikasını, neftin daşınma texnikasını yüksəltdi. Qazma texnikasının tətbiqi ilə birgə 1878-ci ildə neftçıxarma mədənlərini neftayırma zavodlarına birləşdirən buxar nasoslu ilk neft kəməri çəkildi. «Nobel qardaşları» firması 1879-cu ildə ilk dəfə olaraq mədənlər arasında neftin və sərnişinlərin daşınması üçün dəmir yolu çəkdirdi.

70-ci illərin sonunda Bakıda ilk neft kəmərinin işə salınması neftin nəql olunması işində təkan yaratdı. Əsrin

sonlarına doğru Bakıda ümumi uzunluğu 300 km olan 26 neft kəməri fəaliyyət göstərirdi. Neftin nəql olunmasında neft doldurma gəmiləri və vaqon sisternlərdən istifadə olunmağa başlandı. 1877-ci ildə Nobel qardaşlarının sifarişi ilə İsveçdə birinci neft doldurma gəmisi «Zərdüşt» inşa edildi. Daha sonra «Məhəmməd», «Musa» və başqa neft doldurma gəmiləri istifadəyə verildi. Neft doldurma gəmilərinə ehtiyac Azərbaycanda gəmi təmiri və gəmiqayırma sənayesinə təkan verdi.

1879-cu ildə ilk dəfə Bakı- Balaxanı dəmir yolunda istifadə olunan vaqon-sisternlər neft nəqliyyatının əsas vasitəsinə çevrildi. 1883-cü ildə 462 belə vaqon-sistern var idi. Onlar ildə 12 mln. pud neft daşıyırdılar. Bir il sonra hökumət vaqon-sisternlərin sayını 750-yə çatdırmışdı. Əsrin sonunda isə vaqon-sisternlərin sayı 20 mini ötüb keçmişdi.

Yeni texniki üsulların tətbiqi neft sənayesinin inkişafını sürətləndirdi. Bunun nəticəsində 1870-ci ildən 1880-ciilədək olan müddətdə Bakıda neft istehsalı on dəfə yüksəldi. XIX əsrin ikinci yarısında yaranmaqda olan dünya neft sənayesində iki qütb təşəkkül tapmaqda idi. Bu qütblərdən birini Qərb yarımkürəsində ABŞ-ın Pensilvaniya ştatı təşkil edirdisə, digərini Şərq yarımkürəsində Bakı neft rayonu təşkil edirdi.

Əsrin sonlarında Bakıda 500 mln. pud neft hasil edilirdi ki, bu da ABŞ-da çıxarılan neftdən artıq idi.

1901-ci ildə Bakı neft hasilatı daha da artaraq, 671,7 mln puda çatmışdı. Bu isə dünyadakı neft istehsalının yarıdan çoxuna, Rusiyadakının isə 95 faizinə bərabər idi.

1897-ci ildə Abşeronun təkcə Balaxanı, Sabunçu, Ramana və Bibiheybət mədənləri ümumi neft istehsalının 74 faizini təşkil edirdi.

Neft sənayesinin inkişafı Azərbaycanda varlı kapitali-



4408

stlərin, milyonçuların yetişməsi üçün şərait yaratdı. Qısa müddət əözində M. Nağıyev, H. Z. Tağıyev, Ş. Əsədullayev, M. Muxtarov və başqa milyonçular ortaya çıxdı. Azərbaycanın ağ nefti Türkiyə, Avropa, Şimali Afrika, Uzaq Şərq ölkələrinə satılırdı.

1897-ci ildə ağ neft məhsullarının ixrac edilməsini sürətləndirmək məqsədi ilə Bakı- Batum neft kəmərinin çəkilişinə başlandı. Kəmərin istifadəyə verilməsi Azərbaycanın neft ixracatında xeyli irəliləyişə səbəb oldu. Təkcə 1897-ci ildə neft istehsalı müəssisələrinin sayı 92-dən 107-yə qalxdı.

İxracın həcmi 1889-cü ildən 1898-ci ilədək olan müddətdə iki dəfədən çox artmışdı. Bakıdan Batuma əsasən kerosin və sürtgü yağları örtürülür, neft qalıqları isə Xəzər yolu ilə gəmilərlə daşınırdı. Neft məhsullarının mühüm bir qismi Novorossiysk yolu ilə Avropaya ixrac olunurdu.

Azərbaycanda neft sənayesinin inkişafı onunla bağlı bir çox sənaye sahələrinin meydana gəlməsinə şərait yaratdı. Bakıda maşınqayırma, buxar qazanları, metal kanat istehsalı müəssisələri yaranmağa başlandı. Təkcə Bakıda deyil, Yelizavetpol, Gədəbəy, Nuxa , Şuşa, Ordubad və başqa yerlərdə də kapitalizm inkişaf edir, yeni-yeni müəssisələr yaranırdı. Ordubadda, Nuxada və Şuşada ipək emalı sənayesinin inkişafı bütün Azərbaycanda ipəkçilik və toxuculuq sənayesinin inkişafına təkan oldu. Gədəbəydəki misəritmə zavodunun alman kapitalistləri Simens qardaşlarının investisiyasına keçməsi, onun yeni texnika ilə təchiz edilərək Rusiyada ən iri misəridən zavoda çevrilməsinə səbəb oldu. Artıq 1900-cu ildə Rusiya üzrə mis istehsalının 34,6 faizi, Qafqaz misinin 68,5 faizi Azərbaycanın payına düşürdü.

Azərbaycanda üzümçülük də inkişaf edir və öz növbə-



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

sində şərabçılığın və spirt çəkən müəssisələrin yaranmasına səbəb olurdu. Ölkənin bir çox təsərrüfatlarında tütünçülüyün inkişafı Bakı, Nuxa və Şamaxıda tütün fabriklərinin tikilməsi ilə müşayiət olunurdu.

Tütünçülüklə yanaşı Azərbaycanda zəfəran (şafran) istehsalına da xüsusi diqqət verilirdi. Təkcə 1870-ci ildə Bakı quberniyasında 2 min pud zəfəran istehsal olunmuşdu ki, bunun birinci növünün pudu 60-80 manata, ikinçi növü isə 14-18 manata satılırdı.

Azərbaycanda kapitalizmin inkişafı ayrı-ayrı şəhərlərdə toxuculuq, dabbaqlıq, dulusçuluq və s. kimi kustar sahələrin tənəzzülünə gətirib çıxartdı. Onların yerini manufaktura səviyyəsinə yüksələ bilmiş sənət sahələri tutmağa başladı. Lakin bilavasitə əl əməyi ilə bağlı olan xalçaçılıq inkişaf etməkdə idi. Quba, Şuşa, Cəbrayıl, Gəncə və Bakı xalçaları xarici bazarlarda ad qazanmışdı. Qubada xalça toxuyan qadınların sayı 30 minə yaxın idi. Təkcə Xaçmaz stansiyasında ildə 300 000 manatlıq xalça ixrac edilirdi. Şuşa, Cavanşir, Zəngəzur qəzalarında xalça toxumaqla 100 min nəfər məşğul olurdu. «Qarabağ» adlanan, öz solmaz rəngləri və gözəlliyi ilə dünyaya səs salan xalçaların ticarət mərkəzi Şuşa şəhəri idi.

Kapitalist sənayesinin inkişafı şəhərlərin sürətlə böyüməsinə, onların tikilməsinə, görkəminin dəyişməsinə səbəb olurdu. Azərbaycanın Bakı, Yelizavetpol, Şuşa, Şamaxı və s. şəhərlərində kapitalistlər, tacirlər, sənətkarlarla yanaşı fəhlə sinfinin nümayəndələri də yaşayırdı. 1903-cü ildə Bakının neft sənayesində 60-65 min fəhlə çalışırdı. Azərbaycanda isə fəhlələrin ümumi sayı 90-100 min nəfərə çatırdı.

Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş vermiş dəyişikliklər, Azərbaycanın ayrı-ayrı əraziləri



arasında iqtisadi birliyin yaranması, iqtisadi və mədəni mərkəzlərin yüksəlməsi kimi amillər, vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi həyatı olan Azərbaycan xalqının bir millət kimi formalaşmasına səbəb oldu. Kapitalist münasibətlərinin inkişafı Azərbaycan xalqı arasında milli birlik ideyasını möhkəmləndirdi. Milli burjuaziyanın təşəkkülü xalqın siyasi həyatında mühüm rol oynadı. XIX yüzilliyin sonlarında və XX yüzilliyin başlanğıcında Azərbaycan burjuaziyasımn Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov kimi liberal baxışlı nümayəndələri xalqda milli birlik ideyaları yaratmağa çalışır, onları elmə, biliyə, maarifə səsləyirdilər. Azərbaycan xalqı çar Rusiyası tərəfindən dini, milli, hüquqi, mədəni təzyiqlərlə yanaşı, iqtisadi cəhətdən də sıxışdırılırdı. «Ticarətin və sərvətin türklərin əlinə geçməməsi üçün ... şiddətli tədbirlər tətbiq etmişlərdi. Muğanda türklərin pambıq ticarəti üçün fabrika tə'sisi qadağan olunub, bu haqq yalnız rus və xristianlara verilmişdi. İslam və türk ünsürünün hər yerdə əksəriyyət təşkil etməməsi üçün qafqazlıların Türküstanda və onların da Qafqazda əmlak və ərazi alması qadağan edilmişdi. Neft ticarətində böyük mədənlər və şirkətlərdə də türklərin haqq işi təhdid olunmuşdu. Beləcə, türklər elm və ürfandan məhrum buraxılaraq, iqtisadi cəhətdən də məhkum edilmişlərdi».

XX yüzilliyin əvvəllərində Azərbaycanın başqa qəzalarında da sənaye inkişaf edir, yeni müəssisələr işə salınırdı. Gədəbəydəki mis-əritmə zavodu bu sənaye müəssisələri içərisində xüsusi yer tuturdu.

Azərbaycanın qəzalarında ipək emalı, pambıqtəmizləmə, gön-dəri istehsalı, sabunbişirmə və s. istehsal müəssisələri, tütünçülük, balıqçılıq və şərab istehsalı müəssisələri fəaliyyət göstərirdi. Azərbaycanın

qəzalarında fəaliyyət göstərən sənaye müəssisələrində 90 min nəfərdən çox fəhlə çalışırdı ki, onların da böyük hissəsi iri müəssisələrdə təmərküzləşmişdi. Bakı şəhərində olduğu kimi, Azərbaycanın qəzalarında da fəhlələrin maddi-iqtisadi vəziyyəti ağır və acınacaqlı idi.

Azərbaycanın kənd təsərrüfatı da inkişaf edirdi. Azərbaycan kəndliləri əsasən əkinçilik, bağçılıq və maldarlıqla məşğul olurdular. 1900-1903-cü illərdə taxıl istehsalı artaraq 50 milyon puda yüksəlmişdi. Kənd təsərrüfatında ipəkçilik də xüsusi yer tuturdu. Azərbaycan barama və ipəkçilik istehsalına görə bütün Zaqafqaziyada aparıcı mövqeyə malik idi.1887-ci ildə Tiflisdə «İpəkçilik istasyonu»nun inşa olunması Azərbaycanda kənd təsərrüfatının bu vacib və qiymətli sahəsinə marağın artmasına səbəb oldu. Azərbaycanda 1901- ci ildə 182 min pud barama istehsal edilmişdi ki, bu da əvvəlki illərlə müqayisədə xeyli çox idi.

Azərbaycanda pambıqçılıq Naxçıvan, Şuşa, Cavanşir, Ərəş, Yelizavetpol, Göyçay, Cavad qəzalarında geniş yayılmışdı. 1900-cü ildə 17,8 min desyatin pambıq əkini sahəsindən orta hesabla 984 min pud pambıq (316 min pud mahlıc) toplanmışdı. Azərbaycan Rusiya bazarlarının pambığa olan tələbatını ödəyə bilmək üçün pambıq istehsalını ildən-ilə artırırdı.

XX yüzilliyin əvvəllərində üzümçülük və bağçılıq da artan sürətlə inkişaf edirdi. Azərbaycanın Bakı, Göyçay, Şamaxı, Nuxa, Şuşa, Yelizavetpol, Qazax, Ərəş və digər qəzalarında bağçılıq və üzümçülük təsərrüfatları get-gedə artırdı. Kənd təsərrüfatında maldarlıq da xüsusi yerlərdən birini tuturdu. Azərbaycanda maldarlıq üçün təbii imkanların olması təsərrüfatın bu gərəkli sahəsinin inkişafını sür'ətləndirirdi. Azərbaycanda 1900-1903-cü illərdə I milyon baş iribuynuzlu mal-qara, 2 milyon baş



qoyun-keçi, 150-160 min baş at var idi.

Kənd təsərrüfatının inkişafı Azərbaycan kəndlilərinin ağır istismarı şəraitində davam edirdi. Kəndlilər bir tərəfdən bəy və mülkədarların, digər tərəfdən isə dövlət məmurlarının zülmü altında idilər. Onlar yenə də torpaq azlığından əziyyət çəkir, ağır mükəlləfiyyətlər daşıyır və vergilər ödəyirdilər. Torpaqlar əsasən dövlətin və bəylərin, mülkədarların mülkiyyətində idi. 1900-cü il mayın 1-də Zaqafqaziyanın dövlət kəndlilərinə töycü ödəmək şərtilə «Xəzinə torpaqlarından daimi istifadə etmək haqqında» qanun verildi. Bu qanunla dövlət kəndlilərinə mülkiyyət hüququ deyil, töycü müqabilində daimi istifadə hüququ verildi. 1903-cü il aprelin 21-də «Zaqafqaziyada dövlət kəndlilərinin torpaq quruluşu» haqqında Əsasnamə təsdiq olundu. Bu Əsasnamə dövlət kəndlilərinin torpaqdan istifadə hüquqlarını müəyyənləşdirdisə də, torpaq quruculuğu məsələsi, dövlət kəndlilərinin öz pay torpaqlarını satın alması məsələsi həll edilməmiş qaldı.

H.Baykara qeyd edirdi ki, çar Rusiyasının milli ucqarlarında, o cümlədən Qafqazda və Azərbaycanda torpaq və kəndlilərin hüquqları ilə bağlı qanun və əsasnamələr verilsə də, 1918-ci ilə, yəni Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına qədər mövcud olan torpaq rejimi kəndlilərin iqtisadi vəziyyətinə əsaslı tə'sir göstərməmişdi. Onun fikrincə XIX yüzilliyin sonları və XX yüzilliyin əvvəllərində torpaqlara aşağıdakı şəkildə sahiblik edilir və mülkiyyət aşağıdakı kimi bölünürdü:

Xanlara, bəylərə, ağalara və başqa torpaq mülkiyyətinə sahib olan şəxslərə (mülkədar) aid yerlər.

Əkinçilər (camaat) tərəfindən əkilib becərilən ümumi yerlər.

Məscidlərə və ruhanilərə verilən vəqf torpaqları.

Xəzinəyə aid dövlət torpaqları.

Azərbaycanın kənd təsərrüfatı XX yüzilliyin əvvəllərində daha sürətlə kapitalist istehsal münasibətlərini yaşayırdı. Hələ ötən əsrin sonlarında 300 mindən artıq muzdlu fəhləni əhatə edən kənd təsərrüfatında əmtəə-pul münasibətləri daha da güclənir, feodal istehsal qalıqları aradan çıxırdı. XX yüzilliyin əvvəllərində kənd təsərrüfatında muzdlu fəhlələrin sayı daha da artırdı. Kənd təsərrüfatı sahələrində əməyin muzdlu formasının tətbiqi artdıqca, kənddə təbəqələşmə sürətlənir, sinfi mübarizə güclənirdi. Azərbaycanın kəndlərinə kapitalist istehsal formalarının yol tapması yeni texnikanın gətirilməsi və quruculuq işlərinin artması ilə müşayiət olunurdu. Əsrin əvvəllərində Azərbaycan kəndlərində formalaşmaqda olan kapitalist istehsal münasibətləri kəndlilərin cəmiyyətin siyasi həyatında fəal iştirak etməsi üçün real imkanlar açırdı. Eyni taleyi yaşadıqları üçün kənd təsərrüfatı fəhlələri sənaye müəssisələri fəhlələri ilə əlaqə saxlayır, onların tələblərinə həmrəy olurdular.

Azərbaycanın sənayesində baş verən böhran illərində bir sıra şirkət və müəssisələrin iflasa uğrayaraq iri sahibkarların əlində cəmləşməsi nəticəsində işsizliyin sayı artırdı. Azərbaycanın Yelizavetpol, Nuxa, Gədəbəy və başqa qəzalarının sənaye müəssisələrində, xüsusilə dəmir yolunda işləyən fəhlələrin mühüm bir qismi işdən çıxarıldı. Azərbaycanın yaşadığı böhran dövründə işsizliyin yaranması ilə yanaşı, işləyən fəhlələrin iqtisadi vəziyyətinin son dərəcə ağırlaşması sinfi mübarizəni daha da kəskinləşdirdi və fəhlələrin işlədiyi müəssisələrdə siyasi təbliğatın artmasına imkan yaratdı. Çar Rusiyasında, o cümlədən müstəmləkə ucqarlarında fəhlə sinfinin vəziyyəti ağır idi. Müstəmləkə ucqarlarında fəhlələrin



hüquqsuzluğu, dilənçi vəziyyətində olmaları, maarif və mədəniyyətdən təcrid olmaları özünü daha bariz surətdə göstərirdi. Azərbaycanda azərbaycanlı fəhlələr milli əsarətə məruz qalırdılar. Onlar öz hüquqları uğrunda mübarizəyə qalxırdılar. XIX yüzilliyin son illərində Azərbaycanın sənaye müəssisələrində əmək haqqının artırılması, iş şəraitinin yaxşılaşdırılması və s. iqtisadi tələblərlə müşayiət olunan tətil hərəkatına başlanmışdı. 80-90-cı illərdə Bakı neft sənayesi və tütün fabrikləri fəhlələrinin, Gədəbəy misəritmə zavodunun fəhlələrinin iqtisadi tələbli tətilləri keçirilmişdi. 1904-cü ilin fevral-mart aylarında Yelizavetpolda dəmiryolçuların və başqa sahələrdə çalışan fəhlələrin tə'tili keçirildi. həmin ilin sentyabrında Yelizavetpol fəhlələrinin yeni tətili başlandı. Tovuz, Şamxor, Zəyəm stansiyalarının fəhlələri onlarla həmrəylik əlaməti olaraq tətilə qoşuldular. 1904-cü ilin noyabr-dekabr aylarında Simens qardaşları cəmiyyətinin müəssisələrində və mədənlərində 15 gün davam edən tə'til başlandı.

Azərbaycanda fəhlə çıxışları onların siyasi şüurlarını formalaşdırırdı. Fəhlələr başa düşürdülər ki, kortəbii çıxışlarla sosial əsarətə, milli müstəmləkə zülmünə son qoymaq, fəhlə sinfinin maddi və iş şəraitini yaxşılaşdırmaq mümkün olmayacaqdır, bunun üçün mütəşəkkillik lazımdır. Əsrin sonlarında Azərbaycanda ilk siyasi dərnəklər yaranmağa başladı. 1899-cu ildə Bakıda 6 sosial-demokratik təmayüllü dərnək var idi. Bakıda ilk sosial-demokratik dərnəklər Rusiya və Gürcüstanın siyasi birlikləri ilə əlaqə saxlayırdılar.

Azərbaycanda sosial-demokrat hərəkatının və marksizmin yayılmasında əsasən qeyri azərbaycanlılar, məsələn S. Avetisyan, A.S. Yenukidze, L. Krasin, A.Bekzadyan, B.Knunyants, İ.Stürua, V.Z.Ketsxoveli və

başqaları fəallıq göstərirdilər. 1901-ci ilin yazında Bakıda gizli fəaliyyət göstərən 15 marksist dərnəyi əsasında RSDFP-nin Bakı Komitəsi yaradıldı. Onun tərkibinə V.Z.Ketsxoveli, A.S.Yenukidze, L.Qalperin, A.Eyzenbet və L.Faynberq daxil oldular. 1902-1903-cü illərdə BK-nın tərkibinə əlavə olaraq A.D.Axundov, N.V.Vişnevski, L.M.Knunyants, AB.Qolikova, M.M.Məmmədyarov və başqaları daxil oldular.

1902-ci ildə Bakıda M.Ə.Rəsulzadənin rəhbərliyi ilə «Müsəlman gənclik təşkilatı» yaradılmışdı. Sovet tarixşünaslığında bu siyasi təşkilat haqqında heç bir məlumat verilməmişdi. O, Azərbaycanda XX yüzillikdə rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk milli siyasi təşkilat idi. M.Ə.Rəsulzadə qeyd edir ki, əsasən türk-azərbaycanlı tələbələrdən ibarət olan bu təşkilat bir tərəfdən maarifçilik ideyaları yayır, digər tərəfdən ana dilinin öyrənilməsi, milli duyğuların təbliği, fəhlələr arasında siyasi bəyannamələr, milli azadlıq ideyaları yaymaq və s. bu kimi işləri görürdü. Bu təşkilat Bakıda fəaliyyət göstərən digər siyasi qurumlar içərisində xüsusi nüfuza malik idi».

Həmin təşkilat bir qədər sonra «Müsəlman demokratik «Müsavat» cəmiyyəti» adlı ilə fəaliyyət göstərmişdi. Təşkilatın Bakı ilə yanaşı İranda da mərkəzi yaradılmış və həmin mərkəz məşrutə hərəkatı ərəfəsində fəal siyasi iş aparmışdı. «Müsəlman demokratik «Müsavat» cəmiyyəti» çar hakim dairələrinin diqqətini cəlb etmişdir. Arxiv sənədlərində cəmiyyətin fəaliyyəti haqqında məlumat olmasa da, onun üzvlərinin təqib olunduğu göstərilmişdi.

«Müsəlman demokratik «Müsavat» cəmiyyəti»nin ömrü uzun olmasa da, bu təşkilat Azərbaycanda digər siyasi təşkilatların yaranmasında mühüm rol oynamışdır.



1904-cü ilin axırlarında RSDFP-nin Bakı komitəsinin nəzdində «Hümmət» təşkilatı məhz «Müsəlman demokratik «Müsavat» cəmiyyəti»nin əsasında yaradılmışdı. 1904-cü ilin əvvəlində başlanan rus-yapon müharibəsi bütün Rusiyada olduğu kimi, Azərbaycanda da iqtisadi və siyasi vəziyyəti gərginləşdirdi. Müharibə onsuz da iqtisadi böhran içərisində olan xalqı yeni məhrumiyyətlərə düçar etdi. Bakıda tətil hərəkatı böyüyürdü. 1904-cü ilin dekabr ayının 13-də «Xəzər-Qara dəniz cəmiyyəti» zavodu fəhlələri tətilə başladılar. Çox keçmədən Bakının digər sənaye müəssisələri də bu tətilə qoşuldu. Sahibkarlarla fəhlələr arasında kollektiv müqavilənin imzalanması ilə nəticələnən bu hadisə Azərbaycan tarixinə «Mazut konstitusiyası» adı ilə daxil olmuşdur. 1905-ci ilin yanvar ayının 3-də Peterburqun Putilov zavodunun fəhlələrinin keçirdiyi və tezliklə bütün Rusiyanı bürüyən tətillə birinci rus inqilabı başlandı. Bu tarixi hadisə Azərbaycan milli hərəkatının inkişafında yeni mərhələnin əsasını qoydu.

### *1.2. Maarifçilik hərəkatı və milli-mədəni inkişaf*

XIX yüzilliyin son rübündə Azərbaycanın iqtisadi və sosial siyasi irəliləyişi mədəniyyət sahəsində də özünü göstərirdi. Bakı, Şamaxı, Yelizavetpol, Nuxa, Şuşa və Naxçıvan şəhərləri mədəni cəhətdən inkişaf edirdi. Əsası A. Bakıxanov, M. Vazeh, Q. Zakir, İ. Qutqaşınlı, M. F. Axundov tərəfindən qoyulan maarifçilik hərəkatı XIX yüzilliyin sonlarında ictimai fikrin bütün qatlarına nüfuz edir, xalqın milli şüurunu formalaşdırırdı. M. F. Axundovun maarif və mədəniyyət sahəsindəki görüşləri cəmiyyətin mənəvi həyatını yeniləşdirmək, bu sahədə köklü islahatlar aparmaq istəyənlər üçün örnək rolunu oynayırdı. (Bəzi tədqiqatçılar haqlı olaraq onu «Şərq reformatoru» adlandırırdılar) Mirzə Fətəlinin doğma ana dilində yazmış olduğu və geniş xalq kütlələrinə nüfuz edən səhnə əsərləri Azərbaycan ədəbi dilini formalaşdırırdı. «Milli mədəniyyətin yüksəlməsi və millətin daha tez irəliləməsi üçün ərəb hərflərini tənqid edərək, yeni əlifba tərtib edir və bunu qəbul etdirmək üçün İstanbul və Tehrana qədər gedirdi».

Mirzə Fətəlinin əsərlərində dövlət mövzusu bir filosof və ideoloq səviyyəsində araşdırılmışdır. «Aldanmış kəvakib» əsərində o zülmə, haqsızlığa, despotizmə olan nifrətini əks etdirmiş, bütün bunların barışıq və islahat yolu ilə aradan qaldırılması ideyasına tapınmışdı. «Kəmalüddövlə məktubları» adlı fəlsəfi traktatında İran və Hindistan hökmdarlarına xitab edərək, Şərq istibdadını, dolayısı ilə yaşadığı, vətəndaşı olduğu Rusiya siyasi rejimini qamçılamışdı. H. Baykaranın qeyd etdiyi kimi, Mirzə Fətəli «Kəmalüddövlə məktubları»nda bir daşla iki quş vurmuşdur.



XIX yüzilin sonlarında Azərbaycanda maarif inkişaf edir, yeni-yeni tədris ocaqları-məktəblər və mədrəsələr açılırdı. Mədrəsələr xüsusi ruhani məktəbi hesab olunurdu. 16 yaşından böyüklərin qəbul edildiyi mədrəsələr yalnız məscidlərin nəzdində fəaliyyət göstərirdi. Mədrəsələrdə dini elmlərlə yanaşı ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya və b. dünyəvi elmlər tədris olunurdu. Çar hökuməti xalqın milli oyanışının qarşısını almaq üçün mövcud təhsil sistemi daxilində müxtəlif üsul və vasitələrə əl atırdı. Bunlardan ən eybəcəri məzhəb ixtilaflarını dərinləşdirmək, müsəlmanlar arasında ədavət, ayrı-seçkilik toxumları səpmək idi. M.Ə.Rəsulzadə yazırdı: «Məzhəb ixtilafı xüsusi surətdə körükləniyor: «idareyi-ruhaniyə» namı ilə vücuda gətirilən dini təşkilat şiələr üçün «şeyxülislam», sünnilər üçün «müfti» ünvanlarını haiz rəislərinin idarəsi altında rəsmi hökumət müəssisələrinə rabt olunuyor: «Əli» və «Ömər» məktəbləri namında hər məzhəb əhlinə məxsus məktəblər vücuda gətiriliyordu».

Azərbaycan maarifçiləri bu zərərli təmayülün qarşısını almaq üçün əllərindən gələni əsirgəmirdilər. Bakı quberniya jandarm idarəsinin 1888-ci il tarixli 130 №-li məlumatında qeyd olunur ki, Quba şəhərində sünnilərlə şiələri birləşdirən cəmiyyət yaradılmışdır. Bundan qorxuya düşən Jandarm İdarəsi rəhbərliyi Qafqaz hakimiyyət orqanlarından təcili tədbirlər görülməsini tələb edirdi.

1876-cı ildə Qori şəhərində açılmış seminariya tezliklə bütün Zaqafqaziyada milli kadrların hazırlanmasında əsas tədris ocaqlarından birinə çevrildi. M. F. Axundovun təşəbbüsü ilə onun vəfatından sonra 1879-cu ildə seminariyada türk şöbəsinin açılması Azərbaycanda müəllim kadrlarının hazırlanmasına əhəmiyyətli təsir göstərdi. Türk şöbəsinə rəhbərlik edən A. O. Çernyayevski

Azərbaycanda istedadlı uşaqların təhsilə cəlb edilməsində əlindən gələni əsirgəmirdi. C. Məmmədquluzadə, N.Nərimanov, R.Əfəndiyev, M.Ş. Mirzəyev, H. Mahmudbəyov, F. Köçərli kimi maarifçi ziyalılar bu seminariyanı bitirmişdilər. Çar hökumətinin şovinizm siyasəti Qori müəllimlər seminariyasında tədris prosesində güclü şəkildə hiss olunurdu. Müəyyən dövrdə seminariyanın baş mürəbbisi və müəllimi işləmiş, milliyyətcə rus olan Smirnov «. azərbaycanlı müdavimlərə nəinki öz dillərində danışmağa, hətta bu dildə düşünməyi də qadağan etmişdi».

Sərt qadağalara baxmayaraq seminariyanın müəllim və tələbələri arasında azadfikirliliyə meyl güclü idi, bu da tələbələrin dünyagörüşünün formalaşmasının aparıcı amili kimi çıxış edirdi. Azərbaycanlı gənclər Qori seminariyası ilə yanaşı, Tiflisdəki Aleksandrovski müəllimlər institutunda da oxuyurdular. Bu dövrdə ruhanilər və dini idarələr polis-xəfiyyə idarələrinin nəzarəti altında fəaliyyət göstərirdi. Ruhani kimi fəaliyyət göstərmək üçün rus dilini bilmək tələb edilirdi. Hətta məscidlərin tikintisi məsələsi də gözdən qaçmırdı. Bakının Nikolayev küçəsində («Qapan yerində») iki mərtəbəli uca minarələri olan Cümə məscidinin inşası yasaq edilmişdi. «. Çünki yerli ortadoks keşişləri Rusiya sinoduna bildirmişdi ki, imperatorun adını daşıyan küçədə belə bir məscidin ucaldılması yaxınlıqda olan Aleksandr Nevski kilsəsini kölgələyəcək və onlarda milli hisslərin oyanışına yardım edəcəkdir. Həmin ortadoks kilsəsi Bakıdakı Şirvanşahlar sarayını uçurub yerində kilsə tikdirmək istəyirdi. Bundan əlavə, Şirvanşahlar sarayı, həmçinin Şəkidəki xan sarayı çar məmurları tərəfindən anbara çevrilmişdi».

Belə çətin bir şəraitdə Azərbaycan ziyalıları anadilli məktəb uğrunda mübarizə aparırdılar. M. Şahtaxtlı



«Qafqaz» qəzetində dərc etdirdiyi silsilə məqalələrində qeyd edirdi ki, «İbtidai məktəblərdə təhsil yalnız o zaman səmərəli ola bilər ki, dərslər ana dilində keçirilsin. M.Şahtaxtlı anadilli məktəblərin təşkili üçün ana dilində dərsliklər yazılmasını, rusca dünyəvi biliklər verən dərsliklərin azərbaycancaya tərcüməsini vacib hesab edir və müəllim kadrlarının hazırlanmasına böyük əhəmiyyət verirdi.

1874-cü ildə S. Ə. Şirvaninin (1835-1888) Şamaxıda açdığı yeni üsullu məktəb maarif sistemində yeni ənənənin başlanğıcını qoydu. Bu, Azərbaycanda ilk anadilli məktəb hesab olunur. Burada dərslər Azərbaycan dilində aparılır, ərəb, fars, rus dilləri, hətta tarix, coğrafiya, hesab və digər fənlər haqqında ibtidai biliklər verilirdi. Öz strukturuna, təhsilin metod və məzmununa, tədris planı və proqramlarına görə yeni üsullu məktəb mürtəce görüşlü ruhanilərin təzyiqinə məruz qalırdı.

S.Ə.Şirvani şərq və rus klassiklərindən tərcümə etdiyi parçalardan və şerlərdən ibarət «Məcmuəyi-asari Hacı Seyid Əzim Şirvani» adlı dərs kitabı da tərtib etmişdi. Azərbaycanda yeni üsullu məktəblər içərisində M. T. Sidqinin (1854-1904) 1892-ci ildə Ordubadda açdığı «Əxtər» məktəbi xüsusi yer tuturdu. Bu məktəb də köhnə tədris ocaqlarından dərslərin ana dilində keçirilməsi, yeni təhsil və tərbiyə metodlarının tətbiq edilməsi ilə seçilirdi. Burada ana dili, ərəb və fars dilləri, hesab, coğrafiya, tarix, bədən tərbiyəsi kimi fənlər tədris olunurdu. «Əxtər» məktəbi müvəffəqiyyət qazandığına görə Naxçıvan camaatının xahişi ilə M. T. Sidqi 1894-cü ildə Naxçıvanda «Tərbiyə» adlı analoji məktəb yaratdı. Çox keçmədən bu məktəb milli mədəniyyət ocağına çevrildi və şəhərin bütün demoköatik ziyalılarını birləşdirdi. M.T.Sidqinin tərtib etdiyi «Nümuneyi–əxlaq», «Müxtəsər coğrafiya

risaləsi», «Qiraəti-fənniyyə», «Hifz-səhhət», «Tənviri-əfkar və təhfimi- insaniyyət», «Pedaqogika» və başqa dərsliklər Azərbaycanda anadilli dərsliklərin yaranmasında mühüm addım oldu. 1896-cı ildə «Tərbiyə» rus-tatar məktəbinə çevrilərək dövlətin ixtiyarına keçdi. Çar hökumətinin müstəmləkəçilik siyasəti nəticəsində tədris planından Azərbaycan dili dərsləri azaldılaraq, İrəvan quberniyasının məktəblər direksiyasına tabe edildi. Lakin bu məktəb Azərbaycan milli təhsil sisteminin formalaşmasında örnək rolu oynamış, maarifçilik hərəkatının inkişafına müsbət təsir göstərmişdir. S. Ə. Şirvani və M. T. Sidqinin ənənələrini davam etdirən Mir Möhsün Nəvvab (1833-1918) 90-cı illərdə Şuşada ana dilində yeni üsullu məktəb açdı. Burada ana dili və ədəbiyyatı, fars dili və başqa fənlər keçilir, dünyəvi elmlər haqqında məlumat verilirdi. M. M. Nəvvab da öz məktəbi üçün dərsliklər və dərs vəsaiti hazırlamışdır. Bunların içərisində «Kəşkül-həqiqi» (üç dildə), «Kifayətül-ətval», «Vüzuhul-ərqam» və «Nəsihətnamə» xüsusi ilə seçilirdi.

Əslən Cənubi Azərbaycanın Təbriz şəhərindən olan Mirzə Həsən Rüşdiyyənin (1859-1953) 1883-cü ildə İrəvanda açdığı yeni üsul məktəbi də böyük nüfuza malik idi. O, 1902-ci ildə « Vətən dili» adlı dərslik yazaraq , həmin dərsliyi 1905-ci ildə Təbrizdə nəşr etdirmiş, müəllimlər üçün metodik vəsait hazırlamışdı. XIX yüzilliyin 80-ci illərindən başlayaraq, Azərbaycanın tərəqqipərvər ziyalılarının köməyi ilə Bakı, Şuşa, Naxçıvan, Nuxa, Şamaxı və başqa şəhərlərdə, həmçinin Tiflis və İrəvanda dərslərin ana dilində keçildiyi yeni üsullu məktəblər fəaliyyət göstərirdi. Azərbaycanda yeni üsullu məktəblərlə yanaşı, rus-tatar məktəbləri də yaranırdı. Bu məktəblərdə dərslər dövlət dili olan rus dili və ana dili olan tatar (Azərbaycan) dilində keçilirdi. 1875-ci ildə Qazax qəzasının Salahlı kəndində T. Mamleyev tərəfindən ilk rus-tatar məktəbi yaradılmışdı. Bu məktəbin ardınca S. M. Qənizadə (1866-1937) və H.Mahmudbəyov (1864-1928) Bakıda rus-tatar məktəbinin əsasını qoydular. S.M.Qənizadə və H.Mahmudbəyovun Bakıda yaratdıqları məktəbin tədris planına Azərbaycan, rus, fars dilləri, hesab, coğrafiya, tarix və şəriət dərsləri daxil idi. S. M. Qənizadə və H. Mahmudbəyovun açdıqları bu məktəbin nüfuzu artdığından 1891-ci ildə Bakının müsəlman əhalisi 150 nəfərin imzası ilə şəhər bələdiyyə idarəsinə bu tipli məktəblərin sayını artırmaq xahişi ilə müraciət etdi və Duma Bakıda bir neçə rus-tatar məktəbini açmağa məcbur oldu.

H. Mahmudbəyov birinci rus-tatar məktəbinə, S. M. Qənizadə isə ikinci rus-tatar məktəbinə müdir təyin olundular. Rus-tatar məktəbləri Azərbaycan xalqının maariflənməsində mühüm rol oynadı. Azərbaycanın siyasi xadimi M.Ə.Rəsulzadə S. M. Qənizadənin müdirlik etdiyi ikinci rus-tatar məktəbini bitirmişdir. Məşhur səhnə ustaları H. Ərəblinsiki, M. Əliyev, M. M. Kazımovksi, «Dəbistan» jurnalının redaktoru Ə. M. Cəfərov, «Bəhlul» jurnalının redaktoru Ə. Ə. Əliyev rus-tatar məktəblərinin yetirmələridir. Artıq 90-cı illərdə Bakı şəhərindən başqa Yelizavetpol, Şamaxı, Nuxa, Naxçıvan, Qazax, Şuşa və digər şəhərlərdə rus-tatar məktəbləri fəaliyyət göstərirdi. Ayrı-ayrı tədris ocaqlarında F. Köçərli, R. Əfəndiyev, C. Məmmədquluzadə, N. Nərimanov, M. Ə. İsmayılzadə, H. S. Eyvazov, M. H. Şeyxzadə və başqa savadlı, zəngin dünyagörüşə malik müəllimlərin dərs deməsi xalqın elmə marağını artırırdı. Azərbaycan qadınlarının təhsili və savadlanması da ciddi məsələlərdən idi. 1901-ci ildə H. Z. Tağıyevin vəsaiti ilə Bakıda ilk rus-müsəlman qadın mək-

təbi açıldı. 1902-ci ildə isə Yelizavetpolda ilk qadın məktəbinin əsası qoyuldu. Bu məktəblərin ardınca Ağdaşda, Qazaxda, Şamaxıda, Göyçayda, Qaryagində və başqa şəhərlərdə qadın məktəbləri fəaliyyətə başladı. Azərbaycanın qadın məktəblərində Xədicə xanım Ağaoğlua, Rəhilə xanım Hacıbəyova, Hənifə xanım Məlikova, Sara xanım Vəzirova, Şəfiqə xanım Əfəndiyeva, Ayna xanım Sultanova kimi ziyalı qadınlar dərs deyirdilər. Azərbaycan ziyalılarının qarşısında duran ən mühüm vəzifələrdən biri dərslik, dərs vəsaiti, tədris-metodik göstərişlərin yazılması, tərtibi və nəşri məsələsi idi. Bu sahədə R. Əfəndiyev, F. Köçərli, S. S. Axundov, F. Ağazadə, A. Şaiq, H. Mahmudbəyov, M. M. Axundov, A. Səhhət, A. Əfəndiyev, N. Nərimanov, Q. Nərimanbəyov, M. Qəmərlinski, Y. Hacıbəyov, Q. Mirzəzadə ciddi və ardıcıl fəaliyyət göstərirdilər. Azərbaycanda yaşlı adamların təhsili də diqqət mərkəzində idi. Tədrisin yalnız bazar günü keçirildiyi məktəblər bu vəzifəni yerinə yetirirdi.

Çar hakim dairələri məktəblərin fəaliyyətini daim nəzarət altında saxlayır, milli düşünən müəllimləri təqib edir, yeni üsulla tədrisin yayılmasına hər vasitə ilə mane olmağa çalışırdılar.

XIX yüzilliyin son rübündə kapitalizmin sürətlə inkişaf etməsi, şəhərlərin canlanması, demokratik ziyalıların artması kitab nəşri işini də sürətləndirirdi. Çar hökumətinin müstəmləkəçilik siyasəti kitab nəşrində də özünü büruzə verirdi. Senzuranın ciddi müqaviməti kitab mədəniyyətini dövrün tələbləri səviyyəsinə yüksəltməyə mane olurdu. Bakı, Tiflis, Şuşa və Şamaxı şəhərlərində ana dilində kitab nəşr edən şəxsi mətbəələrin açılması bu sahədə xeyli dönüş yaratmış oldu.

Şəxsi mətbəələr içərisində Səid, Cəlal və Kamal



Ynsizadə qardaşlarının Tiflis və Şamaxıda, M. M. Nəvvabın Şuşadakı mətbəələri xüsusilə seçilirdi. Şəxsi mətbəələrlə yanaşı Bakı, Yelizavetpol, Şamaxı və başqa şəhərlərdə mətbəələr, yeni litoqrafiyalar yaranmağa başladı. Bakıda 1889-cü ildə 5 mətbəə, 1900-cu ildə isə 16 mətbəə fəaliyyət göstərirdi. Azərbaycan müəlliflərinin əsərləri Peterburq, İrəvan, Daşkənd, Tiflis, Kəlküttə, İstanbul, Qahirə, Paris kimi Qərbin və Şərqin tanınmış şəhərlərində nəşr olunurdu. Maarifçi alim H. Zərdabi (1842-1907) 1875-ci il iyul ayının 22-də «Əkinçi» qəzetinin ilk sayını nəşr etməyə nail oldu. M.Ə.Rəsulzadə 1923-cü ildə Ankarada nəşr etdirdiyi «Azərbaycan Cümhuriyyəti» əsərində bu tarixi hadisəni belə dəyərləndirirdi: «Mətbuatın təsisi ilə Qafqazda siyasi ictimai və milli bir fikir təşəkkül ediyordu, əfkari- ümumiyyə vücud buluyordu. Həyati-milliyə üçün pək mühüm olan bir taqım məsələlər müzakirə olunuyordu. Qəzetlərin bu günkü milliyyətlər təşəkkülündə oynadıqları rol məlumdur. Bu rolunu onlar Rusiya türklüyü üçün dəxi ifalə ediyorlardı. Onlar xalqda həm milli duyğuları oyandırıyor, həm də məqasidi-milliyyətdən olan məsələləri tənvir ediyorlardı».

Böyük siyasi xadim «Əkinçi»nin əlli illiyi münasibətilə yazdığı «Azəri mətbuatının şanlı xatirəsi» adlı məqaləsində isə qeyd edirdi ki, «Milli şüur bir milliyyət içərisindən çıxan rəhbər zümrənin digər zümrə və fərdlərlə daimi və üzvi bir münasibət və ixtilat təmin etməsilə doğar. Qəzetlərin bu xüsusdakı rolu aşkardır».

Qəzetin nəşri təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada əks-səda ilə qarşılandı. «Əkinçi» qəzetinin bütün redaksiya işləri H. Zərdabi tərəfindən təkbaşına görülürdü. 1875-1877-ci illər arasında «Əkinçi»nin 56 nömrəsi nəşr olunmuşdur. Qəzetin ətrafına M. F. Axun-

dov, H.Vəzirov, Ə.Gorani, Əhsənül-Qəvaid, K.Mehmandarov, Ə.Heydəri, S.Ə.Şirvani kimi ziyalı və yazıçılar toplanmışdılar. «Əkinçi»də elm, bilik, maarif, mədəniyyət təbliğ olunurdu. Qəzet yazırdı: «Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoş güzaranlıq onların əlinə keçəcəkdir və biz mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacağıq».

Başqa bir yazıda isə qeyd olunur; «Elm təhsil edin ki, müftəxorların sizin tər töküb qazandığınız mülk və malınıza şərakətliyi olmasın».

H. B. Zərdabinin elmə, təhsilə bu qədər əhəmiyyət verməsi millətin gələcək tərəqqisinin yalnız bu yolla mümkün olması qənaəti ilə bağlı idi. Onun qənaətinə görə diriliyin və dirçəlişin əsasında milli tərəqqi dayanırdı; «Gələcəkdə bizim tərəqqi etmək tarixini yazan indiki zəmanəyə baxanda məəttəl qalacaqdır ki, nə yazsın. Həqiqət bizim əsbablar və qeyri yüz, bəlkə min il bundan əqdəm olandan tərəqqi etməyib. Çünki bizim zəmanə tərəqqi zəmanəsidir ki və tərəqqi etməyən tayfa günü-gündən tənəzzül edib axırda puç olacaq».

Maarifçi və demokratik ideyaları təbliğ edən «Əkinçi» fanatizm və mövhumat əleyhinə etiraz səsini ucaldır, elm və təhsilə qarşı çıxan şəriət xadimlərini kəskin tənqid edirdi. Qəzet yazırdı; «Ey elm təhsil edən cavanlarımız. Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir. Doğrudur, qeyri millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, 5 gün ömrün ləzətindən ötrü milləti, qardaşlarınızı atıb, onları kor və sərgərdan qoyasınız. Pəs ləzzəti-dünyaya tamah etməyib öz qardaşlarınızı əməli xeyrə vadar edib qoy şüəralar sizi



həcv etsin, mollalar lənət oxusun, əvamünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bişək gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq».

H. Zərdabi milli mətbuata ana dilinə yiyələnməyin vasitəsi kimi baxır və yazırdı ki, «qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir».

«Əkinçi»nin dili sadə, aydın və təmiz idi. Ədib qəzetin səhifələrində dərc olunan yazılarda bu məsələyə böyük əhəmiyyət verirdi; «Dünyada xəlq olunan millətlər öz lisanlarına ana lisanı deyib ol lisan ilə insanlıq edirlər. Bunun üçün bir lisan bir millətin olanda və lisanın dəxi əsası millət olduğundan hər bir kişiyə vacibdir ki, daim onun irəli getməsinə canın fəda etsin və millətin xidmətində bulunmayan kişiyə bir kəs yaxşı deməyəcəkdir».

«Əkinçi» qəzeti millətin oyanışında məktəblərin rolunu yüksək qiymətləndirir, ardıcıl olaraq bu mövzuda məqalələr dərc edirdi. N. Vəzirovun yazılarının birində köhnə və yeni məktəblərin təlim, tərbiyə və tədris üsulları müqayisə olunurdu. Köhnə məktəblərin yarıtmaz tədris üsulundan hiddət və ürək ağrısı ilə bəhs edən görkəmli yazıçı yazırdı; «Bizim müəllim uşaq üçün cəlladdır. O, uşağı döyməyə papiros çəkməyə adət edən kimi adət edib deyir; «Uşaq döyülməsə oxumaz». Ata və ana uşağı ona tapşıranda deyir; «Əti sənin, sümüyü mənim, döy ki, adam olsun».

«Əkinçi» qəzeti milləti oyandırmaq üçün yazıçıların üzərinə böyük vəzifələr düşdüyünü qeyd edirdi. «Əkinçi»nin redaktoru xalqın həyatından yazmağa, onun dərdlərini, qayğılarını əks etdirməyə çağırırdı. O «güldən, bülbüldən» yazan qələm sahiblərini kəskin tənqid edir, yeni, realist ədəbiyyat uğrunda mübarizəyə səsləyirdi.

«Əkinçi» qəzeti öz səhifələrində dünyanın və ölkənin siyasi hadisələrinə də yer ayırırdı. H. Zərdabi oxucuların «təzə xəbər istəyi» ilə bağlı qeydlərində göstərirdi ki, «bəzi səbəblərə görə o qədər də yazmağa vahimə edirik. Belə də müştərilərimizdən iltimas olunur bizdən rəncidəxatir olmasınlar ki, onların könlü istədiyicən təzə xəbər yazmaq olmur».

Çar Rusiyasında ictimai-siyasi fəaliyyətin qadağan olunduğu dövrdə bu qəzet xalqımızın ictimai-siyasi, ədəbi-bədii, fəlsəfi-estetik ruporuna, milli hərəkatın daşıyıcısına çevirilmişdi. 1877-ci ilin sentyabrında «Əkinçi» qəzetinin nəşrinin dayandırılmasının əsas səbəbi rus-türk müharibəsi dövründə qəzetin Türkiyəyə açıq rəğbətini gizlətməməsi idi. Qəzetin nəşrinin savaşın ortasında dayandırılması da məhz bu amillə bağlı idi.

Azərbaycan ziyalıları ana dilli mətbuat uğrunda mübarizələrini dayandırmadılar. 1879-cu ilin yanvarında Səid Əfəndi Ynsizadənin redaktorluğu ilə Tiflis şəhərində «Ziya» adlı həftəlik qəzet çıxarılmağa başladı. «Ziya» ictimai-siyasi, ədəbi-bədii, elmi-fəlsəfi, dini mündəricəli yazılar dərc edirdi. «Ziya» qəzeti «Əkinçi» ənənələrini davam etdirir, yeri gəldikcə milli–mədəni problemlərmizlə bağlı materiallar dərc edirdi. Qəzetin ən mühüm cəhəti ölkənin daxilində və dünyada baş verən ictimai-siyasi hadisələrə öz səhifələrində yer ayırması idi. 1882-ci ildə «Ziyayi-Qafqaziyyə» qəzeti nəşrə başladı. Əvvəlcə Tiflisdə, sonra isə Şamaxıda nəşr olunan qəzetin fəaliyyəti 1884-cü il iyulun 2-nə qədər davam etdi. Cəmi 104 nömrəsi dərc olunmuş «Ziyayi-Qafqaziyyə»nin səhifələrində N. Vəzirov, S. Ə. Şirvani, A. Çernyayevski milli-mədəni problemlərimizlə bağlı yazılar dərc etdirirdilər.

1883-cü ildə Tiflisdə Cəlal Ynsizadənin redaktorluğu ilə ana dilində «Kəşkül» adlı ilk jurnalın nəşrinə başlandı.



İctimai-siyasi mündəricəli bu jurnalın 1884-cü ilin mart ayınadək cəmi 11 nömrəsi nəşr olunmuşdu. Həmin müddətdən qəzetə çevrilən «Kəşkül» müəyyən fasilələrlə 1891-ci ilədək nəşr edildi. «Əkinçi»nin ideya istiqamətini davam etdirən «Kəşkül» qəzeti ətrafında H. Zərdabi, S. Ə. Şirvani, F. Köçərli, M. Şahtaxtlı, S. M. Qənizadə, A. Çernyayevski və başqa mütərəqqi ziyalılar fəaliyyət göstərirdilər. Qəzetdə dövrün aktual ictimai-iqtisadi problemlərinə toxunulur, maarifçilik ideyaları yayılır, milli birlik ideyası təbliğ olunurdu. Dərc olunan məqalələrdə fanatizm, cəhalət və gerilik tənqid olunurdu. Qəzetin eyni zamanda Şərq və Qərb ədəbiyyatı klassiklərinin yaradıcılığına öz səhifələrində yer ayırması da əhəmiyyətli idi.

«Kəşkül» qəzeti Azərbaycan türkləri arasında milli şüurun oyanışında, milliyyət hissinin canlanmasında əhəmiyyətli rol oynadı. Qəzetin səhifələrində M.Sultanovun dərc etdirdiyi xəyali dialoq qafqaz müsəlmanlarının millət və din məsələsində görüşlərini əks etdirməklə yanaşı, qəzetin bu istiqamətdəki fəaliyyətini də açıqlamış olur:

Sual: – Millətin nədir?

Cavab: – Müsəlmanam, həm də türkəm.

Sual: – Osmanlısanmı?

Cavab: – Xeyr, bicanlıyam.

Sual: – Azərbaycanlıların ölkəsi haradır?

Cavab: – Bildiyim qədəriylə Arazın o tərəfində azərilər yaşayır, bu tərəfində bicanlılar, ikisi də birlikdə Azərbaycan olur. Biz ayrı-ayrı bicanlıyıq.

Sual: – Türkcə danışırsan, öylə isə türkmüsən?

Cavab: – Mənim halımı açıqlayan bir kəlmə yoxdur. Türkəm, fəqət bicanlı.

Sual: – Özünə bicanlı türk deyincə, niyə azərbaycanlı türk deyərək bu məsələni həll etmirsən?

«Kəşkül» qəzeti ana dili və əlifba məsələsinə xüsusi

diqqət yetirirdi. Qəzet bu məsələdə M. F. Axundovun mövqeyini müdafiə və təbliğ edirdi. Qəzet yazırdı ki, «. millətini əbədi saxlamaq istəyənlər öz ana dilini saxlamağa çalışmalıdırlar və o dildə ülul və fünunu övladi-millətə verməlidirlər».

1891-ci ildə «Kəşkül» qəzetinin nəşrinin dayandırılmasından sonra milli mətbuatdan məhrum edilmiş fikir sahibləri öz əsərlərini Bakıda rus dilində dərc edilən «Kaspi», «Bakinskie izvestiya», «Baku» və başqa mətbuat orqanlarında çıxarmaq məcburiyyətində qaldılar. Bu illərdə Azərbaycan ziyalıları Tiflisdə, Baxçasarayda, İstanbulda, Tehranda, Kəlküttədə, Qahirədə, Peterburqda, Moskvada dərc olunan qəzet və jurnallarda da öz yazılarını dərc etdirirdilər. Bunların içərisində «Kafqaz», «Tiflisski listok», «Novoe obozrenie» (Tiflis), «Moskovskie vedomosti» (Moskva), «Peterburqskie vedomosti» (Peterburq), «Tərcüman» (Baxçasaray), «Həblülmətin» (Kəlküttə), «Sürəyya» (Qahirə) və s. xüsusi yer tuturdu.

1891-ci ildən 1903-cü ilədək Azərbaycanda ana dilində mətbuat olmamışdır. Lakin Azərbaycan ziyalıları ana dilli mətbuat uğrunda daim mübarizə aparmışlar. M. Şahtaxtlı, S. Mehmandarov, S. M. Qənizadə, H. Mahmudbəyov, N. Nərimanov, Ə. Ağaoğlu və başqaları dəfələrlə bu məqsədlə hökumətə müraciət etmişlər. Çar hakim dairələri ana dilli mətbuatla bağlı verilən ərizələri müxtəlif bəhanələrlə rədd etmişdir. H. Mahmudbəyov və S. M. Qəniyevin Bakıda «Novbar» adlı jurnal, «Çıraq» və «Maarifat», Ə. Ağaoğluin «Məşriq» adlı qəzet çıxarmaq haqqındakı ərizələrinə cavab olaraq, daxili işlər nazirliyinin 6 iyun 1896-cı il, 19 fevral 1897-ci il, 28 may 1897-ci il tarixli göstərişlərində deyilirdi ki, rus olmayanları ruslardan uzaqlaşdırdığına görə, rus olmayan xalqın dilində qəzet və yaxud jurnal nəşri haqqında xahişin yerinə



yetirilməsini daxili işlər nazirliyi münasib hesab etmir.

Azərbaycanda kitabxanalar və qiraətxanalar yaranmağa başlayırdı. 1894-cü ildə N. Nərimanovun Bakıda açdığı milli qiraətxana əhalinin maariflənməsində mühüm rol oynayırdı. Bu, Rusiyada müsəlmanlar üçün təşkil edilmiş ilk mədəniyyət ocağı idi. Mətbuata həvəs oyatmaq, qəzet, jurnal və kitab oxumaq vərdişi təlqin etmək baxımından bu təşəbbüsün qiyməti əvəssiz idi. Qiraətxana Rusiya və xaricdən təkcə 27 adda qəzet alırdı. «Qiraətxananın fəaliyyətə başlamasından bir ay keçməmiş orada 710 oxucu qeydə alınmışdır ki, onun 292 nəfəri türk idi. 1897-ci ildə isə milli qiraətxanadan istifadə edən Azərbaycan türklərinin sayı 8619 nəfərə çatırdı».

Qiraətxana Azərbaycan xalqının milli şüurunun, siyasi dünyagörüşünün formalaşmasında mühüm rol oynayırdı. Azərbaycanda kitabxana, xalq evləri, klublar və s. mədəniyyətin inkişafına təkan verirdi. XX əsrin əvvəllərində Bakıda 4 kitabxana fəaliyyət göstərirdi. Bakı ilə yanaşı Gəncə, Nuxa, Şuşa, Quba, Şamaxı şəhərlərində kitabxanalar təşkil olunmuşdu. Xalq evlərində tanınmış elm və mədəniyyət xadimlərinin oxuduqları mühazirələr milli şüurun formalaşmasına mühüm təsir göstərirdi. Azərbaycan ziyalıları milli mətbuat uğrunda mübarizəni davam etdirir, çar hökumətinin milli müstəmləkəçilik siyasətinə qarşı çıxırdılar.

Milli mətbuat uğrunda mübarizə aparan ziyalılardan biri də Moskva qəzetlərinin Yaxın Şərq üzrə müxbiri olmuş M.Şahtaxtlı idi. O, sonralar Peterburq Baş Mətbuat İdarəsinin sədri Soloyovla milli mətbuatın nəşri barədə söhbətini belə təsvir edirdi: «... Var qüvvəmlə ona dil töküb xahiş etdim, lakin bundan heç bir şey çıxmadı... O dedi:

– Tatar dilində qəzetə heç cürə icazə verə bilmərəm.

İstəyirsinizsə rusca qəzet çıxarmanıza icazə verim. Qoy tatarlar sizdən nümunə götürüb rus dilində təhsil alsınlar. Siz rusca əla danışırsınız. Tatar qəzeti nəyinizə lazımdır?

– Mən həmvətənlərimin hamısının tərəqqisinə kömək etmək istəyirəm. Tatarlar hamısı rus dilində təhsil ala bilməzlər. Bu ancaq varlı ailələrə müyəssər olan bir nemətdir.

– Qəzet xalqın nəyinə lazımdır? Ziyalılar qoy rus dilində oxusunlar, adi tatarlar isə qoy gedib sürülərini otarsınlar».

Çarizmin müstəmləkəçilik siyasəti Azərbaycan xalqına qarşı daha sərt idi. Çünki Qafqazda yaşayan digər xalqların vəziyyəti Azərbaycanlılarınkı qədər dözülməz deyildi. 1900-cü ildə bütün Qafqazda rusca 33, gürcücə 9, ermənicə 5 adda qəzet və jurnal nəşr olunurdu. Azərbaycan türkcəsi ilə mətbuat nəşrinə icazə verilmirdi. 1903-cü ildə isə Qafqazda rusca 40, gürcücə 7, ermənicə 6 adda mətbuat orqanı nəşr edilirdi.

M. Şahtaxtlı gərgin və uzun mübarizədən sonra 1903-cü ildə «Şərqi-Rus» adlı ana dilli qəzetin nəşrinə nail oldu. «Şərqi-Rus» qəzeti səhifələrində çar hökumətinin rəsmi qərar və göstərişləri öz əksini tapsa da, qəzet başlıca olaraq «Kaspi» və «Tərcüman»ın ənənələrini davam etdirir, milli və dini ideyaların yayılmasına çalışırdı. Qəzet öz səhifələrində türkçü və islamçı Əbdürrəşid İbrahimovun, Ərtoğrul oğlunun (Kazan), Rəşid bəy İsmayılovun (Buxara), Həsən Səbri Ayvazovun (Krım) yazılarına geniş yer verirdi. Qəzetdə dərc olunan «İslamiyyət eyni insaniyyətdir», «İslamiyyət və tatarlar», «İttihadi-islam və yaxud panislamizm» və başqa məqalələr onun ideya istiqaməti haqqında dolğun məlumat verir.

M.Şahtaxtlının Daxili İşlər Nazirliyinə göndərdiyi 8 yanvar 1903-cü il tarixli əlavə xahişində göstərilirdi ki,



«Şərqi -Rus» qəzeti «Şərqdə rus işinə xidmət göstərəcəkdir».

M.Şahtaxtlı ana dilli mətbuat naminə güzəştlərə getmiş, qəzetin adının və orada dərc olunacaq yazıların zahirən də olsa rəsmi dairələrin istək və arzularına uyğunluğuna çalışmışdır.

M.Şahtaxtlı özünün qəzetdə dərc olunmuş yazılarında türkçülük ideyalarını təbliğ edir, bütün türk xalqları üçün ortaq ədəbi dilin yaradılmasına çalışırdı. Qəzeti bütün türk xalqlarının anlaya biləcəyi ortaq türkcədə nəşr etdirdiyi üçündür ki, Daxili İşlər Nazirliyinin Qafqaz nəzarət komitəsinin qeyri-rus və Şərq dilləri üzrə baş nəzarətçisi senzor Q.Kişmişev 1903-cü ilin iyun ayının əvvəllərində M.Şahtaxtlıya «Şərqi-Rus» qəzetini «yer üzündəki türk-tatar tayfalarının bütün ləhcə və dialektlərinin qatışığı olan bir dildə», «süni bir dildə» buraxdığına görə ciddi xəbərdarlıq etmişdi. Həmin ilin oktyabrında Q.Kişmişevin tələbinə və Qafqaz hərbi dairəsinin baş qərərgah şöbəsinin tərcüməçisi M.Ş.Mirzəyevin izahatına əsasən Qafqaz nəzarət komitəsi mətbuat işləri üzrə Baş idarənin müdirindən bu məsələ üstündə M.Şahtaxtlını cəzalandırmağı xahiş etmişdi.

«Şərqi-Rus» qəzetinin əlaqələri geniş idi. Redaksiya Peterburq, Moskva, Kazan, Həştərxan və Təbriz şəhərlərindən, Krım, Qazaxıstan, Türkmənistan və Sibirin müxtəlif yerlərindən müxbir məktubları alırdı. Qəzetin Bakı, İrəvan, Gəncə, Şuşa, Şamaxı, Nuxa, Baxçasaray, Kazan, Həştərxan, Omsk, Uralsk, Urgənç, İstanbul şəhərlərində xüsusi təmsilçiləri-vəkilləri var idi.

XİX yüzilliyin son rübündə və XX yüzilliyin əvvəllərində Azərbaycanda elm də inkişaf etməkdə idi. Təbiət elmlərinə maraq xüsusilə güclü idi. Bu, hər şeydən əvvəl Azərbaycanda olan təbii yataqların kəşfi və öyrənilməsi

ilə bağlı idi. Xüsusi ilə neftin öyrənlməsi ilə bağlı ciddi tədqiqat işləri görülürdü. 1884-cü ildə Almaniyada elmlər doktoru dərəcəsinə yiyələnərək Azərbaycana qayıtmış Möhsün bəy Xanlarov kimya sahəsində fəal axtarışlar aparırdı. Rusiya və Ukraynada təhsil almış H.Zərdabi və N.Vəzirov təbiətşünaslıq, biologiya, təbabət və s. elm sahələrində əldə etdikləri bilikləri yayırdılar.

Azərbaycanda təbiət elmləri ilə yanaşı, tarixşünaslıq sahəsində də ciddi addımlar atılırdı. Mirzə Yusif Nersesov Qarabaği, Rzaqulu bəy Mirzə Camal oğlu, Əhməd bəy Cavanşir, Mir Mehdi Xəzani kimi tədqiqatçılar Qarabağın tarixinə dair əsərlər yazırdılar. Bu tipli alimlərlə yanaşı, Azərbaycan tarixinin bəzi məsələləri yazıçı, publisist və ziyalılardan H.Zərdabinin, S.M.Qənizadənin, H.Mahmudbəyovun, S.Ə.Şirvaninin, F.Köçərlinin əsərlərində bu və ya digər dərəcədə əks olunurdu.

Ədəbiyyatşünaslıq və ədəbi tənqid də inkişaf edirdi. H.Zərdabinin, N.Vəzirovun, Ə.Goraninin, N.Nərimanovun, F.Köçərlinin ədəbi-tənqidi və ədəbiyyatşünaslıq tədqiqatları M.F.Axundovun realist ənənələrinin yeni dövrdə davamı və inkişafı idi. F.Köçərlinin 1903-cü ildə Tiflisdə rus dilində nəşr etdirdiyi «Azərbaycan tatarlarının ədəbiyyatı» əsəri Azərbaycan ədəbiyyatı tarixi səpgisində ilk monumental tədqiqat idi.

Müəllif özünəqədərki ədəbiyyatşünasların və özünün əldə etdiyi materiallar əsasında milli ədəbiyyat tariximizin zəngin və mürəkkəb mənzərəsini canlandıra bilmişdi. F.Köçərli yazıçıları milləti oyandırmağa, xalqın dərd və qayğıları ilə məşğul olmağa səsləyirdi. O qeyd edirdi ki, əsl yazıçı «öz səsini millətin səsinə qoşub, onun qeyrət və təəssüb damarını hərəkətə gətirməlidir», «təsirli kəlamı ilə onu bidar edib, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət etməlidir».



Maarifçilik Azərbaycan ədəbiyyatının başlıca məzmununu təşkil edirdi. Azərbaycanın sosial-siyasi və iqtisadi həyatında baş verən yeniləşmə bədii ədəbiyyatda öz inikasını tapırdı. Realizm ədəbiyyatımızın aparıcı cərəyanı kimi formalaşmışdı. Bu isə həyat həqiqətlərinin düzgün təsviri, maarifçi və milli problemlərimizin təbliği, sosioloji məsələlərin əksi üçün geniş imkanlar açırdı. S.Ə.Şirvani, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, N.Vəzirov, N.Nərimanov və başqa yazıçılar demokratik ideyaları yayır, milləti «qəflət yuxusundan» oyandırmağa, xalqın gözünü açmağa, öz haqq və hüquqları uğrunda mübarizə aparmağa səsləyirdilər.

«Bu dövrdə Azərbaycan ədəbiyyatının əsas məqsədi cəhalətlə mübarizə etmək, xalqı irəliyə doğru aparmaqdan ibarət idi. Ədəbiyyatın, ədəbiyyatçıların əsas qayələrindən biri də çar mütləqiyyət və istibdad idarəsinin zülm və haqsızlıqlarını xalqa başa salmaq, ona qarşı mümkün olan vasitələrlə mübarizə aparmağın yollarını göstərmək idi. Bu dövr Azərbaycan ədəbiyyatının xarakterik cəhətlərindən biri də xalq həyatından alınan mövzularla xalqın arasında yaşayan canlı dili başa düşüləcək şəkildə işləyərək ədəbiyyatı demokratikləşdirmək və bu yolla xalqın qəlbinə, ruhuna yol tapmaq, cəmiyyətə, vətəndaşlara mənliklərini tanıtmaq, onlara şəxsiyyət hissi aşılamaq olmuşdur».

Teatrın meydana gəlməsi Azərbaycan milli hərəkatının mühüm hadisələrindən biridir. Bakı realnı məktəbinin bir qrup həvəskarı 1873-cü il mart ayının 22-də Novruz bayramı günü dramaturq M. F. Axundovun «Hacı Qara» komediyasını səhnəyə qoydu. H. Zərdabi və dramaturq N. Vəzirov tamaşanın hazırlanmasında böyük rol oynadılar. 1883-cü ildə H. Z. Tağıyevin ilk teatr binası tikdirməsi Azərbaycanda teatr sənətinin dirçəlişi üçün bir təkan oldu. Milli teatrın yaranması Azərbaycan ədəbiyyatında əsası

M. F. Axundov tərəfindən qoyulmuş dramaturgiyanın inkişafı üçün böyük imkanlar açdı. N. Vəzirov, Ə.Naqverdiyev, N. Nərimanov və b. dramaturqlar mövzusu xalqın həyatından alınmış əsərlərlə dramaturgiyanın inkişafında böyük xidmət göstərdilər.

XIX yüzilliyin sonlarında Azərbaycanda yaradılan ədəbi məclislər ədəbi prosesə fəal təsir göstərirdi. Qarabağdakı «Məclisi-üns», «Məclisi-fəramuşan», Bakıdakı «Məcmeüm-şüəra», Ordubaddakı «Əncüməni-şüəra», Şamaxıdakı «Beyts-Səfa» və başqa ədəbi məclislər ədəbiyyatın xalq həyatına bağlanması və ictimai motivlərlə zənginləşməsində mühüm rol oynayırdı. Məclislərə S. Ə. Şirvani, M. M. Nəvvab, X. Natəvan, M. T. Sidqi, M. Cürmi kimi mütərəqqi fikir sahiblərinin rəhbərlik etməsi onların fəaliyyətinin daha canlı keçməsinə imkan yaradırdı. XIX yüzilliyin sonlarında, XX yüzilliyin əvvəllərində incəsənətin başqa sahələri də öz inkişafında yeni nailiyyətlər qazanırdı. Azərbaycanda aşıq musiqisinə, muğam sənətinə meyl güclü idi. Aşıqlar xalq içərisinə çıxır, şənliklərdə iştirak edir, savadsız kütlələrin mənəvi tərbiyəsinə təsir edirdi. Azərbaycanda memarlıq və tikinti işləri də inkişaf edirdi. Bakı, Nuxa, Şamaxı, Yelizavetpol, Quba, Lənkəran, Naxçıvan və Zaqatala şəhərlərində əsrin sonlarına doğru tikinti və abadlıq işləri sürətlə gedirdi. Neft sənayesinin inkişafı şəhərin görünüşünü dəyişdirirdi. Neft sahibkarlarının tikdirdikləri ictimai binalar, yaşayış evləri, teatr və mədəniyyət ocaqları, məscidlər özünün memarlıq üslubu ilə seçilirdi. Azərbaycanda Usta Əvəz, Usta Qənbər Qarabaği kimi mahir memarlar, tikinti ustaları və nəqqaşlar nəsli yetişirdi. Məşhur Nuxa Xan sarayının bərpası bu dövrün ən mükəmməl bərpaçılıq işlərindəndir. XIX əsrin son rübü və XX yüzilliyin ilk illərində Azərbaycan milli hərəkatı xalqın sosial-mədəni yüksəlişinə, oyanışına yönəlmişdi. Azərbaycan xalqı yeni əsrin siyasi təlatümlərinə «millət olmaq əzmi»ni gerçəkləşdirmək ümidi ilə daxil olurdu.

### *1.3. Milli-demokratik ideyaların formalaşmasında aydınların rolu*

XIX əsrin son rübündə Azərbaycanda kapitalist münasibətlərinin sürətli inikişafı, milli sənaye burjuaziyası və aydınlar zümrəsinin yetişməsi, xalqın milli-siyasi oyanma prosesinin dərinləşməsi, millətin formalaşması maarifçilik və milli hərəkatın sonrakı yüksəlişində mühüm rol oynamış bir sıra ictimai-siyasi cərəyanların geniş yayılması ilə səciyyələnmişdir. Yusif Akçura oğlu yazırdı ki, millət anlayışı Avropada meydana gəlmiş, «... İlkin olaraq və ən yüksək dərəcədə Avropa ilə sıx əlaqələrdə və qarşılıqlı münasibətlərdə olan türk tayfaları tərəfindən mənimsənilmişdir. Bu çoxlu türk tayfalarına osmanlılar adlanan qərb türkləri, Krım türkləri, Volqa sahillərində yerləşən şimal türkləri, habelə Qafqazdakı azəri türkləri aiddir. Beləliklə, XIX əsrin sonuna yaxın biz «türklərin» bü dörd qrupunda milli təfəkkürün yaranması və yayılmasının şahidi oluruq».

Bu dövrdə dünya müsəlmanlarını və türk xalqlarını, o cümlədən də Azərbaycanı əhatə edən panislamizm (islamçılıq) və panrükizm (türkçülük) cərəyanları geniş yayılmışdır. Şərqdə «ittihad-islam» (İslam birliyi) adı ilə yayılmış islamçılıq Əhməd Ağaoğlunun fikrincə, Quranın təbiətindən doğsa da, o, siyasi bir cərəyan kimi ancaq Seyid Cəmaləddin Əfqaninin zühuru ilə dünya üzü gördü. İslamın xəstə cəhətinin sağaltmaq məsələsinin həllində «... Üç cərəyan müşahidə olunur: onlardan birincisi «ifrat mütərəqqiçilər» (yaxud «yeni müsəlmanlar»), ikincisi, «ifrat köhnəpərəstlər», (yaxud «qədimi müsəlmanlar»), üçüncüsü, bu iki cərəyanın arasında orta xətt götürən panislamistlər». Ə.Ağaoğlu göstərir ki, «birincilər çıxış yolunu qeydsiz-şərtsiz Avropanı təqliddə, Avropasayağı həyat



tərzi qurmaqda, onu eyni ilə Şərqə köçürməkdə görür, ikincilər isə əksinə, keçmişə qayıtmağı üstün tuturdular. «Panislamizm» özünün daxili məzmununa görə əslində geriyə dönməkdir, amma köhnəlik girdabında qapanıb qalmaq deyildir. Bu geriyə dönüş daha inamla, daha böyük qüvvətlə irəliyə atılmaq üçün vasitədir».

«İttihadi-İslam»ın banisi XIX əsr İslam modernizminin başçısı Seyid (yaxud Şeyx) Məhəmməd Cəmaləddin əl-Əfqani (əsl adı Seyid Məhəmməd ibn Səfdər) (1838-1897) olmuşdur.

C.Əfqani islamda azadfikirliliyi mümkün və zəruri hesab edir, islamın tənəzzülünün səbəblərini araşdırmağa və onun qarşısını almağa çalışırdı. O, müsəlmanları ehkamlardan uzaqlaşmağa, təriqət parçalanmalarına son qoymağa, Qərbin elmi, mədəni nailiyyətlərini mənimsəməyə çağırırdı. Şeyx Cəmaləddin millətin birliyi və həmrəyliyi üçün iki mühüm amili: dil və din birliyini əsas götürürdü. O yazırdı: «.... Dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir... Dil birliyindən hasil olan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha artıqdır». Dil birliyinin heyrətamiz gücə malik olduğunu şərh edən müəllif qeyd edirdi ki, «Dil birliyi olmasa, milli vəhdətin həqiqi mənası və həyati gücü də ola bilməz. Dil birliyi insanlar arasında son dərəcə böyük gücəqüvvəyə malik olan əsas əlaqə vasitəsidir».

C.Əfqani islam dünyasının dirçəlişi və yüksəlişi üçün milli özünüdərki vacib hesab edir, islam dünyasının mövcudluğuna və inkişafına olan ümidləri milli özünüdərketmə şüuru və müsəlmanların milli tərəqqisi ilə əlaqələndirirdi. O, müstəmləkə zülmünə qarşı mübarizədə millətçilikdən bir silah, vasitə kimi istifadə olunması mövqeyindən çıxış edir, bütün imperiyaların, müstəmləkəçi ölkələrin dağılmaqda olduğu fikrini qətiyyətlə

müdafiə edirdi.

Qafqazda, o cümlədən Azərbaycanda panislamizm hərəkatının yayılmasını müşahidə etmək haqqında mərkəzdən göstəriş alan yerli jandarm idarələrinin məlumatında göstərilirdi ki, panislamizmi Türkiyə sultanı II Əbdülhəmid və alman imperatoru II Vilhelm müdaifə edir. «İttihadi-İslam»ın məqsədi bütün müsəlmanları birləşdirmək, ruslar və xristianlar arasında islamı yaymaq, Avropa dövlətlərinin siyasətinə müdaxilə etmək və s. ibarətdir.

Azərbaycanda islamçılıq, Şeyx Cəmaləddinin ideyaları müxtəlif formalarda yayılırdı. Onunla təmasda və ünsiyyətdə olan Azərbaycan aydınlarından Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Məhəmməd ağa Şahtaxtlı, Ömər Faiq Nemanzadə, Məmmədtağı Sidqi və s., əsərləri ilə tanış olan Məhəmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı və s. aydınlar ictimai-siyasi fikrin inkişafına böyük təsir göstərirdilər.

XIX yüzilliyin sonlarında türk xalqlarının oyanışı güclənir, onlar arasında pantürkizm ideyaları yaranır və yayılırdı. Rusiya imperiyasının müsəlman-türk xalqlarının oyanışında və qabaqcıl ideyalara yiyələnməsində böyük rol oynamış şəxsiyyətlərdən biri «XIX əsrin ən böyük islahatçısı», «türk dünyasını oyandıran» İsmayıl bəy Qaspiralı (1851-1914) olmuşdur. O, 1883-cü il aprelin 10-da nəşrinə başladığı «Tərcüman» qəzetində dərc etdirdiyi əsərlərində bütün türk xalqlarını ortaq və təmiz bir dil ətrafında birləşdirmək istəyirdi.

C.S.Krımər «Qaspralı İsmayıl bəy» əsərində yazırdı: «Sönmüş kalpleri ne ile yandırmalı? Basireti kesmiş perdeleri ne ile kaldırmalı? Qaflet sahrasında serilib kalmış koca bir milleti ne ile ayağa turğuzmalı?» sualları ile başlayan İsmayıl beyin bütün hayatı bunların cavabını bilmek və hayata keçirmekde keçdi. O, Türk tarihinden bu qaye ile bahsetti. Türk dil birliğini bu maksatla ireli sürdü. «Üsulu cedit» mekteblerini be emelle düşündü. Medreselerin islahatını bu niyetle ireli sürdü. Cemiyeti hayriyeleri bu düşünce ile kurdurdu».

İsmayıl bəy Qaspiralı rus millətçiliyinin, panislamizm hərəkatının türk-müsəlman xalqları üçün böyük təhlükə yaratdığını dərk edirdi və imperiyanın müsəlman xalqları arasında milli şüurun formalaşması, əməkdaşlığı, birliyi ideyası ilə çıxış etməyə başlamışdı. O, yazırdı: «Asiya və Avropanın bir qismində sanki böyük bir millət – türk-tatar milləti var. Bu millət dağınıq, parça-parça, zəif, digər millətlərə nisbətən elm və mərifətcə, sərvət və mədəniyyətcə çox geridə qalmışdır. Belə davam edərsə, əbədi mübarizə qanununa uyğun olaraq məhv olacaq, başqa millətlər tərəfindən udulacaqdır...»

İsmayıl bəy Qaspiralı irəli sürdüyü «dildə, fikirdə, əməldə birlik!» tezisini prinsip etibarilə həm «müsəlman birliyi» (panislamizm), həm də «türk-tatar müsəlman birliyi (pantürkizm) təliminə tətbiq edirdi. Dil, din, adət və ənənəni millətin əsas prinsipləri kimi götürən İsmayıl bəy türk xalqlarını vahid bir millət kimi qəbul edirdi. O, «Cədidçilik» («Üsuli-cədid»), yəni «yeni üsul» adlanan islahat hərəkatının genişlənməsində, bu cərəyanın «qədimçilər» («Üsuli-qədim»), yəni «köhnə üsul» cərəyanına qarşı mübarizəsində fəal iştirak etmişdir.

İsmayıl bəy Qaspralının, onun «Tərcuman»ının Azərbaycan aydınlarına, «Üsuli-cədid» məktəbinin müəllimlərinə böyük təsiri olmuşdur. Azərbaycan milli mətbuatı onu «möhtərəm ustad», «fəxri-millət», «böyük İsmayıl bəy», «Türklüyü paydar, millətin namdar etməyə çalışmaqdan yorulmaq bilməyən... ustadi-əzəm» adlandırırdı. Onun təsiri ilə Azərbaycanda türkçülüyün əsas ideo-

loqu və təbliğçiləri Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topşubaşov, M.Ə.Rəsulzadə, M.E.Şeyxzadə, Ə.A.Müznib, C.Hacıbəyli, M.B.Məmmədzadə, Ə.Kamal bəy, S. İbrahimov və başqaları türkçülük ideya və siyasətini müdafiə və inkişaf etdirmişlər.

Azərbaycanda milli hərəkatın inkişafında ziyalılar (aydınlar) böyük rol oynayırdılar. Artıq XX yüzilliyin başlanğıcında milli inqilabi prosesə təsir göstərə biləcək qədər güclü aydınlar təbəqəsi formalaşmışdır. Konkret və vahid proqrama malik siyasi təşkilat olmadığı bir dövrdə Azərbaycanın aydın potensialı bu siyasi təşkilatın görə biləcəyi ağır, çətin, həlli mürəkkəb olan bir missiyaya xidmət edirdilər. Onlar Azərbaycanın iqtisadi və mənəvi dirçəlişi üçün maarif və mədəniyyətin mühüm rolunu dərk edir, əsas fəaliyyətlərini bu istiqamətdə qururdular. Azərbaycan aydınları müxtəlif mətbuat orqanlarında dərc olunan yazılarında müsəlmanların siyasi hüquqsuzluğundan, ictimai siyasi və mədəni-maarif sahəsində mövcud olan çətinliklərdən və s. problemlərdən bəhs edirdilər.

Azərbaycan aydınları xalqın milli oyanışında, milli-azadlıq hərəkatının istiqamətləndirilməsində və onun siyasi mübarizə məktəbinə çevrilməsində əhəmiyyətli rol oynamışlar. Sovet tarixşünaslığı tədqiq olunan dövrdə Azərbaycanda baş verən prosesləri qeyd-şərtsiz fəhlə sinfinin adı ilə bağlamış, bu prosesdə kifayət qədər rol oynamış aydınların, xüsusilə də milli burjuaziya sinfinə mənsub aydınların fəaliyyətini ya işıqlandırmamış, yaxud da təhrif etmişdir.

Bu isə milli hərəkat tarixinin öyrənilməsində ciddi səhv və yanlışlıqlara gətirib çıxarmışdır. Çünki, Azərbaycan aydınları milli hərəkatın inkişafında elə spesifik mövqeyə malik olmuşlar ki, onu konkret olaraq təhlil etmədən dövrün siyasi mənzərəsini canlandırmaq mümkün deyil-



dir. Azərbaycan XX yüzilliyə dövrün siyasi hadisələrinə kifayət qədər təsir göstərə biləcək güclü aydınlar potensialı ilə qədəm qoymuşdur. Bunların arasında siyasət meydanında özünü göstərə biləcək Rusiya, Türkiyə və Avropanın ayrı-ayrı universitetlərində oxumuş təcrübəli şəxslər olduğu kimi, yazıçı, jurnalist, müəllim və sənaye-ticarət sahəsində çalışmağa qadir milli burjuaziya nümayəndələri də var idi. Onlar Vətən qarşısında borclarını yerinə yetirmək arzusu ilə yaşayır, milli, demokratik ideyalar təbliğ edir, daha da ciddi işlər görmək üçün əlverişli şərait gözləyirdilər. Azərbaycanın milli düşünən aydınlar təbəqəsi xalqın gələcəyinə böyük ümid bəsləyirdilər.

Yuxarıda qeyd olunduğu kimi, XX yüzilliyin başlanğıcında Azərbaycan xalqı məhkum vəziyyətdə yaşayır və çarizmin milli-müstəmləkəçilik zülmünə məruz qalırdı. Belə bir dövrdə aydınların qarşısında duran əsas vəzifələrdən biri xalqın milli mənlik şüurunu oyandırmaq, onu milli hüquqları uğrunda mübarizəyə cəlb etməkdən ibarət idi. Öz millətini dünyanın qabaqcıl millətləri sırasında görmək istəyən Azərbaycan aydınları məhz belə hərəkət edir, bu yolda qarşılarına çıxan hər cür müstəmləkəçilik maneələrini qətiyyətlə dəf etməyə çalışırdılar.

Lakin «...millətin qabaqcılları olan və min dürlü müşkülat içərisində yetişə bilən aydınlar və qələm sahibləri daima təqiblərə məruz qalır, şiddətli bir kontrol altında saxlanılırdı». Bu isə onların mübarizəsini çətinləşdirirdi. Azərbaycan aydınları əsasən aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirdilər:

a) maarif və mədəniyyətin inkişafı, cəhalət və fanatizmin tənqidi;

b) xalqın milli şürunun oyanması, onun haqq və hüququnun dərk olunmasına çalışılması;

v) çarizmin müstəmləkəçilik və milli ədavət siyasə-

tinin ifşası;

q) islam bayrağı altında azadlıq ideyasının yayılması uğrunda mübarizə;

d) türk xalqlarının birliyi ideyasının (vahid dil, vahid ədəbiyyat, mənəvi mədəniyyətin ümumiliyi və s.) təbliği.

Türkiyə tarixçisi Tahir Sünbül bu dövrü xarakterizə edərək yazırdı ki, əsrin əvvəllərində hələ siyasi partiyaların formalaşmadığı dövrdə «Gənc türklər hərəkatının tarixi» altında qaçan Azərbaycan aydınları arasında ilk siyasi təşəbbüslər başlanmışdır. Bu aydınlar tatar türklərindən daha millətçi, gənc türklərdən daha artıq türkçü olmuşlar. Onların arasında Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, N.Nərimanov, N.Vəzirov, Ü. və C.Hacıbəyovlar kimi şəxsiyyətlərin olduğunu qeyd edən tədqiqatçı bu aydınları Azərbaycan türkləri arasında siyasi partiyaların yaranması tarixinin ilk fidanları kimi səciyyələndirmişdir. Müəllifin fikrincə, bu aydın qruppu Azərbaycan siyasi partiyalarında mövcud olan bütün şəxsiyyət və təmayüllərə sahib olmuşdur.

Azərbaycan aydınlarının siyasi mübarizə meydanına atılması milli mətbuatın çiçəklənməsi ilə müşayiət olunurdu. «Şərqi-Rus» (1903) qəzetinin nəşrindən sonra bir-birinin ardınca həyata qədəm basan «Həyat» (1905), «Molla Nəsrəddin» (1906), «Dəbistan» (1906), «Rəhbər» (1906), «İrşad» (1906), «Dəvət-qoç» (1906), «Füyuzat» (1907), «Yoldaş» (1907), «Tərəqqi» (1907), «Bəhlul» (1907), «Zənbur» (1909), «Həqiqət» (1909), «Arı» (1910), «Məktəb» (1911), «Məlumat» (1911), «İşıq» (1911), «Şəlalə» (1912) və b. mətbuat orqanları aydınların fəaliyyətinin canlanmasına səbəb oldu. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.İ.Topçubaşov, M.Ə.Rəsulzadə, C.Hacıbəyov, C.Məmmədquluzadə, N.Nərimanov, S.M.Qənizadə, F.Köçərli, E.Sultanov, R.Əfəndiyev, O.F.Nemanzadə, H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq, S.S.Axundov, S.Hüseyn, A.Sur, Y.V.Çəmənzəminli və digər aydınlar millətin oyanışı üçün əllərindən gələni əsirgəmir, bu işdə mətbuatın imkanlarından bəhrələnirdilər. Adı çəkilən aydınların həyat və fəaliyyətlərinin xüsusi tədqiqinə ehtiyac vardır.



Azərbaycan milli istiqlal hərəkatı tarixində mühüm rol oynayan şəxsiyyətlərdən biri Əli bəy Hüseynzadə olmuşdur. Görkəmli ictimai-siyasi xadim olan Ə.Hüseynzadə dövrünün ədəbiyyatşünası, rəssamı, jurnalisti kimi zəngin, maraqlı bir yaradıcılıq yolu keçmişdir. 1864-cü il fevral ayının 24-də Salyanda anadan olan Ə.Hüseynzadə ailə vəziyyəti ilə əlaqədar olaraq Tiflisə köçmüş və ədibin uşaqlıq çağları bu şəhərdə keçmişdir. Atasının vəfatından sonra Əli bəy Qafqaz şeyxülislamı olan babası Axund Əhməd Səlyaninin himayəsi və tərbiyəsi altında yaşamışdır. Ə. Hüseynzadə 1875-1885-ci illərdə Tiflis gimnaziyasında oxumuş, ana dilindən başqa rus, fars və ərəb dillərinin incəliklərinə yiyələnmişdir.

1885-ci ildə Tiflis gimnaziyasını müvəffəqiyyətlə bitirən Ə.Hüseynzadə Peterburq universitetinin fizika və təbiət fakültəsinə daxil olmuşdur. Universitetdə oxuduğu illərdə Mendeleyev, Vaqner kimi məşhur professorların mühazirələrini dinləməklə yanaşı, ədəbiyyata və siyasətə də maraq göstərən Ə.Hüseynzadə çox keçmədən tələbə inqilabi hərəkatına qoşulur. Məhz inqilabi hərəkatda iştirak etdiyi üçün Ə.Hüseynzadəni universitetdən xaric edirlər.

Peterburq universitetindən xaric edildikdən sonra Ə.Hüseynzadə Türkiyəyə gedərək, İstanbul universitetinin hərbi tibb fakültəsinə daxil olmuşdur. Universiteti həkim-dermatoloq və yüzbaşı rütbəsi ilə bitirən Ə.Hüseynzadə burada daha çox siyasətlə maraqlanmışdır. O, 1889-

cu ilin yazında İstanbulda İbrahim Temo, İshaq Sükuti, Abdulla Cövdət və başqa türk aydınları ilə birlikdə «İttihad və tərəqqi» cəmiyyətinin əsasını qoymuşdur».

1897-ci ildə Osmanlı-Yunanıstan müharibəsi zamanı «Qızıl Ay» heyətinin tərkibində İtaliyaya gedən Ə.Hüseynzadə hərbi həkim kimi bu müharibənin iştirakçılarından biri olmuşdur. Üç il sonra isə o, müsabiqə yolu ilə İstanbul universitetinin əsgəri tibb fakültəsinə professor köməkçisi təyin edilmişdir.

«İttihad və tərəqqi» cəmiyyətinin Mərkəzi Komitəsinin üzvü kimi fəaliyyət göstərən Ə.Hüseynzadə türk xalqlarının oyanması, milli-mədəni, dil baxımından yaxınlaşması sahəsində mühüm rol oynamışdır.

Ə.Hüseynzadə 1904-cü ilin ortalarında Misirdə gənc türklər tərəfindən nəşr edilən «Türk» qəzetinə «Turani» imzası ilə məqalə yazmış və orada türkçülük ideya və siyasətini müdafiə etmişdir. Türkiyədə 1910-cu illərdə Ziya Göyalpın türkçülüyün əsas prinsipləri kimi formulə etdiyi «Türkləşmək, islamlaşmaq, müasirləşmək» şüarı 1904-1905-ci illərdə Ə.Hüseynzadə tərəfindən «Türkləşmək, islamlaşmaq, avropalaşmaq» şəklində irəli sürülmüşdür. «Əli bəyin bu üç düsturu iyi bulunmuş məsud ulu ümidlərdəndir. Bu ümdə türk aləminin hər tərəfinə yayılmış və əlelxüsus məşrutiyyətdən sonra İstanbulda çox işlənmişdir. Məsəla Ziya Gög Alp bəy «Türkləşmək, islamlaşmaq və müasirləşmək» mövzui üzərinə çox yazı yazmışdır»– deyən Yusif Akçura oğlu qeyd edirdi ki, «Əli bəy Hüseynzadə müsəlman türklər arasında ilk «Turanlı», yəni «panturanistdir» desəm, düşünürəm ki, səhvə yol verməərəm. Lakin, bunu da bildirməliyəm ki, həyatda daima anlaşma və bir sakitlik arayan Əli bəy turançılığı kəskin, şiddət və israrla müdafiə etmirdi. Bununla bərabər onun şairanə turançılığı 1908-ci ildən sonra İstanbulda digər



«turançıları», başlıcası isə Ziya Gög Alpı yaratmışdır». Belə bir tezisin yayılması təsadüfi deyildir ki, Mustafa Kamal Atatürkün fikir babası Ziya Göyalp, onun da fikir babası Əli bəy Hüseynzadə olmuşdur.

Ə.Hüseynzadə 1905-ci ilin yayında «Həyat» qəzetinin baş məqaləsində yazırdı: «Türküz, binayi aliyə türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu edəriz!... Binayi-aliyə «Həyat»... türk qövmünə dair məlumat və onların nə olmuş, nə olduqlarına və nə olacaqlarına bacardıqca diqqət edib, bu yolda türklərin əhval-siyasiyyə, tarixiyyə və ədəbiyyələrinə dair nəşriyyat xeyrat edəcəkdir... Bu gün isə elm və ədəbiyyat türk dilində olmaq üzrə tərəqqiyə başlamış olduğundan, ümumi Şərqdə maarifin ən gözəl vasitəyi-intişarı, türk lisanı olmuşdur.... Avropa elmini və maarifini, ədəbiyyatını, sənət və sənayesini kəsb və vuquf etməli və millətimiz eynində nəşrə çalışmalıyız».

Ə.Hüseynzadə 1905-ci ildə Ə.Ağaoğlu ilə birlikdə milyonçu H.Z.Tağıyevin vəsaiti ilə nəşr olunan «Həyat» qəzetinin əsasını qoymuşdur. Həmin ilin sonlarında Ə.Ağaoğlu «İrşad» qəzetinə redaktor təyin olunduqdan sonra Ə.Hüseynzadə «Həyat» qəzetini təkbaşına çıxarmışdır. «Həyat» qəzeti Azərbaycanda türkçülük ideyalarının yayılmasında mühüm rol oynamışdır. «Həyat» qəzeti öz nəşrini dayandırdıqdan sonra Ə.Hüseynzadə 1906-cı ilin noyabrında «Füyuzat» jurnalının əsasını qoymuşdur. 1907-ci ilin sonuna kimi dərc olunan məcmuə Azərbaycan mətbuatı tarixində misilsiz rol oynamışdır. Ə.Hüseynzadə «Füyuzat» jurnalında dərc etdirdiyi «Məcnun və Leylayi İslam» adlı bədii-fəlsəfi əsərində islamı, islam aləmini «yaşıl rəngli zümrüdün bir işığın nurinə bürünmüş qayətihüsna bir qıza bənzədirdi: «Əlbisəsi pək qərib olan bu qızın başında osmanlı bayrağına bənzər, ayyıldıza

müzəyyən bir qırmızı örtü, əynində yaşıl rüba, köksündə sıyırma ilə işlənmə bir şirü-xurşid əlaməti görünür. Belinə bağladığı lahur ya kişmir şalı ayaqlarına qədər eniyor, lakin bu qız – «İslam» xəstədir».

Ə.Hüseynzadənin fikrincə islamın xəstəliyi sağala bilən, «qabili-şəfa bir mərəzdir». Mərəzin şəfası isə dimac ilə bədənin başqa üzvlərinin, xüsusilə əsas üzvlərin (ürək, ciyər və s.) qırılmaz əlaqəsi, xəstəlik törədən ünsürlərə qarşı onların birgə fəaliyyətidir. Onun fikrincə islamın xəstəlikdən şəfa tapmasının çarəsi islam xalqlarının birliyi, ittifaqı, ittihadı idi.

Ə.Hüseynzadə bu illərdə dərc olunmuş «Gəncə və Tiflis vüquatına dair əfkarımız», «İrşad», «Rusiya camaatının vəsaiti-inqilabı», «Nəticeyi-zülm və istibdad», «Rusiya inqilabının əhəmiyyəti-aliyyəsi» və başqa məqalələrində siyasi-ideoloji məsələlərdə kəskin tənqidi mövqe tuturdu. O, Rusiyanın anarxiya içində çabaladığını, hürriyyətin yalnız kağız üzərində olduğunu, kütlələrin səbrinin tükəndiyini, iqtisadi-siyasi tətillərin getdikcə artdığını, milli ədavətə çarizmin bais olduğunu göstərir, xalqı azadlıq mübarizəsinə səsləyirdi. «Füyuzat» jurnalının ilk nömrəsində Ə.Hüseynzadə çar hökumətinin ölkədə polis rejimi tətbiq etdiyini, müxalifət partiyalarının təqib olunduğunu, habelə «Vıborq bəyannaməsi»nə görə kadet partiyasının üzvlərini Petropavlovsk məhbəsinə atdırdığını açıb göstərirdi. «Hər nə hal isə, bir tərəfdən hürriyyət naminə islahat icra olunur, digər tərəfdən hurriyyəti-kəlama, hurriyyəti-ittifaqa müğayir hərəkətlər göstərilib, bir çox cəmiyyətlər dağıdılır, qəzetlər bağlanır, bəzi darülfünunlar qapanır».

Ə.Hüseynzadə qeyd edirdi ki, «Füyuzat»ın tutduğu yol türklük, müsəlmançılıq və avropalılıqdır; türk hissiyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsi ilə mütəməddin olmaqdır».



«Füyuzat» jurnalının bağlanmasından sonra Ə.Hüseynzadə pedaqoji fəaliyyətlə məşğul olmuş, 1908-ci ildə Bakıda burjua aydınlarının xeyriyyə yolu ilə açdırdıqları «Səadət» məktəbinə müdir və dil-ədəbiyyat müəllimi təyin olunmuşdur.

1910-cu ildə Türkiyəyə gedən Ə.Hüseynzadə ictimai-siyasi fəaliyyətini həmişəlik olaraq bu mühitlə bağlamışdır. Türkiyədə yaşadığı illərdə universitetdə professor kimi çalışan Ə.Hüseynzadə «İttihad və tərəqqi» cəmiyyətində, «Türk ocağı» dərnəyində Ə.Ağaoğlu, Z.Göyalp, Y.Akçuraoğlu, M.Ə.Rəsulzadə ilə birlikdə fəaliyyət göstərmişdir.

Birinci dünya müharibəsi zamanı Ə.Hüseynzadə «Turan heyəti» adı altında ittihadçı yoldaşları ilə birlikdə Qərbi Avropanın ayrı-ayrı ölkələrinə gedərək türkçülük təbliğatını yaymışdır. 1917-ci ildə «Azərbaycanın yeni bir dövlət halında qurulması məsələsini oranın irəli gələnləri ilə birlikdə» müzakirə etmək üçün Osmanlı dövləti onu siyasi tapşırıqla Bakıya göndərmişdir.

Ə.Hüseynzadə 1926-cı ildə Bakıda keçirilən I türkoloji qurultayda iştirak etmişdir. Bundan sonra yenidən Türkiyəyə dönən Əli bəy ömrünün sonuna qədər orada yaşamış, 1940-cı ildə İstanbulda vəfat etmişdir. Öz ictimai-siyasi görüşlərini «Əbdi-qılafı», «Siyasəti-fürusət», «Sola, sola, sol tərəfə», «Türklər kimdir və kimlərdən ibarətdir», «Vəlvələ və zümzümə», «Məktubi-məxsusi», «Bizə hansı elmlər lazımdır?», «Yazımız, dilimiz, ikinci ilimiz» və başqa məqalələrində əks etdirən Ə.Hüseynzadənin dünyagörüşü bütövlükdə Şərq və Qərb konteksində, Azərbaycan, Rusiya və Türkiyə mühitində formalaşmışdır.

Ə.Hüseynzadə sözün geniş mənasında Azərbycanda

mədəni və siyasi türkçülüyün əsasını qoymuş, bu sahədə özündən sonra gələnlər üçün böyük bir məktəb ənənəsi yaratmışdır. Onun ümummədəni, fəlsəfi, estetik, ədəbi, ictimai-siyasi xətti-hərəkətini aşkarlamaq üçün məhz bu amildən çıxış etmək lazımdır. Qeyd etmək lazımdır ki, onun türkçülüyə və millətçiliyə dair görüşləri bir sıra mənbələrdə ətraflı şərh olunmuşdur.

Ə.Hüseynzadə XX əsrin əvvəllərindən başlayaraq türkçülüyün nəzəri əsaslarını yaratmağa başlamış, sonralar isə onun tədqiqatları Z.Göyalp, Y.Akçuraoğlu və digər türkçülər üçün örnək rolunu oynamışdır. O, 1904-cu ildə çap etdirdiyi «Məktubi-məxsusi» adlı məqaləsində qeyd edirdi ki, türklər və müsəlmanlar arasında birliyin yaranmasında islam və onun müqəddəs kitabı olan Quran mühüm rol oynamışdır. O, türk xalqları arasında birliyin möhkəmləndirilməsində dinlə yanaşı mədəni-mənəvi bağların möhkəmləndirilməsini də mühüm hesab edirdi.

Ə.Hüseynzadənin «Həyat» və «Füyuzat» səhifələrində dərc olunan məqalə və tədqiqatlarında türk xalqlarının dilləri, ədəbiyyatı, mədəniyyəti, tarixi məsələləri geniş təhlil olunmuşdur. Ayrı-ayrı türk xalqlarının bir kökə söykəndiyini əsas tutan ədib tarixin ədalətsizliyi nəticəsində biri-birindən təcrid olunmuş bu qövmləri birliyə çağırırdı. Böyük siyasi xadim vaxtilə qəhrəmanlıq tarixi yaşamış türkləri elm və birliyin gücü ilə yenidən parlamağa çağırır, milli-azadlıq ideyaları təbliğ edirdi. Göründüyü kimi, Ə.Hüseynzadənin tədqiqatlarında bir tərəfdən mədəni birlik – türkçülük, digər tərəfdən siyasi birlik – turançılıq təbliğ olunurdu.

Ə.Hüseynzadənin tədqiqatlarında türkçülük romantizm səviyyəsində deyil, real tarixi şəraitə uyğun şəkildə idi. O, yalnız türk xalqlarının qəhrəmanlıq tarixini araşdırmır, eyni zamanda bugünkü məhkum vəziyyətini də



əks etdirir, onları siyasi azadlıq uğrunda mübarizəyə səsləyirdi. Xüsusilə birinci rus inqilabından sonra Ə.Hüseynzadənin dünya görüşündə türkçülüyün romantizmdən realizmə doğru təkamül etdiyi müşahidə olunur.

Azərbaycan milli istiqlal hərəkatının inkişafında bütün Yaxın və Orta Şərqdə, Mərkəzi Rusiya və Qərbi Avropada tanınmış görkəmli publisist, şərqşünas alim, ideoloq və ictimai-siyasi xadim olan Əhməd bəy Ağaoğlunun xüsusi xidmətləri olmuşdur.

O, 1869-cu ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şuşada anadan olmuşdur. O, burada müasir tipli rus məktəbində təhsil almışdır. Erməni məhəlləsində yerləşən bu məktəbdə dörd azərbaycanlı ilə oxuyan Əhməd bəy ilk dəfə erməni düşmənçiliyinin şahidi olur. Sonralar o yazırdı: «Bu beş nəfərin illər boyu davam edən təhsil həyatında erməni cocuqlarından çəkdikləri zülmü təsvir etmək imkan xaricindədir... Yüzlərcə erməni cocuğu birdən üstümüzə hücum edirdilər... Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz və təpik altında bizi əzirdilər. Bəzən gizlicə sözü bir yerə qoyub üzərimizə bir böhtan atır, hamısı üzümüzə şahid durur, bizə haqsız yerə cəza verdirməyə nail olurdular. Arkadaşlarımızın çoxu dözə bilmədilər, məktəbi tərk etdilər. Son sinfə qədər türklərdən yalnız mən tab gətirə bildim».

1885-ci ildə təhsil almaq üçün Fransaya gedən Əhməd bəy Parisdə hüquq kollecində təhsil almış, sonra isə Sorbon universitetinə daxil olaraq dinlər tarixini öyrənmişdir. Universitetdə təhsil aldığı illərdə o, latın, yunan, fransız, ingilis, alman, ərəb və rus dillərinə də yiyələnmişdir.

Universitetdə oxuduğu illərdə görkəmli Avropa şərqşünasları E.Renak və M.Darmsteterin mühazirələrini

dinləməklə yanaşı, elmi-tədqiqat işlərinə də maraq göstərən Ə.Ağaoğlu «Jurnal de Debat», «Rövü Veen», «Rövü Politik», «Nouve Revü» və b. mətbuat orqanlarında çıxış etmişdir. 1892-ci ildə o, İngiltərənin London şəhərində keçirilən Beynəlxalq Şərqşünaslıq konqresində «Şiə məzhəbinin mənbələri» mövzusunda məruzə etmişdir. Sonralar həmin məruzənin mətni bir çox Qərbi Avropa dillərinə tərcümə olunmuşdur. 1893-cü ildə atasının vəfatı ilə əlaqədar Azərbaycana döndüyü zaman yolüstü İstanbulda olan Ə.Ağaoğluin məşhur islam mütəfəkkiri Şeyx Cəmaləddin Əfqani ilə görüşməsi onun dünyagörüşünə təsirsiz qalmamışdır.

Həmin ildən Bakı qubernatorluğunda məmur işləməklə yanaşı, ayrı-ayrı mətbuat orqanlarında publisist yazıları ilə çıxış edən Ə.Ağaoğlu çar hökümətindən türk dilində «Məşriq» adlı qəzet çıxarmağı xahiş etsə də, onun xahişi rədd olunmuşdur.

1896-cı ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Şuşaya qayıdan Əhməd bəy realni məktəbdə fransız dili müəllimi işləmişdir. O, müəllimlik etməklə yanaşı, Şuşa şəhərində yeni tipli qiraətxana-kitabxananın yaradılmasında mühüm rol oynamışdır.

Ə.Ağaoğlu 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gələrək realni məktəblərdə fransız dili dərsi deməklə yanaşı, «Kaspi» qəzetində əməkdaşlıq etmişdi. Ədibin özünün qeyd etdiyi kimi, bu illərdə onun başlıca məqsədi həmvətənlərinin qəlbində türkçülük duyğusunu qabartmaq, onlarda «osmanlılıq hissiyyatı oyandırmaq», «Osmanlı türklərinə rəbt etmək idi».

Ə.Ağaoğlu 1905-ci ildə Ə.Hüseynzadə ilə birlikdə H.Z.Tağıyevin vəsaiti ilə nəşr edilən «Həyat» qəzetinə redaktorluq etmişdir. O, 1905-ci ilin dekabr ayından nəşrinə başladığı «İrşad» qəzetinin sahibi və redaktoru olmuşdur. Ə.Ağaoğlu qəzetin epiqrafı üçün «hürriyyət», «müsavat», «ədalət» sözlərini seçmiş və yazılarında həmin ideyaları təbliğ etmişdir. O, «İrşad» qəzetinin birinci nömrəsində «Qəzetimizin məsləki» adlı məqaləsində yazırdı: «Başqa xalqlar irəli getdiyi halda....biz müsəlmanlar uzun sürən yuxudan min ildən bəri başımıza, dilimizə, ağzımıza, əqlimizə, qəlbimizə, xəyalımıza və fikrimizə döyülən sillə və yumruqlar sayəsində şimdi baş qalxızıb, yoldaşları getmiş görüb, özümüzü...səhrada tək-tənha görüb mat və məətəl bir-birimizə deyirik: «Nə çox yatmışıq. Qəzetimizdə yuxuya yatıb qalmağımızın səbəbini bəyan edəcək, millətimizi qəflət yuxusundan oyanıb karvan dalınca sürətlə getməyə dəvət edəcəyik. Sübh sadiq xoruzu kimi biz daima bu nəğməni virdən edəcəyiz: Oyanın, oyanın ey qəflət yuxusuna uyanlar!..»..

Məqalədə çarizmin milli siyasəti tənqid olunur, göstərilir ki, «gərək müsəlmanlar da məktəblər, mədrəsələr açsınlar, xeyriyyə cəmiyyətləri, məsləhət məclisləri təşkil etsinlər», «sürətli tərəqqi yolu ilə başqalarına» çata bilsinlər. Ə.Ağaoğlu bütün müsəlman qələm və elm adamlarına millət adından müraciət edib yazırdı: «Bu qəzet bir-iki və ya bir neçə adamın deyil, bu, bir millətin ruznaməsidir, hər kəsin millət və insaniyyət yolunda hər nə tövhəsi varsa gətirsin, kamal-məmnuniyyətlə qəbul olunacaq və heç kəs üçün təfavüt qoyulmayacaqdır».

«Qəzetimizin məsləki» adlı məqaləsində Ə.Ağaoğlu fikrinə yekun vuraraq yazırdı: «Budur o xalis və pak niyyətlər ki, qəzetimiz onlara qulluq edəcək, biz müsəlmanları həmvara ittifaq və ittihada, elm və maarifə, tərəqqi və təaliyə, həqq və həqqaniyyətə dəvət edəcəyiz, bizim qeyri bir qəsdimiz yoxdur».

Əhməd bəy Ağaoğlu öz məsləkinə müvafiq olaraq «qəzetimizin məsləki» adlı məqaləsində verdiyi vədlərə

sadiq qaldı. «İrşad» qəzeti məktəb, maarif, müəllimlər və onların vəzifələri, ailə və məişət, Dövlət Duması və s. məsələlər haqqında marifçilik, milli mənafe mövqeyindən məqalələr çap edir, çarizmin milli müstəmləkəçilik siyasətini, rəsmi dövlət ruhaniliyini tənqid edirdi. Qəzetin səhifələrində əsas diqqət «ittihadi islam», «türk aləmi», türkçülük, xalqın əsarətdən xilas edilməsində demokratik ruhlu aydınların rolu və vəzifələri və s. məsələlərə yönəldilir, bu məsələlərin təbliği yolunda Əhməd bəy Ağaoğlu geniş fəaliyyət göstərirdi.

1905-ci ildə erməni daşnaklarının gizli şəkildə silahlandıqlarını, onların çarizm tərəfindən himayə edildiyini Azərbaycanın aydınları, o cümlədən Ə.Ağaoğlu hiss edirdilər. 1905-ci ilin əvvəllərində Bakıda «erməni-müsəlman davası» baş verəcəyi barədə şaiyələr gəzirdi. Fevralın əvvəllərində bu şayiələr həqiqətə çevrildi. Fevralın 6-da Bakıda ilk erməni hücumu başladı və fevralın 10-dək davam etdi. Toqquşma zamanı 130 azərbaycanlı, 170 erməni öldürüldü, 400 nəfər yaralandı. Ermənilərin fevral məğlubiyyəti ilə əlaqədar M.S.Ordubadi yazırdı: «...Ermənilərin əvvəlki təşəbbüs və tədarüklərinə baxdıqda belə, məğlubiyyətə insan son dərəcə təəccüb qalır. Zənnimcə, həmin bu məğlubiyyətə ermənilərin özləri səbəb olmuşlar. Belə ki, müharibədən qabaq bir sıra xırda-para işlərlə müsəlmanları duyuq salıb özlərinin nə xəyalda olduğunu layiqincə islamlara bildirdilər. Müsəlmanlar da ermənilərin bu fikrini başa düşüb özlərinin mühafizə qayğısına qalıblar.»..

Fevral hadisələri zamanı azərbaycanlıların özlərini mühafizə etmələrində, ermənilərin məğlub olmalarında bu hadisələrin əsl mahiyyətini saxtalaşdıran rus və erməni mətbuatının ifşa edilməsində Ə.Ağaoğlu müstəsna xidmətlər göstərdi. Onun 1905-ci ilin aprel ayında «Sankt-



Peterburqskie Vedomosti» qəzetində nəşr edilmiş yazıları, xüsusilə «Bakı hadisələri haqqında həqiqət» məqaləsi bu işdə böyük rol oynadı. Ə.Ağaoğlu yazırdı: «Bu məsələdən danışarkən erməniləri günahsız bir quzu, müsəlmanları isə onların qanından həzz alan vəhşi heyvan şəklində qələmə verməyə çalışırlar. Və bu aydın məsələdir ki, ermənilərin hər yerdə adamları var».

Erməni-müsəlman davası zamanı Qafqazda münaqişələrin getdikcə dərinləşməsini tənzimləmək üçün 1906-cı ilin fevralında Tiflisdə Qafqaz canişini Vorontsov-Daşkovun sarayında onun rəhbərliyi ilə erməni-müsəlman sülh məclisi açıldı. Məclisdə canişin müavinləri, Tiflis, İrəvan, Yelizavetpol qubernatorları, Krım Soltanı, erməni-azərbaycanlı nümayəndələri və başqaları iştirak edirdilər.

Azərbaycan nümayəndələri içərisində Əhməd Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Ələkbər bəy Xasməmmədov, Məhəmməd bəy Şahmalıyev və başqaları var idi. Müzakirələr zamanı Əhməd Ağaoğlu öz çıxışında qeyd etdi ki, biz Qafqaz camaatı qəribə bir vəziyyətə düşmüşük. Bir dəstə erməni terrorçusu hamını qorxu altında saxlayır. Camaat və rəsmi dövlət adamları həmişə qorxu içərisindədirlər. Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insaf ilə iş görmürlər. Əhməd Ağaoğlu təkidlə erməni terroruna son qoyulmasını tələb etdi və bildirdi ki, Qafqazda, o cümlədən ermənilərlə müsəlmanlar arasında sülh bir çox cəhətdən erməni terrorunun aradan qaldırılmasından çox asılıdır. Məclis çar hökümətini Qafqazda terrorun qarşısını almağa çağıran qətnamə qəbul etdi. Həmin qətnamənin qəbul edilməsində Əhməd Ağaoğlunun qətiyyətli mövqeyi böyük rol oynadı.

1906-cı ilin payızında Əhməd Ağaoğlu tərəfindən

«Difai» partiyasının əsası qoyuldu. Partiyanın üzvlərinin sayı 1000 nəfərdən çox idi və Azərbaycanda, Qafqazda, Türkiyənin bəzi vilayətlərində onun şöbələri fəaliyyət göstərirdi. Partiya erməni terroruna qarşı Azərbaycan xalqının müdafiəsində, daşnaklara hər vasitə ilə yardım göstərən yüksək vəzifəli çar çinovniklərinə qarşı terror tətbiq edilməsində mühüm rol oynamışdır.

Ə.Ağaoğlu 1906-cı ilin 16-21 avqustunda Nijni-Novqorodda keçirilən Ümumrusiya müsəlmanlarının III qurultayında iştirak etmişdir.

Bu dövrdə «İrşad» qəzetinin redaktoru kimi fəaliyyət göstərən Ə.Ağaoğlu 1908-1909-cu illərdə «Tərəqqi» qəzetini redaktə etmişdir. O, bu qəzetə paralel surətdə rusca «Proqress» adlı qəzet buraxmışdır ki, radikal siyasi mövqeyinə görə qəzetin nəşri çar hakim dairələri tərəfindən dayandırılmışdır.

1909-cu ildə İstanbula mühacirət edən Ə.Ağaoğlu «İttihad və tərəqqi» cəmiyyətinin fəal üzvlərindən birinə çevrilmişdir. Bu dövrdən başlayaraq, Türkiyə mühitinin təsirilə get-gedə öz islamçı məsləkindən uzaqlaşmış, türkçülük hərəkatının fəal liderlərindən birinə çevrilmişdir. O, Z.Göyalp, Ə.Hüseynzdə, Y.Akçuraoğlu, M.Ə.Rəsulzadə ilə birlikdə fəaliyyət göstərmiş, «Türk ocağı»-nın əsasını qoymuş, həmin cəmiyyətin orqanı oln «Türk yurdu» dərgisini nəşr edənlərdən biri olmuşdur.

Ə.Ağaoğlu İstanbuldakı bu dövr fəaliyyətilə əlaqədar olaraq etiraf edir ki, Rusiya müsəlmanları aləminə, xüsusilə Qafqaza türkçülük təbliğatı aparmaq üçün müəyyən qədər Osmanlı aydın göndərmişdir.

O, 1910-1914-cü illərdə «Siratül-müstəqim», «Xalqa doğru», «Türk yurdu» kimi mətbuat orqanlrında məqalələri ilə çıxış etmişdir. Bir müddət «Tərcümani-həqiqət» qəzetinin redaktoru olmuşdur. Ə.Ağaoğlu Qars şəhərindən



Türkiyə Böyük Millət Məclisinə üzv seçilmiş, İstanbul universitetində rus dili və ədəbiyyatından, hüquq tarixindən dərs demişdir.

1915-ci ildə Ə.Ağaoğlu Rusiyada azlıqda qalan millətlərin Lozannada keçirilən konfransında iştirak etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra, 1918-ci ildə Türkiyə ordusunun siyasi müşaviri sifətilə Bakıya gələn Əhməd bəy müstəqil Azərbaycan dövlətinin quruculuğunda yaxından iştirak etmişdir. O, Azərbaycan parlamentinə üzv seçilmiş, sonra isə parlament sədrinin müavini vəzifəsini tutmuşdur. Həmin dövrdə o, Gəncədə qısa bir müddətə «Türk sözü» qəzetinə redaktorluq etmişdir.

1919-cu ildə Paris Sülh Konfransına Azərbaycan nümayəndə heyətinin tərkibində Fransaya gedən Ə.Ağaoğlu Türkiyədə «İttihad və tərəqqi» cəmiyyətinin bir sıra fəalları ilə birlikdə ingilis müstəmləkəçiləri tərəfindən həbs olunaraq Malta adasına sürgün olunmuşdur.

Türkiyənin Cümhuriyyət elan edilməsindən sonra Ə.Ağaoğlu mətbuat və xəbərlər idarəsinin rəisi, «Hakimiyyəti-milliyyə» qəzetinin redaktoru vəzifələrində çalışmış, İstanbul və Ankara universitetlərində türk hüquq tarixi fənnindən mühazirələr oxumuşdu. O, burada siyasi fəaliyyətini də davam etdirmiş, «Xalq Cümhuriyyət Partiyası»nın və «Xalq Partiyası»nın yaradıcılarından biri olmuşdur.

Eyni zamanda yaradıcılıqla ardıcıl şəkildə məşğul olan Ə.Ağaoğlu bir-birinin ardınca xeyli kitab nəşr etdirmişdir. Əsərlərinin bir qismini isə onun vəfatından sonra oğlu Səməd Ağaoğlu çap etdirmişdir. Bu əsərlər sırasında «Üç mədəniyyət» (İstanbul, 1927), «Hindistan və İngiltərə» (İstanbul, 1929), «Sərbəst insanlar ölkəsində» (İstanbul, 1936), «Dövlət və fərd» (İstanbul, 1936), «Türk təş-

kilatı-əsasiyyəsi» (Ankara, 1925-1929), «Türk hüquq tarixi» (İstanbul, 1931-1933), «Mən nəyəm?» (İstanbul, 1936), «İran və inqilabı» (Ankara, 1941-1942), «Könülsüz olmaz» (Ankara, 1941-1942), «İxtilalmı, inqilabmı»? (Ankara, 1941-1942), «Sərbəst firqə xatirələri» (İstanbul, 1950) xüsusilə diqqətəlayiqdir.

Ə.Hüseynzadə və Ə.Ağaoğlunun Türkiyəyə mühacirət etməsi Azərbaycan mətbuatında çox böyük sarsıntıya səbəb oldu. Görkəmli jurnalist Ə.müznib bu münasibətlə yazırdı: «Bu yeddi-səkkiz ildə nəşr olunan qəzetlərin yazıçılarından möhtərəm Əlibəy Hüseynzadə ilə Əhmədbəy Ağaoğlu cənabları müstəsnadır... Onlar mətbuat aləmində fövqəladə bir məharət göstərib, Qafqazdakı türk balalarına türkçülüyü bildirdi, həsəb-nəsibini ögrətdi, oba və əcdadını ögrətdilər. Onların getməsi Qafqaz əhalisini başsız, böyüksüz buraxmış kibidir, çünki o cənablar dilsizlərin dili, korların gözü, karların qulağı idilər. Müxtəsər bir bölük maarif yetimi olan Qafqaz müsəlmanlarının ataları idi».

Əhməd Ağaoğlu 50 ildən çox publisistika ilə məşğul olmuş və ömrünün sonuna qədər qələmini yerə qoymamışdır. Onun ilk məqaləsi «Dünyanın şahı» dərvişə, son məqaləsi Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkə həsr olunmuşdur. Əhməd bəy Ağaoğlu yarım əsrdə siyasət adamına qədər yüksəlmiş, Mustafa Kamal Atatürkün ən yaxın dostlarından biri, onun sağ əli olmuşdur. Atatürk onun biliyinə, bacarığına heyran idi və onun haqqında deyirdi ki, «Bu qafa ancaq türkdə ola bilər».

Ə.Ağaoğlu dünyanın bir çox xalqlarının dillərini mükəmməl bilir, beş dildə sərbəst yazıb yaradırdı. O, Bakıda, İstanbulda və Ankarada azərbaycan, rus və fransız dillərində nəşr olunan qəzetlərin redaktoru və ən fəal əməkdaşlarından biri olmuşdur. Özü etiraf etmişdir ki, «yazdıqlarımı yan-yana düzsələr, Bakıdan İstanbula çatar». Sağlığında 20-dən çox kitabı sensasiya doğuran onlarla elmi əsər çap etdirmiş, müasirləri içərisində «böyük fikir adamı», «cəsur insan», ən başlıcası isə «türkçülüyün öndərlərindən biri» kimi tanınmışdır. Əhməd bəy Ağaoğlunun əsərlərinin toplanıb nəşr edilməsi, tədqiq edilməsi, onun zəngin və çoxcəhətli ictimai-siyasi və publisistik fəaliyyətinin obyektiv şəkildə öyrənilməsi və xalqa çatdırılması müasir tarix elmimizin qarşısında duran mühüm vəzifələrdən biridir.

Azərbaycan milli istiqlal hərəkatı tarixində Ə.Topçubaşovun da xüsusi rolu olmuşdur. İstedadlı alim, görkəmli ictimai-siyasi xadim olan Əlimərdan bəy Topçubaşov 1862-ci ildə Tiflisdə anadan olmuşdur. Orta təhsilini Tiflis gimnaziyasında almış, sonra isə Peterburq universitetinin hüquq fakültəsinə daxil olaraq, 1888-ci ildə həmin universitetin məzunu olmuşdur. Universiteti fərqlənmə diplomu ilə bitirdiyinə görə, xristianlığı qəbul etmək şərti ilə onu universitetdə müəllim saxlamaq istəmişlərsə də, o, bu təklifi qətiyyətlə rədd etmişdir. Universiteti bitirdikdən sonra Bakıya gələn Ə.Topçubaşov Həsən bəy Zərdabinin qızı Pəri xanımla evlənərək ailə qurmuşdur.

Ə.M.Topçubaşov 1898-ci ilin iyun ayının 24-dən başlayaraq H.Z.Tağıyevin vəsaiti ilə rus dilində nəşr edilən «Kaspi» qəzetinə redaktorluq etməyə başladı. «Kaspi» mətbəəsini H.Z.Tağıyev 1895-ci ildə 57 min manata satın almış, qəzetin naşirliyini də öz öhdəsinə götürmüşdü. Mətbəə və qəzetin H.Z.Tağıyevin ixtiyarına keçməsi Bakı quberniyası jandarm idarəsini ciddi narahat etmişdi. Bu idarənin rəisinin 1898-ci il yanvarın 13-də Mətbuat İşləri Baş İdarəsinin rəisinə yazdığı məktubda deyilirdi : «Yerli xadim H.Z.Tağıyev təhsilsiz olmasına baxmayaraq, təbiətən qeyri-adi istedada malikdir, şəhərdə nəinki müsəlman-

lar, həmçinin digərlər arasında çox böyük nüfuzu var. Odur ki, yeganə «Kaspi»nin nəşrini və redaktorluğunu tatarların (azərbaycanlıların – X.M.) əlinə vermək olmaz. Müsəlmanların başçısı, kapitalist H.Z.Tağıyevin himayəsi altında qəzet, hiss etdirmədən, üzgörəlik sayəsində arzuolunmaz meyllər həyata keçirməyə başlaya bilər. Həm də nəzərə almaq vacibdir ki, yerli idarə ikinci bir gündəlik nəşrə icazə vermək niyyətində də deyildir».

H.Z.Tağıyev 1898-ci ilin yanvarından mətbəəni və qəzeti Ə.M.Topçubaşova icarəyə verdi. «Kaspi» Ə.M.Topçubaşova icarəyə verildikdən sonra təxminən 6 ay müddətində mətbəənin və qəzetin işini yenidən qurmaq üçün xeyli iş görüldü. Qəzetin redaksiyası və idarəsi yeni binaya – Nikolayevski küçəsindəki H.Z.Tağıyevə məxsus binaya köçürüldü. 1898-ci il iyunun 24-dən «Kaspi» qəzeti Ə.M.Toçubaşovun redaktorluğu ilə çıxmağa başladı. Bu münasibətlə qəzetin həmin sayında redaktorun müraciəti dərc edilmişdi. Müraciətdə Bakıda, Qafqazda, Orta Asiyada əhalinin yaşayışı, adət-ənənələri, həyatı, etiqadı ilə bağlı məsələlərə tarixi gerçəklik zəminində baxılacağı «Kaspi»nin yeni redaktoru tərəfindən vəd edilirdi.

Həmin dövrdə Azərbaycanda ana dilində mətbuat olmadığına görə, milli aydınlar qəzetin ətrafına toplanır, öz yazılarını «Kaspi» qəzetinin səhifələrində dərc etdirirdilər. «Kaspi» qəzetinin səhifələrində millətçilik ruhunda yazılar getdikcə artırdı. Ə.M.Topçubaşovun redaktorluq etdiyi dövrdə «Kaspi» qəzeti rus dilli, milli fikirli, milli düşüncəli mətbuat orqanına çevrildi. XX yüzilliyin astanasında Baxçasarayda İsmayıl Qaspralının «Tərcüman»ı, Bakıda Ə.M.Topçubaşovun «Kaspi»si milli ideyaların başlıca müzakirə mərkəzlərinə çevrilmişdilər.

«Kaspi» qəzetinin səhifələrində maarifə, mədəniyyətə, elmə, texnikaya, siyasi hadisələrə, həmçinin gündəlik həyata çarizmin milli müstəmləkəçilik siyasətinin tənqidinə dair yazılar üstünlük təşkil edirdi. «Kaspi» redaksiyası Qafqazda, Rusiyada və bir sıra xarici ölkələrdə nəşr edilən mətbuat orqanlarını müntəzəm alırdı. Müsəlman mətbuatına dair icmallar xüsusilə diqqətlə hazırlanırdı.

XX yüzilliyin ilk illərində Ə.M.Topçubaşov Azərbaycandakı yeniləşmə hərəkatının önündə gedən aydınlardan biri idi. O, «Kaspi» qəzetinin səhifələrində Bakıda türk qızları üçün məktəb açılmasının zəruri olduğunu dəfələrlə qeyd etmişdi. H.Z.Tağıyevin gərgin səyi və maddi vəsaiti, Hənifə xanım Məlikovanın müdirliyi ilə 1901-ci ildə Bakıda nəinki diyarda, hətta Rusiya imperiyasında birinci olaraq müsəlman qızları üçün məktəb açıldı.

Ə.M.Topçubaşov H.Zərdabi və Fərrux bəy Vəzirovla birlikdə məktəbin 3 hamisindən biri idi. Məktəbin açılışında, onun işinin qurulmasında, fəaliyyətinin təbliğində Ə.M.Topçubaşov böyük xidmət göstərmişdir.

Ə.M.Topçubaşov Əhməd Ağaoğlu ilə birlikdə Bakıda türk dilində qəzet çıxarılması sahəsində ciddi çalışırdı. Onların təkidi ilə H.Z.Tağıyev 1902-ci ildə Bakıda türkcə qəzet nəşr etmək xahişi ilə çar hökümətinə müraciət etmiş, lakin rədd cavabı almışdı.

1903-cü ildə Tiflisdə M.A.Şahtaxtlının gərgin əməyi sayəsində türkcə «Şərqi-Rus» qəzetinin nəşrinə başlaması milli aydınların toplaşdığı Bakı şəhərində böyük coşğunluq hissi ilə qarşılanmışdı. «Tərcüman», «Kaspi», «Şərqi-Rus», 1905-ci ildən nəşrə başlayan «Həyat» qəzetləri rus imperatorluğunda yaşayan türk aydınlarının başlıca tribunasına çevrilmişdilər. 1905-ci il iyulun 20-də Qafqaz senzura komitəsinin çar canişininə yazdığı məlumatda deyilirdi ki, «Panislamist partiyası artıq Qafqazda iki mətbuat

orqanına malikdir: rus dilində «Kaspi», tatar dilində «Həyat».

1905-ci il avqustun 15-də Nijni-Novqorodda, 1906-cı il yanvarın 13-dən 23-dək Peterburqda, avqustun 16-dan 21-dək yenidən Nijni-Novqorodda keçirilən Ümumrusiya müsəlmanlarının qurultayları Ə.M.Topçubaşovun təşəbbüsü, ciddi hazırlığı və bilavasitə rəhbərliyi altında keçirilmişdir. O, qurultaylarda Mərkəzi Komitənin sədri seçilmişdir.

Ə.M.Topçubaşov 1906-cı il aprel ayının 27-də Peterburqda açıln I Dövlət Dumasına Bakı quberniyasından üzv seçilmişdir. Siyasi fəaliyyətlə ardıcıl məşğul olan Ə.M.Topçubaşov «Xalq Azadlığı» partiyasının sol cinahına mənsub idi.

İctimai-siyasi fəaliyyətlə məşğul olan və müstəmləkə xalqlarının hüquq və azadlıqları uğrunda yorulmaz mübarizə aparan Ə.M.Topçubaşovu çar hökuməti daim təqib etmiş, nəzarət altında saxlamışdır.

Ə.M.Topçubaşov Azərbaycan Xalq Cümhuriyyəti illərində məsul vəzifələrdə çalışmışdır. 1918-ci ilin avqust ayında Fətəli Xoyskinin baş nazir olduğu II kabinədə xarici işlər naziri vəzifəsini tutmuşdur. Elə həmin dövrdən Türkiyəyə göndərilən Ə.M.Topçubaşovun İstanbulda «Azərbaycanın təşəkkülü» kitabı nəşr edilmişdir.

Ə.M.Topçubaşov Türkiyədə ikən 1918-ci il dekabr ayının 7-də Bakıda açılan Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilmişdir. Ə.M.Topçubaşov İstanbulda olarkən Azərbaycanın istiqlaliyyəti uğrunda ardıcıl olaraq mübarizəsini davam etdirmişdir. O, 1919-cu ildə açılmış Paris Sülh Konfransında iştirak edən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin rəhbəri olmuşdur. Ə.M.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndəliyinin sülh konfransı ərəfəsində fransız və ingilis



dillərində nəşr etdirdikləri «Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu», «İlk müsəlman Cümhuriyyəti Azərbaycan» kitabları Azərbaycan Xalq Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınmasında mühüm rol oynamışdır. Azərbaycan Cümhuriyyətinin süqutundan sonra Ə.M.Topçubaşov Parisdə yaşamış, özünün ictimai-siyasi mübarizəsini, yaradıcılığını burada davam etdirmişdir. O, Avropada fəaliyyət göstərən müxtəlif siyasi mühacir təşkilatları ilə əlaqə saxlamış, ayrı-ayrı mətbuat orqanlarında dərin məzmunlu yazıları ilə çıxış etmişdir.

Ə.M.Topçubaşov 1934-cü il noyabrın 5-də Paris yaxınlığındakı Sen-Klu şəhərciyində vəfat etmiş və Sen-Deni qəbiristanlığında dəfn olunmuşdur.

Ə.M.Topçubaşov Azərbaycan xalıqının arzu və ideallarını həyata keçirmək uğrunda ciddi, səmərəli fəaliyyət göstərmişdir. Qeyd etmək lazımdır ki, onun mübarizəsi yalnız Azərbaycan xalqının milli, dini və ictimai-siyasi problemləri ilə məhdudlaşmırdı. O, Kazan, Krım, Türküstan, Dağıstan və Şimali Qafqaz vilayətlərində yaşayan müsəlmanların azadlığını, az da olsa siyasi hüquqlara nail olmasını, müsəlmanların birləşərək öz azadlıqları uğrunda mübarizə aparmalarını istəyirdi və bunun üçün də yorulmadan çalışırdı.

Görkəmli hüquqşünas, ictimai-siyasi xadim, jurnalist və redaktor, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri, Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov mənalı, çətin və şərəfli bir həyat yolu keçmişdir. M.Ə.Rəsulzadə yaxından tanıdığı məslək və əqidə dostu Ə.M.Topçubaşov haqqında yazırdı: «Əli Mərdan bəy heç şübhəsiz Mirzə Fətəli, Həsən bəy və İsmayıl bəy Qaspralı mirzələrin canlandırdıqları milli kültür hərəkatını Milli Qurtuluş yoluna

çəkən böyük mücahidlərdəndir. Fəqət, Əli Mərdan bəyi bu üç ustaddan olduğu kimi, müasiri sayılan digər bəzi ideoloqlardan ayıran bir şey vardır ki, mərhumun xüsusiyyətlərini təşkil edir.

Əli Mərdan bəy yürütdüyü siyasətin fikirçisi olmaqdan ziyadə, işçisi idi. Onun bütün həyatı təbliğatda, həm də milli davanın vəkilliyi kimi məsuliyyətli işlərin təbliğatında keçmişdir. Nəşriyyatda çalışması ilə bir ideya, bir ideoloji propaqanda yapmaqdan ziyadə, müəyyən praktik məsələni müdafiədən ibarət olmuşdur».

Azərbaycan milli İstiqlal hərəkatı tarixində müstəsna rolu olan Məhəmməd Əmin Rəsulzadə zəngin və mürəkkəb həyat yolu keçmişdir. O, 1884-cü ilin yanvar ayının 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Atası Axund Hacı Molla Ələkbər Rəsulzadə dövrünün tanınmış din xadimlərindən olmuşdur. M.Ə.Rəsulzadə ilk təhsilini atasından almış, bunun ardınca S.M.Qənizadənin direktor olduğu II rus-tatar məktəbində oxumuşdur. Sonralar o, Bakı texniki məktəbinə daxil olmuş, lakin burada təhsilini yarımçıq buraxaraq, ictimai-siyasi fəaliyyətə başlamışdır.

Əmək fəaliyyətinə «Kaspi» qəzeti mətbəəsində mürəttib kimi başlayan ədibin ilk yazısı 1903-cü ildə M.A.Şaxtaxtlının redaktorluğu ilə Tiflisdə nəşr olunan «Şərqi-Rus» qəzetində çap olunmuşdur.

M.Ə.Rəsulzadə 1902-ci ildə 18 yaşında ikən Azərbaycanda ilk milli siyasi təşkilat olan «Müsəlman demokratik gənclər ittifaqı»nı yaratmışdır. 1904-cü ilin sonlarında Bakıda fəaliyyətə başlayan «Hümmət» təşkilatı məhz bu cəmiyyətin əsasında yaradılmışdır. Məhəmməd Əmin bəy «Hümmət» təşkilatının yaradılmasında yaxından iştirak etmiş, həmin təşkilatın orqanı olan eyni adlı qəzetdə redaktorluq etmişdir.

Birinci rus inqilabının gətirdiyi mülayim ab-havadan bəhrələnən M.Ə.Rəsulzadə ictimai-siyasi fəaliyyətlə yanaşı, bədii-publisist yazıları ilə «Həyat», «İrşad», «Tərəqqi», «Füyuzat», «Təkamül», «Yoldaş» və başqa qəzet və jurnallarda ardıcıl olaraq çıxış etmişdir. O, bir müddət «Təkamül» qəzetinin baş redaktoru da olmuşdur.

XX əsrin əvvəllərində Stalin, Orconikidze, Kalinin, Vışinski kimi sosial-demokratlarla birlikdə çalışan M.Ə.Rəsulzadə təxminən 1906-cı ilin sonlarına qədər «Hümmət» təşkilatı sıralarında fəaliyyətini davam etdirmişdir. 1907-ci ildə M.Ə.Rəsulzadə A.Blyumun «Fəhlə sinfinə nə tövr azadlıqlar gərək (Camaat nümayəndəliyi barəsində)» əsərini Azərbaycan dilinə tərcümə edərək nəşr etdirmişdir. Həmin əsərdə sosial-demokratizm ideyaları təbliğ olunurdu.

Stolıpin irticası dövründə «Hümmət» təşkilatının bir sıra üzvləri həbs olunmuş, digərləri isə sürgün edilmişdi. M.Ə.Rəsulzadə də İrana sürgün edilənlər sırasında idi.

1909-cu ilin əvvəllərindən ictimai-siyasi fəaliyyətini İranda davam etdirən M.Ə.Rəsulzadə məşrutə hərəkatında yaxından iştirak etmiş və həmin ildə Tehranda «İrani-nou» qəzetinin əsasını qoymuşdur.

1911-ci ilin may ayının sonlarında Tehrandakı rus səfarətinin təzyiqi ilə İranı tərk etməyə məcbur olan M.Ə.Rəsulzadə Türkiyəyə getmiş və fəaliyyətini İstanbulda davam etdirmişdir. İstanbulda yaşadığı illərdə o, «İttihad və tərəqqi» cəmiyyətinin fəalları Z.Göyalp, Y.Akçuraoğlu, Ə.Hüseynzadə, Ə.Ağaoğlu ilə yaxından əlaqə saxlamış, ictimai-siyasi fəaliyyətini onlarla birgə davam etdirmişdir. O, eyni zamanda «Türk ocağı» ilə yaxından əlaqə saxlamış və cəmiyyətin orqanı olan «Türk yurdu» jurnalında əməkdaşlıq etmişdir.

M.Ə.Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilmiş əfv-ümumidən istifadə

edərək Azərbaycana qayıtmışdır. Bakıya qayıtdıqdan sonra «Müsavat» partiyasına daxil olan M.Ə.Rəsulzadə tezliklə onun liderinə çevrilmişdir. 1915-ci ilin oktyabr ayının 2-dən nəşr olunmağa başlayan «Açıq söz» qəzetinin redaktoru olmuşdur.

M.Ə.Rəsulzadə 1917-ci ildə Azərbaycan milli hərəkatının düzgün istiqamətləndirilməsində mühüm rol oynamışdır. O, 1917-ci ilin aprel ayında Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında, may ayında isə Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında məruzə ilə çıxış etmişdir. Məhz M.Ə.Rəsulzadənin təklifi ilə qurultay Rusiyanın federativ əsaslarla – milli ərazi muxtariyyəti prinsipi ilə qurulması təklifini qəbul etmişdir. Bu dövrdə Rusiya Müəssisələr Məclisinə üzv seçilən M.Ə.Rəsulzadə Oktyabr hadisələrindən bir az sonra qəti olaraq Azərbaycanın istiqlaliyyəti ideyasının reallaşdırılması uğrunda mübarizəyə başlamışdır. Oktyabr çevrilişindən sonra o, Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak və Seymin müsəlman fraksiyasına rəhbərlik etmişdir.

Zaqafqaziya Seymi buraxıldıqdan sonra 1918-ci il may ayının 27-də Azərbaycan Milli Şurası yaradılmış və M.Ə.Rəsulzadə sədr seçilmişdir.

M.Ə.Rəsulzadənin gərgin əməyi sayəsində qısa müddət ərzində Azərbaycanda milli pul dövriyyəyə buraxılmış, dünyanın ən böyük dövlətləri ilə diplomatik əlaqələr qurulmuş, Qarabağ və Zəngəzur torpaqları erməni təcavüzkarlarından təmizlənmiş, iqtisadi sahədə ciddi islahatlara başlanmışdır. Bakı Dövlət Universitetinin təsis olunması da onun adı ilə bağlıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra M.Ə.Rəsulzadə bir müddət Lahıcda gizlənməyə məcbur olmuş və burada məşhur «Əsrimizin Siyavuşu» tarixi-



fəlsəfi əsərini yaratmışdır.

1920-ci ilin avqustunda həbs edilən M.Ə.Rəsulzadə bir müddət Bayıl həbsxanasında saxlanılmış, sonra isə İ.V.Stalinin yardımı ilə həbsdən azad olunaraq Moskvaya aparılmışdır. Moskvada ona bir sıra məsul vəzifələr təklif olunsa da o, bunlardan imtina etmiş, bir müddət Şərq komissarlığında tərcüməçi işləmiş, Moskva Dövlət Universitetində fars dilindən dərs demişdir.

1922-ci ilin yazında Petroqrad şəhərinə ezamiyyətə gedən M.Ə.Rəsulzadə tatar maarifçilərindən Musa Cərullah Bigiyevin yardımı ilə gizli yolla Finlandiyaya getmişdir. Bir ay Finlandiyada qaldıqdan sonra Ə.Topçubaşovun düzəltdiyi pasportla Fransaya, oradan da Türkiyəyə gedən Məhəmməd Əmin bəy 1923-cü ilin əvvəllərində «Yeni Qafqazya» jurnalının əsasını qoymuşdur. Bu, ilk Azərbaycan mühacirət mətbuatı idi. 1924-cü ildə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə İstanbulda Azərbaycan Milli Mərkəzi yaradılmışdır ki, həmin mərkəz başlıca olaraq iki məqsəd güdürdü: birincisi, Azərbaycan istiqlal mücadiləsini yürütmək, ikincisi isə milli mədəniyyətimizi təbliğ etmək.

İstanbulda yaşadığı illərdə M.Ə.Rəsulzadənin bir-birinin ardınca kitabları nəşr olunmuşdur. Onların içərisində «Azərbaycan Cümhuriyyəti», «Əsrimizin Siyavuşu», «İstiqlal məfkurəsi və gənclik», «Qafqazya türkləri», «Rusiyada siyasi vəziyyət» və başqalarını qeyd etmək olar.

«Yeni Qafqazya» jurnalının ardınca M.Ə.Rəsulzadə «Azəri-türk» (1928-1929), «Odlar yurdu» (1929-1931) jurnallarını və «Bildiriş» (1929-1931) qəzetini redaktə etmişdir. Həmin mətbuat orqanlarının səhifələrində onun Azərbaycanın tarixi və çağdaş dövrü ilə bağlı çoxlu sayda elmi-publisistik yazıları dərc olunmuşdur.

1931-ci ildə İ.V.Stalinin təzyiqi ilə türk-müsəlman xalqlarının mühacirləri Türkiyəni tərk etməyə məcbur olarkən, M.Ə.Rəsulzadənin başçılığı ilə Azərbaycan mühacirəti Polşaya sığınmışdır. Polşada yaşadığı illərdə M.Ə.Rəsulzadənin redaktorluğu ilə Berlində «İsitqlal» (1932-1934) və «Qurtuluş» (1934-1938) qəzet və jurnalları dərc olunmuşdur. O, 1936-cı ildə «Müsavat» partiiyasının Polşada qurultayını çağırmış və qurultay partiyanın yeni proqramını qəbul etmişdir. Partiyanın yeni proqramında real tarixi şəraitdən çıxış edilərək, milli təsanüd prinsipi əsas tutulmuşdur: «Müsavatçılıq» - böyük türk kültürünə bağlı milli, mədəni və insani dəyərlərini mənimsəyən, hürriyyət, Cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir».

1939-cu ildə Almaniyanın Polşanı istila etməsi ilə əlaqədar olaraq Rumuniyaya köçməyə məcbur olan M.Ə.Rəsulzadə ictimai-siyasi fəaliyyətini burada davam etdirmişdir. O, Türkiyənin Buxarestdəki səfiri Həmdullah Sübhinin yardımı ilə bir müddət bu şəhərdə yaşamış, «Azərbaycanın tarixi gəlişimi» və «Azərbaycan şairi Nizami» monoqrafiyalarını burada tamamlamışdır.

1942-1943-cü illərdə Hitler Almaniyasının təşəbbüsü ilə Azərbaycanın istiqlaliyyəti mövzusunda danışıqlar aparan M.Ə.Rəsulzadə bir nəticə əldə edə bilmədiyi təqdirdə, bu ölkəni tərk etməyə məcbur olmuş, 1947-ci ildən isə Türkiyəyə dönərək Ankarada yaşamışdır. O, 1949-cu ildə Ankarada «Azərbaycan kültür gələnəkləri», «Çağdaş Azərbaycan tarixi», «Çağdaş Azərbaycan ədəbiyyatı», «Azərbaycan şairi Nizami» (1951) kitablarını nəşr etdirmişdir. 1952-ci ildən «Azərbaycan» jurnalının əsasını qoyan M.Ə.Rəsulzadə ömrünün sonuna qədər onun redaktoru olmuşdur. O, Ankarada Azərbaycan kültür dərnəyinin əsasını qoymuş, «Müsavat» partiyasına rəhbərlik etmişdir.



M.Ə.Rəsulzadə 1955-ci ilin mart ayının 6-da Ankarada vəfat etmiş və Əsri qəbirstanlığında dəfn olunmuşdur. M.Ə.Rəsulzadə gənc yaşlarından siyasi hadisələr meydanına atılmış, xalqını müstəmləkə zülmündən qurtarmaq üçün yollar axtarmğa başlamışdır. 1902-ci ildə Azərbaycanda ilk milli siyasi təşkilatın əsasını qoyan M.Ə.Rəsulzadə bütün ömrü boyu siyasət meydanından ayrılmamışdır.

M.Ə.Rəsulzadə yaradıcılığa 1903-cü ildə «Şərqi-Rus» qəzetinə göndərdiyi təbrik məktubu ilə başlamışdır. «Öz idarəmizdən. Bakı» başlığı ilə dərc olunan bu yazıda ana dili problemi qoyulmuş, xalqın savadsızlığı və cəhaləti onun bəlalarının əsas səbəbi kimi şərtləndirilmişdir.

Ədib sonralar bir-birinin ardınca «Həyat», «Füyuzat», «İrşad», «İqbal», «Təkamül» qəzetlərində dərc etdirdiyi yazılarında azadlıq və hürriyyət fikirlərini ifadə etmiş, Rusiya imperiyasının millli siyasətini kəskin tənqid etmişdir.

1915-ci il oktyabr ayının 2-də nəşrə başlayan «Açıq söz» qəzeti səhifələrində ardıcıl olaraq silsilə yazıları ilə çıxış edən M.Ə.Rəsulzadə türkçülük və azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna xidmət göstərmişdir.

M.Ə.Rəsulzadə Azərbaycanda müsavatçılıq ideyalarının formalaşmasında mühüm rol oynamışdır. O, yazırdı: «Bundan sonra müstəqil və milli Azərbaycanın müqəddəratını sövqi-tarixlə idarəyə məmur olacaq partiyanın adı «Müsavat» olmaya bilər, fəqət o partiyanın müsavatçı olması zəruridir. Çünki müsavatçılıq qeyd etdiyimiz kimi, milliyyətçilik, türkçülük, vətənçilik, azərbaycançılıq, milli dövlətçilik, xalqçılıq, Cümhuriyyətçilik deməkdir».

Böyük siyasi xadim «Əsrimizin Siyavuşu» əsərində gəncliyə müraciətlə yazırdı: «Ey gənclik! Sənin öhdəndə

böyük bir vəzifə var: səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu bir müşkülatla ucaldaraq dedi ki, bir kərə yüksələn bayraq bir daha enməz!

Əlbəttə ki, sən onun ümidini qırmayacaq, bu gün parlament binası üzərindən azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya qazi və ya şəhid olacaqsan».

Azərbaycan milli hərəkatının inkişafında mühüm rol oynayan aydınlardan biri də Üzeyir Hacıbəyovdur.

Laikn çox təəssüf ki, Azərbaycanda opera janrının banisi, böyük bəstəkar, yazıçı, publisist Üzeyir bəyin ictimai-siyasi fəaliyyəti lazımınca öyrənilməmişdir. Ü.Hacıbəyov 1885-ci il sentyabr ayının 18-də Ağcabədidə anadan olmuşdur. O, ilk təhsilini Şuşada rus-tatar məktəbində almış, 1899-1904-cü illərdə isə Qori müəllimlər seminariyasını bitirmişdir. Təhsilini bitirdikdən sonra bir müddət Cəbrayıl qəzasının Hadrut kənd məktəbində pedaqoji fəaliyyətlə məşğul olan Üzeyir bəy eyni zamanda publisistika sahəsində fəaliyyət göstərmiş və özünün ciddi, sanballı məqalələri ilə Azərbaycan mətbuatının inkişafında mühüm rol oynamışdır.

1905-ci ildə Hadrutdan Bakıya gələn Üzeyir bəy «Həyat» qəzetində mürəttib işləməyə başlamışdır. Lakin o, bu müddətdə müəllimlik sənətindən də ayrılmamışdır. 1908-ci ilə qədər Bibiheybətdə pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı, publisistika sahəsində də qələmini işlədən Ü.Hacıbəyova Bakı mühiti, şəhərin ictimai-siyasi hadisələri təsirsiz qalmamışdır. Onun publisistik yazıları «Həyat», «Molla Nəsrəddin», «İrşad», «Tərəqqi», «İqbal», «Yeni iqbal», «Kaspi», «Tərcüman» və başqa qəzetlərdə dərc olunmuşdur. O, 1906-cı ilədək «İrşad»ın katibi olmuş, 1909-cu ildə «Həqiqət» və «Tərəqqi» qəzetlərinin



redaktoru olmuşdur. Ü.Hacıbəyovun mətbuat fəaliyyətinin son dövrü isə «Yeni iqbal» və «Azərbaycan» qəzetləri ilə bağlıdır. O, 1915-1916-cı illərdə «Yeni iqbal» qəzetində müdir və baş mühərrir işləmiş, 1919-cu ildə isə «Azərbaycan» qəzetinin redaktoru olmuşdur.

Ü.Hacıbəyov 1907-ci ildə M.Füzulinin poeması əsasında yazdığı «Leyli və Məcnun» mucam operası ilə təkcə Azərbaycanda deyil, bütün Şərqdə opera janrının əsasını qoymuşdur. Bunun ardınca «Şeyx Sənan», «Rüstəm və Söhrab», «Əsli və Kərəm», «Harun və Leyla», «Şah Abbas və Xurşudbanu» operalarını yaradan Üzeyir bəy eyni zamanda musiqili komediya sahəsində də qələmi sinayır. Onun «Ər və arvad», «Arşın mal alan», «O olmasın, bu olsun» operettaları bu sahədəki uğurlarını göstərməkdədir.

Ü.Hacıbəyov Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) illərində ciddi fəaliyyət göstərmişdir. O, bu dövrdə «Azərbaycan» baletini, «Milli Azərbaycan marşı»nı (Azərbaycan Himnini) və «Azərbaycan marşı»nı bəstələmişdir. Sovet hakimiyyəti illərində daha çox musiqi mədəniyyətimizin təbliği və tədqiqi ilə məşğul olan bəstəkar müxtəlif təhsil sistemli musiqi məktəblərinin açılması, Azərbaycan Dövlət Koservatoriyasının təşkil olunması, musiqi mədəniyyəti sahəsində kadrların yetişdirilməsində mühüm xidmət göstərmişdir. Bu illərdə o, bir-birinin ardınca «Azərbaycan xalq türk musiqi əsasları», «Azərbaycan musiqisinin inkişafı tarixi», «Azərbaycan xalq musiqisinin əsasları» və başqa ciddi tədqiqatlarını yazıb nəşr etdirmişdir.

Ü.Hacıbəyov 1948-ci ildə, 63 yaşında vəfat etmişdir.

XX əsr dünya musiqi mədəniyyətinin ən qüdrətli yaradıcılarından biri olan Ü.Hacıbəyov eyni zamanda fəal surətdə ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. İlk

yazılarını 1904-cü ildə «U» imzası ilə «Kaspi» qəzetində dərc etdirən Üzeyir bəy elə həmin illərdən də siyasət meydanına atılmış, özünün ciddi, kəsərli qələmi ilə xalqın oyanışında mühüm rol oynamışdır.

Ədibin «Bir tədbir lazımdır, ya yox?», «Dövlət Dumasının qurulması», «Biz hamımız qafqazlı balalarıyıq», «Vəkillərimiz nə tövr olmalıdır», «Dərin quyular», «Hökümət və millət», «Stolıpin və divani-hərb», «Rusiyaya dair», «Vəkil seçilməsi», «Cəmiyyət başçılarının nəzər-diqqətinə» və başqa məqalələri çarizmin və onun yerli əlaltılarının tənqidinə həsr olunmuşdur.

Ü.Hacıbəyov məqalələrində bir tərəfdən çar mütləqiyyətinin sürətlə çürüməsini, digər tərəfdən isə xalqın azadlıq mübarizəsini əks etdirmişdi: «Demək olar ki, indi Rusiya əhalisi Siyasət cəhətincə böyük bir qanacaq hasil edə bilibdir. Qanacaq sahibi dəxi azad və sərbəstanə dolanmağın yolunu bildəndən sonra heç vaxt öz başını təkrar əsarət kəməndinə salmaz...».

Ü.Hacıbəyov çarizmin milli ədavət siyasətini kəskin tənqid edir və göstərirdi ki, bu siyasətin mahiyyəti xalqın fikrini mövcud siyasi hadisələrdən, inqilabi azadlıq ideyalarından yayındırmaqdan ibarətdir. Onun fikrincə, milli ədavət siyasəti məzmunca «parçala və hökm sür» siyasətinə xidmət edir. Ədibin yazılarında Qafqaz xalqlarının dinc, mehriban yaşamaları təbliğ olunur, əsarətdən qurtarmağın yolu «ittifaq»da görülürdü. Lakin eyni zamanda o, erməni millətçilərinin iç üzünü açıb ifşa edir, onların çarizmin əlində oyuncağa çevrildiyini, siyasət qurbanı olduğunu xatırladırdı.

Ü.Hacıbəyov millətin oyanışı üçün maarif və mədəniyyətin mühüm rolunu görür və bunları özünün yazılarında təbliğ edirdi. Ədib «Biz nə vaxt qəflət yuxusundan oyanacağıq?» sualına belə cavab verirdi: «Mədəniyyət» sübhü açılıb, «mərifət» günəşi çıxandan sonra».



Azərbaycan Xalq Cümhuriyyəti illərində milli müstəqillik ideyalarının fəal təbliğatçılarından olan Ü.Hacıbəyov redaktoru olduğu «Azərbaycan» qəzeti səhifələrində dərc etdirdiyi məqalələrinin birində yazırdı: «Azərbaycan Xalq Cümhuriyyəti sağlam bir milliyyət fikri üzərində qurulmuşdur... Azərbaycan çağdaş bir cəmiyyət qurmağa, avropasayağı bir zehniyyətlə çalışmağa əzm etmişdir. Bayrağındakı üç rəng (mavi, qırmızı, yaşıl) üç ümdənin timsalıdır».

Göründüyü kimi, Azərbaycan aydınları XX əsrin əvvəllərində milli-siyasi proseslərdə fəal iştirak etmişlər. Lakin, Azərbaycan milli istiqlal hərəkatının istiqamətverici qüvvəsini təşkil edən aydınlar yalnız bu adlarla məhdudlaşmır. Şübhəsiz ki, gələcəkdə bu mövzunun geniş şəkildə araşdırılmasına ehtiyac vardır.

## *II Bölüm.* BİRİNCİ RUS İNQİLABI VƏ MİLLİ İSTİQLAL MÜBARİZƏSİNİN CANLANMASI (1905-1914-cü illər)

### *2.1. Birinci rus inqilabı və Azərbaycan milli-demokratik fikri.*

1905-ci ilin yanvar ayının 9-da başlanan birinci rus inqilabı qısa zaman ərzində Azərbaycanı da təlatümə gətirdi. 1905-ci ilin mart ayından başlayaraq Azərbaycan xalqının azadlıq mübarizəsi özünün yeni mərhələsinə daxil oldu. «1905-ci sənə inqilabından sonra bütün Rusiyada başlanan inqilab hərəkatı azərbaycanlıların geniş dairələrinə sirayət etdi. Bunlar dəxi hürriyyət və maarif yolunda ciddi surətdə çalışmağa başladılar. Min dürlü maneələrə rəğmən az-çox ictimai məsələlərə dair ədəbiyyat, ruznamələr, məcmuələr, tarixi, elmi və tədris kitabları nəşr olundu. Azərbaycan işçiləri siyasi firqələrdə ciddən iştirak edirdilər».

Birinci rus inqilabı Azərbaycan milli hərəkatının inkişafında mühüm rol oynamışdır. İnqilabın gətirmiş olduğu hürriyyət ab-havası imperiyanın sərt diktatura rejimini yumşaltdı, ölkədə söz, mətbuat azadlığı üçün müəyyən zəmin yaranmış oldu. Azərbaycan yazıçıları, publisistləri ana dilində mətbuat orqanı açmaq imkanı əldə etdilər. Çox keçmədən bir-birinin ardınca «Həyat», «Füyuzat», «Tərəqqi», «Təkamül», «İrşad», «İqbal» və başqa mətbuat orqanları nəşrə başladı. İnqilabın ab-havası siyasi partiyaların, cəmiyyətlərin, dərnəklərin fəaliyyəti üçün də şərait yaratmış oldu. I rus inqilabının dalğaları Azərbaycan xalqının milli oyanışına təkan verdi. 1905-1907-ci illər inqilabı kəndli hərəkatına da güclü təsir göstərdi. Bakı və Yelizavetpol quberniyalarınm ayrı-ayrı



qəzalarında yerli xan və bəylərlə yanaşı, çar idarə üsuluna qarşı mübarizə hərəkatı gücləndi. 1905-ci ildən I dünya müharibəsinə qədərki dövrdə Azərbaycan milli hərəkatının keçdiyi yol mürəkkəbliyi ilə seçilir. Azərbaycan sovet tarixşünaslığı bu mərhələni birtərəfli şəkildə işıqlandırdığı, mövcud tarixi prosesləri bolşevizmin adı ilə bağladığı üçün dövrün siyasi mənzərəsi təhrif olunmuşdur. Lakin aparılan tədqiqatlar göstərir ki, milli hərəkatın inkişafının yüksəliş mərhələsini təşkil edən bu dövrü yalnız hər hansı siyasi təşkilatın adı ilə bağlamaq mümkün deyil və problemin bu səpkidə araşdırılması həmin dövrün siyasi mənzərəsinə aydınlıq gətirə bilməz. M. B. Məmmədzadəyə görə XX əsrin əvvəllərində Azərbaycanda 3 ictimai-siyasi cərəyan mövcud olmuşdur; mürtəce mühafizəkarlar, millətçi liberallar və inqilabçı millətçilər.

Onun fikrincə bu 3 siyasi cərəyan ümumi şəkildə Azərbaycan ictimai-siyasi hərəkatının xətlərini müəyyənləşdirir. Mühafizəkarlar, başlıca olaraq din xadimlərindən ibarət idi. Çarizm onların əli ilə milli-demokratik hərəkatı boğmağa çalışır, müxtəlif vasitələrlə dinçiləri millətçilər üzərinə qaldırır, onların arasına nifaq salırdı. Milli hərəkata münasibətdə din xadimləri ilə çarizmin mövqeyi mahiyyət etibarı ilə bir-birindən o qədər də fərqlənmirdi. Onlar ictimai-siyasi proseslərdə milli təmayülü islam dünyasının parçalanmasının əsas səbəblərindən bir kimi rədd edirdilər. Lakin din xadimləri tərəfindən islam dininin hər hansı formada təbliği çarizmin yerlərdəki dayağını laxladırdı. Vəzifəyə başladığı dövrdə Qafqaz canişini Vorontsov-Daşkov din xadimlərinin təbliğatında antirus elementlərin mövcudluğunu müşahidə etmişdi. Canişinin fikrincə, din xadimləri Rusiya dövlətinin yardımı ilə təhsil görməli və hökumət əleyhinə təbliğat aparmaq əvəzinə

«hökumət alətləri olmaları təmin edilməli idi».

Azərbaycan liberalları ilk dövrlərdə rus liberalları ilə birlikdə fəaliyyət göstərir, prinsipial məsələlərdə eyni mövqedən çıxış edirdilər. Lakin rus liberallarının siyasi xəttində imperiya iddiaları aşkarlandıqca onların yolları da ayrılmağa başladı (Sonralar rus liberalları Azərbaycanın muxtariyyətini tanımaq istəməmişdi). Liberalların mövcud quruluşa qarşı mövqeyi mütədilliyi ilə seçilirdi. Lakin ictimai-siyasi proseslərin sonrakı mərhələsi onların da hadisələrə münasibətində müəyyən dəyişikliklərə səbəb olmuş, nəticədə liberallar Müsavatçılara qoşularaq, birgə fəaliyyət göstərməyə başlamışdılar. Azərbaycan liberallarının başında tanınmış ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov dayanırdı. İctimai-siyasi hərəkatın inqilabçı millətçilər qolunu gənclər təşkil edirdi ki, onlar rus inqilabçıları ilə birlikdə çarizmi devirmək uğrunda mübarizə yolunu tutmuşdular M. B. Məmmədzadə yazır ki, «. hadisələr inkişaf etdikcə. başqa amillərin təsiri altında milli liberallar rus liberallarından ayrılacaq, milli inqilabçılar qəti və büllurlaşmış siyasi bir millətçilik şəklini alacaqdır və bu iki zümrə birləşərək, «Müsavat» firqəsinin istinad etdiyi əsas qüvvələri təşkil etməyə başlayacaqdır».

D. B. Seyidzadə isə əsrin əvvəllərində Azərbaycanda çarizmin müstəmləkəçilik siyasətinə qarşı milli azadlıq hərəkatında iki təmayülün; burjuaziya və inqilabi-demokratik cərəyanın mövcud olduğunu qeyd edir.

Azərbaycan milli hərəkatının əsas qollarını təşkil edən hər iki təmayülün fəaliyyət istiqamətləri sovet tarixşünaslığında birtərəfli öyrənilmiş, sinfi baxımdan dəyərləndirilmişdir. İnqilabi demokratik hərəkat prinsip etibarı ilə bolşevizmin adı ilə bağlanmış, burjua təmayülçülüyü isə qeyd-şərtsiz inkar olunmuşdur. Buna görə də hər iki



təmayülün həqiqi elmi mahiyyəti aşkara çıxarılmamışdır. İqtisadi potensiala malik olan Azərbaycan burjuaziyası milli hərəkatın inkişafında mühüm rol oynamışdır. 1905-ci il aprel ayının 22-də nəşrə başlayan «Həyat» qəzeti (qəzet Ə. Topçubaşovun təşəbbüsü ilə açılmış, H. Z. Tağıyev tərəfindən maliyyələşdirilmiş, Ə. Ağaoğlu və Ə. Hüseynzadə tərəfindən redaktə olunmuşdur.) elə ilk saylarından Azərbaycan burjuaziyasının sosial-iqtisadi və milli-mədəni maraqlarını əks etdirən mətbuat orqanına çevrildi. Azərbaycan burjuaziyası şəhər özünüidarəsində də fəal iştirak edirdi. Çar hakimiyyətinin qeyri-xristianlara məhdudiyyət qoymasına baxmayaraq, (Bakı şəhəri dumasında ümumi səslərin üçdə bir hissəsi, sonra isə yarısı) Azərbaycan burjuaziyası öz iqtisadi (istehsal-ticarət) maraqlarını reallaşdırmaq üçün şəhər hakimiyyəti orqanlarında real qüvvəyə malik idi.

Azərbaycanda H. Z. Tağıyev, Ş. Əsədullayev, M. Nağıyev, İ. Hacınski, L. Manafov, M. Muxtarov kimi neft milyonçuları var idi. Göründüyü kimi, D. B. Seyidzadənin araşdırmalarında sovet tarixşünaslığının məlum siyasi səbəblərə görə üzərindən sükutla keçdiyi burjua hərəkatı təhlil obyektinə çevrilsə də, bu bölgüdə Azərbaycan ictimai–siyasi hərəkatının bütün təmayülləri əhatə olunmamışdır. Bu mənada M. B. Məmmədzadənin müşahidələri daha obyektiv və həqiqətə uyğundur. 1905-1907-ci illər inqilabı Azərbaycanda sosial-demokratik fikirlərin geniş intişar tapmasına təkan verdi. 1904-cü ilin axırlarında «Müsəlman demokratik «Müsavat cəmiyyəti-nin» əsasında RSDFP-nin Bakı komitəsinin nəzdində «Müsəlman sosial–demokratik «Hümmət» təşkilatı yaradılmışdı. «Hümmət» təşkilatı əsas etibarı ilə fəhlələr arasında təbliğat, təşviqat işi aparırdı. H. Baykaranın qeyd etdiyi kimi, «Hümmət» Azərbaycanda yaranan ilk türk

siyasi təşkilatı idi».

«Müsəlman sosial-demokrat «Hümmət» təşkilatı» Mir Həsən Mövsümov (1882-1907), Məmməd Həsən Hacinski (1875-1931) və Məhəmməd Əmin Rəsulzadə (1884-1955) tərəfindən yaradılmışdı. 1905-ci ildən həmin təşkilatın üzvü olan M. Əzizbəyov, N. Nərimanov, S. M. Əfəndiyev və başqa tanınmış inqilabçılar bu təşkilatın fəaliyyətinin canlanmasında mühüm rol oynamışlar. Bir müddət rus-sosial demokrat partiyasının nəzdində fəaliyyət göstərən «Hümmət» təşkilatı 1905-ci il inqilabından sonra yarımmüstəqil fəaliyyətə qədəm qoydu. Təşkilatın «Hümmət» adlı qəzeti nəşr olunurdu və həmin qəzetin əsas naşirlərindən biri də M.Ə.Rəsulzadə idi. 1904-1905-ci illər ərzində cəmi 6 nömrəsinin çıxdığı bu qəzetin hələlik bircə sayı da əldə edilməmişdir. Yalnız ayrı-ayrı tədqiqatlarda və sonrakı dövrün mətbuat orqanlarında «Hümmət»də dərc olunan məqalələrin bir hissəsi bizə gəlib çatdığından qəzetin ideya istiqaməti haqında az-çox məlumat əldə etmək mümkündür. «Hümmət» qəzetinin ilk sayı 1904-cü ilin oktyabr ayında Bakıda nəşr olunmuşdur. Qəzetin ilk sayı gizli şəkildə, məhdud tirajla hektoqrafda buraxılmışdı. Qəzetə «Hümmət» adının seçilməsi də təsadüfi deyildi. Belə ki, qəzetin adı Şərqdə , o cümlədən Azərbaycanda məhşur olan « Hümmətül-rical təqləül cibal» (El bir olsa dağ oynadar yerindən) xalq məsəlindəki «hümmət» sözündən alınmış, məsəlin özü isə epiqraf kimi seçilmişdi. Ərəbcə «himmət» sözündən yaranmış «hümmət» kəlməsi dilimizdə qeyrət, bilik, şücaət, səy, güc və s. mənalar daşımaqdadır. Qəzetin 1904-cü il 3-cü sayında çap olunmuş «Hümmətül- rical təqləül cibal» adlı yazıda bu məsələyə toxunulmuşdur: « Bu kəlamı hikmət, nizam ki, bizim cəridənin hər səhifəsinin əvvəlində intibahnamələrin



ünvanlarında bərqərardır, nə deyən sözdür. bu kəlam «kişilərin himməti dağları qoparır» dediyini hamımız bilirik və bu sözü özümüzə ünvan qayırdıqda bu söz bizə dəstürül–əməldir. Xəyal edirik və özümüzü bu dəsturül–əməldən mütəxəllif hesab etməyirik. Amma həqiqətdə isə belədirmi? Özümüzə ünvan tutduğumuz qaydaya müvafiq gedirikmi? «Hümmətül-rical» kəlməsinin əsil mənasını fəhm edirsinizmi? Beibarəti axiri müəyyən bir məsləkimiz varmı? Bu sözü özünə ünvan edən bir dəstənin bu suallara cavabı nə olmalıdır? Əlbəttə ki, belədir. Bu sözün məzmununa müvafiq hərəkətdəyiz demək lazımdır».

M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan «Açıq söz» qəzeti vasitəsi ilə bizə gəlib çatmış bu yazı qəzetin əldə olan parçalarından biridir. «Hümmət» qəzeti yalnız Bakıda deyil, Azərbaycanın digər qəza və şəhərlərində də yayılmışdı. Qəzetin səhifələrində xalqın siyasi şüurunun oyanmasına, haqqı nahaqdan ayırmasına, öz hüquq və mənafeyi uğrunda mübarizə aparmasına səsləyən yazılar dərc olunurdu. Lakin «Hümmət» qəzetinin ömrü uzun sürmədi. 1905-ci il inqilabının başlanması ilə fevral ayında çarizmin Bakıda törətdiyi milli qarşıdurma və toqquşmalar nəticəsində aparılan həbslər və axtarışlar qəzetin nəşrinin dayandırılmasına səbəb oldu.

«Hümmət»in siyasi istiqaməti sonrakı dövr mətbuatının, xüsusilə M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan «Təkamül» qəzetinin formalaşmasında mühüm rol oynadı. «Hümmət» təşkilatının rəhbərliyi və təşəbbüsü ilə Bakıda İran sosial-demokratlarının «Ədalət» və «Mücahid» təşkilatı fəaliyyət göstərirdi. Həmin təşkilatın yaranmasında M.Ə.Rəsulzadə, N. Nərimanov, H. Əmioğlu və başqa siyasi xadimlərin rolu olmuşdur. Lakin son illərə qədər Azərbaycan tarixçiləri «Hümmət»i yaradanlar içərisində M.Ə.Rəsulzadənin, M. H. Mövsümovun, M. H.

Hacınskinin adlarını çəkməmişlər. Azərbaycan tarixinin bu dövrünü tədqiq edən müəlliflərin heç biri öz araşdırmalarında M.Ə.Rəsulzadənin «Hümmət» təşkilatının yaradılmasında oynadığı roldan söz açmamışlar. Təkcə «Azərbaycan KP tarixinin oçerkləri»nə baxmaq kifayətdir; «1904-cü ilin payızında əvvəlcə əksəriyyəti sosial-demokratiyaya meyl edən ziyalı gənclərdən ibarət kiçik bir qrup meydana gəldi. Oktyabrda bu qrup RSDFP Bakı Komitəsinin köməyi ilə Azərbaycan dilində hektoqrafda qeyri-leqal «Hümmət» qəzetini buraxmağa başladı. Bakı komitəsi bu təşəbbüsdən istifadə etməyi və həmin qrupu özünün müsəlman zəhmətkeşləri içərisində iş aparan idarəsinə çevirməyi qərara aldı. Qrupun formalaşdığı və ilk addımlar atdığı dövrdə onun özəyinə Sultanməcid Əfəndiyev, Məşədi Əzizbəyov, Muxtar Hacıyev və s. təşəbbüsçülər daxil idi. 1905-ci ildə Odessadan Bakıya qayıdıqdan sonra N. Nərimanov bu qrupa daxil oldu və sonralar onun rəhbərlərindən birinə çevrildi».

Qazetin naşirləri içərisində də M.Ə.Rəsulzadənin adı çəkilmir: «Hümmət»in publisistikasını Ə. C. Axundov, N. Nərimanov, S. M. Əfəndiyev və s. ədiblər təmsil edirdilər».

M. A. Qaziyev Əhməd bəy Ağaoğlui, M.Ə.Rəsulzadəni «Hümmət»in sıralarına daxil olmuş burjua millətçiləri adlandırmışdır.

M.Ə.Rəsulzadə «Hümmət»in tərkibində fəaliyyəti haqqında yazırdı; «Müxtəlif millətlərin oxuduğu rus litseylərində və digər orta məktəblərdə azərbaycanlı türk şagirdlərindən ibarət gizli bir dərnək vardı. Dərnəyin «Hümmət» adlı jurnalı vardı. Bolşeviklər və menşeviklər bizim dərnəyi ələ almaq istəyirdilər».

Məhəmməd Əmin bəyin yazdığına görə, «Hümmət» təşkilatını o özü yaratmışdır.

M.Ə.Rəsulzadənin «Hümmət» təşkilatının yaradılmasında fəal iştirakını və onun təşkilatın eyni adlı mətbuat orqanına rəhbərlik etməsini arxiv sənədləri də təsdiq edir.

«Hümmət» qəzeti öz nəşrini dayandırdıqdan sonra «Hümmət» təşkilatında birləşən türk-müsəlman sosial-demokratları öz ideya baxışlarını iki dildə-erməni və türk dillərində nəşr olunan «Dəvət-Qoç» qezetində yaymağa başladılar. Çar hökumətini imperiyanı xilas etmək üçün iki qonşu xalq arasında ədavət yaymaqda suçlayan bu qəzetin 16 sayı çıxdıqdan sonra Bakı qubernatoru tərəfindən onun nəşri dayandırılmışdır. Daha sonra M.Ə.Rəsulzadə və M. H. Hacmskinin redaktorluğu ilə «Təkamül» qəzeti nəşr olunmağa başladı. Qezetin səhifələrində xalqın maariflənməsi, azadlıq, hürriyyət təbliğ olunur, zülm, işgəncə, sümürgəclik və s. ifşa edilirdi. Lakin qezetin nəşri uzun sürmədi; 1907-ci ilin martında polis tərəfindən dayandırıldı. Bunun ardınca «Yoldaş» adlı həftəlik qəzetin nəşrinə başlandısa da, üç sayı çapdan çıxdıqdan sonra onun da 1907-ci ilin sentyabrında nəşri dayandırıldı. I rus inqilabının məğlubiyyətindən sonra irticanı gücləndirən çar hökuməti «Hümmət» təşkilatına qarşı təqib və təzyiqləri artırdı. Təşkilatın N. Nərimanov, S. M. Əfəndiyev, B. M. Sərdarov kimi liderdəri həbs edildi. M.Ə.Rəsulzadə, İ. M. Əbilov, D. Bünyadzadə və başqaları isə İrana sürgün olundu. Bu həbs və sürgün tədbirləri «Hümmət»in fəaliyyətini zəiflətdi.

Son illərə qədər «Hümmət» təşkilatı sırf bolşevik qurumu kimi təqdim olunmuş və fəaliyyətinin geniş olduğu qeyd edilmişdir. Əslində isə «Hümmət» mahiyyətcə sosial-demokrat ruhlu təşkilat olmuş və onun sıralarında 1910-1911-ci illərə qədər müxtəlif fikirli, fərqli siyasi platformaya malik ziyalılar birləşmişlər. Eyni zamanda

«Hümmət» təşkilatının Azərbaycanın ictimai-siyasi həyatındakı yeri sovet tarixşünaslığının təqdim etdiyi səviyyədə olmamışdır. Bunu həmin təşkilatın liderləri də etiraf etmişlər. Ə. Qarayev etiraf edir ki, 1917-ci ilin fevral inqilabına qədər «Hümmət» və «Ədalət»in üzvləri o qədər az idi ki, onları barmaqla saymaq olardı.

O sözünə davam edərək yazırdı ki, «Hümmət» və «Ədalət» təşkilatları o qədər zəif idilər ki, öz fəaliyyətlərini nəinki Azərbaycan miqyasında, hətta Bakının fəhlələri arasında qura bilmədilər.

«Hümmət» təşkilatına münasibətdə fikir ayrılıqları mövcuddur. Azərbaycan sovet tarixşünaslığında «Hümmət» bolşevik təşkilatı kimi təqdim olunsa da, xarici azərbaycanşünas alimlərin bəzi tədqiqatlarında bu təşkilatın «milliyyətçi təmələ söykəndiyi» göstərilməkdədir. Tahir Sünbül təşkilatın 1905-1912-ci illərdəki fəaliyyət mərhələsini araşdıraraq yazır ki: «Hümmət» partiyası gerçəkdə Azərbaycan istiqlalına yol arayan milliyyətçi nitəlik daşımaqdaydı». F. Kazımzadə isə «Hümmət» təşkilatının sıralarında milli kadrların çoxluq təşkil etməsini əsas tutaraq, onun milliyyətçi təmayüldə fəaliyyət göstərdiyini qeyd edir.

«Hümmət» təşkilatının fəaliyyət yönümü və ideya istiqaməti T. Svietoçovskinin tədqiqatlarında obyektiv şəkildə araşdırılmışdır». O, «Hümmət» təşkilatının fəaliyyətində ikili istiqaməti sezmiş və bunu sıralarında birləşən üzvlərin ideya yönümü ilə əlaqələndirmişdir. Onun fikögincə «güclü müsəlman-türk cizgisi başlanğıcından etibarən «Hümmət»i bəlirləmiş və onun rus eşitinə qatılmasını önləmişdi».

Bununla yanaşı T. Svietoçovski «Hümmət»in mahiyyət etibarı ilə «Azərbaycan sosializmi»ndən ibarət olduğunu da vurğulamışdır. Azərbaycanın demokratik qüvvələri əvvəllər rus inqilabçıları ilə birliklə çıxış etmişlər. 1908-1909-cu illərdən başlayaraq, onların arasında parçalanma baş vermişdir. M.Ə.Rəsulzadə başda olmaqla bir çox Azərbaycan vətənpərvərləri müstəqil fəaliyyət yolunu tutmağa başlamışlar. Azərbaycanın demokratik qüvvələri milli problemləri ön plana çəkirdilər. Rus inqilabçıları milliliyə əhəmiyyət vermir, sinfi mübarizəni özlərinin başlıca məqsədləri sayırdılar. Sonralar tarix sübut etdi ki, bolşeviklər milli məsələyə rus şovinizmi mövqeyindən yanaşırdılar. RSDFP-dən uzaqlaşan vətənpərvərlər rus müstəmləkə üsul-idarəsinə qarşı Azərbaycan milli istiqlal hərəkatının təməl daşını qoymağa başladılar. Azərbaycan vətənpərvərlərinin bir qrupunun sosial-demokrat ideyalarından ayrılaraq, milli mübarizə yolunu tutması mühüm amillərlə bağlıdır. Üç mühüm zəminə (dini, milli və ictimai-siyasi) sösykənən bu siyasi amillər birincisi, Balkan müharibələrinin başlanması ilə əlaqədar bütün dünyada xristian-müsəlman qarşıdurmasının və milli-azadlıq hərəkatının güclənməsi ilə şərtlənir. İkinci səbəb Qafqazda güclənən erməni-azərbaycanlı münaqişəsi və bu münaqişənin qarşısının xalqın öz gücü, iradəsi sayəsində alınmasının mümkünlüyünə inamın güclənməsi idi. Digər səbəbi isə İran və Türkiyədə mühacirətdə olan M.Ə.Rəsulzadə və digər siyasi xadimlərin dünyagörüşündə baş verən ciddi siyasi dəyişikliklər olmuşdur.

1905-ci il fevral ayının 18-də çar hökuməti Dövlət Duması layihəsinin hazırlanmasına başlanılması haqqında qərar verdi. Azərbaycanın ictimai-siyasi xadimləri həmin layihədə xalqın siyasi, sosial-iqtisadi və milli-mədəni problemlərinin öz əksini tapmasına çalışırdılar. Məhz onların təkidi və təşəbbüsü ilə 1905-ci ilin mart ayının 5-də Bakı şəhər duması Rusiyanın daxili işlər naziri Bulıgi-

nin qəbuluna nümayəndə heyəti göndərmək qərarına gəlir. Mart ayının 15-də bir qrup ziyalının iştirakı ilə H. Z. Tağıyevin evində toplantı keçirilir. Burada qərara alınır ki, «Qafqazda vaxtı çoxdan çatmış islahat aparılması üçün Rusiya hökumətinə ərizə göndərsinlər. Bakı şəhərini Fərrux bəy Vəzirov, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Şəmsi Əsədullayev, Atakişi Əliyev, Nəcəfqulu Sadıqov və başqaları təmsil edirdilər.

Memorandum səpgisində yazılmış bu ərizədə müsəlmanların haqq və hüquqlarının əlindən alındığı, ictimai-siyasi və iqtisadi sahələrdə sıxışdırıldıqları nəzərə çarpdırılırdı. Ərizədə azərbaycanlı uşaqların ana dilində təhsil almasına icazə verilmədiyi, ana dilində qəzet, jurnal və kitab nəşrinin ciddi maneələrlə qarşılandığı və s. göstərilirdi. Çar hökumətinin ünvanına Krım, Kazan, Volqaboyu, Orta Asiya türklərindən ərizə və təkliflər göndərilmişdi. Azərbaycan türkləri kimi, onlar da dini və milli sahələrdə olan təzyiqlərin tezliklə aradan qaldırılmasını tələb edirdilər.

Bakı şəhərindən göndərilən nümayəndə heyətini 1905-ci ilin aprel ayının 2-də Peterburqda Rusiya daxili işlər naziri Bulıgin qəbul edir. O, Qafqaz müsəlmanlarının dini, milli və sosial-iqtisadi problemlərini nəzərdən keçirəcəyini, onların seçgi hüququna qoyulan məhdudiyyətlərə yenidən baxılacağını vəd etdi.

Birinci rus inqilabı həmçinin bütün Rusiya imperiyasında dini hərəkatın genişlənməsinə təkan verdi. Rusiya müsəlmanları arasında siyasi fikirlər cücərməyə başladı. Sinfi mübarizənin kəskinləşdiyi, milli azadlıq hərəkatının genişləndiyi bir dövrdə 1905-ci ildə Rusiyada müsəlmanların siyasi təşkilatı-Ymumrusiya Müsəlmanları İttifaqı» «İttifaqül-müslümin» yaradılır. İttifaqın yaradılmasının əsas təşəbbüskarları Krım və Kazan tatarlarının



burjua ziyalılarıA. İbrahimov, Y. Akçuraoğlu, İ. Qaspiralı idi. Azərbaycanın siyasi xadimi Ə. M. Topçubaşovun bu işdə müstəsna xidmətləri olmuşdur.

Ymumrusiya Müsəlmanları İttifaqının yaradılması ideyası hələ 1905-ci ilin əvvəllərində ortaya atılmışdı. 1905-ci ilin martında Kazanda 80 nəfər təmsilçinin iştirakı ilə keçirilən iclasda Rusiya müsəlmanlarının ümumi konqresinin çağırılması üçün ölkənin baş naziri Vittedən icazə istəmək qərara alınmışdı. Bununla əlaqədar olaraq Kazan, Simbirsk, Tambov, Krım və Qafqaz müsəlmanları nümayəndələrindən ibarət heyət Peterburqa gedərək, baş nazirə müraciətlərini bildirdilər. Lakin onların tələbləri rədd edildi. Buna baxmayaraq, Rusiya müsəlmanları təmsilçiləri 1905-ci ilin mart ayının 8-də qurultayı keçirmək üçün qəti qərara gəldilər. Bu məqsədlə ilk yığıncaq Çistopol şəhərində keçirildi. Yığıncaqda qurultaya hazırlıqla bağlı məsələlər müzakirə olundu. Rusiya Müsəlmanları İttifaqının ilk təsis qurultayı 1905-ci ilin avqust ayının 15-də Nijni-Novqorod şəhərində keçirildi. Qurultayda Krımdan, Şimali Qafqazdan, Zaqafqaziyadan, Kazandan, Uraldan, Türküstan və Sibirdən nümayəndələr iştirak edirdilər. Elmi ədəbiyyatlarda və arxiv sənədlərində qurultay iştirakçılarının sayı barədə dəqiq məlumat yoxdur. T. Svietoçovski qurultayın 15 nəfər nümayəndənin iştirakı ilə keçirildiyini göstərdiyi halda, T. Sünbül bu rəqəmin təxminən 120-150 nəfər olduğunu iddia edir.

Rəsmi icazə olmadığından qurultay nümayəndələri Oka çayındakı «Qustav Struve» adlı gəzinti gəmisində toplaşmışdılar. İ. Qaspiralı, Y. Akçuraoğlu və Ə. M. Topçubaşovun sədrliyi ilə keçirilən qurultayda Azərbaycan burjuaziyasının nümayəndələri də iştirak edirdi. Qurultayda bütün Rusiya müsəlmanlarını birləşdirən ittifaqın –»İttifaqül-müslümin» yaranması qərara alın-

alınmış və qəbul edilmiş qətnamədə ittifaqın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdu:

1. Rusiya müsəlmanları bütün məsələlərdə-siyasi, mədəni, eləcə də Rusiyanın indiki vəziyyətindən asılı olaraq doğan məsələlərdə birgə olmalıdırlar.

2. Bütün ziyalı müsəlmanlar Rusiyanın qabaqcıl adamları ilə həmfikir olaraq, elə bir qanunun yaradılmasında iştirak edirlər ki, burada qanunlar xalqların seçdikləri nümayəndələrin iştirakı ilə yazılsın.

3. Müsəlmanlar qanuni yolla çalışmalıdırlar ki, onlara aid olan sıxışdırılma və haqsızlıq ləğv edilsin və onlar siyasi, dini və mülki məsələlərdə ruslarla bərabər hüquqlu olsunlar.

4. Müsəlmanlar öz ehtiyaclarını ödəmək üçün Rusiyanın indiki və gələcək vəziyyətindən çıxış edəcəklər. Bütün quberniyalarda öz ehtiyaclarına uyğun olaraq kitab, qəzet, jurnal nəşr etməyə, xalqa vəziyyət haqqında əsas məlumatları verməyə çalışacaqlar.

5. Dörd bənddə qeyd olunan məsələlərin həllinə nail olmaq üçün yerlərdə vaxtaşırı toplaşan yığıncaqlar təsis olunsun.

Qurultayın beş maddədən ibarət qətnaməsində Rusiya müsəlmanlarının bir təşkilat altında birləşməsi məsələsi ön plana çəkilir, əsas fəaliyyətin bu istiqamətə yönəldilməsi tövsiyə olunurdu. Qurultayda Rusiya müsəlmanlarının yaşadığı ərazilərdə 16 mərkəzin yaradılması və bu mərkəzlərin hər birində məclislərin fəaliyyət göstərməsi də qərarlaşdırıldı. Bu mərkəzlərin Bakı, Simferopol, Peterburq, Minsk, Həştərxan, Kazan, Daşkənd, İrkutsk, Uralsk, Verniy, Petropavlovsk,Aşqabad və başqa şəhərlərdə yaradılması planlaşdırıldı.

Rusiya müsəlmanlarının ikinci qurultayı 1906-cı il yanvar ayının 13-dən 23-dək olan müddətdə Peterburq



şəhərində qeyri-leqal şəkildə keçirildi. I qurultayda irəli sürülən bir çox təklif və təvsiyələr II qurultayda rəsmiləşdirildi.

Qurultayda Kazan, Türküstan, Krım və Qafqaz müsəlmanlarını təmsil edən 100 nəfər nümayəndə iştirak edirdi. İ. Qaspiralının sədrliyi ilə keçirilən qurultayda əldə olunan ən mühüm qərarlardan biri hələ I qurultayda yaradılması nəzərdə tutulan Müsəlman ittifaqının rəsmi olaraq «Rusiya Müsəlmanları İttifaqı» adlandırılması oldu. Qurultayda müəyyən mübahisə doğuran məqamlar da ortaya çıxdı. Rusiya müsəlmanlarının hansı siyasi yolu tutacağı geniş müzakirələrə səbəb oldu. Nəticədə qurultayın Krım və Qafqaz təmsilçilərinin müqavimətinə baxmayaraq, Yusif Akçuraoğlunun başçılıq etdiyi mədəni muxtariyyət tərəfdarı olan Kazan türklərinin ciddi səyi ilə kadet rus liberal partiyasına birləşmək haqqında qərar çıxarıldı.

Qurultayın fəal iştirakçılarından olan Y. Akçuraoğlu Rusiya müsəlmanları üçün kadet partiyasını ən yaxşı müttəfiq kimi səciyyələndirir, onların «digər partiyalardan daha inandırıcı şəkildə müsəlmanların problemi yolunda mübarizə aparacağını» qeyd edirdi.

Rusiya müsəlmanlarının I qurultayında «Müsəlman İttifaqı»nın yaradılması ideyasının xəyal olduğunu irəli sürən, daha çox rus və radikal partiyaları ilə əlaqədar olan «ixtilalçı-milliyyətçi» qrup isə qəbul edilmiş bu qərarla razılaşmadığı üçün liberallarla əlaqəni kəsdiyini bəyan edərək, qurultayı tərk etdi.

Qurultayın qəbul etdiyi qərarlardan sonra Y. Akçuraoğlunun başçılığı ilə bir qrup nümayəndə kadet partiyasının toplantısında iştirak etdi. Bu toplantıda Y. Akçuraoğlu və Ə. İbrahimov kadet partiyasının mərkəzi komitəsinə seçildilər. T. Sünbül bu faktı səciyyələndirə-

rək yazır: «Diqqətçəkici bir xüsus kadet partiyasının yönəticilərinin bu şəxslərin pantürkist fəaliyyətlərini bilmələrinə rəğmən onların seçilmələrində səssiz qalmalarıdır».

Kadet partiyası liderləri partiyanın mərkəzi komitəsinə seçilən nümayəndələrin türkçülük istiqamətində ardıcıl fəaliyyətlərindən xəbərsiz deyildilər. Lakin kadet partiyası liderləri Rusiya müsəlmanlarının siyasi qüvvəyə çevrildiyini görür, onlarla ittifaqa girməklə seçkilərdə qələbəni təmin etmək məqsədi güdürdülər. Kadetlər Rusiya müsəlmanları ilə əlaqələri daha da gücləndirmək məqsədilə hətta partiyanın proqramında bəzi dəyişikliklər də etmişdilər:

1. «Müsəlmanların dini idarəsində tam muxtariyyatın qəbulu;

2. Müsəlmanların müqəddəs və erf qanunlarının (şəriət və adət) hazırlanmasının qəbulu ilə rus mülki və cəza qanunlarının buna uyğun olaraq gözdən keçirilməsi;

3. Rus olmayan milli ünsürlərin yaşadıqları bölgədə məhəlli dillərin maarif üçün əsas tutulması və bundan belə məktəblərdə istifadə olunması».

Qurultay Rusiya Müsəlmanları İttifaqının Proqram və Nizamnaməsini, I Dövlət Dumasında İttifaqın taktikasını geniş müzakirə etdi. Qəbul edilmiş müvəqqəti proqram kadet partiyasının proqramına uyğun idi. Qurultay kadetlərlə birləşmək qərarı ilə seçkilərin də birlikdə keçirilməsini qərara aldı. Azərbaycan müsəlmanlarının nümayəndələri də qurultayın işlərində yaxından iştirak etdilər. Onları «Kaspi» qəzetinin redaktoru Ə. M. Topçubaşov, həkimlərdən Q. Qarabəyov və F. X. Axundov təmsil edirdi. İttifaqın Proqram və Nizamnaməsi Ə. M. Topçubaşov tərəfindən hazırlanmışdı.

Rusiya müsəlmanlarının III qurultayı 1906-cı ilin avqust ayının 16-dan 21-dək olan müddətdə Nijni-



Novqorodda keçirilmişdi. Qurultayın keçirilməsinə rəsmi icazə verildiyindən burada daha çox nümayəndə iştirak edirdi. Təkcə rəsmi iştirakçıların sayı 300 nəfər idi. Qurultayda sosial-demokratlar istisna olunmaqla, Rusiya müsəlmanlarının siyasi hərəkatının bütün liderləri təmsil olunmuşdu. Qurultayın Ə. M. Topçubaşovun sədrlik etdiyi divanına Y. Akçuraoğlu (I katib), Ə. İbrahimov, Həlimcan Berudi (dini işlər komitəsinin başçısı), Şah Heydər Sırtlanov, Abdulla Apanayev (maarif işləri komitəsi başçısı), Seyid Giray Canturin, M. C. Bigiyev, Mustafa İsmayılov, Abdulla İsməti, İ. Qaspiralı, Şahmərdan Koşçequlov, Əmincan Elxancanov daxil idi.

Rusiya müsəlmanlarının III qurultayı əvvəlki iki qurultaya nisbətən daha canlı keçmiş, imperiyanın müxtəlif bölgələrində yaşayan müsəlman xalqlarının problemlərinin üzə çıxarılmasında və aradan qaldırılmasında ciddi əhəmiyyət kəsb edən məruzələr dinlənilmişdir. Qurultayda xüsusilə İ. Qaspiralı və Ə. M. Topçubaşovun məruzələri xüsusi maraq doğurdu. İ. Qaspiralı dil birliyi və milli siyasət problemi ətrafında görüşlərini: «Ymumən türklərin əsli və nəsli birdir. Zaman və məkan ixtilafıyla şivə adətlərimizdə ixtilaf peyda olmuşdur. Bu ixtilaf yekdigərimizi anlamayacaq dərəcəyə gəlmişdir. Bundan sonra məktəblərimizi bir olan lisanı hadim olacaq hala gətirmək lazımdır. Konqreslərin məktəb və mədrəsə tərəfindən hazırlanmış layihəsində ibtidai məktəblərimiz üçün dörd sənəyi-tədrisiyyə təyin olunmuşdur. Bunun üç sənəsində sadə, məhəlli şivə ilə tədrisat icra edilib, son sənəsində ümumi türk lisanı ilə yazılmış kitablar oxudulmalıdır. Bunun sayəsində tədricən müxtəlif şivə və ləhcə birləşmiş olar», –deyə ifadə etdiyi kimi, Ə. M. Topçubaşov da məzhəb ayrılıqlarını təhlil edərək: «Məzahibi-müxtəlifə arasındakı fərq haizi əhəmiyyət deyildir.

Bu fərqlər Rusiya müsəlmanlarının ruhani işləri üçün ümumi bir müəssisə vücüduna dini nöqteyi-nəzərdən bir maneə təşkil etməz» deyirdi.

Qurultayda irəli sürülən məsələlər üç istiqamətdə müəyyənləşirdi:

1. Rus missionerlərinin «anti-müsəlman» təbliğatlarının pislənilməsi və məsələnin rus hökumətinə çatdırılması;

2. «Məktəb islahatı» mövzusunda qurultay 33 maddəlik bir təklif qəbul etmişdi. Gənc nəslin milli ruh altında təhsil görməsi amaclanırdı. A. Apanayev və digər nümayəndələrin təklifləri ilə maarif məsrəflərinin dövlət və məhəlli idarələr tərəfindən təmin edilməsi məktəb idarələrinin müsəlmanlar tərəfindən icra edilməsi, ibtidai təhsilin ana dilində, orta məktəb təhsilinin Osmanlı türkcəsi ilə yürüdülməsi, ruscanın isə gərəkli olmadığı, ancaq orta məktəb proqramına alına biləcəyi qəbul edildi.

3. Dini siyasətin yenidən təşkilatlandırılmasmda isə 13 maddədən ibarət qərar qəbul edilmişdi. Həlimcan Berudinin sədrlik etdiyi «Dini işlər komissiyası»nın hazırladığı qərara görə, Rusiyanın Orenburq, Tiflis, Bakı və Bağçasaray müftilərinin işdən çıxarma və işə təyinetmə yerinə seçimlə iş başına gətirilmələri, bu müftilərin Rusiya müsəlmanlarının nəzərində imtiyazlı mövqeyi olan Orenburq müftisi idarəsi altında toplanaraq, bu surətlə müsəlmanlar içində mərkəzi bir idarənin təşkili istənirsən vəzifəli müsəlman din adamlarının bütün haqlarından faydalanmaları qəbul edilmişdi. Bu surətlə Rusiya müsəlmanlarının dini müəssisəsi «İdareyi-ruhaniyyə» adı altında milliyyətçi bir proqramla birləşdirilmişdir.

Rusiya müsəlmanlarının III qurultayının mühüm xidməti İttifaqın siyasi partiya elan edilməsi oldu (Elmi ədəbiyyatda bu partiya «İttifaq», «İttifaqül-müslümin», «Rusiya Müsəlmanları İttifaqı» və s. adlanır).

Qurultayda partiyanın on bölmədən, 72 maddədən ibarət proqramı qəbul edildi. İrəli sürülən məsələlər 6 maddədə ifadə olunmuşdur:

1. Siyasi, iqtisadi, sosial və dini islahatları həyata keçirmək üçün Rusiya müsəlmanlarının bir araya gəlmələri;

2. Ruslar və müsəlmanlar arasında hüquq bərabərliyi;

3. Müxtəlif millətlərin sosial üstünlüklərinə görə təmsil ediləcəkləri bir konstitusiyalı monarxiya;

4. Mətbuat, din, cəmiyyət qurma və başqa azadlığı;

5. İnsan hüquqlarına toxunulmazlıq gərəyi. Torpaq islahatı;

6. Səkkiz saatlıq iş günü.

Partiyanın siyasi məqsədlərini əks etdirən ilk bölmədə göstərilirdi ki, onun əsas məqsədi bütün Rusiya müsəlmanlarının birliyinə nail olmaqdır. Konstitusiyalı monarxiya tərəfdarı olması partiyanın kadetlərlə eyni mövqedən çıxış etdiyini göstərirdi. Proqramda şəxsi mülkiyyətin toxunulmazlığı, kəndlilərin torpaq sahəsi ilə təmin olunması və s. məsələlər öz əksini tapmışdı. Həmçinin milli–mədəni muxtariyyət tələbi irəli sürülür, müsəlmanların dini idarələrinin hüquqlarının genişləndirilməsi tələb edilirdi.

Qurultayda partiyanın 15 nəfərdən ibarət Mərkəzi Komitəsi seçilmişdi. Buraya Ə. İbrahimov, Y. Akçuraoğlu, S. Giray Alkın, İ. Qaspiralı, Ə. M. Topçubaşov, A. Aponayev, H. Berudi, S. Maqsudi, M. C. Bigiyev, A. Babi, Z. Maqsudi, M. Davidoviç, Ş. Koşcequlov, S. Q. Canturin, Ş. Q. Sırtlanov daxil idi. Bundan savayı Bakı, Yelizavetpol, İrəvan, Orenburq və Türküstan quberniyalarının hərəsindən bir nəfər nümayəndənin buraya daxil edilməsi qərara alındı. MK-

nın nəzdində isə 3 nəfərdən ibarət büro yaradıldı və onun tərkibinə Ə. M. Topçubaşov (sədr), A. Aponayev (xəzinədar) və Ə. İbrahimov daxil edildilər. Sonralar buraya M. C. Bigiyevin də daxil olması razılaşdırıldı.

Qurultay iştirakçılarının əksəriyyəti «İttifaqül-müslümin» partiyasının Rusiyada yaşayan müsəlmanları bir təşkilat daxilində birləşdirəcəyinə inanırdı. Y. Akçuraoğlunun fikrincə bu birlik ona görə möhkəm olacaqdır ki, o, sinfi prinsiplərə deyil, dini və milli zəminə söykənir. O qeyd edirdi ki, bəzi müsəlmanlara elə gəlir ki, partiya yalnız sinfi mənafe prinsipinə əsaslanır və siniflərin münaqişəsindən doğur. Belə çıxır ki, onlar milliyyət və mənşə prinsiplərinə əsaslanan ittifaqlar görməmişlər. Maddi münaqişələrə baxmayaraq, millətçilik və dini prinsiplər əsasında birləşmək və ən qüvvətli partiya təşkil etmək mümkündür».

Qurultay «müsəlmanların ehtiyaclarının həlli naminə Dumada təşəbbüs göstərməsini» çarın Nazirlər Şurasından xahiş etdi və İran şahına təbrik teleqramı göndərdi. Azərbaycan nümayəndələrinin təklif və təşəbbüsü ilə qurultay həmçinin millətlərarası toqquşmalar məsələsinə dair qətnamə qəbul etdi, Şuşa, Qaryagin və Cavanşir qəzalarının müvəqqəti general-qubernatoru Qoloşapovun başqası ilə əvəz olunmasını Qafqaz canişini Vorontsov-Daşkovdan xahiş etdi.

Partiyanın Bakı şöbəsinə Ə. M. Topçubaşov rəhbərlik etmiş, onun fəaliyyətində Şərifzadə,Cuvarlinski,M. Məlikov və başqaları iştirak etmişlər.

Partiyanın siyasət meydanından tez çıxmasının əsas səbəblərindən biri onun müstəqil hərəkət etməməsi idi. T. Sünbülün qeyd etdiyi kimi «Əslində bir xəta olan rus partilərindən müttəfiq arama qeyrətləri, bunların istəniləni vermələrini saxlamamasına rəğmən, onların təməldə



ruslar üçün çalışdıqlarını göstərmişdi. «İttifaq» öndərləri Qaspiralı və Akçuranın partidən ayrılmasından sonra Mərkəzi Komitənin də 1908-ci il tarixində kəndini fəsh etməsi üzərinə «Rusiya Müsəlmanlarının İttifaq partisi» siyasət səhnəsindən çəkilmişdir».

«Rusiya Müsəlmanları İttifaqı» təşkilatı,onun fəaliyyətinin nəticəsi kimi meydana gələn «İttifaqül-Müslümin» partiyası bütün Rusiya imperiyasında milli azadlıq hərəkatının inkişafında mühüm rol oynadı. Rusiyanın türk-müsəlman əhalisi dərk elədi ki, yalnız birlikdə, vahid təşkilatın bayrağı altında əsarətdən qurtula bilər. 1907-ci ilin dekabr ayında senat «Rusiya Müsəlmanlar İttifaqı»nın leqal fəaliyyət göstərməsi haqqında xahişini rədd etdi. Bundan sonra partiya yarımleqal vəziyyətdə bir müddət fəaliyyətini davam etdirdi. «İttifaq»ın ayrı-ayrı yerlərdə özəkləri yaradılsa da, onlar ciddi siyasi fəaliyyət göstərə bilmədilər. Bir müddət sonra onun fəaliyyəti dayandı. Lakin «Rusiya Müsəlmanları İttifaqı» bütün Rusiya imperiyasının müsəlman bölgələrində, o cümlədən Azərbaycanda islamçılıq siyasi fəaliyyətin əsas amillərindən birinə çevrildi. Çar hakim dairələri Rusiya müsəlmanları arasında islam ideyalarının yayılmasından qorxur, hər vasitə ilə bunun qarşısını almağa çalışırdı. Qafqaz canişinliyi dəftərxanasının Xüsusi İdarəsinin 19 mart 1912-ci il tarixli « Qafqazda panislamizm ideyalarının yayılması haqqında» adlı məruzəsində qeyd olunurdu ki, rus müsəlmanları arasında bir hərəkat hiss olunmaqdadır ki, bu hərəkat panislamizmlə bağlıdır. Bu istiqamətdə Murza Alim Qaspiralı, Dövlət Kildiyev, sabiq Peterburq axundu Bəyazidov və ilk müsəlman dövri mətbuatı - Topçubaşovun redaktorluğu ilə «Kaspi» qəzeti və Krımdakı «Tərcüman» qəzeti fəaliyyət göstərir. Hər iki qəzet Rusiya müsəlmanlarının panislamizm ideyaları zə-

minində birləşdirilməsi uğrunda çalışır».

Azərbaycanda islam ideologiyasının yayılmasında Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Ağaoğlu, Şeyxülislam Axund Məmməd Pişnamazzadə mühüm rol oynamışlar. Onların fəaliyyəti üçün Azərbaycanın sərmayə sahibləri böyük vəsait xərcləyirdilər.

Azərbaycanın islam ideoloqları Rusiya imperiyasının Peterburq, Kazan, Baxçasaray, Orenburq, Ufa, Həştərxan, Aşqabad şəhərlərində və Şərqin bir sıra ölkələrində fəaliyyət göstərən dini-siyasi təşkilatlarla əlaqə saxlayırdılar. Bu dövrdə Rusiyada islam ideologiyasının yayılması ilə məşğul olan «Tərcüman» (Baxçasaray), «Ylfət», «Nur» (Peterburq), «Kazan müxbiri» (Kazan) kimi mətbuat orqanları Azərbaycanda da geniş yayılmışdı. Həmin mətbuat orqanlarının baş mühərrirləri olan İ. Qaspiralı, Ə. İbrahimov, N. Ayvazov, S. İbrahimovun yazıları Azərbaycan mətbuatına da öz təsirini göstərirdi. Bundan əlavə İstanbul, Tehran, Qahirə, Məkkə, Kabul şəhərlərində fəaliyyət göstərən dini-siyasi təşkilat və mətbuat orqanları da Azərbaycan siyasi xadimlərinin maraq dairəsində idi. Onlar «Gənc türklər»lə, «İttihad və tərəqqi» cəmiyyətinin müxtəlif ölkələrdə fəaliyyət göstərən şöbələri ilə sıx əlaqə saxlayırdılar. «İttihad və tərəqqi» cəmiyyətinin Cenevrə şöbəsindən 1905-1906-cı illərdə Azərbaycana türk dilində «Qafqaz müsəlmanlarına müraciət» adlı kitabça, Paris şöbəsindən isə «Qafqaziya müsəlmanlarına bəyannamə» adlı çağırış daxil olmuşdu. Məktubların birində Qafqaz müsəlmanlarına tövsiyə edilirdi ki, «İslamlar yalnız Qafqaziyada deyil, hər yerdə məğdurdur. «Haqq demək qüvvət deməkdir» sözünü düstür-əməl ediniz və bu səbəblə qüvvətdən başqa heç bir şeyə riayət etməyən xristianlar zəif gördükləri müsəlmanları hər yerdə əziyorlar. Türk cinsindən olanlar ittihad etsələr, dünyanın ən şövkətli hökumətini təşkilə müqtədir olurlar».

Parisdən göndərilmiş, yuxarıda adı çəkilən «Qafqaziya müsəlmanlarına bəyannamə»də isə deyilirdi ki, «Bakıda çıxan «İrşad» qəzetəsi müdiri Ağaoğlu Əhməd bəy Parisdə təhsilin ikmal etdikdən sonra Qafqaziyaya dönmüş və rusiyalı türklər arasında milli şüuru oyandırmaq üçün İsmayıl Qaspiralı, Əli Hüseynzadə, Əlimərdan Topçubaşi kibi münəvvarlərlə məsai birliyi yapmışdır».

«Gənc türklər» hərəkatı və onların «İttihad və tərəqqi» cəmiyyəti ilə Azərbaycan islamçılarının əlaqələrini əks etdirən digər faktlar da vardır. Bakı general-qubernatorunun Qafqaz Canişinliyinə verdiyi 20 sentyabr 1910-cu il tarixli məlumatda Türkiyədəki «Gənc türklər»in əli ilə Qafqazın və Rusiyanın müsəlman bölgələrində islam ideologiyasının yayılmasından narahatlıq bildirilirdi.

Bundan əlavə, Tiflis Quberniya Jandarm İdarəsi rəisinin 18 dekabr 1910-cu il tarixli məlumatında bildirilirdi ki, Yelizavetpol şəhərinin müsəlman ziyalıları və ruhani idarəsi 1910-cu ilin mayında Məşədi Mirzə Hacı Məhəmməd Söyün oğlu Rəfiyevi «Gənc türklər» komitəsinin proqramını və müsəlmanlar arasında keçiriləcək tədbirləri öyrənmək məqsədilə Konstantinopol şəhərinə ezam etmişlər.

«İttihad və tərəqqi» cəmiyyətinini İran komitəsi də Azərbaycanla daim əlaqə saxlamışdır. Çar hakim dairələri islam ideologiyasının yayılmasından bərk narahat olur, bunun qarşısını almaq üçün cürbəcür vasitələrə əl atırdılar. Yelizavetpol dəftərxanasına məxsus 7/8 avqust 1908-ci il tarixli 1275 nömrəli məlumatda qeyd edilirdi ki,

müsəlmanlar arasında islam güclənmiş, «Hətta ən geridə qalmış kütlə belə sünni və şiə arasında fərq görmür».

Yelizavetpol qubernatorunun Tiflis Jandarm İdarəsinin rəisinə göndərdiyi 21 mart 1911-ci il tarixli məktubunda Yelizavetpol şəhərində Nəsib bəy Yusifbəyova məxsus kitab mağazasında islamı təbliğ edən ədəbiyyatın satıldığı qeyd edilir və rəisdən ciddi tədbir görülməsi xahiş olunurdu.

1905-ci ilin dekabr ayında silahlı üsyan məğlub olsa da, inqilabi çıxışlar kəsilmək bilmirdi. İnqilabi hərəkatdan qorxuya düşən çarizm burjuaziya ilə razılığa gəlməyə məcbur olaraq, I Dumanın çağırılmasını elan etdi. Bununla bağlı olaraq, 1905-ci ilin dekabr ayının 11-də seçkilər haqqında çarın fərmanı verildi. Bu fərmana görə Rusiyada ilk dəfə fəhlələrin müəyyən hissəsinə, o cümlədən kəndlilərə seçki hüququ verildi.

Azərbaycana da Dövlət Dumasında nümayəndəlik hüququ verildi. 1906-cı ilin mayın 6-da Yelizavetpol quberniyasında, mayın 31-də isə Bakı və Bakı quberniyasında seçkilər keçirildi. Seçkilərin nəticələrinə görə Dumada Bakını, Bakı və Yelizavetpol quberniyalarını Məmməd Tağı Əliyev, Əsədulla bəy Muradxanov, Əlimərdan bəy Topçubaşov, İsmayılxan Əbülfətxan oğlu Ziyadxanov, Əbdürrəhimbəy Haqverdiyev təmsil edirdilər.

Ymumiyyətlə, 72 gün fəaliyyət göstərən Duma 391 məsələyə baxmışdır. Kadetlər Dumada 30 daimi və müvəqqəti komissiyaya rəhbərlik edirdilər. Sayca üstün səsə malik olmaları onların Dumanın iclaslarına istiqamət vermələrinə şərait yaradırdı. Azərbaycan nümayəndələri müsəlman parlament fraksiyasına daxil olmuşdular. Bu fraksiyanın tərkibi 36 nəfərdən ibarət idi. Fraksiya 1906-cı ilin 21 iyununda özünün birinci iclasında yaranmışdı. 7 nəfərdən ibarət fraksiya bürosuna Azərbaycandan Ə. M. Topçubaşov və İ. Ziyadxanov daxil idi.



Fraksiyanın sədri Ə. M. Topçubaşov seçilir. Fraksiya Ə. M. Topçubaşovun sözləri ilə desək, konstitusiya əsaslarına riayət edərək, torpağın vilayətlər üzrə milliləşdirilməsini, yerlərdə dini işlərdə tam, idarəetmədə isə geniş muxtariyyat prinsipini irəli sürürdü.

Kadet partiyası ilə həmrəylik şəraitində fəaliyyət göstərən fraksiyanın bir neçə iclası olmuşdur. Fraksiyanın iyun ayının 24-də keçirilən iclasında torpaq islahatı müzakirə edildi.

Aqrar məsələyə dair proqram layihəsində göstərilirdi ki, vəqf torpaqları zorla alına bilməz, ona görə də kəndlilərə ayrılacaq pay torpaqları «xanədan, hökumət və monastr torpaqları» hesabına olmalıdır. Şəxsi sahibkar torpaqlarının alınması isə yalnız lazım gələn hallarda «ədalətli qiymətlərlə alınmaqla» həyata keçirilə bilərdi. Layihədə köçürmənin dayandırılması tələb olunurdu.

Müsəlman fraksiyası adından aqrar məsələ ilə bağlı M. T. Əliyevin imzası ilə Dövlət Duması sədrinə təqdim olunan müraciətdə deyilirdi ki, «xəzinə, xanədan, dövlət, monastr, kilsə və şəxsi sahibkar torpaqlarının zorla alınaraq, daimi olaraq kəndlilərə veriləcəyi» şəklində əsaslandırılmış bu layihə əslində həqiqətə uyğun şəkildə xalqa çatdırılmamışdır.

Ə.M.Topçubaşov layihənin yalnız «dövlət dili»ndə təqdim olunmasına etirazını bildirdi və təklif etdi ki, imkan daxilində o, yerli xalqların dilinə tərcümə olunmalıdır. «Qoy xalq, bu tatarmı, erмənimi, polyakmı, gürcümü və s. olacaqmı, hər kəs öz dilində oxusun, görsün ki, burada nə baş verir, qoy hər kəs bilsin və ana dilində oxusun ki, indiki nazirlik xalqa nə verir və həqiqi xalq nümayəndələrinin fəaliyyətinə köklü şəkildə kim

mane olur».

Ə. M. Topçubaşov «Kaspi» qəzetində yazdığı məqaləsində isə qeyd edirdi ki, hüquq bərabərliyi, söz və vicdan azadlığı, şəxsiyyət toxunulmazlığı, torpaqların kəndlilərə verilməsi kimi ümumdövlət əhəmiyyətli məsələlərdə milli ayrı-seçkiliyə yol verilə bilməz.

I Dövlət Duması aqrar məsələ ilə bağlı ortaya çıxmış problemləri həll etmədi. Dumanın iclasında çıxış edən İ. Ziyadxanov İrəvan və Yelizavetpol quberniyalarında millətlərarası toqquşmalara öz münasibətini bildirmiş, aqrar məsələ ilə bağlı çarizmin yeritdiyi köçürmə siyasətini tənqid etmişdi. Azərbaycan nümayəndələrinin, xüsusilə Ə. Haqverdiyevin təkidi ilə Dumanın 14 iyun iclasında İrəvan və Yelizavetpol quberniyalarında baş verən millətlərarası toqquşma məsələsi müzakirə olunmuş və Duma Nazirlər Şurasına bu məsələ ilə bağlı müraciət etmişdir. Həmin müraciətə iyul ayının 7-də cavab verən Nazirlər Şurasının sədri Qoremıkin Dumanın sədrinə bildirirdi ki, canişinlik müstəqil fəaliyyət göstərdiyi, daha doğrusu Nazirlər Şurasına tabe olmadığı üçün nazirliyin onun fəaliyyətinə qarışmağa hüququ yoxdur və buna görə də o, Dumanın müraciətinə cavab verməyə heç bir lüzum görmür.

İyul ayının 9-da I Dövlət Duması çar tərəfindən buraxıldı. Kadet partiyasının təşəbbüsü ilə hökumətə protest elan edildi və Dumanın iclasları Finladiyanın Vıborq şəhərində keçirildi. İyul ayının 9-da və 10-da Vıborq şəhərində keçirilən iclaslarda Azərbaycan deputatları da fəallıq göstərmişdilər. İclasda xalqa müraciətin-bəyannamənin tərtib olunması üçün qarışıq tərkibdə komissiya yaradılmışdı. «Xalq nümayəndələrindən xalqa» adlanan bu bəyannaməyə Ə. M. Topçubaşov və İ. Ziyadxanov da imza atmışdılar. Vıborq bəyannaməsi bütün Rusiya əhalisini Dumanın buraxılmasına qarşı etiraza çağırırdı. «...Xalq nümayəndəliyi olmadan büdcəyə bir qəpik də olsun ödəməyin, orduya bir əsgər də verməyin. Öz etirazınızı qəti bildirin, hamınız bir nəfər kimi haqqınızı tələb edin. Bu gərəkli, lakin labüd mübarizədə seçdiyiniz adamlar sizinlə olacaqdır».



Bakının müvəqqəti general-qubernatoru 15 iyul 1906-ci il tarixli məktubu ilə bütün yerli qəzet və mətbəələrə xəbərdarlıq etmişdi ki, «sabiq Dövlət Duması üzvlərinin bəyannaməsi»ni çap edib yayacaqları təqdirdə sərt şəkildə cəzalandırılacaqlar.

Bəyannamə Rusiyada və onun hüdudlarından kənarda əks-səda doğursa da, real bir nəticə hasil olunmadı. Onu imzalayanlar isə məsuliyyətə cəlb olundular. Onlar «Rusiya əhalisini itaətsizliyə çağırmaqla konstitusiya əleyhinə fəaliyyət göstərməkdə» və bəyannaməni çoxlu nüsxədə çap edərək, Rusiya sərhədlərindən kənarda yaymaqda təqsirləndirilirdilər.

1907-ci ilin dekabrında məhkəmə sabiq Dövlət Dumasının Vıborq bəyannaməsini imzalayan 167 millət vəkilini, o cümlədən Ə. M. Topçubaşov və İ. Ziyadxanovu üç aylıq həbs cəzasına məhkum etdi. Məhkəmənin qərarı ilə onlar bir daha Dövlət Dumasına seçilmək hüququndan məhrum edildilər.

Vıborq bəyannaməsini imzaladığına görə Ə. M. Topçubaşov «Kaspi» qəzetinin redaktorluğu vəzifəsindən də kənarlaşdırıldı. Bundan əlavə, Bakı şəhər duması 15 fevral 1907-ci il tarixli iclasında onun Duma üzvlüyündən xaric edilməsi məsələsini müzakirə etdi. Moskva şəhər dumasının Ə. M. Topçubaşovu müvvəqəti olaraq Duma üzvlüyündən azad etmək təklifinə baxmayaraq, Bakı şəhər Duması onu üzvlükdən tamamilə məhrum etdi.

I Duma buraxıldıqdan sonra II Dumaya seçkilər

başlandı. II Duma 1907-ci ilin fevral ayının 20-də açıldı. Bu dumaya Azərbaycandan F. İ. Xoyski, X. Q. Xasməmmədov, İ. Z. Tağıyev, M. M. Şahtaxtinski, M. Q. Mahmudov, Z. E. Zeynalov seçildilər.

T. Svietoçovski *II Dumaya seçilən millət vəkilləri* sırasında M. Q. Mahmudovun adını çəkməmişdir. Onun fikrincə, Şərqi Zaqafqaziyadan 4 millət vəkili, İrəvan quberniyasının müsəlmanlarından isə I millət vəkili seçilmişdir.

Müsəlman parlament fraksiyası özünün ayrıca proqramını hazırlayıb nəşr etdirmişdi. On bir bölmədən ibarət olan bu proqramda vətəndaş hüququ, ölkənin dövlət və dini quruluşu, yerli özünüidarə, məhkəmə, xalq maarifi, maliyyə və dövlət iqtisadiyyatı, fəhlə və kəndli məsələsi fraksiyanın əsas siyasi məqsəd və vəzifələri kimi əks olunmuşdu.

Azərbaycan nümayəndələri müsəlman parlament fraksiyasına daxil idilər. F. Xoyski və X. Xasməmmədov isə fraksiyanın büro üzvlüyünə seçilmişdi.

Dumaya seçilmək hüququndan məhrum edilsə də, Ə. M. Topçubaşov müsəlman parlament fraksiyasının iclaslarında fəal iştirak edirdi. O, bir neçə dəfə Peterburqa getmiş, fraksiyanın iclaslarına özü rəhbərlik etmişdi.

I Dövlət Dumasında olduğu kimi, II Dumada da müsəlman fraksiyası kadet partiyasının platformasını müdafiə edirdi. 1907-ci ilin martında müsəlman parlament fraksiyasında parçalanma baş verdi. Özlərini kəndlilərin nümayəndələri sayanlar aqrar islahatının müzakirəsini, yəni torpağın qeyd-şərtsiz kəndlilərə verilməsi məsələsini fraksiyanın yubatmasından narazı idilər. Buna görə də onlar fraksiyadan uzaqlaşaraq, trudoviklərə qoşuldular. Mart ayının 11-də Z. Zeynalovun rəhbərlik etdiyi müsəlman fraksiyası üzvlərinin Dumanın əməkçi qrupuna birləşməsi elan edildi.

Mart ayının 28-də milli-dini hüquq bərabərliyi haqqında müsəlman komissiyasının məlumatı dinlənildi. M. Şahtaxtinski bu mövzudakı çıxışında «şəhər özünüidarəsində, xalq təhsili və dövlət xidmətində müsəlmanlara qoyulan məhdudiyyətlər» üzərində dayandı.

Aqrar islahatı məsələsi II Dumada da millət vəkilləri arasında sinfi ixtilaflara səbəb oldu. Aqrar komissiyasının fəaliyyətində iştirak etmək üçün Ə. M. Topçubaşov, Q. Qarabəyov, B. Axundov Bakıdan Peterburqa dəvət edildilər. Bu məsələ ilə bağlı müsəlman fraksiyasının adından çıxış edən F. Xoyski «hökumətin torpaq məsələsini köçürmə siyasəti və kəndli torpaq bankı vasitəsi ilə həll etməsini tənqid etmiş, ədalətli yolla torpaqların məcburi alınması tərəfdarı olduğunu» bir daha bildirmişdir.

Lakin bu dəfə də aqrar məsələ ilə bağlı mübahisə və müzakirələr bir nəticə vermədi. May ayının 18-də din və millilikIə bağlı siyasi və vətəndaşlıq hüquqlarındakı məhdudiyyətlərin ləğvi layihəsini imzalayanlar içərisində F. Xoyski də var idi. Ancaq bu məsələ də o biri məsələlər kimi həll edilməmiş qaldı. Müsəlman fraksiyalarının yığıncaqlarında bunlardan əlavə vicdan azadlığı, yerli məhkəmələr, özünüidarəetmə, seçki qanunu, təhsil və başqa məsələlər müzakirəyə çıxarılmışdı. Dumanın ümumi müzakirəsinə verilən xalq təhsili ilə bağlı qanun layihəsi barədə M. Mahmudov, yerli məhkəmələr haqqında isə X. Xasməmmədov və F. Xoyski çıxış etdilər. Hər üç millət vəkili müzakirəyə təqdim olunan layihədə müsəlman əyalətlərinin unudulmasına, ana dilində təhsilə qadağalar qoyulmasına, məhkəmələrin rus dilində aparılmasına öz kəskin etirazlarını bildirdilər. II Dövlət Duması 1907-ci ilin iyul ayının 3-də çarın fərmanı ilə

buraxıldı. II Dövlət Dumasının buraxılmasının əsas səbəbi «guya, deputat sosial-demokrat Ozolun evində aparılan axtarış zamanı 55 nəfər sosial-demokrat deputatın çar rejimini devirmək üçün hazırladıqları sui-qəsd planlarının ələ keçirilməsi» olmuşdu.

Azərbaycandan olan millət vəkillərinin öz parlament hüquqlarını genişləndirmək istiqamətindəki bütün cəhdləri səmərəsiz nəticələndi. II Duma buraxıldıqdan sonra çar hökuməti III Dumaya seçkilər haqqında fərman verdi. Yeni imzalanmış qanun Duma üzvlərinin ümumi sayını 524-dən 442-yə endirirdi. Bakı, Yelizavetpol və İrəvan quberniyalarının seçkilər toplantısı Yelizavetpol şəhərində keçirildi və Xəlil bəy Xasməmmədov müsəlman əhalisinin nümayəndəsi kimi III Dumaya göndərildi. III Duma rəsmi şəkildə 1907-ci il noyabr ayının 1-də fəaliyyətə başladı. Dumanın iclaslarında fəal iştirak edən X. Xasməmmədov bir neçə komissiyanın (köçürmə işi, məhkəmə islahatı, sorğular və s. ) üzvü idi. Bu Dumada da müsəlman xalqlarının nümayəndələri vahid fraksiyada birləşmişdi. Fraksiya 8 nəfər üzvdən və Ə. M. Topçubaşovun başçılıq etdiyi xüsusi bürodan ibarət idi. Ə. M. Topçubaşov rəsmi olaraq, Duma nümayəndəsi seçilməsə də, müsəlman fraksiyasının və ümumiyyətlə, Dumanın iclaslarında, müxtəlif qanun layihələrinin hazırlanmasında fəal surətdə iştirak edirdi.

X. Xasməmmədovun Dumadakı çıxışları əslində XX yüzilliyin əvvəllərində Azərbaycan burjuaziyanı narahat edən bütün problemləri əhatə edirdi. Əhaliyə vətəndaş və siyasi azadlığın verilməsi, köçürmə məsələsinin qaydaya salınması, zemstvo idarələrinin yaradılması, ana dilində təhsil və məhkəmə icraatına nail olunması onun çıxışlarının əsas istiqamətlərini təşkil edirdi. X. Xasməmmədov öz çıxışlarında dəfələrlə hökumətin



Qafqaz siyasətini kəskin tənqid etmiş, ayrı-ayrı xalqları qarşı-qarşıya qoymaqla antidövlət siyasəti yeridildiyini göstərmişdi. Millət vəkili Qafqaz əhalisinin süni olaraq xristianlara və müsəlmanlara ayrıldığını və müsəlman əhalisinə məhdudiyyətlər qoyulduğunu, onlara etibar edilmədiyini, yüksək vəzifələrə yaxın qoyulmadıqlarını, mədəni inkişaflarına hər cür əngəl törədildiyini, bir çox ali məktəblərin qapılarının onların üzünə bağlı olduğunu, təhsildə ruslaşdırma siyasəti aparıldığını, yerli xalqların hüquqlarının kobud şəkildə pozulduğunu sərt şəkildə bildirirdi.

IV Dövlət Duması rəsmi şəkildə 1912-ci il noyabr ayının 15-də açıldı. Dumanın müsəlman fraksiyasına 7 nümayəndə daxil idi və onlar II komissiyada nümayəndəliyə malik idilər. Əvvəlki Dumalardan fərqli olaraq, IY Dövlət Dumasının fəaliyyəti mətbuatda kifayət qədər işıqlandırılmış, o cümlədən müsəlman fraksiyasının gördüyü işlər, onun üzvlərinin fəaliyyəti, çıxışları, uğurları və uğursuzluqları təhlil olunmuşdur. Bundan əlavə, Dumanın Azərbaycandan olan millət vəkili M.Y.Cəfərov yerlərdə olur, öz gördüyü işlər barəsində ictimaiyyətə məlumat verirdi. O, 1913-cü ilin aprelində Bakıda, Qubada, Salyanda olmuş, əhali ilə çoxsaylı görüşlər keçirmişdi.

1913-cü ilin martında M. A. Şahtaxtinski Dumanın müsəlman fraksiyasına müraciət edərək, fraksiyanın fəaliyyətinin işıqlandırılması üçün Peterburqda mətbuat orqanı yaradılmasının vacibliyini açıqlamışdı. Onun təklifi fraksiyada İ. Axtyamov və M.Y.Cəfərov tərəfindən müdafiə olunmuş və 1914-cü ilin aprelində Peterburqda S. Q. Canturinin redaktorluğu ilə rus dilində «Millət» qəzeti nəşrə başlamışdır.

Çar Rusiyasının Duma macəraları mahiyyət etibarı ilə

milli hərəkatı boğmağa, dağılmaqda olan imperiyanı gücləndirməyə xidmət edirdi. Burada milli azlıqların hüquqları hədsiz dərəcədə məhdudlaşdırılmışdı. «Duma deyilən rus parlamanında islamilərin sayı əhali nisbətində olmayıb və intixabatda haqları çox məhdud edilmişdi. İslam vəkilləri bir firqə təşkil etmədikləri kimi, Dumada sərbəst olaraq danışa bilməzdilər».

Lakin çətinliklərə baxmayaraq, Azərbaycanın millət vəkilləri Rusiya müsəlmanları nümayəndələri ilə birlikdə Duma vasitəsi ilə xalqın haqq və hsquqları uğrunda mübarizə aparmışlar. H. Baykara Dumanın əhəmiyyətini onunla səciyyələndirir ki, millət vəkilləri» cəzaya düçar olmadan öz istək və arzularını Dumanın kürsüsündən söyləyə bilərdilər. Yalnız burada xalq çar rejiminin düzgün siyasət yeritmədiyini, haqsız işlər gördüyünü senzuradan keçmədən deyə bilərdi».

Rusiyada yaşayan qeyri-rus xalqları arasında cəmiyyət və ittifaqlara dair 4 mart 1906-cı il tarixli fərmanın elan edilməsindən sonra ayrı-ayrı millətlərin mədəni–maarif sahəsində inkişaf hərəkatı müşahidə edilir. Bu proses bütövlükdə ictimai–siyasi şüurun oyanmasına şərait yaradırdı. Məhz bu niyyətlə ayrı-ayrı adlarla müxtəlif cəmiyyətlər yaradılırdı. Həmin cəmiyyətlər qeyri-rus millətlərini öz milli mənafeləri ətrafında birləşdirmək sahəsində xeyli iş görmüşdür. I rus inqilabı illərində Bakıda ilk cəmiyyətlər yaranmağa başladı. Bunların içərisində «Nicat», «Nəşri-maarif», «Səadət», «Ymid» ,»Səfa», «Cəmiyyəti-xeyriyyə» və başqa cəmiyyətlər daha çox diqqəti cəlb edir. Artıq 1908-ci ildə təkcə Yelizovetpolda 15 mədəni–maarif cəmiyyəti fəaliyyət göstərirdi».

Ətrafında demokratik görüşlü ziyalıları birləşdirən bu cəmiyyətlər xalq arasında savadsızlığın ləğv olunması uğrunda mübarizə məqsədi ilə yaranmışdı. Cəmiyyətlərin



əsas fəaliyyət dairəsinə ana dilinin inkişafına nail olmaq, məktəb, kitabxana, qiraətxana, teatrlar açmaq, yeni müəllimlər dəstəsi, aktyor truppaları yetişdirmək, hər cəmiyyətin müstəqil mətbuat orqanını təşkil etmək və s. məsələlərin həlli daxil idi. Cəmiyyətlər yoxsul, imkansız şagirdlərə və tələbələrə maddi yardım göstərirdi. Bu cəmiyyətlərin bəzilərinin ömrü qısa olmuş, bəziləri isə 10 ildən artıq fəaliyyət göstərmişdir. H.Z.Tağıyev, M.Muxtarov, Ş.Əsədullayev və başqa milyonçular cəmiyyətlərin fəxri üzvləri idilər. Onlar cəmiyyətlərə maddi yardım göstərir, maarif ocaqlarını və keçirilən mədəni tədbirləri maliyyələşdirirdilər.

Bakı quberniyasında 1906-cı ilin mart ayının 9-da fəaliyyətə başlayan «Nicat» cəmiyyəti xalq arasında maarifi yaymaq məqsədi ilə yaradılan ilk cəmiyyətdir. Həmin ilin avqustunda cəmiyyətin fəaliyyətinə hökumət rəsmi şəkildə icazə vermişdi.

H. Zərdabi, M. Mahmudbəyov, M.Ə.Rəsulzadə və başqaları «Nicat» cəmiyyətinin fəal üzvlərini təşkil edirdilər. «Nicat» cəmiyyətinin 1906-cı il avqust ayının 22-də təsdiq edilmiş Hizamnaməsində onun məqsədi belə açıqlanmışdı: a/müsəlmanlar arasında maarifi, savadı yaymaq və müsəlman uşaqlarına ibtidai, orta və ali təhsil vermək; b) ana dili və ədəbiyyatın inkişafına kömək etmək; v)müsəlman tayfasının giriftar olduğu fəlakətdən qurtarmasına maddi və mənəvi kömək yetirməkdir.

«Nicat» cəmiyyətinin sədrləri M. Muxtarov, İ. Aşurbəyov, katibi isə M. B. Hacıbababəyov idi. Sonralar cəmiyyətə M.Ə.Rəsulzadə sədrlik etmişdir. Cəmiyyətin teatr, ədəbiyyat və pedaqoji bölmələri fəaliyyət göstərirdi. «Nicat» cəmiyyəti xalqın maariflənməsində mühüm rol oynayırdı. Cəmiyyət öz məqsədlərini reallaşdırmaq üçün məktəblərə yardım göstərməyi, yeni

məktəblər və qiraət zalları açmağı, dərsliklər nəşr etməyi, cəmiyyətin nəzdində kitabxanalar yaratmağı, məktəblərə təcrübəli müəllimlər cəlb etməyi, yeni müəllimlər hazırlamağı, pedaqoji kurslar təşkil etməyi, müsəlman şair və yazıçılarının bioqrafiyalarını və əsərlərini nəşr etməyi və s. nəzərdə tutmuşdu.

«Nicat» cəmiyyəti L. Tolstoy, A. Sereteli və başqa klassiklərin yubiley tədbirlərini keçirmiş, dünyanın tanınmış yazıçılarının əsərlərinin dilimizə tərcümə olunub nəşr edilməsində mühüm rol oynamışdır. Məhz «Nicat» cəmiyyətinin təşəbbüsü ilə 1908-ci il dekabr ayının 5-də M.Ə.Rəsulzadənin «Qaranlıqda işıqlar» pyesi tamaşaya qoyulmuşdur ki, bu əsərdə Azərbaycan dramaturgiyasında ilk dəfə rus müstəmləkəçiliyinə qarşı çıxılırdı. Yenə «Nicat» cəmiyyətinin təşəbbüsü ilə 2 dekabr 1911-ci ildə dramaturq və ictimai xadim M. F. Axundovun anadan olmasının 100 illik yubileyi keçirilmiş, daha sonra Y. Hacıbəyovun «Əsli və Kərəm», «Arşın mal alan» komediyaları, M. Qorkinin «Meşşanlar» pyesi tamaşaya qoyulmuşdu.

Bundan əlavə «Nicat» cəmiyyətinin «drama heyəti» tərəfindən Ə. Haqverdiyevin tərcüməsində tamaşaya qoyulmuş Şeyx Şamilin istiqlal və hürriyyət uğrunda mübarizəsindən bəhs edən «Qəzavat» pyesi sensasiya doğurmuşdu. Cəmiyyətin təşəbbüsü ilə 1907-ci il avqust ayının 25-dən sentyabrın 5-dək Bakı quberniyası xalq müəllimlərinin qurultayı keçirilmişdir. Cəmiyyətin sədri Həsən bəy Ağaoğluin Bakı şəhər qradonaçalnikinə yazmış olduğu ərizəyə əlavə olunmuş proqrama görə qurultayda:

a) müsəlman müəllimlərinin hazırladıqları proqramlar;

b)tatar dilində olan dərsliklər;

v) tatar əlifbasının nöqsanları;



q) tatar dili dərsliklərinin tədris metodu;

d)müsəlmanlar arasında maarifin yayılması yolları müzakirə olunmuşdur.

1907-ci il iyunun 7-də Bakıda ruhanilər tərəfindən əsası qoyulan «Səadət» cəmiyyəti fəaliyyətə başlamışdır ki, bunun da məqsədi digər cəmiyyətlər kimi maarifi yaymaq idi. Əslində «Səadət» cəmiyyəti 1906-cı ilin sentyabrında yaranmışdı. 1907-ci ilin iyun ayının 7-də isə cəmiyyətin Nizamnaməsi təsdiq olunmuşdu. Cəmiyyət bu məqsədlə ianə toplayır, sistemli olaraq xeyriyyəçilik fəaliyyətini davam etdirirdi. «Səadət» cəmiyyəti təkcə təsis olunduğu ildə Bakıda üç ibtidai və üç orta məktəb açmışdı. Cəmiyyətin xətti ilə məktəblərdə istifadə olunan dərsliklər Konstantinopol və Təbriz şəhərlərindən gətirilirdi.

Cəmiyyətin sədri Axund Molla Əliəkbər Abbasquluzadə idi. Onun 14 nəfərdən ibarət fəaliyyət şurası var idi. Nəcəf bəy Vəzirov cəmiyyətin katibi təyin olunmuşdu. Cəmiyyətin açdığı «Mədrəseyi-səadət» məktəbinə Ə. Hüseynzadə müdirlik edirdi. O, özünün 401 nüsxədən ibarət ədəbiyyat, tarix və incəsənətə dair kitablarını müdiri olduğu məktəbin kitabxanasına bağışlamışdı.

Azərbaycanda olan mədəni-maarif cəmiyyətlərindən biri də Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti idi. Xalqının təəssübünü çəkən, öz imkanları daxilində millətinə yardım etmək istəyən bir qrup ziyalı, sahibkar və tacir bu cəmiyyəti yaratdı. Cəmiyyətin yaranması Zaqafqaziyada milli-etnik münasibətlərin kəskinləşməsi, erməni-türk qarşıdurmasının güclənməsi dövrünə təsadüf edirdi. Bakıda, Şamaxıda, Gəncədə, Şuşada və s. yerlərdə erməni təcavüzkarlığı nəticəsində minlərlə ailə ev-eşiyindən didərgin düşmüş, saysız-hesabsız uşaq yetim qalmışdı. Qafqaz hakim dairələrinin türk millətindən olan qaçqın və

didərginlərə ögey münasibəti Azərbaycan ziyalılarını narahat etməyə bilməzdi. Elmi ədəbiyyatda Müsəlman Xeyriyyə Cəmiyyəti çox zaman «Cəmiyyəti-Xeyriyyə» adı ilə təqdim olunur. İlk dövrlərdə fəaliyyətini yalnız Bakı quberniyası ilə məhdudlaşdıran bu cəmiyyətin qayəsi müsəlman əhalisinin təhsil almaq istəyən qisminə yardım etmək, qocalara, kimsəsizlərə, xəstə və yetimlərə əl tutmaq, xeyriyyəçilik və s. olmuşdu. Cəmiyyətin yaradılmasında H. B. Zərdabi, H. Z. Tağıyev, Ə. M. Topçubaşov, Ə. Ağaoğlu, Ə. Hüseynzadə fəal iştirak etmişlər. Onlar çar hakim dairələrinin əli ilə Qafqazda süni surətdə yaradılmış erməni-azərbaycanlı münaqişəsinə son qoymaq uğrunda çalışırdılar.

Cəmiyyətin üzvləri yaralılara, yurdsuzlara, kimsəsizlərə kömək etmək məqsədilə türk-müsəlman xalqlarının məskun olduqları bölgələrə gedirdilər. Cəmiyyətin fəaliyyət dairəsi Rusiya imperiyasında yaşayan bütün türk xalqlarını əhatə edirdi. Bakıda cəmiyyətin əsas dayağı H. Z. Tağıyev, Batumda isə Süleyman bəy Bejanoğlu idi. Onlar «Cəmiyyəti-Xeyriyyə»nin fəaliyyəti üçün şərait yaradır, onu vəsaitlə təmin edirdilər. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin xeyriyyəçilik fəaliyyəti xalq arasında əks-səda doğurmuş, 1906-cı ildə Gəncədə eyni adlı cəmiyyət təsis olunmuşdu. Azərbaycan xalqının maariflənməsi istiqamətində fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri içərisində «Nəşri-maarif»də xüsusi yer tutur. «Nəşri-maarif» cəmiyyəti 1906-cı ildə yaradılmış, həmin ilin avqust ayının 1-də Nizamnaməsi qəbul edilmişdi. Cəmiyyətin əsas məqsədi «Bakı şəhəri və Bakı quberniyasından olan müsəlmanlar arasında savad yaymaq, məktəblərə yardım göstərmək, yeni məktəb, kitabxanalar, qiraətxanalar açmaq və müəllimlər hazırlamaq, yoxsul, yetim uşaqları, habelə məktəbliləri tərbiyə etmək idi».



Cəmiyyətə H. Z. Tağıyev və M. Q. Hacinski sədrlik, A. İ. Cəfərov isə katiblik edirdilər. Cəmiyyətin Quba, Ağdam, Şuşa, Gəncə və b. şəhərlərdə filialları fəaliyyət göstərirdi. Cəmiyyət 1907-ci ildə 3 məktəb təsis etmişdi ki, burada 275 nəfər şagird təhsil alırdı. 1912–1913-cü illərdə isə cəmiyyətin 13 məktəbində 940 nəfər şagird təhsil alırdı. Bir il sonra cəmiyyətin 16 məktəbi fəaliyyət göstərirdi ki, bu məktəblərdə 1200 şagird təhsil alırdı. Cəmiyyət öz vəsaiti hesabına kənd yerlərində birsinifli məktəblər açmışdı.

«Nəşri-maarif» cəmiyyətinin məktəblərində təhsil pulsuz idi. Eyni zamanda cəmiyyət kasıb uşaqları dərs ləvazimatları, geyim, təqaüd və s. ilə təmin edirdi. Cəmiyyət maliyyə problemlərini həll etmək üçün müxtəlif yollar axtarır, teatrlar, müsamirələr təşkil edirdi. Əsası 1910-cu ildə qoyulan «Səfa» xeyriyyə cəmiyyəti də xalqın maariflənməsi üçün yeni tədris və tərbiyə ocaqlarının yaradılmasına çalışırdı. «Nicat», «Nəşri-maarif», «Səadət», «Cəmiyyəti-Xeyriyyə» və başqa cəmiyyətlərin təşkil etdikləri məktəblərdən savayı Azərbaycanda digər tədris ocaqları da fəaliyyət göstərirdi. Bunların içərisində 1906-1907-ci illərdə Sabunçuda açılmış «İttihad» oğlan progimnaziyası, «Təməddün» və «Əncümən» məktəbləri və Lənkəranda fəaliyyət göstərən «Behiccət» və «Ziya» məktəbləri diqqəti cəlb edir. Bu məktəblər Bakıdakı İran konsulunun xahişi ilə açılmış və İran tacirləri tərəfindən maliyyələşdirilirdi.

Azərbaycanda I rus inqilabı dövründə yaranmış cəmiyyətlər Qafqaz Daxili İşlər Komissarlığının tədris dairələrini daim narahat edirdi. Bakı şəhər bələdiyyə idarəsi cəmiyyətlərin açdıqları məktəblər, tədris proqramları, müəllimlərin kim olması, dərsliklərin kimlər tərəfindən yazılması, məktəbin açılmasına kimlərin icazə verməsi,

məktəb direktorlarının kimin tabeliyində olması, hansı fənlərin tədris edilməsi və s. haqqında məlumat tələb edirdi».

Məktəblərin azad fikirli müəllimləri təqib və təzyiqlərə məruz qalır, hökumət üçün sərfəli olmayan tədris ocaqları bağlanırdı. Bakı xalq məktəblər direktorluğunun Qafqaz təlim dairəsinə göndərdiyi 29 sentyabr 1910-cu il tarixli məktubunda İran konsulluğu tərəfindən açılmış məktəblərdə şagirdlər Rusiyaya nifrət ruhunda tərbiyə edildikləri üçün onların bağlanması tələb olunurdu.



## *2.2. Erməni-azərbaycanlı (türk) münaqişəsi və onun milli hərəkatın inkişafına təsiri.*

İmperiyanı bürüyən inqilabi mübarizə dalğaları millətpərəst qüvvələrin fəallaşmasını və milli-azadlıq hərəkatının genişlənməsini şərtləndirirdi. Rusiya imperiyasının milli ucqarlarında çarizmi devirmək şüarı altında inqilabi qüvvələr ayağa qalxırdı. Rus-yapon müharibəsində imperiyanın rüsvayçı şəkildə məğlub olması ölkədə milli-azadlıq hərəkatının geniş vüsət alması üçün zəmin hazırladı. Zaqafqaziya regionu xüsusilə mürəkkəb və partlayıcı qüvvəyə malik bir ərazi idi. Çünki burada sosial-siyasi ziddiyyətlərlə yanaşı milli ədavət ocaqları da mövcud idi. Çar hökumətinin birinci rus inqilabı dövründə Zaqafqaziyada yeritdiyi siyasəti «şəraitə görə hərəkət» prinsipi kimi dəyərləndirmək daha düzgün olardı. İnqilabi yüksəliş dövründə güzəştə gedən, gözləmə mövqeyindən çıxış edən hökumət inqilab tənəzzülə doğru getdikcə fəallaşır, daha sərt mövqedən çıxış edirdi. İmperiyanın digər milli ucqarlarında olduğu kimi, Zaqafqaziyada da çarizmin azadlıq hərəkatını yatırmaq vasitələrindən biri milli ədavətin qızışdırılması, xalqların bir-birinin üzərinə qaldırılması, dini ayrı-seçkilik yaradılması idi. Həmin dövrün milli-siyasi proseslərini nəzərdən keçirən B. İşxanyan Zaqafqaziyada baş verən erməni-türk toqquşmasının yaranmasını erməni müəllifləri içərisində obyektiv olaraq, mərkəzi hakimiyyət orqanlarının «mürtəce siyasətinin təbii nəticəsi» kimi qiymətləndirirdi.

Müəllifin qənaətilə razılaşmamaq mümkün deyildir. Azərbaycan tarixşünaslığında da erməni-azərbaycanlı münaqişəsinin əsas səbəbkarı kimi çar hökuməti və onun mürtəce «ayır-buyur» siyasəti əsas tənqid hədəfi idi. Azərbaycan tarixşünaslığında erməni-azərbaycanlı müna-

qişəsinə ciddi toxunulmamış, bir çox məqamlarda problemin üzərindən sükutla keçilmiş, yaxud da ötəri söz açılmışdır. Çarizmin Zaqafqaziyada yeritdiyi milli-dini ayrı-seçkilik siyasətini qətiyyən inkar etmək olmaz: hökumət ardıcıl, sistemli şəkildə ermənilərlə azərbaycanlılar arasında düşmənçilik siyasəti yeridir və bu çirkin siyasəti ilə imperiya məqsədlərini həyata keçirirdi. Bu siyasət xüsusilə inqilabın yüksəlişi dövründə daha məqsədyönlü xarakter daşıyırdı. Həmin dövrdə çar hökuməti əsasları laxlamaqda olan imperiyanı saxlamaq üçün hər cür eybəcər üsul və vasitələrə əl atmağa hazır idi. Lakin tarixi proseslərin sərf-nəzər edilməsi belə bir qənaətə gəlməyə əsas verir ki, həmin dövrdə Zaqafqaziyada başlayan qanlı hadisələrin bütün səbəblərini yalnız çar hökumətinin mürtəce siyasətində axtarmaq düzgün deyildir. Çünki bu münaqişədə «Daşnaksütyun» partiyasının başçılığı altında erməni millətçilərinin yeritdiyi siyasət xüsusi rol oynamışdır və problemin bu ciddi amilin üzərindən keçərək araşdırılması mümkün deyildir. Erməni tarixçisi R. İ. İşxanyanın qeyd etdiyi kimi, əsrin əvvəllərində «müxtəlif siyasi qüvvələrin əlində oyuncağa çevrilən «Daşnaksütyun» partiyasının siyasi manevrləri gah müsəlman burjuaziyasını, gah Bakı proletariatını, gah da erməni millətini pis vəziyyətdə qoymuşdur».

Erməni-azərbaycanlı (türk) münasibətlərinin obyektiv yöndə işıqlandırılmasında Türkiyə tarixçilərinin tədqiqatları mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatlarda problemin tarixi, səbəbləri, ayrı-ayrı mərhələləri ciddi şəkildə öyrənilmişdir. Son illərdə Azərbaycan tarixşünaslığında bu ciddi problemin öyrənilməsinə maraq güclənmiş, çoxlu sayda elmi-publisistik səpkili məqalələrlə yanaşı, sanballı monoqrafiq tədqiqatlar da ortaya çıxmışdır.

Zaqafqaziyada erməni və azərbaycanlılar arasında kütləvi toqquşmalar «Daşnaksütyun» partiyasının həyata keçirdiyi planın ayrılmaz tərkib hissəsi idi ki, burada da əsas məqsəd Azərbaycan türklərini bütün vasitələrlə ata-baba torpaqlarından sıxışdırıb çıxararaq, həmin ərazilərdə Türkiyədən köçürülmüş erməniləri məskunlaşdırmaq idi. «Məharətlə» düşünülmüş bu planı inqilabın doğurduğu hərc-mərcliklər dövründə reallaşdırmaq daha asan idi. Ona görə ki, siyasi çaxnaşmalar ucbatından zəifləmiş mərkəzi hakimiyyət strukturları ümumdövlət problemləri ilə məşğul olduğundan imperiya üçün «məhəlli» səciyyə daşıyan bu tipli məsələlərə ciddi şəkildə müdaxilə etməyə imkan tapmazdı.

1885-ci ildə şovinist ruhlu ilk erməni siyasi firqəsinin əsası qoyulur. Marseldə təsis olunan bu firqə «Armenakan» adlanırdı.

1887-ci ildə Cenevrədə daha bir erməni siyasi partiyası «Qnçaq» («Zəng») yaradılır ki, bu partiyanın lideri A. Nazarbekyan Plexanovun təsiri altında olmuşdur. «Qnçaq» partiyasının əsas etibarı ilə sosial-demokratizm prinsiplərinə söykənən proqramında İran, Türkiyə, və Rusiyada yaşayan ermənilərin milli müstəqilliyi təbliğ olunurdu. Bu halda ermənilər arasında ideya birliyinin yaradılması, onların yaşadığı ərazilərdə gizli inqilabi dərnəklərin yaradılması ilə yanaşı, əsas mübarizə vasitəsi kimi terrorçuluq, silahlı üsyan, silahlı dəstələrin təşkili və s. irəli sürülürdü.

1893-cü ildə «Qnçaq» öz fəaliyyətini Londonda davam etdirməyə başlayır. 1895-ci ildə isə onun şöbələri artıq Aleksandropol, Yelizavetpol, Şuşa, Qars, Batumi, Axalsık, Bakı şəhərlərində fəaliyyət göstərirdi. Onlar 1896-cı ildə Vanda dəhşətli qırğın törətmişdilər.

1890-cı ildə isə Tiflis şəhərində üçüncü bir erməni partiyası yaradılır. «Daşnaksütyun» adlanan bu partiya ilk

dövrlərdə X. Mikaelyan, S. Zavaryan və başqalarının liderliyi ilə fəaliyyət göstərirdi. Yarandığı ilk gündən Osmanlı dövləti ərazisində Ermənistan dövləti yaratmaq proqramını hazırlayan «Daşnaksütyun» partiyası 1904-cü ildə Qafqaz Ermənistanını da planlarına daxil etdi. Əslində isə Qafqazda məskunlaşmış ermənilərin vəziyyəti müstəqil bir dövlət yaratmaq üçün əlverişli deyildi. Bütövlükdə 54 qəzadan ibarət Zaqafqaziyanın yalnız 5 qəzasında ermənilər əksəriyyət təşkil edirdilər. Hətta Qafqaz Ermənistanının mərkəzi sayılan İrəvanda belə əhalinin əksəriyyəti azərbaycanlılar idi. Lakin «Daşnaksütyun» partiyası liderləri terror və qırğın taktikası ilə Qafqazın müsəlman yaşayan ərazilərini boşaltmaq və gələcək Ermənistan üçün ermənilərin əksəriyyət təşkil edəcəyi bir bölgə hazırlamaq fikrinə düşdülər. Birinci rus inqilabı dövründə Bakıda «Qnçaq»ın üç şöbəsi («İnker», «Banvor» və «Murad») fəaliyyət göstərirdi.

1904-1905-ci illərdə sıralarını möhkəmlədən və hərbi sursat əldə edən daşnaklar öz ali məqsədlərinin-ermənilərin birgə və yanaşı yaşadığı yerlərdən azərbaycanlı və digər müsəlman əhalisinin zorla sıxışdırılıb çıxarılmasına və həmin torpaqlarda erməni dövlətinin yaradılması işinin həyata keçirilməsinə başlayırlar. Öz siyasətində «parçala və hökm sür» prinsipi yeridən çar hakim dairələri erməni təcavüzünün qarşısının alınması üçün heç bir ciddi tədbir görmürdü. Hökumətin yerli hakimiyyət idarələri ermənilərin silahlanması, hazırlanan hücümlar barəsində qabaqcadan verilən məlumatları qulaqardına vururdu. Hətta iş o yerə çatmışdı ki, baş nazir Stolıpin erməni millətçilərinə qarşı yumşaq münasibətinə görə canişin Vorontsov-Daşkova etirazını bildirmişdi.

Erməni–azərbaycanlı münaqişəsinin ilk təbili Bakı



şəhərində vuruldu. Bunun ardınca qanlı toqquşmalar Şuşaya, Zəngəzura, İrəvana, Naxçıvana, Ordubada, Eçmiədzinə, Yelizavetpola, Cavanşir və Qazax qəzalarına yayılmağa başladı. Erməni-azərbaycanlı münaqişəsi zəminində faciənin başlanmasına 1905-ci ilin fevralında Bakıda baş verən hadisələr səbəb oldu. Fevral ayının 2-də şəhərin Quba meydanında Ağarza adlı bir azərbaycanlı erməni daşnakları tərəfindən vəhşicəsinə öldürüldü. Bundan dörd gün sonra fevral ayının 6-da isə müttəhim Babayev erməni əsgərlərinin əli ilə qətlə yetirildi.

Bu iki hadisə ilə bağlı xəbər yayılaraq, bütün Bakı şəhərini atışmalara qərq etdi. Fevral ayının 7-də silahlanmış və hazırlıq görmüş erməni daşnakları əsl hərbi qiyam qaldırır və şəhərin azərbaycanlı əhalisini cavab tədbirləri görməyə məcbur edirlər. Azərbaycanlıların güclü təzyiqinə duruş gətirməyən ermənilər öz mənzillərinə çəkilməyə məcbur olurlar. Şəhərə nəzarət edən rus hərbçiləri münaqişəyə ciddi münasibət bəsləmir, onun qarşısını almaq üçün tədbirlər görmürdülər. Çünki münaqişənin ən gərgin vaxtında şəhərə cəmi 20 kazak nəzarət edirdi, bir qədər sonra isə Salyan polkundan münaqişənin qarşısını almaq üçün 12 əsgər də cəlb olundu. Lakin əsgərlərə atəş açmağa icazə verilməməsi bütün bunların gözdən pərdə asmaq üçün edildiyini göstərirdi. Bakıda baş verən ilk münaqişənin günahkarı ermənilər olduğu halda, «Daşnaksütyun» partiyasının 1905-ci il fevral ayının 12-də gürcü və rus bolşevikləri ilə birgə imzaladığı «Bütün Qafqaz xalqlarına» adlı müraciətdə bu hadisələrin səbəbkarı kimi müsəlman əhalisi ittiham edilir, hökumətin onları silahlandırıb, guya əliyalın ermənilərin üstünə göndərdikləri iddia olunurdu.

Münaqişənin qanlı və barışmaz xarakter daşımasına baxmayaraq, azərbaycanlılar çoxlu sayda erməni ailəsini

ölümdən qurtararaq mənzillərində gizlətmişdilər. Lakin ermənilər bu istiqamətdə heç bir addım atmadılar. Fevral ayının 10-na qədər sürən qanlı hadisələrdə hər iki tərəfdən yüzlərlə sakin öldürülmüş, şəhərə külli miqdarda ziyan dəymişdi. Bakı polismeysterinin Bakı qradonaçalnikinə yazdığı 11 may 1907-c il tarixli 1040 №-li raportunda deyilirdi ki, «bu qırğında ermənilər sözsüz ki, tatarlardan daha yaxşı təşkil olunmuş və silahlanmışdılar». Üstünlüyün səbəbləri isə ziyalılar başda olmaqla Bakı şəhərinin erməni əhalisinin rəğbət bəslədiyi və müdafiə etdiyi «Daşnaksütyun» partiyasının xidmətləri ilə əlaqələndirilirdi.

Bu münaqişələrdə ermənilər azərbaycanlılardan daha hazırlıqlı olmalarına baxmayaraq Bakıda istədiklərinə nail ola bilmədilər. Bunun başlıca səbəbi Bakının azərbaycanlı əhalisinin erməni təxribatından xəbərdarlığı, ona müəyyən qədər hazırlaşması olmuşdu. Bu hazırlıq isə başlıca olaraq müdafiə xarakteri daşımışdı. Lakin başlanmış münaqişələrdə azərbaycanlı əhalisinin kifayət qədər fəallıq göstərməməsi, sərt mövqe tutmaması erməni-daşnak təcavüzünün daha da genişlənməsinə, Azərbaycanın digər qəza və bölgələrinə yayılmasına səbəb oldu. Bakı hadisələrindən sonra Zaqafqaziyanın bütün ərazisində ermənilərlə azərbaycanlılar arasında münasibətlər gərgin xarakter aldı. Erməni-azərbaycanlı münaqişəsi Bakının iri müəssisələrinə də sirayət etdi. Arxiv sənədləri göstərir ki, bu münaqişələr ən çox erməni milyonçularına məxsus müəssisələrdə, müəssisə rəhbərlərinin ermənipərəst siyasət yeritməsi nəticəsində baş verirdi. Məsələn, Bakı polismeysterinin Bakı şəhər general-qubernatoruna verdiyi 12 iyun 1905-ci il tarixli məlumatda bildirilir ki, həmin ilin iyun ayının 8-də Mirzəbekyantsın tütün fabrikinin fəhlələri tətil edərək, ermənipərəst siyasət yeritdiyi, digər millətlərin fəhlələri ilə müqayisədə ermənilərə üstünlük verdiyi üçün fabrikin rəhbərliyinə qarşı bəyanatla çıxış etmişlər. Onların bu haqlı tələbinə digər millətlərdən olan fəhlələr də qoşulmuşlar. İyun ayının 10-da 200 nəfərdən ibarət rus millətindən olan fəhlələr də tətilçilərlə həmrəy olduqlarını bildirmişlər. Onlar təcili surətdə 20 nəfər vəzifəli şəxsin və iki erməni fəhləsinin işdən azad olmasını tələb etmişlər.

Bakıdakı fevral hadisələrindən sonra münaqişənin hüdudları sürətlə genişləndi. Fevralın 20-21-də İrəvan, may ayında Naxçıvan, iyunda Şuşada qanlı hadisələr törədildi. Sentyabr ayında Qazaxda törədilən münaqişə nəticəsində şəhər büsbütün yandırıldı. Noyabrda isə Yelizavetpol şəhərində toqquşma baş verdi.

Bu münaqişələrdə ermənilərin vəhşiliklərinin həddi-hüdudu olmamışdır. Onlar Avropa mədəniyyətindən və sivilizasiyasından dəm vurduqları halda, köməksiz dinc əhaliyə qarşı vəhşiliklərin bütün növlərindən istifadə etmişlər. 1905-1906-cı illər Bakıda və Azərbaycanın digər qəzalarında terror, dağıntı və qırğınla müşayiət olunmuşdur. Verilən məlumata görə, 128 erməni və 158 müsəlman kəndi talan edilmiş və ya dağıdılmışdır. Ölənlərin sayı isə bəzi hesablamalara görə, 3100-dən 10 min nəfərə qədər olmuşdur.

Ermənilər bu müddət ərzində Rusiya ilə yanaşı Qərbi Avropa ölkələri və İrandan yardım aldıqları üçün ciddi silahlanmaq imkanı əldə etmişdilər. Erməni-daşnak təcavüzkarlarının silahlanmasında və möhkəmlənməsində Mantaşev, Saturov, Adamov və başqa erməni milyonçuları da böyük rol oynayırdılar. Azərbaycanın türk-müsəlman əhalisi kömək və dəstəkdən məhrum olduğu üçün ciddi müqavimət göstərmək imkanına malik deyildi. Erməni-daşnak təcavüzkarlarının müvəffəqiyyə-

tinin digər səbəbləri də var. Ermənilərin hücumlarının qarşısı azərbaycanlılar tərəfindən kor–təbii şəkildə alınır, müqavimət şəklində təşkil olunmurdu. Azərbaycan türkləri silahsız olmaqla yanaşı, baş verən hadisələrin mahiyyətinə vara bilmirdilər. Onlar uzun müddət erməni millətçilərinin əsas məqsədini dərk edə bilmədilər. Azərbaycanın türk-müsəlman əhalisi rus hökumətinin cinayətkarları cəzalandırmaq əvəzinə onları dəstəklədiyini çox gec başa düşdü. Silahsız azərbaycanlı əhalisi ümidlərini hökumətə bağlamaqla, ermənilərin güclənməsi üçün zəmin yaratmış oldu.

Erməni-azərbaycanlı münaqişəsində rusların ermənilərlə əlbir olması azərbaycanlıların ayrıca bir təşkilatda birləşməsinə şərait yaratdı. 1906-cı ilin payızında Əhməd bəy Ağaoğlu tərəfindən «Difai» partiyasının əsası qoyulur. (Elmi ədəbiyyatda «Difai» həm partiya, həm də təşkilat kimi səciyyələndirilir. Bizcə, onun partiya adlandırılması daha münasibdir). T. Svietoçovski»Difai»nin Gəncədə yarandığını qeyd edir.

Hətta onun fikrincə Gəncədə yaranmış bu təşkilata Ə. Ağaoğlu sonradan qoşulmuşdur.

Əslində bu fakt yanlışdır. Çünki «Difai»nin Gəncə (Yelizavetpol) şöbəsinin fəaliyyəti canlı olsa da, o Bakıda, həm də Ə. Ağaoğluin təşəbbüsü və rəhbərliyi ilə yaradılmışdır.

Partiyanın bütöv adı «Qafqaz ümummüsəlman idtifaqı» «Difai» olsa da, o, qısaca olaraq «Difai» kimi tanınmışdır. Arxiv sənədləri M.Ə.Rəsulzadənin də «Difai» sıralarında olduğunu göstərir.

Partiyanın yaradılması, onun proqramı və üzvləri haqqında xeyli arxiv sənədləri olsa da, indəyədək onun fəaliyyəti haqqında ciddi tədqiqat əsəri yazılmamışdır. Hətta partiyanın yaradıcısı Ə. Ağaoğlu öz yazılarında bu



barədə ardıcıl, sistemli məlumat vermir. Bununla belə Ə. Ağaoğluin bəzi tədqiqatlarında ötəri şəkildə olsa da, «Difai» partiyasının yaranma səbəbləri açıqlanır. Ə. Ağaoğluin fikrincə «...Xalqımızın əleyhinə aparılan bu iş 3-5 erməninin ağılsız hərəkəti deyil, ətrafına silahlı dəstələr, Qərb dövlətlərindən havadarlar yığmış, əslində siyasi strateji taktikası olan «Daşnaksütyun» un –proqramlı bir təşkilatın işi idi».

Azərbaycanlıların isə milli qüvvələri səfərbər edən belə bir təşkilatının olmaması onları daha ağır faciələrə gətirə bilərdi. Məhz erməni-rus fitnəkarlarının bu məkrli əməlinə qarşı xalqın vahid bir təşkilatda birləşməsi zərurətini başa düşən Ə. Ağaoğlu «Difai» partiyasının əsasını qoymuşdur. «Difai» partiyası Azərbaycan türklərinin erməni təcavüzündən xilas edilməsi məqsədilə yaradılsa da, bu ixtilafın səbəblərinin Rusiya imperiyası olduğu aşkarlandıqca imperiyaya qarşı çevrilirdi. T. Sünbülün yazdığı kimi, «erməni-azəri savaşının bir məhsulu olan «Difai» öncəliklə Rusiyaya qarşı tövr alaraq Şeyx Şamilin zamanından bəri hər hankı bir düzənli direniş göstərməyən bölgədəki uzun sürən çarlıq idarəsinə qarşı susqunluğu yıxmışdır» .

«İttihad və tərəqqi» təşkilatının əsas liderlərindən biri olan Yusif Akçuraoğlunun tədqiqatlarında da Ə. Ağaoğluin tərcümeyi-halı ilə bağlı «Difai» partiyası haqqında ötəri məlumat verilmişdir: «Türklərin ermənilərə qarşı mübarizə aparması üçün təşkilatlara böyük ehtiyacları vardı. Bu ehtiyacı təmin etmək üçün Əhməd Ağaoğlu 1905-ci ildə Bakıda «Fədai» adlı gizli bir cəmiyyət təşkil etməyə müvəffəq oldu. «Fədai» cəmiyyətinin fəaliyyəti sayəsində ermənilərin türklərə qarşı törətdikləri qırğının qarşısı müxtəlif vasitələrlə alınmışdı. Hələ Şuşada məktəbdə işləyərkən ermənilərlə mübarizə aparan Əhməd bəyin

«Fədai» təşkilatı vasitəsilə onlara qarşı böyük miqyasda müqavimət göstərdiyinin şahidi oluruq».

«Difai» partiyası 1909-cu ilə (Ə. Ağaoğluin Türkiyəyə mühacirət etdiyi dövrə qədər) qədərki fəaliyyəti müddətində Azərbaycan xalqının müdafiəsində, onun qüvvələrinin səfərbər olunmasında ciddi rol oynamışdır. Sonralar bir qədər zəifləsə də, partiya fəaliyyətini dayandırmamışdır. Partiyanın yaranmasının əsas səbəbi Azərbaycan xalqının ermənilər tərəfindən qırğına məruz qalması olmuşdur. Ərəbcə «Dəf etmək» felindən yaranmış «Difai» sözü də «müdafiə» , «mühafizə etmə» , «qorunma» mənasını ifadə edir. 1906-cı ilin avqust ayının əvvəllərində Şuşaya gedən Ə. Ağaoğlu şəhərin nüfuzlu və sözü keçən adamlarını bir yerə toplamış və burada «Komissiya» adlı ilk özək yaratmışdır. Həmin yığıncaqda Ə. Ağaoğlu, Kərim bəy Mehmandarov və başqaları siyasi ruhlu çıxışlar etmiş, hökumət və yerli rəhbərlik əleyhinə ittihamlar irəli sürmüşlər. Xüsusilə Şuşa general-qubernatoru Qoloşşapovun fəaliyyətindən narazılıq ifadə olunmuş, onun geri çağırılması ilə bağlı Qafqaz canişinliyindən xahiş olunması məsələsi qoyulmuşdur. Həmin iclasdan sonra Şuşada müraciətnamə yayılmışdır.

Şuşadan başqa bu tipli yığıncaqlar Ağdam, Bərdə, Cavanşir qəzalarında və digər bölgələrdə keçirilmiş və «Komissiya» tatar komitələri yaradılmışdır. Şuşa komitəsinin sədri doktor Kərim bəy Mehmandarov idi. Komitənin tərkibinə Məşədi Hacıyev, Muxtar bəy Muradov, Xuduş Quliyev, Məşədi Əhməd Xautov, İsmayıl bəy Axundov, Süleyman Əsgərov, Hacı Sadıq Məmmədov daxil idilər.

Təşkilatın Ağdam şöbəsinə Xasay xan Usmiyev sədrlik edirdi. Öz ailəsi ilə Vladiqafqazda yaşayan X. Usmiyev tez-tez Ağdama baş çəkir, təşkilatın fəaliyyəti ilə



yaxından məşğul olurdu. Onun köməkçiləri Səlim bəy Rüstəmbəyov, Cəfər bəy Vəzirov, Qasım bəy Vəzirov, Qəhrəman ağa Cavanşir idilər.

1906-cı ildə Malıbəylidə «Komissiya» tatar komitəsi yaradılmışdı. Sonralar «Difan» partiyasının özəyinə çevrilən bu komissiyaya Əşrəf Məşədi Molla İmran oğlu rəhbərlik edirdi. Hacı Kərbəlayı Qənbər oğlu, Rza Məşədi Molla İmran oğlu və Məşədi Abbas Qulu oğlu təşkilatın əsas üzvləri idilər. Təşkilat 1906-1910-cu illərdə əhalidən müəyyən məbləğdə vergi toplamış və həmin pullar məqsədlərinin həyata keçməsinə xərclənmişdir.

«Difai» partiyasının üzvləri erməni-azərbaycanlı münaqişəsinin qarşısını almaq üçün ciddi təbliğat işləri aparırdılar. Partiyanın lideri Ə. Ağaoğlu Gəncə məscidindəki çıxışlarının birində «Heyvanlar dəxi öz cinsindən olanı məhv etməz», - deyir, ermənilərlə azərbaycanlıların rusların Qafqaza gəlişindən qabaq əmin- amanlıq içində yaşadıqlarını xatırladırdı.

«Difai» partiyasının 1906-cı ilin payızında gizli surətdə yayılmış proqrambəyanatında deyilirdi: «Firqənin ələlxüsus təqib edəcəyi şəxslər o adamlar olacaqlar ki, çamaaat arasına təfriqə və şuriş salırlar və camaatın cahillərini dəstə-dəstə edərək, düşmən partiyalar yaradaraq, aralarına ədavət buraxırlar və bu vasitə ilə millətimizin məhv və nabud olmasına səbəb olurlar».

«Difai» partiyasının sədri Ə. Ağaoğluin «Qarabağ vilayət məclisi»ndə təsdiq edilmiş məramnaməsində (Məramnamə «Qarabağın ittihad məclisi» adlanır) deyilirdi: «Biz ümumi müsəlmanlar tərəfindən müntəxib olunmuş üzvlər, bu məramnamədə yazılan fəsilləri öz qardaşlarımıza elan edirik. Aşağıda yazılan fəsillərin məzmununa əncam verilməkdən ötəri bəyan olunur ki, bu fəsillərin məzmunu etinası olmayan şəxslər xaini - millət

hesab olunub müaxizə olunacaqdır».

«Difai» partiyasının 52 maddədən ibarət proqramının başlıca müddəaları aşağıdakılardan ibarətdir: «Hərbi işlərdən, xarici siyasət, ümumi qanunvericilik, dövlət vergiləri, yüksək vəzifəli dövlət məmurlarının təyini və bəzi ciddi cinayətlərə dair məhkəmə işlərindən başqa, müsəlmanların bütün ictimai-iqtisadi, mədəni-maarif, dini-əxlaqi, məhkəmə-şəriət işləri dövrün tələbinə cavab verən islam qanunları əsasında fəaliyyət göstərməli olan «Difai» partiyasının və onun göstərişi ilə hərəkət edən idarələrin, məclislərin ixtiyarına verilir. Müsəlmanların mülki və şəriət məsələləri, yerli və ali orqanlara nümayəndələr təyini, məktəb və mətbuat işləri və s. -nin hamısı partiyanın ixtiyarına keçir».

Partiyanın proqramında «zəmanəyə müvafiq müsəlman iqtisadi və maarifi idarəsi» yaradılması, «Müsəlmanların məhsulatının kənar tayfanın əlinə keçməməsi»ndən ötrü ixracat şirkətlərinin təşkili nəzərdə tutulurdu.

Partiyanın ideyası və taktikası onun bir bəyannaməsindən məlum olur: «Mütəşəkkil hərbi qüvvəyə malik, eyni zamanda yeni silahlarla, hətta toplarla təchiz edilmiş Daşnak partiyası, bir tərəfdən silah gücü ilə bütün erməniləri, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edib ən ümdə məqsədlərinə nail olmağa çalışır. Onların əsas məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir. Ermənilər məqsədlərinə nail olduqdan sonra fikirləri Qafqazda erməni xalqı üçün milli,müstəqil bir dövlət yaratmaqdır. Partiyamızın əsas məqsədi Qafqazda yaşayan bütün xalqlar arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Hərgah «Daşnaksütyun» partiyası namus və səmimiyyətlə öz hərəkət və fəaliyyətlərinin həqiqi



proqramını aşkar söylərsə, əgər bu proqram Qafqazda yaşayan bütün millətlərin azadlıq və müstəqilliyinə xələl gətirmirsə, o zaman biz öz birlik əlimizi ona uzatmağa hazırıq. Əksinə, əvvəllər olduğu kimi, müsəlmanların üzərinə hücumlar edərsə, bizdən layiqli cavab alar və Qafqaz başdan-başa bitməz-tükənməz qanlı səhnə halına düşər. «Bəyannamə»nin sonunda partiya qəti olaraq bildirirdi: «Daşnak partiyası əmin olsun ki, biz heç bir vaxt öz millətimizin bədbəxtliyi üzərində erməni millətinin səadət və xoşbəxtlik qurmasına yol verməıik».

«Difai» partiyasının bəyannaməsində yalnız Azərbaycan türklərinin deyil, ümumən Qafqaz müsəlmanlarının mənafeyi əks olunmuşdu. Partiyanın yaydığı müraciətnamələrin birində isə ümumi düşmənə qarşı milli azadlıq ruhu aşkar duyulurdu:» Ey Qafqaz müsəlmanları ! Bizim xaricdəki qardaşlarımız olan Türkiyə əhalisi özləri üçün azadlıq və əmniyyət əldə etmişlər. Bəs biz nə üçün azadlıq əldə edərək bu tiranın pəncəsindən qurtulmayaq. Biz «Difai» partiyası malımızı və canımızı qurban verərək bu yolda çalışacağıq. Siz də bu ağır dəqiqələrdə maddi və fiziki köməklə bizə əl tutun».

«Difai» partiyası Qafqaz müsəlmanlarının ruslaşdırma siyasətindən və erməni təcavüzündən qorunması məqsədilə yaranmışdı. «Difai» öz məqsədlərini reallaşdırmaq üçün maarifçiliyə və hərbi gücə əsaslanırdı. Partiya ilk növbədə milli məktəblərin yaradılmasını, bunun ardınca isə hərbi-döyüş birləşmələri yaratmağı müəyyənləşdirmişdi.

1907-ci ilin martında Yelizavetpol şəhərində bəzi taktiki və proqram məsələlərini həll etmək üçün Zaqafqaziya, Şimali Qafqaz və Krım əhalisinin müsəlman nümayəndələrinin iştirakı ilə qurultay keçirilmişdir. Qurultayda aşağıdakı qərarlar çıxarılmışdır:

1. Ymumi müsəlman ittifaqı təşkil etmək məqsədilə yaxın gələcəkdə belə bir qurultayın Krımda keçirilməsi; . terror vasitəsilə hökumətin güzəştə getməsinə nail olunması.

2. Cari ilin yazında (1907) Qarabağda (Şuşa qəzası) «Difai»ni erməni «Xumbam»ına müqabil səviyyəyə qaldırmaq və rəhbər orqanlarını seçmək.

3. Hakimiyyət və məhkəmə nümayəndələrini hər şeydən əvvəl təşvişə salmaq.

4. Bakının müsəlman kapitalistlərinin köməyi ilə Ağdam stansiyasından Xocalıya qədər torpaqların yalnız müsəlman əhalisinin məskunlaşması üçün ermənilərdən pulla alınması.

5. Şuşalıların yalnız Şuşada yaşamasının məcbur edilməsi və Qarabağın müsəlman əyalətinə çevrilməsi.

Arxiv sənədlərində 1907-ci ilin yazında «Difai»nin Şuşada fəaliyyət göstərəcək bölməsinə Cəfər Bəy Vəzirovun (rəhbər), Qasım bəy Vəzirovun (xəzinədar), Zaqafqaziya Müsəlmanları İttifaqına isə Ələkbər bəy Rəfibəyovun sədr seçilməsi tövsiyə edildiyi də qeyd olunmuşdur. Lakin səsvermə zamanı sabiq Dövlət Dumasının üzvü İsmayıl xan Ziyadxanov «Difai»nin rəhbərliyinə gətirilmişdir. Nəcəfqulu ağa, Mir Cabbar ağa, Seyid Miriş, Əfrasiyab, Əli kişi, Zərgər Məliş, Kərbəlayı Mir Cəfər ağa və b. «Difai»nin Şuşa şöbəsinin üzvləri olmuşlar.

Qurultaydan sonra «Difai» partiyası fəal surətdə öz ideyalarının müsəlmanlar arasında təbliğinə başladı və təşkilatın yeni şöbələri yaradıldı. Təşkilatın Bakı Komitəsindən əlavə, Şuşada mərkəzi, Ağdam, Bərdə, Tərtər, Qaryagin, Cəbrayıl, Xocaqan, Kelnik, Naxçıvan şöbələri, Qarsda isə komitəsi yaradıldı.

«Partiyanın üzvləri orta və aşağı təbəqəyə mənsub əhalini təşkil edirdi: Buraya tacirlər, kəndlilər, tələbələr və həkimlər, vəkillər, özünün liberal məsləki ilə tanınanlar və s. daxil idi. Partiyaya bəy və xanların, ümumiyyətlə, müsəlman aristokratiyası nümayəndələrinin daxil olması qeyri-mümkün idi, çünki «Difai» partiyası onları xalqın müstəbidləri, rus hökuməti tərəfdarları hesab edir, etimada layiq bilmirdi».

Çar hakim dairələri qeyri-leqal işləyən «Difai»nin fəaliyyətini üzə çıxarmaq üçün dəfələrlə onun üzvləri Mirzə Məhmməd Axundovun, Həmid bəy Usubbəyovun, Axund Molla Pişnamazzadənin, Məhəmməd Hüseyn Rəfiyevin evində yoxlama aparmış, təşkilata məxsus müəyyən sənədlər əldə etməyə çalışmışlar.

«Difai» bir çox siyasi partiya, təşkilat və qurumlarla əlaqə saxlamışdır. Məsələn, Yelizavetpol qubernatorunun Tiflis Quberniya Jandarm İdarəsinin rəis köməkçisinə göndərdiyi 4 fevral 1910-cu il tarixli məlumatına görə, «Difai» partiyası «Əncümən» partiyası ilə əlaqə saxlamış, müəyyən siyasi məsələləri birgə müzakirə etmişlər.

«Difai» partiyasına bolşeviklər mənfi münasibət bəsləmişlər: «Milli toqquşmalarda hər iki tərəf - erməni və Azərbaycan millətləri eyni dərəcədə müqəssir olduğundan biz onlara qarşı da ciddi duruş gətirməliyik».

Hadisələrə sinfi baxımdan yanaşan, bu qarşıdurmanının milli mahiyyətini dərk etmək iqtidarında olmayan bolşeviklər «Daşnaksütyun» partiyasına qarşı olduğu kimi «Difai»yə qarşı da mübarizə aparmağa çağırırdılar. 1964-cü ildə nəşr olunmuş «Azərbaycan tarixi» kitabında «Difai» partiyasının yaradılması səbəbləri və fəaliyyət istiqamətləri yanlış tədqiq olunmuşdur: «1905-ci ilin payızında Azərbaycanın Şuşa, Cavanşir, Qaryagin və s. qəzalarında tacirlərdən, qolçomaqlardan, burjua-mülkədar ziyalılarından və qismən də bəylərdən ibarət mürtəce «Difai» adlı təşkilat meydana çıxdı. Burjua-mülkədar

ziyalılardan K. Mehmandarov, Ə. Ağaoğlu, M. Hacınski təşkilata başçılıq edirdi. Müsəlmanları daşnakların basqınından müdafiə etmək pərdəsi altında çıxış edən «Difai» təşkilatı millətlər arasında toqquşmaları qızışdırmaqda iştirak edirdi. Onun fəaliyyətindəki əsas metodlardan biri fərdi terror idi. Bəzi halda «Difai»nin üzvləri daşnaklara kömək etməkdə təqsirləndirilən məmurlara qarşı terror tətbiq edirdilər».

Q. Mustafayevin tədqiqatlarında da «Difai» və «Müdafiə» təşkilatlarının fəaliyyəti mahiyyət etibarı ilə təhrif olunmuş, onlar «qatı dinçi», «mülkədar-burjua terrorçu» təmayüllü təşkilatlar kimi səciyyələndirilmişdir. «Həqiqətdə isə «müsəlman xalqını incidənlər» məhz difaiçilərin və müdafiəçilərin özləri olmuşlar. Onlar «müsəlmanları daşnaklardan müdafiə» pərdəsi altında terror, talan, casusluq yolu ilə zəhmətkeş xalqın onsuz da ağır olan vəziyyətini daha da pisləşdirir, «çaxnaşma salan», «firqəbazlıq edən», «camaat cahillərinə», yəni zülm və istismara qarşı mübarizə aparan xalq bahadırlarına divan tutur və bu yolla feodal-burjua mülkiyyətini, kapitalist-mülkədar istismarını müdafiə edirdilər».

Azərbaycan sovet tarixşünaslığı tariximizin bir çox səhifələri kimi, erməni-azərbaycanlı münaqişəsinin də əsl mahiyyətini saxtalaşdırmış, millətin qeyrəti və namusu uğrunda mübarizə aparanların adlarının unutdurulmasına çalışmışdır. Bolşeviklər «Difai» təşkilatını ən çox terrorda günahlandırırdılar. Şübhəsiz ki, təşkilatın fəaliyyətində fərdi terrordan istifadəni inkar etmək olmaz. Lakin Azərbaycan türklərinin səsinin hökumət dairələrində eşidilmədiyi, etirazlarına, haqlı tələblərinə məhəl qoyulmadığı təqdirdə millətin mənafeyini satanlara qarşı hansı tədbirlərə əl atmaq olardı? Məhz «Difai» təşkilatının üzvü



Hüseyn tərəfindən Şuşanın general-qubernatoru Qoloşşapov türklərə qarşı qırğında ermənilərə gömək etdiyi üçün 1906-cı il noyabr 8-də Tiflisdə qətlə yetirilmişdi.

Həmin ilin dekabrında Naxçıvan bazarında və Naxçıvan qəzasının Cəhri kəndində talana bais olduğu üçün podpolkovnik Enkel öldürülmüşdü.

«Difai»nin Şuşa şöbəsinin üzvü Seyid Miri partiyanın tapşırığı ilə ermənipərəst siyasət yeritdiyi üçün 25 aprel 1907-ci ildə rus generalı Kleşşinskini və kazak zabiti Qazarovu aradan götürmüşdü.

«Difai» partiyasının fəaliyyətinə mane olduğuna görə Seyid Miri Yelizavetpol quberniyasının polismeysteri İsrafilbəyovu qətlə yetirmişdi. Tərtər polis rəisi Felikinski, Şuşada «dəli sudya» adı ilə məşhur olan hərbi hakim məhz bu cür əməllərinə görə aradan götürülmüşdü.

«Difai»nin Malıbəyli şöbəsinin rəhbəri Əşrəf Məşədi İmran oğlunun verdiyi məlumata görə, 1906-cı ildə Malıbəyli kəndində Xankəndi postunun strajniki Şahmərdanov müsəlmanların sirrini ermənilərə satdığına görə komitə tərəfindən qətlə yetirilmişdi.

Azərbaycan xalqının düşmənlərinə qarşı terror tətbiq etdiyinə görə çar hakim dairələri «Difai»ni «Müsəlman döyüş partiyası» adlandırırdı.

1909-cu ildə «Difai»nin fəaliyyətinə son qoyuldu. Partiyanın lideri Ə. Ağaoğlu Türkiyəyə mühacirət etmiş, onun fəal üzvləri, o cümlədən M. M. Axundov, A. Rəfibəyov, N. Usubbəyov, Ə. Xasməmmədov, M. Rəfiyev, Cavad və Muxtar Qaziyevlər, A. M. Pişnamazzadə, M.Həmzəyev, Hacı Əli oğlu beş il müddətinə Qafqazın hüdudlarından kənara sürgün edildilər.

«Difai» partiyası 1909-cu ildə fəaliyyətini dayandırsa da, təşkilatın üzvlərinin bir hissəsi 1911-ci ildə əsası

qoyulmuş «Müsavat» firqəsinə daxil oldu, Azərbaycan cümhuriyyəti (1918-1920) illərində yaranmış Milli Ordunun özəyini məhz «Difai» partiyasının üzvləri təşkil etmişdi. Həmin illərdə Milli Ordunun qısa bir müddət ərzində Zəngəzur və Qarabağı işğalçı erməni –daşnak birləşmələrindən təmizlədiyi məlum həqiqətdir. «Difai» partiyası özünün tərkibinə və proqramına görə sosial–demokrat ruhunda idi. Partiya aqrar məsələnin həllində sosial–demokratlarla eyni mövqedə dayansa da, digər məsələlərdə milli zəminə söykənirdi. Partiyanın aqrar məsələdə soial-demokratizm mövqeyində dayanması bəy və xanları qorxudur, onlar «Difai»nin xalq arasında nüfuzunun yayılmasından narahat olurdular.

1907-ci ilin mayında yeni müsəlman partiyası «Müdafiə»nin əsası qoyuldu. Özünün yaymış olduğu müraciətnamədə «Müdafiə» partiyası bəyan edirdi ki: «Müsəlmanlar! «Müdafiə» adlı yeni partiya təsis olunmuşdur. Təxminən «Difai»nin proqramı ilə işləyəcək bu partiya Yelizavetpol quberniyasının Qərb hissəsində və Tiflisə yaxın qəzalarda fəaliyyət göstərəcəkdir. Bu partiya müsəlmanların ictimai həyatının bütün sahələrinə nüfuz edəcək, onların arasında cəmiyyət və birliklər yaradacaq, maarif və mədəniyyətin inkişafı qayğısına qalacaqdır».

«Müdafiə» partiyasının üzvləri sayca məhdud idi. Partiya fəaliyyəti dövründə o qədər də populyar olmamış, öz fəaliyyəti ilə diqqəti cəlb etməmişdir. Partiyanın müfəssəl proqramı və nizamnaməsi olmamışdır. Tiflisdə qeyri-leqal şəkildə fəaliyyət göstərən «Müdafiə» partiyasının rəhbəri korpus topoqrafı, podpolkovnik İbrahim bəy Vəkilov olmuşdur. Bəzi mənbələrdə isə partiyanın yaradıcısı kimi İsmayıl xan Ziyadxanov, Cəfər Axundov və İsmayılxan Ədilxanovun adı çəkilir.

Yelizavetpol və Tiflis quberniyalarında daha çox fəaliyyət göstərən «Müdafiə» təşkilatının ömrü uzun olmasa da (təşkilat 1909-cu ildə fəaliyyətini dayandırmışdır), o, Azərbaycan milli hərəkatının inkişafında az rol oynamamışdır. Əslində «Müdafiə» təşkilatı «Difai» partiyasının proqramını qəbul etmiş və onun fəaliyyət metodlarını əsas tutan bir təşkilat olmuşdur. Lakin Azərbaycanın Yelizavetpol, Şəmkir, Zəyəm, Qazax, Borçalı və s. mahallarının nümayəndələri «müstəqillik» naminə «Difai» partiyasına «Müdafiə» adı vermişlər.

Əslində «Difai» partiyasının şöbələri kimi fəaliyyətə başlayan təşkilat sonralar «Müdafiə» adı ilə müstəqil mübarizə yolu tutmuşdur. «Difai» partiyası kimi «Müdafiə» təşkilatının da amalı Qafqaz müsəlmanlarının ittihadı, ümumi düşmənə qarşı mübarizə birliyi, Azərbaycan xalqının azadlığı, maarif və mədəniyyətin dirçəldilməsi, cəhalətə, nadanlığa və geriliyə qarşı mübarizə motivlərinə söykənirdi. «Müdafiə» təşkilatı xalqın nəcib, dəyanətli qüvvələrini daxili və xarici düşmənlərə qarşı mübarizəyə səsləyirdi. Təşkilat erməni daşnaklarına qarşı mübarizədə uğur qazanmaq üçün millətin içərisindəki alçaqların, xainlərin, satqınların kökünü kəsməyə, hökumət məmurlarına həddini göstərməyə çağırırdı. O, aşkarca bildirirdi ki, «Müdafiə»nin silahlı əli heybətli cəllad kimi həmişə yada salacaqdır ki, müsəlmanları daha bundan sonra incitmək olmaz.

«Difai»nin fəaliyyəti yalnız erməni-daşnak təcavüzünə qarşı mübarizə etməklə bitmirdi. Partiyanın vəsaiti hesabına Yelizavetpolda məscid tikilmiş, bir çox xeyriyyə tədbirləri keçirilmişdi.

«Difai» və «Müdafiə» təşkilatları ilə yanaşı Azərbaycanda «Qeyrət» adlı siyasi bir təşkilat da fəaliyyət göstərirdi. Bu təşkilat «Difai» və «Müdafiə» kimi fəaliyyət göstərməsə də, o xalq arasında rəğbət və məhəbbətlə

qarşılanmışdı. «Qeyrət» təşkilatı da yuxarıda adları çəkilən siyasi qurumlar kimi erməni təcavüzünə qarşı mübarizə aparmaq, Azərbaycan türklərinin namusunu, qeyrətini, milli mənafeyini qorumaq məqsədi ilə yaranmışdı. Arxiv sənədlərində «Qeyrət» təşkilatının 1906-cı ilin avqustunda Yelizavetpol şəhərində yarandığı qeyd olunur. «Qeyrət» təşkilatına Ələkbər bəy Rəfibəyov rəhbərlik edirdi. Bəzi tədqiqatlarda «Qeyrət»in Şəfi bəy Rüstəmbəyov tərəfindən yarandığı qeyd olunmuşdur. Təşkilatın sıralarında Xəlil bəy Xasməmmədov, Ələkbər Quliyev, Qafar Rəfiyev, Xanlar Xanəli ağa oğlu və başqaları fəaliyyət göstərirdilər. «Qeyrət» təşkilatının iclasları hər həftə Yelizavetpol şəhərinin baş məscidində keçirilirdi. Təşkilat öz məqsədlərini həyata keçirmək üçün xalq arasında təbliğat aparır, onların müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə çalışır və bu məqsədlə imkanlı adamlardan ianə toplayırdı.

«Difai», «Müdafiə» və «Qeyrət» təşkilatlarını yaratmaqdan başlıca məqsəd Azərbaycan türklərinin ermənilər tərəfindən soyqırımının qarşısının alınması, tökülən günahsız qanların dayandırılması idi. Azərbaycan milli hərəkatının inkişafında mühüm əhəmiyyət kəsb edən bu partiya və təşkilatların (bunların bəziləri, o cümlədən «Qeyrət» arxiv sənədlərində «komitə» kimi qeyd olunmuşdur) fəaliyyətləri nəticəsində azğın erməni cəlladlarının quduz hərəkətlərinin qarşısı bir qədər alınmış, milli qırğın müəyyən dərəcədə dayandırılmışdır.

Erməni-azərbaycanlı münaqişəsi Azərbaycan milli hərəkatının təkanverici amili olmuşdur. T. Svietoçovskinin doğru qeyd etdiyi kimi, bu münaqişə «Azərbaycan müsəlmanlarının birliyi üçün katalizator rolu oynamışdır. Tatar–erməni savaşı ilk olaraq müsəlmanlar arasında yerəl və məzhəb ixtilaflarını aşan bir həmrəylik yaratmışdır.



Bundan belə bu cür ayrılıqlar siyasi fəaliyyət acısından əngəl olmaqdan çıxdı. Birlik simvolu yenə peyğəmbərin yaşıl bayrağı idi, ancaq dini dəvət simvolu sadəcə müsəlmanların etnik çatışmağa qarşı gələnəksəl bir şəkildə hərəkətə keçirmə məqsədi daşıyırdı».

Erməni-azərbaycanlı münaqişəsi Azərbaycan milli hərəkatının inkişafında çox mühüm rol oynadı.

–Bu münaqişə Azərbaycanın türk-müsəlman əhalisi arasında milli birlik ideyasını gücləndirdi. Xalq başa düşdü ki,erməni təcavüzünə qarşı yalnız əlbir mübarizə aparmaqla qələbə çalmaq olar.

–Bu münaqişə kütlələrin siyasi şüurunun formalaşmasında mühüm rol oynadı. Münaqişənin aradan qaldırılmasında hakimiyyət dairələrinin ermənipərəst mövqeyi bir tərəfdən xalqın hökumətə olan inamını azaltdı, digər tərəfdən hökumətin ikiüzlü siyasətini ifşa edərək, bu siyasətin arxasında mürtəce «parçala və hökm sür» ideyasının gizləndiyini üzə çıxardı.

–Münaqişə Azərbaycan milli hərəkatının inkişafına ciddi təkan verdi, əvvəllər kor–təbii mübarizə aparan xalqın təşkilatlanmasında əhəmiyyətli rol oynadı. Eyni zamanda, milli hərəkatın düzgün səmtə yönəldilməsinə ciddi təsir göstərdi.

## *2.3. «Müsavat» partiyasının yaranması və milli istiqlal mübarizəsində onun rolu.*

Azərbaycanda milli hərəkatı gücləndirən amillərdən biri də Balkan müharibələrinin başlanması oldu. Bu müharibələrdə xristan–müsəlman qarşıdurması bütün dünyada olduğu kimi, Rusiya imperiyasında yaşayan xalqların həyatına və mübarizəsinə də öz təsirini göstərirdi. M.Ə.Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» əsərində həmin dövrün hadisələrini səciyyələndirərək yazırdı: «Rusiya cəmiyyətində şovinist bir siyasət cərəyanı başladı, bu cərəyan Balkan müharibəsi əsnasında daha da şiddətləndi. Rus şovinizmi doğrudan-doğruya türk aləminə qarşı çevrilmişdi. Tanınmış rus ədiblərindən biri Balkanlara gedən Qırmızı xaç cəmiyyətini yola salmaq üçün yazdığı məqalədə «Bir slavyan, bir xristian varkən türk yaralısına baxmayın» deyirdi. Bu şovinizm eyni zamanda rus olmayan millətlərdəki milli cərəyanı qüvvətləndirirdi, o cümlədən türk millətçiliyi qabarırdı. Rus universitetlərində oxuyan Azərbaycan tələbələrinin Kiyevdə toplanan ictimai kəşf və əzası həbs edilmişdir. «Hilal-Əhməd» faydasına yapılan propaqanda o zamanki hissiyatın tərvici üçün ən münasib bir vasitə olurdu. Bakı qadınlarından sırğalarını verənlər olmuşdu. Gənc müəllim və tələbələr dərslərini ataraq türk ordusuna könüllü gedirdilər».

Balkan müharibələri Rusiya inqilabçılarının türkçülüyə və müsəlmançılığa münasibətdə mənfi mövqedə dayandıqlarını üzə çıxartdı. Məhz bu hadisədən sonra Azərbaycan inqilabçıları sırasında millətçiliyə meyl gücləndi; onlar Rusiya inqilabçıları ilə əlaqəni kəsməyə başladılar.

Azərbaycan ziyalı və vətənpərvərlərinin təşəbbüsü ilə



İstanbulda «Qafqaz könüllü hissəsi» təşkil olundu. Əsasən Azərbaycan döyüşçülərindən ibarət olan həmin hissə Balkan savaşının fəal iştirakçısına çevrildi. Azərbaycanın tanınmış şairi Əhməd Cavad da «Qafqaz könüllü hissəsi»nin tərkibində Trakya cəbhəsində vuruşmuş, döyüşlərdən aldığı təəssüratı öz bədii yaradıcılığında əks etdirmişdi.

Arxiv sənədləri Azərbaycanda Balkan müharibələri dövründə xalqın Türkiyəyə rəğbət bəslədiyini açıqlayır. Yelizavetpol qubernatorunun Qafqaz canişinliyi dəftərxanasına göndərdiyi 10 noyabr 1911-ci il tarixi məlumatda bildirilir ki, «tatarlar Türkiyə–İtaliya cəbhəsində baş verən hadisələrə qeyri-adi maraq göstərir, Türkiyənin yenilməzliyinə dərin inam bəsləyirlər. Hal-hazırda müsəlmanlar arasında qeyri-leqal şəkildə türk ordusu nəfinə pul toplanmaqdadır».

Arxiv sənədlərində 1913-cü ildə Bakıda yaralı Türkiyə zabitlərinin müalicəsi üçün ianə toplanması ilə bağlı faktlar mövcuddur.

Bakı Quberniyası Jandarm İdarəsinin rəisinə verilən 9 aprel 1913-cü il tarixli gizli məlumatda bildirilir ki, «müsəlmanlar arasında açıq-aşkar söz-söhbət gəzir ki, Türkiyə nəfinə 32 mln. rubl deyil, daha çox pul toplanmışdır. Pulu türk konsuluna meyvə satıcısı çatdırmışdır. Xəfiyyə idarəsinin məlumatına görə Murtuza Muxtarovun 150 min rubl ianə verməsi ilə bağlı hətta qəzetdə məlumat dərc edilmişdir. Xəfiyyə qəzetin sayını xatırlamır».

Çar hökuməti Balkan müharibələrində iştirak etmək üçün gedən Qafqaz müsəlmanlarına mane olurdu. Kutaisi Quberniya Jandarm İdarəsinin rəisinə göndərilmiş 15 oktyabr 1913-cü il tarixli məktubda göstərilir ki, Balkan müharibəsində iştirak etmək üçün gedənlərə Türkiyə hö-

kuməti pasport təqdim edir. Həmin məktubda hər gün onlarla türk-müsəlman əhalisinin bu məqsədlə Türkiyə konsulluğuna müraciət etdiyi göstərilir.

1913-cü ilin axırında Bakıda ədəbi–bədii dərnəklərin birində milliyyətcə rus olan bir alimin «Türkiyə böhranı və Balkan məsələsi» mövzusunda oxuduğu mühazirə fitə basılmış, iştirakçılar antislavyan əhval–ruhiyyəsi ilə zalı tərk etmişlər.

Eyni zamanda Türkiyə hökuməti də Azərbaycanda, ümumən Qafqazda türkçülük və islamçılıq təbliğatı aparırdı. Yalnız 1913-cü ildə Türkiyə hökuməti bu məqsədlə Qafqaza 60-a qədər zabit göndərmişdir.

Balkan müharibələri Azərbaycanın sərhədlərindən uzaqlarda getsə də, onun əks-sədası özünü xalqın milli oyanışında, milliyyətçiliyin qüvvətlənməsində, azadlıq duyğularının güclənməsində göstərirdi. Azərbaycanın ziyalıları hər vasitə ilə xalqın gözünün açılması, qəflət yuxusundan oyanması, öz hüququnu dərk etməsi uğrunda mübarizə aparırdılar. Lakin Rusiyada və dünyada cərəyan edən ictimai-siyasi hadisələrlə ayaqlaşmaq, xalqın gücünü vahid səmtə yönəltmək, kütlələri eyni ideal uğrunda səfərbər etmək üçün siyasi təşkilata ehtiyac var idi. 1904-ci ildə əsası qoyulmuş «Hümmət» təşkilatı Rusiya sosial-demokratları ilə əlbir fəaliyyət göstərdiyi üçün Azərbaycanda güclənməkdə olan milli hərəkatı düzgün qiymətləndirə bilmir, geniş kütlələrin marağını əks etdirmirdi. 1911-ci ilin payızında əvvəllər M.Ə.Rəsulzadə ilə birlikdə «Hümmət» təşkilatında çalışmış üç nəfər- Məhəmməd Əli Rəsul oğlu, Abbasqulu Kazımzadə və Tağı Nağı oğlu qeyri-leqal təşkilat –firqə yaratmaq qərarına gəlirlər.

Sonralar siyasi hadisələrin hegemon qüvvəsinə çevriləcək bu firqəyə «Müsavat» («Müsavat» ərəb sözü olub



«bərabərlik» mənasını ifadə edir) adı qoyulur. Bəzi müəlliflər, o cümlədən A. Rayevski «Müsavat» partiyasının əsasının M.Ə.Rəsulzadə tərəfindən qoyulduğunu qeyd edir. M.D.Hüseynov «Müsavat» firqəsinin əsasının M.Ə.Rəsulzadə (jurnalist), Qulamrza Şərifzadə (tacir) və Kərbəlayi Vəli Mikayılov tərəfindən qoyulduğunu göstərirdi.

H.Baykara isə partiyanın yaradıcıları sırasında 3 nəfər fəhlənin A.Rəsulzadə, A.Kazımzadə və Vəli Mikayıl oğlunun adlarını çəkmişdir.

Əslində hər üç müəllifin qənaəti yanlışdır. Belə ki, M.Ə.Rəsulzadə həmin dövrdə Türkiyədə mühacirətdə olduğu üçün onun «Müsavat» partiyasının yaradılmasının bilavasitə iştirakçısı olduğunu söyləmək həqiqətə uyğun deyil. Qulamrza Şərifzadə və Kərbəlayi Vəli Mikayılova gəldikdə isə onlar «Müsavat» partiyasının ilk üzvlərindən olsalar da, onun yaradılmasında iştirak etməmişlər. Partiyanın yaranma tarixi də bu mövzu ilə əlaqədar yazılmış tədqiqatlarda müxtəlif cür göstərilir. A.Rayevski, T.Svietoçovski, T. Sünbül «Müsavat» partiyasının 1912-ci ildə yarandığını qeyd edirdilər.

M. D. Hüseynov, F. Kazımzadə isə onun yaranma tarixini 1911-1912-ci illər kimi qeyri-dəqiq rəqəmlərlə göstərirdilər.

«Müsavat» firqəsinin necə yaranması haqqında dəqiq məlumatı həmin təşkilatın yaradıcılarından və fəal üzvlərindən olan M.Ə.Rəsuloğlu vermişdir: «1911-ci ilin son bahar günü idi. Arkadaşların gizli toplantı və müşavirə yeri rəhmətlik Kazımzadə Abbas bəyin xırdavat mağazası idi. Bir gün arkadaşlarla Abbas bəyin mağazasının arxa bölümündə otur累durduq. Arkadaşlarımızdan mərhum Tağı Nağı oğlu içəri girdi və bizlərə: «Gürcülərin, ermənilərin və rusların siyasi partiyaları var. Bizim də nədən bir

partiyamız olmasın. Biz də bir siyasi partiya quralım».- dedi. Bir neçə gün sürən müzakirə və müşavirədən sonra «Müsavat» partiyasını qurmağa qərar verdik. Zatən mərhum Rəsulzadə Məmməd Əmin bəy də o tarixlərdə bulunduğu İstanbuldan bizlərə yazdığı xahişlərlə dolu yazısında bir siyasi təşkilata ehtiyac olduğunu bildirirdi».

«Müsavat» partiyasının əsasını qoyan bu üç nəfərdən heç biri siyasi biliyə, geniş dünyagörüşə və firqənin proqramını hazırlaya biləcək savada malik deyildi. Sadəcə olaraq, onlar «Hümmət»in sıralarında müəyyən qədər siyasi təcrübə qazanmışdılar. Çünki «Müsavat» firqəsinin əsasını qoyanların və ilk fəaliyyəti dövründə onun özəyini təşkil edənlərin böyük əksəriyyəti «Hümmət»çi olmuşlar.

Çox keçmədən «Müsavat» partiyasının sıralarına yeni üzvlər daxil olmağa başlayır. Partiyanın qəbul etdiyi 8 bənddən ibarət proqram onun fəaliyyətinin ilkin mərhələsini və ideya istiqamətini öyrənməyə əsas verir:

1. Millət və məzhəb fərqi qoyulmadan bütün müsəlmanların birləşməsi;

2. Müsəlman ölkələrinin itirilmiş müstəqilliyinin bərpa edilməsi;

3. Müstəqilliklərini müdafiə və bərpa etmək üçün mübarizə aparan bütün müsəlman ölkələrinə maddi və mənəvi kömək etmək;

4. Müsəlman ölkələrinin və millətlərinin müdafiə və hücüm qüvvələrini artırmaq üçün kömək etmək;

5. Bu ideyaların yayılmasına əngəl olan bütün maneələri aradan qaldırmaq;

6. Müsəlmanların birliyinə və tərəqqisinə çalışan digər partiyalarla əlaqə yaratmaq;

7. Bəşəriyyətin səadət və tərəqqisinə çalışan xarici cəmiyyətlərlə ehtiyac olan zaman əlaqə və fikir mübadiləsi yaratmaq;



8. Müsəlmanların həyat uğrundakı mübarizəsini gücləndirmək, onların ticarət, sənaye və ümumiyyətlə iqtisadiyyatını inkişaf etdirmək.

Proqramdan göründüyü kimi «Müsavat» partiyası öz fəaliyyətinin ilk dövrlərində islami mahiyyətdə olmuş, ictimai-siyasi mübarizədə islamçılığa üstünlük vermişdir. Bunu təbii və tarixi zərurətdən yaranmış amil kimi səciyyələndirmək lazımdır. Lakin bu, ayrı-ayrı tədqiqatlarda yanlış şəkildə şərh edilir. Məsələn, M.D.Hüseynov yazır: «Beləliklə öz fəaliyyətinin ilk mərhələsində «Müsavat» partiyası sözün həqiqi mənasında yüz faizli panislamist olduğunu və müsəlman dinini bütün atributları ilə canlandırmaq arzusunu sübut etmişdir».

«Müsavat» partiyasının ilk fəaliyyəti dövründə panislamist mahiyyətdə olduğu islam əleyhinə böhtan dolu cızmaqaraları ilə məşhur olan L. Klimoviçin tədqiqatlarında da qeyd edilmişdir.

Azərbaycan milli hərəkatı tarixində islamçılığın başlıca meyllərdən biri olduğunun sübuta ehtiyacı yoxdur. Hətta etiraf olunmalıdır ki, I dünya müharibəsinə qədər milli hərəkatda islamçılıq aparıcı xətt və milli özünüdərkin mühüm amillərindən biri olmuşdur. «Müsavat» partiyasının fəaliyyətinin ilk dövrlərində islamçılıq panislamizm mahiyyəti daşımamışdır. Buna görə də «Müsavat»ın öz fəaliyyətinin ilk dövrlərində islami dəyərlərə üstünlük verməsini «panislamizm» kimi qiymətləndirmək kökündən yanlışdır və tarixi hadisələrə bolşevikcəsinə münasibətin nəticəsidir. «Müsavat» firqəsinin ilk proqramını təhlil edən Tahir Sünbül onun məzmununun həmin dövrdə cərəyan edən siyasi hadisələrlə sıx əlaqədə olduğunu göstərir. O, partiyanın proqramının islamçılıq ruhunda olmasının səbəblərini aşağıdakı kimi səciyyələndirir:

1. Azərbaycan türkləri uzun bir müddətdən bəri Rus istibdadından qurtulmaq istəməkdədir. Dolayısı ilə bu səbəbdən müttəfiq olduqları Rusiya türkləri ilə birlikdə Rusiya xaricindəki müsəlman millətlərinin yardımını və dəstəyini təmin etmək zorundadır.

2. Tarixən türk xalqlarının hamısı bütün islam dünyasının lideri olan Osmanlı dövləti Avropa-xristian dövlətlərilə mücadilə etməkdə olduğundan olduqca zəif bir vəziyyətdədir. Bu səbəbdən ondan yardım almaq mümkün deyil.

3. Bu vəziyyətdə hürriyyət yolunda türkçülüyə, yəni millətçiliyə söykənən xətt ehtiyac duyulan yardımı təmin edə bilməyəcəkdi. Elə isə eyni dini paylaşdıqları və gündən-günə güclənən islam millətlərilə münasibət daha yararlı ola bilərdi.

4. Eyni zamanda mənəvi baxımdan dünya ölkələrindən də dəstək alınacağı ehtimalı düşünülə bilər. Bundan əlavə qarşılıqlı yardımın bütövlükdə Osmanlı dövlətinə dəstək olacağı nəzərdə tutulurdu.

«Müsavat» partiyasının ilk proqramında islamçılığın ön plana çəkilməsinin bir səbəbi də Balkan müharibələri ilə bağlı idi. Partiyanın 1912-ci ildə nəşr etdirib yaydığı bəyannamələrin birində qeyd olunurdu ki, «Bu vaxta qədər özlərini mədəni sayan avropalılar islam aləminin bütün üzvlərini əzir və hər cür təhqirlərdən çəkinmirdilər. Ymid edirdilər ki, islam aləminin qəlbi mənzilisində olan Osmanlı xilafəti xəstə insan kimi bu qədər zərbələrdən sonra çar-naçar davam gətirə bilməyəcək, məhv və nabüd olacaqdır. Lakin məşrutiyyətin elan olunmasından sonra onlar özlərinin yanlış olduqlarını, Osmanlı xilafətinin yenidən qüvvətləndiyini görərək dəhşətə düşdülər. Dindaşlar! Bilin və agah olun ki, yeganə ümid və nicat çarəmiz Türkiyənin istiqlal və tərəqqisindədir. Əgər biz indi də özümüzün əvvəlki hissizliyimizdən vaz keçməsək, dünyanın gözü önündə haqq, islamiyyət və milliyyətimizi qeyb edib, düşmənə əcir, tabe və hardasa əsir olacağımız şəkk və şübhədən aridir. Cəmi aləm bilir ki, islam xilafətinə sahib olan Türkiyəyə qarşı bu müharibəni Balkanın ufaq və kiçik hökumətləri elan etməmişlər. Çünki şir nə qədər zəif olsa da, çaqqallar və tülkülər ona yaxın gəlməyə cürət etməzlər. Bu işləri işləyən, istiqlaliyyət və insaniyyət düşməni və «dünya jandarmı» ləqəbi ilə məşhur olan şimal ayısı müstəbid Rusiya hökumətidir ki, hər gün tibb ləvazimatı, həkimlər və könüllü adı altında bölük-bölük nizamilər göndərir».

Bəyannamə bütün Qafqaz regionunda yayılmışdı. Həmin bəyannaməni şərh edən M. B. Məmmədzadə qeyd edirdi ki, «Rusiya imperializminə qarşı «islam aləminin qəlbi mənzilisində»və «yeganə ümidimiz və nicat çarəmiz olan Türkiyənin istiqlal və tərəqqisi» konsepsiyası «Müsavat» firqəsinin Osmanlı dövlətinin bütün türklüyü və bütün müsəlmanları xilas edə biləcək qüvvə kimi qalmasını və yüksəlməsini arzu etdiyindən irəli gəlirdi».

Bəyannamədən və M. B. Məmmədzadənin fikirlərindən aydın göründüyü kimi, «Müsavat»ın fəaliyyətində müsəlmançılıq və türkçülük bir-birindən ayrı düşünülməmişdir. Burada «hümmət» və «millət», «türklük» ilə «müsəlmançılıq» bir-birindən təcrid olunmamışdır. Partiya öz qarşısına müstəqil olan müsəlman ölkələrinin istiqlaliyyətinin qorunması və məhkum vəziyyətdə yaşayan müsəlman millətlərinin istiqlaliyyətə çatması uğrunda mübarizə məqsədini qoymuşdur. «Müsavat» firqəsi qısa bir zaman ərzində özünü geniş kütlələrə tanıda bildi. Çox keçmədən Azərbaycanın və Qafqazın ayrı-ayrı bölgələrində partiyanın özəkləri yaradılmağa başlandı. Bundan əlavə, İran Azərbaycanının bir çox şəhərlərində

partiyanın şöbələri fəaliyyət göstərirdi. Partiyanın ideyalarının kütlələr arasında sürətlə yayılması Azərbaycanın yaşadığı tarixi şəraitin özündən doğurdu. Xalq bu firqənin timsalında özünün siyasi platformasını müəyyənləşdirdiyini anlayırdı. Dövrün bir çox tanınmış ziyalılarının «Müsavat»a gizli və aşkar rəğbəti onun sıralarını gücləndirirdi. Aydınlar zümrəsinin «Müsavatın» ətrafında birləşməsinin əsas səbəblərindən biri firqənin dini-milli təmələ söykənməsi idi. Ə.Ağaoğluin Türkiyəyə mühacirət etməsindən sonra «Difai»nin digər üzvlərinin «Müsavat»a daxil olması partiyanın siyasi potensialını xeyli qüvvətləndirdi.

Bolşeviklər imkan daxilində geniş xalq kütlələrinin milli firqələrə olan etimadını azaltmağa, yalnız özlərinin nüfuzunu qoruyub saxlamağa çalışır və bu yolda ən çirkin üsullara əl atırdılar. Onlar müstəmləkə şəraitində yaşayan xalqın ağır vəziyyətindən istifadə edərək, sinfi münasibətləri qızışdırmağa çalışır, bununla da milli firqələrə rəğbəti azaldacaqlarını düşünürdülər. Əslində isə milli özünüdərk prosesinin gücləndiyi bir dövrdə geniş xalq kütlələrinin, xüsusilə onun düşünən təbəqəsinin milli firqələrə rəğbət bəsləməsi təbii idi. Buna görə də «Müsavat»ın daha çox aydınlar, tələbələr, tacirlər, iş adamları tərəfindən dəstəkləndiyinin iddia olunması onun fəaliyyətinin yalnız ilk dövrləri üçün səciyyəvi hesab oluna bilər. M.Ə.Rəsulzadə bu dövrdə müsəlmanlar arasında yaranmış inamı belə ifadə edirdi: «Türkiyə qüvvətli olursa, İran yaşarsa, bizim də yaşayacağımız öz-özünə hiss olunurdu».

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar hökumətinin verdiyi əfv-ümumi siyasi məhbuslara da şamil edilirdi. Bundan istifadə edən M.Ə.Rəsulzadə Azərbaycana qayıtdı və «Müsavat»ın sıralarına qoşularaq, onun liderliyini əlinə aldı.



T.Svietoçovski bu hadisəni belə qiymətləndirir: «Müsavat» 1913-də Rəsulzadənin şəxsində siyasal olaraq təcrübəli və düşünsəl olaraq bir öndərə qovuşdu. Rəsulzadə azərbaycanlı sürgünlər arasında, Osmanlı torpaqlarında yaşamağa davam etmək yerinə, Romanov xanədanının üçyüzüncü ildönümündə çıxarılan əfvdən yararlanaraq ölkəsinə dönməyi tərcih etmişdi. «Müsavat» partiyasına girdikdən qısa bir sürə sonra partiyanın öndəri durumuna gələn və rəqibsiz bir denetim quran Rəsulzadə bu konumunu irəliki illərdə də qoruyacaqdı».

Türkiyədə mühacirətdə olduğu illərdə M.Ə.Rəsulzadə özünün yazıları ilə partiyanın ideologiyasına ciddi təsir göstərirdi. O. hər şeydən əvvəl, firqənin «hümmətçilikdən millətçiliyə», «islamçılıqdan türkçülüyə» doğru istiqamətlənməsinə çalışırdı. M.Ə.Rəsulzadəyə görə türkçülük ideyası başlıca olaraq türk millətlərinin dilinin, mədəniyyətinin, ictimai-siyasi həyat tərzlərinin yaxınlaşması prinsiplərinə söykənirdi. Bu ideyanın meydana gəlməsi türk xalqlarının milli özünüdərk amilinin güclənməsilə bağlı idi. M.Ə.Rəsulzadə türkçülük ideyasının müxtəlif regionlarda yaşayan türk xalqlarının vahid dövlətinin yaradılması- turançılıq kimi qeyri-real mənada başa düşmürdü. Onun fikrincə, türkçülük milli azadlıq uğrunda mübarizədə türk xalqları arasında sıx əlaqələrin yaranması zərurətindən doğmuşdur. Dünyanın müxtəlif bölgələrinə səpələnmiş, müstəqil dövlətləri olmadığı üçün bir-biri ilə əlverişli mənəvi əlaqə yarada bilməyən türk xalqlarının bir gün birləşəcəyinə və «müttəfiq bir türk dünyası təşkil edəcəyinə» inam bəsləyən M.Ə.Rəsulzadə qarşılıqlı mənəvi əlaqələrin milli özünüdərk üçün zəmin olacağını düşünürdü. Öz siyasi fəaliyyətində islamçılığı və türkçülüyü əsas tutan «Müsavat» liderləri Azərbaycanın istiqlal mübarizəsini yürütmək,

xalqı rus sümürgəçliyindən xilas etmək üçün firqənin ideoloji prinsiplərini hazırlamağa çalışırdılar. «Müsavat» firqəsi mahiyyət etibarı ilə xalqçı idi. Xalqın müxtəlif təbəqələri, fəhlələr, kəndlilər, ziyalılar firqənin arxalandığı qüvvə idi. Bu mənada M. D. Hüseynovun guya «Müsavat» partiyası Azərbaycan burjuaziyasına arxalanır və onun mənafeyini müdafiə edirdi» qənaəti kökündən yanlışdır və tarixi hadisələrə sinfi münasibətin nəticəsidir.

«Müsavat» firqəsi Azərbaycanda fəaliyyət göstərən digər siyasi firqə və təşkilatlar kimi fevral burjua inqilabına qədər qeyri-leqal fəaliyyət göstərməyə məcbur olmuşdu. Buna görə də firqə üzvləri daim təqiblərə məruz qalmışlar. Xəfiyyə orqanlarının nəzarətindən yayınmaq və həbs təhlükəsindən xilas olmaq üçün firqə üzvləri üç nəfərlik dərnəklərdə birləşmişdir.

Yzvlərinin təhlükəsizliyini təmin etmək üçün firqə xüsusi ilə ilk fəaliyyəti dövründə açıq çıxışlardan imtina etməyə çalışırdı. Çünki ilk dövrlərdə onun fəaliyyətinin başlıca istiqaməti qeyri-leqal şəraitdə üzvlərinin sayını artırmaq, siyasi potensialını gücləndirməkdən ibarət idi. «Müsavat» firqəsinin ilk dövrləri ilə bağlı faktik məlumatların azlığı bəzi tədqiqatlarda onun fevral burjua inqilabına qədər mövcud olması barədə şübhə doğurmuşdur.

Əslində isə bu fikir həqiqətə uyğun deyildir. «Müsavat»ın qısa bir zamanda özünü partiya kimi tanıtması T. Svietoçovski tərəfindən də etiraf olunmuşdur.

H.Baykara isə partiyanın fəaliyyətinin ilk dövrünü belə səciyyələndirir: «Müsavat» partiyası az vaxt ərzində görünməmiş bir inkişaf yoluna qədəm qoydu. Çünki Azərbaycan xalq toplumunun öz kökündə lazım olan iqtisadi-sosial vəziyyət tarixin axarında təkmilləşmiş və siyasi platformasını tapmışdır. Belə vəziyyətdə «Müsavat» partiyasının qurulması bu təkmilləşməyə cavab vermiş və belə bir vəziyyətə hazır olan azəri ziyalılarını öz ətrafında toplamışdır».

Şübhəsiz ki, «Müsavat» qeyri-leqal fəaliyyət göstərdiyi illərdə də ardıcıl siyasi mübarizə xəttini yeritmişdir. Lakin mübarizənin gizliliyi və siyasi ab-havanın mürəkkəbliyi onun fəaliyyətinin aşkarlanmasına imkan verməmişdir. Ona görə də M.Ə.Rəsulzadə və «Müsavat» firqəsinin digər üzvləri öz fəaliyyətlərini müxtəlif mədəni-maarif cəmiyyətlərində, tədris ocaqlarında, mətbuatda, nəşr işlərində reallaşdırmağa çalışmışlar. M. B. Məmmədzadə «Müsavat» firqəsinin lideri M.Ə.Rəsulzadənin bu dövr fəaliyyətini səciyyələndirərək yazır: «Rəsulzadə Məhəmməd Əmin bəyin dünya müharibəsi ərəfəsində Bakıya qayıtdığı zaman Bakı mətbuatı dil məsələsi ətrafında şiddətli mübahisə ilə məşğul idi. «Fyuzat»ın «Osmanlı lisanı» tezisini müdafiə edən və o dildə çıxan «Şəlalə» məcmuəsilə azəri türkcəsini müdafiə edən «İqbal» qəzeti arasında polemika hərarətli bir şəkil almışdır. «Şəlalə»ni idarə edən türkiyəli mühərrirlərdən Səbribəyzadə «Qafqaziya lisanında kitabətin» əsasən imkansız olduğunu da irəli sürürdü. Azəriçilər isə Osmanlı lisanının süni və qeyri-təbii olduğunu və türkcəyə tərcümə edilmədən kimsənin anlamadığı və anlaya bilməyəcəyi bir dil olduğunu iddia edirdilər. Bu münaqişədə iştirak edən Məhəmməd Əmin bəy «Şəlalə»də yazdığı «Dil - ictimai bir amil», «Yeni lisançılar və türkçülər» başlıqlı məqalələri ilə dilin ictimai əhəmiyyətini təhlil edərək onun birləşdirici ictimai bir rol oynaya bilməsi üçün ümumi kütlə tərəfindən anlaşılan bir dil olması lazım gəldiyini irəli sürür və bu nöqtədən çıxış edərək hər iki cərəyanı rədd edirdi. Türklüyü bir küll olaraq qəbul etdiyi, bu küllü də dil üzərində qurulduğunu iddia etdiyi üçün Məmməd Əmin bəy

məhəlli şivələrin müstəqil dilə çevrilməsinə tərəfdar ola bilməzdi. Eyni şəkildə heç kimin anlamadığı və türklüklə heç bir münasibəti olmayan Osmanlı lisanını da qəbul edə bilməzdi. O, sadə və təmiz türk dili tezisini dilə gətirirdi».

M.Ə.Rəsulzadə «Dirilik» jurnalında dərc etdirdiyi «Milli dirilik» silsilə məqalələrində isə milliyyət məsələsini, daha doğrusu, milliyyəti təşkil edən amilləri təhlil edərək, sonralar «Müsavat»ın yeni proqramına salman nəzəriyyənin əsasını qoymağa müvəffəq olmuşdur.

«Milli dirilik» silsilə yazıları Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əks–səda doğurdu. Bu məqalələr müəyyən mənada qurulacaq milli Azərbaycan dövlətinin mənəvi, siyasi prinsiplərinin toplusu demək idi. Burada milli həyatın, milli diriliyin müxtəlif problemlərinə münasibət bildirilirdi. Böyük siyasi xadimin başlıca məqsədi isə milli dirçəliş mərhələsini yaşayan xalqda azadlıq və vətənpərvərlik duyğuları oyatmaqdan ibarət idi. O, yazırdı: « Diriliklərin ən qiymətlisi milli dirilikdir. Dirilik dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir» M.Ə.Rəsulzadə yazılarında dönə-dönə qeyd edirdi ki, milli istiqlala malik olmayan bir millət öz mövcudluğunu saxlaya bilməz. Partiyanın fəaliyyətinin ilk illərindən «Müsavat» liderinin mövqeyi belə olmuşdur. Bəzi müəlliflər iddia edirlər ki, «Müsavat» partiyası yarandığı gündən sırf istiqlalçılıq mövqeyində olmuşdur. Bu yanlış fikirdir. «Müsavat» partiyası öz fəaliyyətinin ilk illərində bilavasitə Rus müstəmləkəçiliyinə qarşı mübarizə aparmağı qarşısına məqsəd qoymamışdır.

Lakin partiyanın birbaşa Rus müstəmləkəçiliyinə qarşı mübarizə yolunu tutmamasını onu çarizmi müdafiə etməsi kimi qiymətləndirmək olmaz. Partiya real siyasi mübarizə yolunu tutmuş, avantürizmə qapılmamış, tarixi gerçəklikdən və mövcud siyasi vəziyyətdən çıxış etmişdir.



«Müsavat» partiyasının yaranması ilə Azərbaycan milli hərəkatı özünün yeni mərhələsinə qədəm qoydu. Bu mərhələ özündən əvvəlki mərhələlərdən mütəşəkkilliyi, məqsədyönlülüyü və ardıcıllığı ilə seçilir. Yarandığı ilk üç ildə zəif təşkilatlanmasına və müəyyən qədər məhdud fəaliyyətinə baxmayaraq, Azərbaycan Cümhuriyyətinin yaranmasında, istiqlal və hürriyyət bayrağının yüksəlməsində, Azərbaycanın milli mədəni bir varlıq olaraq dünya millətlərinə tanıdılmasında «Müsavat»ın müstəsna xidmətləri olmuşdur. «Müsavat» firqəsi milli–dini əsas üzərində qurulmuşdu. Onun istiqlal uğrunda mübarizəsinin fəal daşıyıcıları Azərbaycan xalqı idi. Digər siyasi partiyalardan fərqli olaraq o, müstəqil fəaliyyət yolunu tutmuşdu («İttifaq» partiyası rus kadet partiyası ilə birgə fəaliyyət göstərirdi, «Hümmət» partiyası isə RSDFP-nin Bakı Komitəsinin nəzdində idi). Bütün bunlar «Müsavat»ın Azərbaycan milli hərəkatının aparıcı siyasi qüvvəsi olduğunu reallaşdırırdı.

«Müsavat» partiyasının Azərbaycan milli hərəkatında oynadığı rolu M. B. Məmmədzadə düzgün olaraq belə səciyyələndirmişdir: «Eyni müsəlman qüvmlərini tənəzzüldən qurtarmaq əndişəsi ilə qurulan «Müsavat» ömrünün uzunluğu və həyatiliyi ilə «Difai»dən daha məsud olmuşdur. Öz dövrünün hakim zehniyyəti altında «İslam millətçiliyi» kimi meydana çıxmaqla bərabər, bu doktrinə qapanıb qalmamış, Azərbaycan cəmiyyəti ilə birgə dinamik təkamül yolu keçmiş və Azərbaycan cəmiyyətinin milli şüurunu tənzim və idarə etməklə onu özü ilə birlikdə millətçiliyə, türk millətçiliyinə və Azərbaycan istiqlalçılığına qovuşdurmuşdur. «Müsavat» firqəsinin inkişafı Azərbaycan cəmiyyətinin fikri təkamül tarixidir. Bu baxımdan 1911-ci ildən bu günə qədərki dövrün

Azərbaycan tarixini «Müsavat»ın tarixindən ayırmaq çətindir».

Ymumiyyətlə, 1905-1914-ci illərdə Azərbaycan milli hərəkatı açıq siyasi mübarizə səhnəsinə atılaraq, öz siyasi tələblərini Dövlət Dumasında ortaya çıxartdı. Milli ideya və azadlıq uğrunda çarpışan 3 partiyanın – «İttifaqi-müslümin», «Difai» və «Müsavat»ın yaranması ilə Həsən bəy Zərdabinin «milli ittifaq» barəsində yüksək amalı gerçəkləşmiş oldu.



# *III Bölüm.* I DÜNYA MYHARİBƏSİ İLLƏRİNDƏ MİLLİ İSTİQLAL MÜBARİZƏSİNİN YÜKSƏLİŞİ (1914-1918-ci illər)

## *3.1. Müharibə dövründə Azərbaycanın iqtisadi və sosial-siyasi durumu.*

I dünya müharibəsinin başlanması bütün dünyada milli hərəkatın genişlənərək yeni siyasi məcraya yönəlməsinə zəmin yaratdı. Çünki «dünya müharibəsi Avropa dövlətlərinin müstəmləkə siyasəti sahəsində qarşılarına çıxan bir sıra problemlərin sülh yolu ilə həll edilməsinin qeyri-mümkünlüyü nəticəsində yaranmışdı». Bu isə dünyanın ayrı-ayrı müstəmləkə ölkələrində milli-azadlıq hərəkatının genişlənməsi üçün real zəmin yaratmış oldu. I dünya müharibəsi bütün şərqdə milli-azadlıq hərəkatının yüksəlməsinə səbəb oldu. Çünki şərq-müsəlman ölkələri dünyanın digər regionları ilə müqayisədə daha artıq müstəmləkə şəraitində yaşayırdı.

I dünya müharibəsində ayrı-ayrı imperialist dövlətlərin Azərbaycana qarşı xüsusi işğalçılıq məqsədləri var idi. Çünki başlanan müharibə ölkənin iqtisadi-hərbi potensialı üçün neftin oynadığı əvəzsiz rolu ortaya çıxarmış oldu. Almaniya Bakı neftinə sahib olmağı Antanta üzərində qələbənin əsas şərtlərindən biri hesab edirdi. Müharibədə Rusiyanın müttəfiqi kimi çıxış edən İngiltərə isə Bakı neftini ələ keçirməklə ABŞ-ın dünya neft bazarında nüfuzunu zəiflətməyə çalışırdı.

I dünya müharibəsində Türkiyə dövlətinin də regional məqsədləri vardı. Müharibənin başlanmasından 3 ay sonra Rusiyanın Qara dənizdə yerləşən donanmasına hücum etməklə Osmanlı dövləti savaşa qoşuldu. T.Ç.Svietoçovski qeyd edir ki, Osmanlı hökuməti müharibəyə

başlayarkən iki «ideoloji təməl» izləyirdi: Birinci təməl panislamizmin gerçəkləşməsi uğrunda mübarizə idi. Ona görə də onlar savaşa qoşularkən müharibənin «bir cahad olduğunu elan etmiş və bütün dünya müsəlmanlarını cahada çağırmışdılar. İkinci təməl isə turançılıq ideyalarının həyata keçirilməsi idi. Bu məsələ Qafqazın taleyi ilə sıx bağlı idi. Ənvər Paşa «panislamizmin Türkiyə xaricində o qədər də əks-səda doğurmayacağını görərək, ikinci hədəfə ağırlıq vermişdi.

Rusiya ilə Türkiyə arasındakı müharibənin gedişi Azərbaycanda güclü əks-səda doğurdu. Müharibə Azərbaycanda türkçülük və islamçılıq ideyalarını gücləndirir, Rusiya əleyhinə etiraz motivlərinin çoxalmasına səbəb olur, muxtariyyət və islamçılıq üçün zəmin hazırlayırdı. Osmanlı hökuməti müharibə döründə Qafqaz müsəlmanları və Azərbaycan türkləri arasında ciddi, sistemli təbliğat aparırdı. Arxiv sənədləri I dünya müharibəsi illərində Azərbaycanda xalqın geniş təbəqələri arasında antirus əhval-ruhiyyəsinin gücləndiyini əks etdirir. Bakı Quberniyası Jandarm İdarəsinin 29 noyabr 1915-ci il tarixli arayışında qeyd olunurdu ki, Bakının varlı tacirlərindən olan Ağabala Quliyev yerli əhali arasında nüfuzundan istifadə edərək, ardıcıl surətdə Rusiya əleyhinə təbliğatla məşğul olur və bu yolda külli miqdarda vəsait xərcləyir.

1914-1915-ci illərdə Azərbaycanda Rusiyanın imperiya siyasətini ifşa edən bəzi kitabça və broşüralar çap olunmuşdu. Məhz buna görə də çar hakim dairələri Azərbaycanda nəzarəti gücləndirmiş və bir sıra qəzetlərin nəşrini dayandırmışdı.

Bu dövrdə keçmiş «Difai» partiyası üzvləri öz aralarında ilk müstəqil Qafqaz müsəlman dövləti yaratmaq məsələsini müzakirə etdilər. Fətəli xan



Xoyskinin qardaşı oğlu Aslan xan Xoyski 1915-ci ilin fevralında gizli surətdə sərhəddi keçərək, Ənvər paşanın Ərzurumdakı qərargahına getdi. Bu səfərin məqsədi Bakı, Yelizavetpol, İrəvan quberniyalarıyla Terek və Dağıstanı əhatə edəcək bir cümhuriyyətin qurulması üçün Osmanlı dövləti başçılarının razılığını almaqdan ibarət idi. Ənvər paşaya təqdim olunan layihə Azərbaycanın Osmanlı dövləti ilə birləşməsindən daha çox müstəqil bir dövlət kimi qurulması prinsipini əsas götürürdü. Sarıqamış məğlubiyyətindən sonra Ənvər paşa Aslan Xoyskinin təqdim etdiyi layihəni bəyənmişdi. Bunun əvəzində Aslan Xoyski osmanlılar Cənubi Azərbaycandan dəstək alan kimi Dağıstan və Qafqaz müsəlmanlarını ayağa qaldırmağa söz vermişdi. Aslan Xoyski yüz minlərlə adamın döyüşməyə hazır olduğunu da bildirmişdi. Lakin müharibənin sonrakı gedişi bu məsələnin reallaşmasına imkan vermədi.

1915-ci ildə rusların laz və acarlara divan tutması Qafqazın müsəlman xalqları arasında böyük narazılığa səbəb olmuşdu. Rusiya Dövlət Dumasının iclasındakı çıxışında millət vəkili M.Y.Cəfərov ordunun bu hərəkətinə görə hökuməti günahlandırmışdı: «Bu siyasət Qafqazda, ordu hissələrinin keçdiyi yerlərdə rus olmayan millətlərə qarşı açıq təhrikçilik şəklində özünü göstərir. Müharibə gurultusunun arxasında yardımsız, sülhsevər müsəlman xalqının başına qorxunc əməllər gətirilməkdədir. Onların həyatı və əmlakı üçün heç bir təminat yoxdur. Müsəlman üçün zülm, talan və cinayət adi gündəlik işlər olmuşdur. Kişilərin elliklə sərhəd xaricinə atılması, müdafiəsiz qalan qadınlara təcavüz, dağıdılmış, tərk edilmiş kəndlər, ac, yaralı, möhtac insanlar - bölgədəki müsəlmanların vəziyyəti belədir».

M.Y.Cəfərovun bu kəskin, ittiham xarakterli nitqi çar hakim dairələrini kadr dəyişikliyi aparmağa məcbur

etmişdi. Müsəlmanlar əleyhinə çoxlu sayda təxribatları, xüsusilə də acar qətliamı ilə tanınan 78 yaşlı Qafqaz canişini Vorontsov-Daşkov 1915-ci ilin sentyabr ayında vəzifəsindən götürülmüş, onun yerinə Q. N. Nikolayeviç təyin olunmuşdu. Bu təyinat Rusiya hökumətinin Qafqaz müsəlmanlarına müəyyən qədər güzəştlərə getməsini göstərirdi.

Qafqazın yeni canişini Tiflisə gedərkən yerli əhalinin ehtiyaclarını öyrənmək üçün yolüstü Bakıda dayanmışdı. Onun başqa bir güzəşti isə inqilabi fəaliyyəti ilə tanınmasına baxmayaraq, M.Ə.Rəsulzadəyə «Açıq söz» adlı qəzet buraxmağa icazə verməsi olmuşdu.

Lakin Qafqaz cəbhəsində müharibənin taleyi Rusiyanın xeyrinə dəyişməkdə idi. 1916-cı ilin əvvəllərində rus qoşunları yeni qələbələr əldə etdilər. Bakıya ilk türk əsirləri daxil olmağa başladı. Əsirlərin dəstə-dəstə Bakının küçələrindən keçirilərək, gəmi ilə Nargin adasındakı həbs düşərgəsinə aparılması xalqın dini və milli hisslərini coşdururdu. Rus qoşunlarının Ərzurumu istila etməsini dua və mərasimlərlə alqışlayan din xadimləri öz həmdinlərini əsir və qolubağlı gördükdə həyacan və sarsıntı keçirməyə başladılar.

Azərbaycanda Türkiyəyə rəğbət bəsləyənlərin sayı get-gedə çoxalmağa başlayır və Rusiya əleyhinə təbliğat güclənirdi. Əhali türk əsirlərinə hər cür yardım göstərməyə çalışırdı. Tiflis Quberniya Jandarm İdarəsinin 22 mart 1914-cü il tarixli məlumatında Qafqaz müsəlmanları arasında Türkiyə donanması nəfinə ianə toplanması qeyd olunurdu.

Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin üzvü Sona xanım Hacıyevanın izahatından aydın olur ki, Bakı şəhərində xəstə türk əsirlərinə kömək göstərmək barədə elanları oxuduqdan sonra Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri İsmayıl bəy Səfərəliyevlə birlikdə dəfələrlə şəhər lazaretində olmuş, xəstələrə müxtəlif yardım göstərmişdir. Əsirləri Nargin adasına apardıqdan sonra da, o, həftədə bir dəfə–cümə günləri həbs düşərgəsinə getmiş, onlara yardım göstərmişdir.

Azərbaycanın imkanlı şəxsləri öz türk qardaşlarına maddi və mənəvi dəstək olmaqla kifayətlənmir, mümkün olduqca öz həyatlarını təhlükə qarşısına qoyaraq, böyük xərclər hesabına əsirlərin qaçırılmasına çalışır və bəzən buna nail olurdular. 1915-ci ilin iyul ayında Nargin adasındakı həbs düşərgəsindən türk zabitlərinin qaçırılması belə hadisələrdəndir. Nargin adasının komendantı polkovnik Poltoratskinin Bakı şəhər Jandarm İdarəsi rəisinə verdiyi məlumatdan qaçırılan türk əsirlərnin kapitanlar Süheyl İzzət, Fərqat Tursun, Şükrü Şaban bəy, poruçik Osman Nuri Abdulla, podporuçik Yusif Ziya, praporşik Hüseyn Hilmi, Fikrət Şakir və Yusif İbrahim olduğu aydın olmuşdur.

Lakin Bakı quberniyası Jandarm İdarəsinin axtarış üzrə rəisi, polkovnik Leontyevin Qafqaz canişinliyinə 3 sentyabr 1915-ci il tarixli gizli məktubundan aydın olur ki, Nargin adasından qaçırılanların arasında Osman Nuri Abdullanın adı səhvən göstərilib və o, həqiqətən adadadır. Onun əvəzinə səkkizinci qaçqın zabitin poruçik Mustafa oğlu olduğu müəyyən edilmişdir.

Bakı şəhər qradonaçalnikinin dəftərxanasının verdiyi məlumatdan aydın olur ki, Nargin adasından türk əsirlərinin qaçırılması şəhər milyonçularından İsmayıl bəy Səfərəliyev, Murtuza Muxtarov, Acar bəy Aşurbəyov və Sona xanım Hacıyeva tərəfindən həyata keçirilmişdir və bu məqsədlə onların haqqında istintaq işi aparılmaqdadır. Arxiv sənədlərindən məlum olur ki, yuxarıda adı çəkilən şəxslər türk əsirlərinin Nargin adasından qaçırılmasına

qədər onlarla sıx əlaqədə olmuş, tez-tez görüşmüşlər.

Milliyyətcə erməni olan A. B. Akopovun Qafqaz canişinliyinə yazdığı iltimas məktubunda əsirlərin qaçırılmasının təfərrüatı göstərilmiş və bu hadisəyə «hərbi–siyasi mahiyyət» verilmişdir. Onun fikrincə, türk zabitləri biləra̧kdən əsir düşmüşlər ki, Rusiyanın hərbi obyektlərini öyrənə bilsinlər. Nargindən qaçırılan zabitlər xüsusi qayıqla Bakıya gətirilmişlər. Onların qaçışını məşhur türkpərəst Əli Heydər Zeynalov və yerli milyoner Ağabala Quliyev təşkil etmişdir. Əsirlər «İslamiyyə» otelinə gətirilmiş, onların şərəfinə ziyafət verilmişdir. Ziyafətdən sonra qonaqlar oteldə gecələmişlər. Səhərisi gün əsirlərə yerölçən forması verilmiş və onlar Puta stansiyası yaxınlığındakı neft yataqlarına getmişlər. Əsirlər bir həftə yerölçən paltarında və əllərində lazımi alətlər Yasamal dərələrini gəzmiş, səngərləri çəkmiş, habelə bütün dəmir yolları, şosse yolları və yaşayış məntəqələri barədə lazımi məlumat əldə etmişlər. Bundan sonra Ağabala Quliyevin müşaiyəti ilə İrana yola salınmışlar. A.B.Akopovun yazdığına görə Ağabala Quliyev «Hərbi xidmətləri» və külli miqdarda xərcləri üçün «Aypara» türk ordeninə layiq görülmüşdür.

Arxiv sənədlərindən aydın olur ki, türk əsgərləri 2 avqust 1915-ci ildə Rus Qafqaz cəmiyyətinə məxsus «İvan Kolesnikov» gəmisində Bakıdan Astaraya yola düşmüş və onlar İrana keçirilmək üçün həmin cəmiyyətin agenti Ağa Nəbi Bulayevə təhvil verilmişlər.

Əhali arasında Türkiyəyə rəğbətin artması çar hakim dairələrinin daim narahatlığına səbəb olurdu. Bakı qradonaçalnikliyinin xəfiyyə polisinin 1 noyabr 1915-ci il tarixli məlumatında göstərilirdi ki, «bütövlükdə Qafqaz və o cümlədən yerli müsəlmanların əhval-ruhiyyəsi daima və birbaşa olaraq, türk cəbhəsindəki vəziyyətlə bağlıdır. Türklər hücüm edir, müsəlmanların əhval-ruhiyyəsi hiss olunacaq dərəcədə yüksəlir, geri çəkilir–aşağı düşür. Sən demə, istər yüksək təbəqə, istərsə də aşağı təbəqə olsun, müsəlmanların əksəriyyəti türklərin tərəfindədir. Müsəlman mənbələrinə görə indi onların diqqəti Balkan hadisələrinə yönəlmişdir. Onlar almanlarla türklərin birləşəcəyi anı həsrətlə gözləyirlər, çünki o zaman türklər öz cəbhələrində hücuma keçəcəklər. Türklərin uğur qazanacaqları təqdirdə müsəlmanların üsyanı istisna olunmur».

Çar hakim dairələri Türkiyəyə rəğbət bəsləyənləri cəzalandırmaqdan çəkinmirdi. Məsələn, Bakı qradonaçalnikinin dəftərxanasına məxsus K.A.Aslanovun cinayət işinin materialları ilə tanışlıq göstərir ki, 15 yanvar 1915-ci ildə adı çəkilən şəxsin evində axtarış aparılmış və evdən Türkiyədəki hərbi hissələrdən bəhs edən şəkillər, türk sultanlarının və ictimai siyasi xadimlərinin şəkilləri, Bakıdakı Türkiyə konsulluğuna verilmiş ianənin qəbzi tapıldığı üçün o, məsuliyyətə cəlb olunmuşdur. K.A.Aslanovun Türkiyə tərəfdarı olması sübut edilmiş və o, Həştərxana sürgün olunmuşdur.

Azərbaycan milli hərəkatını Osmanlı dövlətində yaşayan siyasi mühacirlər də davam etdirirdilər. Ə.Hüseynzadə 1915-ci ildə Y. Akçuraoğlu və başqa ittihadçı yoldaşları ilə birlikdə «Turan heyəti» adı altında Avropanın bir sıra ölkələrində olmuş, Rusiya müsəlmanlarının azad olması istiqamətində fəaliyyət göstərmişdir. 1916-cı ildə Ə.Hüseynzadə, Ə.Ağaoğlu gənc türklər hərəkatının digər liderləri ilə birlikdə ABŞ prezidenti Vilsona təqdim olunan Rusiya müsəlmanlarının ağır həyatından bəhs edən müraciəti imzalamışlar. Onlar bu dövr fəaliyyətlərini «Rusiya məhkumu müsəlman türk–tatarların hüququnu müdafiə komitəsi» çərçivəsində

davam etdirmişlər.

Bundan əlavə, I dünya müharibəsinin sonlarına doğru Osmanlı hökuməti Ə. Hüseynzadəni gizli siyasi tapşırıqla Bakıya göndərmişdir. Ona «Azərbaycanın yeni bir dövlət halında qurulması məsələsini» oranın irəli gələnləri ilə birlikdə müzakirə etmək tapşırılmışdır.

Müharibə Azərbaycan milli hərəkatının inkişafına mühüm təsir göstərmişdir. Bu illərdə milli hərəkatın güclənməsi bir tərəfdən burjuaziyanın formalaşması, digər tərəfdən isə kapitalist münasibətlərinin inkişafı ilə müşayiət olunurdu. I dünya müharibəsi dövründə Azərbaycanda burjua münasibətlərinin inkişafı milli hərəkatın xarakterinə öz təsirini göstərmiş və o, islamçılıq mahiyyətindən tədricən türkçülük mövqeyinə keçmişdir.

I dünya müharibəsinə münasibətdə «Müsavat» partiyasının mövqeyi digər partiyaların mövqelərindən tamamilə fərqlənirdi. «Rusiyadakı milli demokratik partiyalar arasında «Müsavat» partiyası yeganə partiya idi ki, I dünya müharibəsi əleyhinə çıxmış, müharibədə Rusiyanın məğlubiyyətini təbliğ etmişdir. O, bu müharibəni soyqırımı, işğalçı müharibə kimi qiymətləndirmiş, onun dayandırılmasını, ilhaqsız və təzminatsız sülh bağlanmasını tələb etmişdir».

Lakin sovet tarixşünaslığında «Müsavat» partiyasının müharibəyə münasibəti təhrif olunmuş şəkildə təqdim edilmişdir. A. Rayevskinin heç bir elmi mənbəyə söykənməyən tədqiqatlarında qeyd olunur ki, «Müsavat» partiyası imperialist müharibənin tərəfdarı kimi çıxış etmiş, partiyanın lideri M.Ə.Rəsulzadənin yazılarında çar hakimiyyətinə « qələbə və nailiyyət» arzu edilmişdir.

Əslində isə məsələ belə deyildir. Düzdür, M.Ə.Rəsulzadənin «Milli dirilik « silsilə məqalələrinin başlanğıcı olan «Dirilik nədir?» məqaləsində dirilik,



istiqlaliyyət, tərəqqi naminə aparılan müharibələrə bəraət qazandırılır; «Dünyanın mütəmadi millətləri öz diriliklərini təmin üçün cəhənnəmi silahlarla müsəllah olub bir-birlərinin üstünə hücum edirlər. Hə əcaib bir tələqqi ki, istədikləri kimi dirilə bilmək üçün ölümü qəbul edirlər. Dirilmək üçün ölürlər».

Lakin müharibəni tarixi–kulturoloji baxımdan səciyyələndirən bu müddəa ümumi səciyyə daşıyır və I dünya müharibəsi ilə əlaqədar söylənilməmişdir. Ymumiyyətlə, bütün digər məqalələrində M.Ə.Rəsulzadə ardıcıl olaraq müharibənin əleyhinə çıxmış, onun əsl mahiyyətini və dəhşətli nəticələrini tənqid etmişdir. N.Cəfərovun qeyd etdiyi kimi, «bütün bunlar bizə belə bir fikir söyləmək üçün əsas verir ki, M.Ə.Rəsulzadənin müharibə barədə təkcə bir məqalədə söylədikləri hansısa emosional təsir altında təsadüfən deyilmiş mühakimə olub, bütövlükdə onun müharibəyə münasibətini əks etdirmir».

I dünya müharibəsi illərində «Müsavat» firqəsinin fəaliyyəti əsasən mətbuatda dərc olunan siyasi publisistik, ədəbi-kulturoloji məqalələrlə müəyyənləşir. Partiyanın açıq fəaliyyəti üçün şəraitin olmaması ucundan Müsavatçılar bu yolla xalqa nüfuz etməyə çalışır, bu və ya digər şəkildə öz ideyalarını yayırdılar. Özünün siyasi-publisistik yazılarını «Şəlalə»,»Dirilik», «Bəsirət» və başqa mətbuat orqanlarında dərc etdirən M.Ə.Rəsulzadə 1914-cü ilin oktyabr ayından müəyyən fasilələrlə «İqbal» qəzetinin redaktoru kimi fəaliyyət göstərmişdir. «İqbal» qəzeti «Müsavat» partiyasının orqanı olmasa da, onun ideyalarını təbliğ edirdi. Bunun bir səbəbi də qəzetin müəyyən dövrlərdə «Müsavat» liderləri tərəfindən redaktə olunması idi. «Rusiya imperiyasının hökmranlığı altında əzab-əziyyətlərə düçar olmuş xalqımızın ağır

həyatından, acı taleyindən özünün 900-dən çox nömrəsində dolğun lövhələr vermiş «İqbal» milli şüurun oyanmasına təkan verən I dünya müharibəsinin təsiri altında şikayətlənmə əhvali-ruhiyyəsindən uzaqlaşaraq demokratik istiqamətli ideyaları təbliğ edən «Açıq sözə» çevrildi».

«Açıq söz» qəzetinin ilk nömrəsi 1915-ci ilin təşrini əvvəl (oktyabr) ayının 2-də çapdan çıxmışdır. M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə dərc olunan «Açıq söz» qəzeti əslində qeyri-leqal şəkildə fəaliyyət göstərən «Müsavat» partiyasının orqanı idi. M.Ə.Rəsulzadə qəzetin ilk nömrəsində dərc etdirdiyi «Tutacağımız yol» adlı proqram səciyyəli baş məqalədə mətbuat orqanının qarşısına qoyulmuş başlıca məqsəd və məramı belə açıqlamışdır: «Dəhşətlərinə şahid olduğumuz böyük müharibə, böyük həqiqəti - əsrimizin milliyyət əsri olduğunu isbat etdi . Özlərini lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal və məfkurə bəsləyən millət şübhəsiz ki, büyük bir qüvvə təşkil edir. Ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək böyük bir məfkurəyə, qayeyi-xəyalə hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq və böylə bir silahdan məhrum qalan camaatlar kimsəyə söz eşitməyəcəklər». Qəzet Azərbaycan xalqının bütövlüyünü, bir millət olaraq gələcək diriliyini məhz xalqın bütün təbəqə və zümrələrinin birliyində, milli, mənəvi və dini strukturların qovuşuğunda görürdü. Qəzet çarizmin Qafqazdakı müstəmləkəçilik siyasətini kəskin tənqid edir, xalqı özünü tanımağa, oyanmağa, haqqını-hüququnu, milli mənliyini dərk etməyə səsləyirdi. «Çarizmin Qafqazdakı senzor



komitəsinin sadiq nökərləri qaraxanovların, kişmişovların türk xalqlarının inkişafının qarşısını almaq üçün bədxahlıqla uydurduqları «pantürkizm», «panislamizm» siyasi təlimindən uzaq olan «Açıq söz»ün birliyə çağırışı şübhəsiz ki, xeyirxah məqsədlər güdürdü və şovinist, irqi ayrı-seçkilik nəzəriyyələri ilə heç bir əlaqəsi ola bilməzdi».

«Açıq söz» qəzeti ilk nömrəsindən başlayaraq, sərlövhəsi altında «gündəlik türk qəzetidir» sözləri yazmaqla xalqımızı uydurma, qondarma «tuzem», «tatar», «müsəlman», «persian» və başqa adlarla adlandıranlara qarşı öz etiraz səsini qaldırmış, ardıcıl, sistemli olaraq xalqımızın türk olduğunu təbliğ etməklə məşğul olmuşdur. Bu, o dövr üçün olduqca mühüm məsələlərdən biri idi. T. Svietoçovski qeyd edir ki, «Açıq söz» qəzetinin «türk dili», «türk milləti», «türk qəzeti» ifadələri Qafqaz müsəlmanları olan azərbaycanlılara verilən ad qarışıqlığına son qoymuş oldu. «Türk» ifadəsi ölkədə heç bir etiraz doğurmadı, zatən bəzi türk mətbuat orqanlarında «Türk» (tyurkski) ifadəsi geniş işlənməyə başladı».

M.Ə.Rəsulzadə 1914-cü ildə «İqbal» qəzetində dərc etdirdiyi «Kənd məktubları» məqaləsində milli dirçəlişi üç amildə görürdü. O, fikirlərini belə yekunlaşdırırdı: Milliyyət, beynəlmiləliyyət və əsriyyət. Milliyyətin rüknü ana dili, beynəlmiləliyyətin əsası din və əsriyyətin binası əsrə hakim olan ulum və fünun ilə məhəllinə görə onun vasitəsi olan dillərin öyrənməsidir».

Əslində bu, Əlibəy Hüseyzadənin «türk qanlı, islam inamlı, Avropa qiyafəli» tezisindən doğan bir fikirdir. Böyük siyasi xadim bunu adı çəkilən məqalədə özü də etiraf edir. M.Ə.Rəsulzadənin «Açıq söz» qəzetinin ilk nömrəsində dərc olunan yazısında «milliyyət», bəynəlmiləliyyət və əsriyyət «tezisi «dil, din və zaman», nəhayət, «türkləşmək, islamlaşmaq və müasirləşmək» kimi

formula edilmişdir. Maraqlıdır ki, M.Ə.Rəsulzadə milli ideologiyamızın əsasını təşkil edən bu tezisin üzərindən keçməmiş, onu hərtərəfli izah etmişdir. O, türkləşməyi belə izah edir: «Dilcə biz türkük, türklük milliyyətimizdir. Binaənələyh müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır».

M.Ə.Rəsulzadə «Türkləşmək» dedikdə indiyədək bir çoxlarının qəsdən təbliğ etdikləri kimi «türkiyələşməyi» nəzərdə tutmamış, əksinə, xalqın özünə qayıdışını, milli varlığını dərk etməsini, özünü tanımasını əsas götürmüşdür. O, qəti olaraq bu əqidədə idi ki, milli varlığını dərk etməyən bir millət tərəqqi və dirçəliş yolunu tuta, milli mədəniyyətini inkişaf etdirə bilməz. Milli mədəni dirçəlişin ikinci tərəfi olan «islamlaşmaq» məsələsi də M.Ə.Rəsulzadənin «Açıq söz»də dərc olunmuş yazısında ətraflı şərh olunmuşdur: «Dincə müsəlmanıq. Hər bir din öz mütədəyyinlərin arasında məxsus bir təməddün vücuda gətirmişdir ki, bu təməddün də bir beynəlmiləliyyət səbəbi təşkil edir. Müsəlman olduğumuz üçün biz türklər bu beynəlmiləliyyəti- islamiyyəyə daxilik».

Türkləşmək və islamlaşmaq anlayışlarının inkişaf xəttini Ə. Hüseynzadə və M.Ə.Rəsulzadənin əsərlərində izləyən tədiqatçı Nazim Cəfərov onları belə şərh edir: «Ə.Hüseynzadənin dilində türkləşmək « türk qanlı» kimi səslənmişdir. M. ıƏ. Rəsulzadə isə onu aşağıdakı şəkildə dəyişmişdir: türk qanlı-mədəniyyət-dil- türkləşmək. İslamlaşmaq isə Ə.Hüseynzadədə «islam əqidəli», M.Ə.Rəsulzadədə beynəlmiləliyyət-din-islamçılıq kimi səslənmişdir. Nəzərə almaq lazımdır ki, Ə. Hüseynzadə fikrini şərh edərkən «islam əqidəli» ifadəsini başda işlətmiş, əsas vurğunu dinə yönəltmişdir. M.Ə.Rəsulzadə isə milliyyəti ön plana çəkərək əsas diqqətini ona vermişdir. Demək, M.Ə.Rəsulzadənin milliliyə daha çox üstünlük verməsi şübhə doğurmur. O, dini bir növ milliliyə uyğunlaşdırmağa çalışmışdır. Din, hər şeydən əvvəl, milliliyə xidmət etməli, milliliyi uca tutmalı idi. Milli inkişafın qabağına sədd çəkən, milli dili və milli adət-ənənəni boğan dinlər islah olunmalı və vahid milli amala uyğunlaşdırılmalı idi. Müasirləşmənin kökü Ə.Hüseynzadənin «Avropa qiyafəli» kəlməsindədir. M.Ə.Rəsulzadə bu kəlməni aşağıdakı şəkildə dəyişdirmişdir: əsriyyət-zaman–müasirləşmək».

«Müasirləşmək» barədə fikirlərini M.Ə.Rəsulzadə aşağıdakı kimi yekunlaşdırmışdır: «Zamanca da biz texnikanın (aliyyatın), elm və fənnin möcüzələr yaradan bir dövründəyik. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək, mütləqan əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənasıyla, zəmanə adamı olmalıyıq».

1915-1918-ci illərdə nəşr edilmiş və mənsub olduğu firqənin türkləşmək, islamlaşmaq, müasirləşmək», «Hökumət də xalqa, torpaq da xalqa» şüarlarını əsas tutan qəzetə M.Ə.Rəsulzadədən savayı müxtəlif vaxtlarda M. Ə. Əbdüləzizoğlu, Y. Hacıbəyov, Orucov qardaşları və X. İbrahim redaktorluq etmişlər. «Açıq söz» Kərim Odərin sərrast ifadə etdiyi kimi «Azərbaycanlılar arasında millətçilik və türkçülük düşüncələrinin qüvvətlənməsinə yardım etmişdir». Məhz «Açıq söz» qəzeti Azərbaycan xalqını əsrin siyasi böhranlarından çıxarmaq yolunda mühüm addımlar atdı.

I dünya müharibəsi illərində Azərbaycan milli hərəkatında burjua təmayülçülüyü güclənirdi. Bu fakt yalnız şəhərlərdə burjua təbəqəsinin formalaşması, türk ziya-

lılarının güclənməsi ilə həmçinin mülkədar–zadəgan təbəqəsinin varlanması ilə əlaqədardır. Çünki burjuaziyanın formalaşması milli ideyaları formalaşdırır. Milli hərəkatın aparıcı qüvvəsini təşkil edən «Müsavat» partiyası öz fəaliyyətini daha da gücləndirir. Bu illərdə Azərbaycan ziyalılarını ən çox məşğul edən problem sosial tərəqqi problemi idi. Sosial tərəqqi problemi xüsusi şəraitdə milli tərəqqi problemi ilə qovuşurdu. Azərbaycan xalqı çarizmin əsarəti altında inləyən məhkum millət olduğuna görə qarşıda duran başlıca vəzifə, təbii ki, yeridilən müstəmləkəçilik siyasətinin ağır nəticələrinin təsirini mümkün qədər azaltmaq, xalqın soykökünə qayıtmaq, onun milli ruhunu qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarət idi.

«Müsavat» partiyası bu dövrdə də çox ciddi təqib və təzyiqlərə məruz qalırdı. Bu kimi təqib və təzyiqlərdən yaxa qurtarmaq üçün «Müsavat» partiyası dəfələrlə öz üzvlərini rus hökumətini və onun agentlərini tənqid etməkdən çəkindirməyə çalışmışdı.

A.Rayevski qeyd edir ki, fevral inqilabına qədər «Müsavat» partiyası yalnız ana dilində məktəblərin açılması, məscidlərin bərpa olunması və s. kimi mədəni-maarif mahiyyəti daşıyan tələblər irəli sürmüşdür. Partiya nəinki Azərbaycanın müstəqilliyi, hətta muxtariyyəti uğrunda belə mübarizə məqsədi daşımamışdır. Rayevski onu da qeyd edir ki, çar hakimiyyəti dövründə «Müsavat» ümumən türk xalqlarının Rusiyadan ayrılması tələbi ilə çıxış etməmişdir; partiya Rusiyanın federativ əsasda saxlanmasına tərəfdar çıxmış, yalnız Oktyabr inqilabından sonra Azərbaycanın müstəqilliyi tələbini irəli sürmüşdür.

Birinci dünya müharibəsi Azərbaycanla Türkiyə arasında əlaqələrin güclənməsinə təkan verdi. İki qardaş xalq arasında yaxınlaşmaya səbəb olan amillərdən ən mühümü Türkiyənin Doğu bölgəsinin Rusiyanın işğalı



altında olması, xüsusilə Qars, Ərdəhan və Ərzurum vilayətlərinin rus-erməni qırğınına uğraması idi. Azərbaycanda fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri Türkiyənin Doğu vilayətlərinin müharibədən zərər çəkən əhalisinə sistemli şəkildə maddi və mənəvi yardım göstərirdilər. Çar hökuməti bu yardıma hər vasitə ilə mane olmağa çalışırdı. Lakin Azərbaycanın millətpərvər qüvvələri bu çətinliklərə baxmayaraq, qardaşlıq köməyini əsirgəmirdilər. Xüsusilə bu məsələdə «Cəmiyyəti - Xeyriyyə»nin fəaliyyəti diqqətəlayiqdir. «Cəmiyyəti-Xeyriyyə»nin Bakıda yaratmış olduğu xüsusi komissiya Qars, Ərdəhan, Ərzurum və başqa əyalətlərə gedib müharibədən zərər çəkmiş yerli əhalinin ağır vəziyyəti ilə tanış olmuş və bu barədə mətbuatda ətraflı məlumat dərc etdirmişdi.

«Cəmiyyəti-Xeyriyyə»nin yardım məqsədi ilə rus işğalı altında olan Türkiyə bölgələrinə göndərdiyi nümayəndə heyətinə Xosrovbəy Sultanov başçılıq edirdi. Onun Ərdəhandan «Kaspi» qəzetinə göndərdiyi yazıda deyilirdi: «Əyalətin müsəlman yaşayan məntəqələrində bəni-insan görünmür. Yalnız bir neçə kənddən 500-600 qadın və uşaq yığıldı. İçərilərində cəmisi 6 kişi vardı ki, onlar da əldən düşmüş qocalardan ibarətdir».

«Cəmiyyəti-Xeyriyyə»nin göndərdiyi nümayəndə heyətinin tərkibində şair Əhməd Cavad da Qars vilayətində olmuş, öz təəssüratını mətbuatda əks etdirmişdir. 1915-ci ildə Qarsda türklərin ermənilər tərəfindən vəhşicəsinə qətliamı zamanı Ə. Topçubaşov hadisənin təfərrüatını öyrənmək məqsədilə bakılı tacir Ağabala Quliyevlə birlikdə Tiflisə Qafqaz canişinliyinə, oradan da Qars vilayətinə getmişdi. Görkəmli publisist Ö.F.Nemanzadə müharibədən zərər çəkənlərə yardım üçün ianə dəftəri açmaq məqsədilə 25 manat pul göndərmiş, xalqı bu təşəbbüsə

səsləmişdir. «İqbal» qəzeti hər sayında ianə siyahısını verir, yığılan pulları elan edirdi. Ö.F.Nemanzadənin təşəbbüsü ilə 5 ay ərzində 6 dəfə ianə toplanmışdı.

«Müsavat» partiyasının lideri M.Ə.Rəsulzadə də Qars və Ərdəhan qaçqınlarına yardım məqsədi ilə Bakıda və Azərbaycanın digər bölgələrində keçirilən tədbirlərin fəal iştirakçısı və təşkilatçılarından olmuşdur. Həmin məqsədlə o, xalqı Bakı şəhərində «Qardaş günü» adı altında 1915-ci il mayın 7-nə təşkil olunacaq xeyriyyə tədbirlərində fəal iştiraka səsləmişdir: «Sabah (pəncşənbə günü) «Cəmiyyəti Xeyriyyə» tərəfində oğlanlı-qızlı cavanlar əllərində ianə cübələri, sinələrində «qardaş köməyi» həmayılı olduğu halda Bakının küçələrinə yayılacaq, Qars və Ərdahan səmtlərində fəlakətə uğrayan müsəlman qaçqınlar üçün kömək istəyəcəklər». M.Ə.Rəsulzadənin bu istiqamətdə ardıcıl fəaliyyəti və kəskin siyasi ruhlu yazıları çar xəfiyyə orqanlarının diqqətindən qaçmamış, o, 1915-ci ilin ortalarında tutularaq, bir ay yarım həbsdə saxlanılmışdır.

M.Ə.Rəsulzadə bu sahədəki fəaliyyətini sonralar da davam etdirmişdir. O, 1917-ci ilin mayında Türkiyə-Rusiya cəbhəsində müharibədən zərər çəkmiş müsəlmanların ehtiyaclarını ödəmək, onlara yardım etmək məqsədi ilə «Qardaş köməyi» jurnalının əsasını qoymuşdur. Həmin hadisə ilə bağlı «Yeni iqbal» qəzetinin verdiyi bir məlumat diqqəti çəkir: «Hərbzadə müsəlmanlar faidəsinə çıxarılacaq «Qardaş köməyi» məcmuəsinə göndəriləcək məqalələr yanvar ayının 25-nə qədər göndərilməli idi. Bu günə qədər əksər iştirakçıları gözlənilən mühərrirlərdən məqalələr alınmamışdır. Məqalələr əvvəlcə elan olunduğu kimi, «Açıq söz» idarəsində qomision rəisi cənab Məhəmməd Əmin Rəsulzadə ünvanına göndərilməlidir».



I dünya müharibəsi illərində Türkiyəyə hər cür yardım göstərmək məqsədi ilə Azərbaycanda «İrtica» adlı bir dərnək də fəaliyyət göstərmişdir. Lakin çox təəssüf ki, bu dərnəyin fəaliyyəti barədə məlumat əldə olunmadığından onun haqqında geniş danışmaq imkanı yoxdur. Müharibə illərində Türkiyədə fəaliyyət göstərən siyasi təşkilatlar da Azərbaycana xüsusi maraq göstərir, burada dini və milli ideyaların yayılmasına çalışırdılar. Türkiyədə fəaliyyət göstərən «Tərəqqiyi-islam» təşkilatının Bakı və Nuxa şəhərlərində də şöbələri fəaliyyət göstərirdi. Bu təşkilat müsəlmanların dirçəlişi məqsədi ilə məktəblər və digər maarif ocaqları açır, qəzet və kitab nəşr etmək üçün mətbəələr təşkil edir, onları ucuz qiymətlərlə satırdı.

Digər bir siyasi qurum Türkiyənin İstanbul şəhərində fəaliyyət göstərən «Qafqaz istiqlalı» təşkilatı Qafqazın tam istiqlaliyyəti məsələsini əsas vəzifə kimi qarşısına qoymuşdu. Yzvləri gənc türklərdən ibarət olan bu təşkilat Azərbaycanda və bütün Qafqazda milli istiqlal hərəkatının güclənməsində mühüm rol oynamışdır.

Tiflis Quberniya Jandarm İdarəsinin 22 mart 1914-cü il tarixli məlumatında Türkiyə ordusu zabitlərinin Qafqaz müsəlmanları arasında islam təbliğatı və Rusiya əleyhinə ixtişaş yaratmaq ideyası təbliğ etdikləri qeyd olunur. Bakı Quberniya Jandarm İdarəsi rəisinə göndərilən 18 aprel 1914-cü il tarixli gizli məktubda isə Türkiyədən islami təbliğat aparmaq üçün Bakıya gələn Bəkir Əfəndinin o zaman Konstantinopolda olan Əhməd bəy Ağaoğluin Bakının din xadimlərinə xüsusi məktubunu gətirdiyi göstərilir.

Rusiyanın ayrı-ayrı əyalətlərində olduğu kimi, Azərbaycanda da müharibə nəticəsində iqtisadi və sosial-siyasi vəziyyət acınacaqlı idi. Azərbaycanın sənaye potensialının əsasını təşkil edən neft istehsalında mühari-

bə ilə bağlı ciddi çətinliklər yaranmışdı (I dünya müharibəsi illərində Bakının neft sənayesi Nobel qardaşları, «Oyl», «Neft», «Şell» kimi inhisarların əlində cəmlənmişdi). Bu, neft sənayesi üçün lazım olan avadanlığın çatışmaması, neftin daşınması ilə bağlı yaranan çətinliklərlə əlaqədar idi. Avadanlığın vaxtında gətirilməməsi ucbatından neft buruqlarının qazılması sahəsində işlər ləngiyir, yeni yataqlar işə salınmır, hasilat aşağı düşürdü. Neft emalı zavodları avadanlığın çatışmaması ilə bağlı çətinliklərlə üzləşirdi ki, bu da çıxarılan nefti vaxtında və bütövlükdə emal etməyə imkan vermirdi. Məsələn, 1917-ci ildə Bakıda çıxarılmış neftin yalnız yarıdan bir qədər artığı emal edilmişdi ki, bu da həmin illər üçün olduqca aşağı göstərici idi. Müharibə xam neftin alıcılıq qiymətinin aşağı düşməsinə səbəb oldu. Təkcə 1914-cü ilin avqust-sentyabr aylarında Bakıda xam neftin bir pudunun dəyəri 43,1 qəpikdən 36,8 qəpiyə enmişdi. Bir ay sonra isə ayrı-ayrı şirkətlər neftin bir puduna 22-23 qəpikdən müqavilə bağlamışdılar.

Müharibə illərində aparılan ümumi səfərbərlik də Bakı neft sənayesində kadr çatışmamazlığına səbəb oldu. Müharibənin doğurduğu çətinliklər yalnız neft sənayesində deyil, xalq təsərrüfatının başqa sahələrində də hiss olunurdu. Dağ-mədən, ipəkçilik və başqa sənaye sahələrində də geriləmə əmələ gəlmişdi. Gədəbəydə mis çıxarılması 1913-cü ildə 1,8 milyon puddan 1915-ci ildə 103 min puda, mis emalı isə 49,7 min puddan 2,5 min puda endi. Şuşa və Nuxada olan ipək emalı fabriklərinin yarıdan çoxu işləmirdi.

1916-cı ilin fevralında Bakıda qadınların aclığa, bahalığa, möhtəkirliyə qarşı görünməmiş kütləvi etiraz aksiyası baş verdi. Fevral ayının 14-dən 16-dək minlərlə qadın küçələrə çıxaraq mağazaları, anbarları, ticarət köşklərini yandırdı və dağıtdı. İki gün ərzində 64 adam həlak oldu, şəhərə 3 milyon rubl dəyərində ziyan dəydi. Qadınların üsyanını yatırmaq üçün hökumət Bakıya Tiflis, Port-Petrovsk (Mahaçqala), Dərbənd, Yelizavetpol və başqa şəhər və qəzalardan yüzlərlə polis, atlı kazak, artilleriya gətirməyə məcbur oldu. Bu cür hadisələr 1916-cı ilin sonu 1917-ci ilin əvvəllərində Zaqafqaziyanın digər şəhərlərində də baş verdi.

Müharibə dövründə Azərbaycanın kənd təsərrüfatı məhsullarının istehsalı xeyli azaldı. Əkin sahələrinin azalması pambıqçılıq, üzümçülük və bağçılığın geriləməsinə səbəb oldu. Ymumi tənəzzül maldarlığa da təsir göstərdi. Xüsusilə taxılçılığın məhdudlaşdırılması ümumi yem istehsalının həcminə, bu isə təbii olaraq heyvandarlığın azalmasına səbəb oldu.

1915-ci ilin iyun ayının 15-də çar hökuməti «özgə xalqlar»- dan olan 18 yaşından 43 yaşınadək kişilərin müharibə ilə əlaqədar işlərə səfərbərliyə alınması barədə fərman imzaladı. Bu fərman imzalanana qədər çar hökuməti türk-müsəlman xalqlarını orduya çağırmırdı. Bunun müqabilində əsgər vergisi adı ilə əhalidən pul alırdılar. Qafqazın xristian əhalisindən Rusiya ordusunda ayrıca «bölüklər və qüvvətlər» təşkil olunduğu halda, Azərbaycan əhalisinə xəncər daşımaq belə yasaq edilmişdi.

Çar hökumətinin belə birtərəfli siyasətinin nəticəsində cümhuriyyətin ilk illərində erməni və gürcülərin mütəşəkkil ordusu və zabitləri olduğu halda, Azərbaycanda ordu yaratmaq xeyli vaxt apardı. Müsəlman əhalisinin arxa cəbhədə hərbi xidmətə çağırılması Azərbaycanın milli düşüncəli ziyalıları tərəfindən hərarətlə qarşılandı. Jurnalist və ictimai xadim Hüseyn Minasazov yazırdı ki, «bu il Qafqaz müsəlmanlarının həyatında baş verən ən

mühüm hadisə. onların imperiyanın bütün müsəlmanları sırasında dövlətin müdafiəsi üçün arxa cəbhədə işləməyə çağırılması barədə iyun ayında verilmiş fərmandır».

Səfərbərlik işlərində çətinlik çəkən çar hökuməti 1916-cı ilin oktyabr ayında Qafqaz ruhani idarəsinə arxa cəbhədə işləmək üçün 80 min əsgərin toplanmasına yardım etmək üçün müraciət etmişdi. Çar hökumətinin hərbi məsələlərdə dini ayrı-seçkilik siyasətinə baxmayaraq, 1914-1917-ci illərdə 200-ə qədər azərbaycanlı rus ordusunda xidmət edirdi.

Onların əksəriyyəti alman cəbhəsində vuruşurdu. Bunların içərisində sonralar Azərbaycan milli ordusunun yaranmasında mühüm rol oynamış S. Mehmandarov, Ə. Şıxlinski, H. Naxçıvanski kimi generallar da vardı. H. Naxçıvanski Dağıstan və Azərbaycan könüllülərindən ibarət seçmə süvari bölüyün komandanı idi ki, onun rəhbərlik etdiyi bölük ən büyük müsəlman hərbi hissəsi idi.

I dünya müharibəsi illərində rus hökuməti «erməni toqquşmasına yol verməmək üçün arxa cəbhədə tədbirlər görməyə məcbur oldu. Çünki bu dəfə daxildə iki millətin toqquşması rusların mənfəətinə müvafiq deyil idi».

Müharibə illərində Azərbaycanın iqtisadi potensialının aşağı düşməsinə səbəb olan amillərdən biri də kənd təsərrüfatında çalışan əmək qabiliyyətli kişilərin müharibə ilə bağlı işlərə cəlb olunması idi. Bunun nəticəsində əmək qabiliyyətli kişilərin 30%-i təsərrüfatdan ayrılaraq, arxa cəbhədə işləməyə cəlb olundu. Kəndin işçi qüvvəsindən məhrum olması kənd təsərrüfatı məhsullarının azalmasına, bu isə qıtlığın və bahalığın yaranmasına səbəb oldu. Xalqın müxtəlif təbəqələrinin iqtisadi vəziyyəti kəskin dərəcədə aşağı düşməyə başladı. 1916-cı ildə taxılın qiyməti 7-8 dəfə artmışdı. 1917-ci ildə Azərbaycanda bütün kəndli təsərrüfatının 54,4%-ni yoxsullar, 34%-ni



ortabablar, yalnız 8,6%-ni varlı və qolçomaq təsərrüfatı təşkil edirdi.

Səfərbərlik nəticəsində 1916-cı ildə Yelizavetpol quberniyasının təsərrüfatlarında 80,6%, Bakı quberniyasında isə 75,4 % işçi qüvvəsi çatmırdı. Azərbaycanın bir sıra kəndlərində təsərrüfat tamamilə qocaların və qadınların əlində qalmışdı ki, bu acınacaqlı faktı hətta çinovniklər belə etiraf edirdilər. 1916-1917-cı illərdə bütün torpaqların 43%-i dövlət kəndlilərinin, qalan 57%-i isə bilavasitə xəzinənin əlində idi. Ölkədə torpaqsız əhalinin sayı Bakı və Yelizavetpol quberniyaları üzrə 1916-cı ildə 50 min, 1917-ci ildə isə 76 min nəfər təşkil edirdi.

Əhalinin torpaqsız qalmasının əsas səbəblərindən biri də çarizmin Azərbaycanda yeritdiyi «köçürmə» siyasəti idi. Hökumət «ruslaşdırma» siyasətini yeritmək məqsədilə əhalini torpaqla təmin etmək üçün köçürmə fondu yaratmışdı. 1914-cü ildə köçürmə fondunun 400 min desyatin torpağı vardı. Çar müstəmləkəçiləri ən yararlı torpaqları əhalinin əlindən alaraq, gəlmə ruslara verirdilər. «Köçürülənlər» yerli kəndlilərə nisbətən daha çox torpaqla təmin olunurdular. Lakin dünya müharibəsi çarizmin Azərbaycandakı «köçürmə» siyasətini də ləngitdi. Əgər 1912-ci ildə Bakı və Yelizavetpol quberniyalarına 502 rus ailəsi köçürülmüşdüsə, 1916-cı ildə bunların sayı 10 ailədən ibarət idi.

Müharibə illərində ölkənin kənd təsərrüfatına çarizmin vergi siyasəti də kəskin təsir göstərirdi. Kəndlilərdən alınan vergi əvvəlki illərlə müqayisədə 20%, hərbi vergi isə 58% artmışdı.

I dünya müharibəsi Azərbaycanda kəndli hərəkatını da gücləndirdi. 1914-1917-ci illərdə Azərbaycanın bütün qəzalarında qaçaq dəstələri fəaliyyət göstərirdi. Kəndli hərəkatı Lənkəran, Yelizavetpol, Cavanşir, Göyçay, Şuşa,

Quba qəzalarında xüsusilə fəal idi. 1916-cı ilin yazında Cavanşir qəza rəisinin verdiyi məlumata görə bir sıra qəzaların kəndliləri gizli və aşkar yollarla hərbi sursat əldə edərək, silahlı mübarizəyə hazırlaşmışlar.

Qaçaqların mübarizəsi sosial xarakter daşıyır, bir sıra hallarda isə müstəmləkəçiliyə qarşı çevrilirdi. Qaçaq dəstələrində 5--dən 200-ə qədər döyüşçü olurdu. Müharibə illərində qaçaq Süleyman Ağahüseyn oğlu çar müstəmləkəçilərinə qarşı fəal mübarizə aparırdı. Onun dəstəsi 1914-cü ildə 15 kəndlidən ibarət idisə, 1916-cı ildə onların sayı 200-ə çatmışdı. O, əsasən Zəngəzur, Qarabağ və Şuşa qəzalarında döyüşürdü. Hökumət dairələri Qaçaq Süleymanla mübarizə etmək üçün böyük hərbi hissə göndərirdi. Lakin onu hec cür məğlub edə bilmirdi. Belə olduqda Qaçaq Süleymanı 1917-ci ilin fevralında muzdlu qatilin əli ilə aradan götürməyə məcbur oldular.

I dünya müharibəsi illərində Azərbaycanda qaçaqçılıq hərəkatının güclənməsində səfərbərlikdən yayınmış çağırışçılar mühüm rol oynayırdılar. Onlar müxtəlif yollarla silah əldə edərək, dağlara çəkilir və yerli hakimiyyət orqanlarına qarşı mübarizə aparırdılar.

Çar hökuməti qaçaqçılıqla mübarizə üçün bütün vasitələrdən istifadə edirdi. 1916-cı ildə Yelizavetpol qubernatoru öz məlumatında bildirirdi ki, qaçaqçılıqla mübarizə üçün «polis dəstəsinin tərkibi gücləndirilmiş, yeni polis məntəqəsi qoyulmuş və onlara kömək etmək üçün qoşun bölmələri çağırılmışdır».

Cəbhədə vəziyyətin ağırlığına baxmayaraq, çar hökuməti kəndli hərəkatını yatırmaq üçün bir sıra tədbirlər görməyə məcbur olmuş, Zaqaqaziyanın Bakı, Yelizavetpol və Kutaisi quberniyalarında hərbi vəziyyət elan etmişdi.

Getdikcə güclənən tətil və nümayişlərin fonunda Rusiyadakı siyasi böhran daha da dərinləşirdi. 1917-ci ilin fevral ayının 14-də Petroqradda «Rədd olsun çar mütləqiyyəti!», «Rədd olsun müharibə!», «Yaşasın II Rus inqilabı!» və başqa tələblərlə kütləvi tətillər başlandı. Fevral ayının 24-da tətil hərəkatı güclənərək, şəhərin bütün müəssisələrini əhatə etdi. Fevral ayının 26-da tətil hərəkatı silahlı üsyana çevirildi. Həmin gün Dövlət Dumasında M. V. Rodzyankonun rəhbərliyi ilə Müvvəqqəti Komitə təşkil olundu. Digər tərəfdən menşevik, eser və trudoviklərin birgə səyi ilə Çxeidzenin rəhbərliyi ilə fəhlə deputatları sovetinin Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. 1917-ci ilin mart ayının 1-də Dövlət Dumasının axşam iclasında knyaz Q. Y. Lvovun başçılığı ilə Müvəqqəti hökumət yaradıldı.

Beləliklə, Rusiyada burjua inqilabı qələbə çaldı və bu cahanşümul qələbənin sayəsində çar mütləqiyyəti devrildi.

### *3.2. 1917-ci il Fevral inqilabı və istiqlal hərəkatının ümummilli prosesə çevrilməsi.*

Fevral burjua inqilabı Rusiyanın 300 illik monarxiya quruluşuna son qoyaraq, ayrı-ayrı əyalət və regionlarda milli hərəkatın və ictimai-siyasi proseslərin yeni bir məcraya yönəldilməsində mühüm rol oynadı. Ölkədə milli azadlıq hərəkatı açıq xarakter almağa, müstəmləkəçilik əleyhinə etiraz səsləri güclənməyə başladı. İnqilabın qələbəsindən sonra Azərbaycanda siyasi partiyalar açıq fəaliyyətə başladılar. Fevral burjua inqilabından sonra Azərbaycanda açıq fəaliyyətə başlayan, yaxud da yeni əsası qoyulan partiyalar mahiyyət etibarı ilə üç qismə ayrılırdı: milliyyətçi, islamçı və sosialist.

Təəssüf ki, Azərbaycan sovet tarixşünaslığı bu dövrün siyasi partiyalarının fəaliyyətindən danışarkən hərəkatın milliyyətçi və islamçı təmayülündən bəhs etməmişdir. Bu isə sözün həqiqi mənasında milli hərəkatın tarixinin bu şərəfli mərhələsinin üzərinə qara pərdə çəkilməsinə gətirib çıxarmışdır. Tarixi faktların araşdırılması göstərir ki, Azərbaycan milli hərəkatı məhz milliyyətçi və islamçı firqələrin fəaliyyəti ilə bağlı olmuşdur. Fevral burjua inqilabından sonra Azərbaycanda aşağıdakı partiyalar fəaliyyət göstərirdi: «Müsavat»; «Türk ədəmi-mərkəziyyət» partiyası; «Müstəqil demokratik qrup»; «Hümmət»; «Ədalət»; «İttihad». 1911-ci ildə siyasi mübarizə meydanına atılan «Müsavat» firqəsi fevral burjua-inqilabından sonra leqal fəaliyyətə başladı. Onun əsas mərkəzi Bakıda yerləşirdi.

«Türk ədəmi-mərkəziyyət» firqəsi fevral burjua inqilabından sonra fəaliyyətə başlamışdı. Bəzi tədqiqatlarda isə partiyanın yaranma tarixi və fəaliyyət istiqamətləri haqqında yanlış məlumat verilmişdir. Məsələn, «Siyasi



tarix» kitabında qeyd olunur ki, guya «Türk ədəmi-mərkəziyyət» partiyasının liderləri 1905-ci il inqilabı zamanı Rusiyanı federativ şəkildə qurmaq və Zaqafqaziyaya muxtariyyət verilməsi ideyasını irəli sürürdülərsə, 1917-ci ildə Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparırdılar.

Bu partiya adını Türkiyədəki «Ədəmi-mərkəziyyət cəmiyyəti»nə bənzətmişdi; o, siyasi baxımdan da həmin cəmiyyətin platformasına uyğun fəaliyyət göstərirdi. Partiya üzvlərindən Doktor Ağazadənin, Xasməmmədov qardaşlarının və Ş. Rüstəmbəyovun Türkiyədəki «Ədəmi-mərkəziyyət cəmiyyəti» ilə əlaqələri onun siyasi xəttini formalaşdırırdı. Çünki onlar Türkiyədəki eyni adlı cəmiyyətin fəaliyyətinə uyğun olaraq, Rusiyada millətlərin azad inkişafına təminat verə bilən federalizm tərəfdarı idilər.

«Ədəmi-mərkəziyyət» firqəsi Gəncədə fəaliyyət göstərirdi. Onun əsas dayağını kəndlilər və fəhlələr təşkil edirdilər, lakin partiyanın öndərləri içərisində bəzi torpaq sahibləri də var idi. «Müsavat» partiyası kimi «Ədəmi-mərkəziyyət»in də ideoloji təməli türkçülük idi. «Ədəmi-mərkəziyyət» firqəsi Nəsib bəy Yusifbəyli tərəfindən yaradılmışdı. İ. Qaspiralının kürəkəni olan N. Yusifbəyli o dövrdə türkçülük hərəkatının əsas fəallarından biri sayılırdı. 1908-ci ildən sonra bir müddət Türkiyədə yaşaması onun siyasi görüşlərinin formalaşmasına təsir göstərmişdi.

Əlimərdan bəy Topçubaşov və Fətəli xan Xoyskinin rəhbərlik etdiyi «Müstəqil demokratik qrup» da milliyyətçi mövqedə dayanmışdı. Onun sıralarında bir çox tanınmış ziyalılar birləşmişdilər. Bu ziyalılar başlıca olaraq Rusiya Dövlət Dumasında və «İttifaqül-müslümin» sırasında siyasi məktəb keçmişdilər.

«Hümmət» partiyası Azərbaycan sosializmini təmsil

edirdi. Onlar da «Müsavat» kimi fevral burjua inqilabından sonra leqal fəaliyyətə başlamışdılar. Partiyaya N. Nərimanov liderlik edirdi. Onun sıralarında M. Əzizbəyov, D. Bünyadzadə, M. İsrafilbəyov, H. Sultanov və başqa siyasi xadimlər fəaliyyət göstərirdilər.

RSDFP-yə bağlı siyasət yeridən «Hümmət» partiyası üzvləri arasında 1917-ci ilin iyun ayında parçalanma baş verir. Onların bir qrupu N. Nərimanovun rəhbərliyi ilə özlərini bolşevizmin tərəfdarı elan edir. Digər bir qrup (İ. Əbilov, S. Ağamalıoğlu, A. Pepinov və Ə. Qarayev) Tiflisdə «Hümmət»in menşevik özəyinin əsasını qoyurlar.

1917-ci ilin iyul ayının 3-də «Hümmət» təşkilatının bolşevizm qolu eyni adlı qəzetin nəşrinə başlayır. Tiflisdə isə təşkilatın menşevik təmayüllü özəyi «Al bayraq» və «Gələcək» adlı qəzet nəşr etməyə başlayır.

«Hümmət» partiyasının bolşevik qanadı tərəfindən Bakıda İran fəhlələrini əhatə edən «Ədalət» partiyası isə o qədər böyük gücə malik deyildi. Sonralar bu partiya öz fəaliyyətini davam etdirmiş və «Tudə» adı ilə tanınmışdır.

Fevral burjua inqilabından sonra siyasi mübarizə meydanına atılan partiyalar içərisində «İttihad» özünəməxsus yer tutur. Bu partiya əvvəlcə iki özək şəklində fəaliyyət göstərirdi: Yelizavetpol şəhərində «İttihadi islam», Bakıda isə «Rusiyada müsəlmançılıq» özəkləri.

1917-ci ilin sentyabrında bu iki partiya birləşərək «İttihad» partiyasını təşkil edirlər. İdeoloji baxımdan partiya şəraiti siyasi fəaliyyətin əsas amili kimi qəbul edirdi. «İttihad»çılar hər cür millətçiliyə, o cümlədən türkçülüyə qarşı çıxırdılar. Eyni zamanda azərbaycançılıq ideyasına qarşı çıxan «İttihad» firqəsi Rusiya müsəlmanlarının demokratik, mərkəzçi olmayan bir dövlətinin yaradılması uğrunda mübarizə aparırdı.

«İttihad» partiyasının əsas liderləri Q. Qarabəyov, İ. Aşurbəyov, S. M. Qənizadə, Y. Hacıbəyov və başqaları idi. Partiya 1917-ci ilin dekabrından «İttihad» qəzetini nəşr edirdi ki, onun redaktoru Y. Hacıbəyov idi. Azərbaycan kəndliləri arasında ən çox nüfuzu olan partiya məhz «İttihad» olmuşdur.

«İttihad» və «Müsavat» partiyaları arasında Azərbaycanın istiqlaliyyəti məsələsində fikir ayrılıqları olmuşdur. Müsavatçılar onları çarlıq tərəfdarı olduqları üçün, ittihadçılar isə opponentlərini allahsız olduqlarına görə suçlayırdılar. Fevral burjua inqilabından sonra imperiyanın müsəlman ucqarlarında milli-siyasi hərəkat üç istiqamətdə inkişaf edirdi:

1) Mərkəzləşdirilmiş dövlətə söykənən mədəni muxtariyyət;

2) Federativ dövlət içərisində məhəlli muxtariyyət;

3) Müstəqil dövlətçilik.

Bu proses analoji formada Azərbaycan milli hərəkatında da özünü göstərirdi. Azərbaycanda milli idealın gerçəkləşməsi, istiqlaliyyət uğrunda mübarizə bu proseslərdən keçərək formalaşmışdır.

1917-ci ilin aprel ayının 15-20-də Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. Qurultayda Gürcüstan, Ermənistan, Şimali Qafqaz və Azərbaycanda yaşayan türk-müsəlman xalqları iştirak edirdilər. Qurultay». Qafqaz müsəlmanlarının siyasi xətlərini, inqilabdan nə gözlədiklərini təyin və tənzim edəcəkdi».

Qurultay «Müsavat» və «Türk ədəmi-mərkəziyyət» partiyalarının rəhbərliyi altında keçirdi. Onların milliyyətçi mövqedə dayanmaları iclasların gedişinə güclü təsir göstərirdi. Bundan əlavə Ə. Topçubaşovun rəhbərlik etdiyi «Müstəqil demokratik qrup» da bu iki partiyanın mövqeyini müdafiə edirdi. Qurultaya Ə. Topçubaşov sədrlik edirdi. Qızğın keçən iclaslarda Rusiyadakı xalqların

azad olacağı təqdirdə hansı şəkli-idarəni seçəcəyi əsas müzakirə obyektinə çevrildi və qurultay aşağıdakı qərarı çıxartdı:

1. «Qafqaz müsəlmanları qurultayı milli-siyasi məqsədlər haqqındakı məsələni müzakirə edərək müsəlman qövmlərinin mənafeyini ən ziyadə təmin edən Rusiya şəkli-idarəsinin məhəlli federasiyon əsası üzərinə qurulu cümhuriyyət-ənam olduğunu qəbula qərar verir.

2. İslam dinində olan bütün qövmlərin mədəni və ruhani irtibatını nəzərə alaraq Qafqaz müsəlman qurultayı Rusiya müsəlmanlarından ötrü vəzi-qavanın səlahiyyətinə malik ümumi bir idarə təşkilini lazım görür».

Qurultay bu qərarı asanlıqla çıxarmamışdı. Bu qərar günlərlə davam edən mübahisə və müzakirələrin nəticəsi kimi ortaya çıxarılmışdı. Əsas münaqişə iki tərəf arasında idi. Birinci tərəfi türkçülər təmsil edirdilər ki, onlar federasiya sistemini müdafiə edərək, Azərbaycanın məhəlli muxtariyyətini istəyirdilər. İkinci tərəfi isə islamçılarla sosialistlər təmsil edirdilər. Onların fikrincə, Rusiyada xalq cümhuriyyəti elan olunmalı, milliyyət məsələsi isə məhəlli şəkildə deyil, yalnız mədəni muxtariyyət şəklində həll olunmalıdır. İslamçılar bütün Rusiya müsəlmanlarını vahid dini təşkilatda birləşdirmək tələbi ilə çıxış edir, «İttifaqçılar»ın 1906-cı ildə qəbul edilmiş proqramını müdafiə edirdilər. Bu mənada Rusiyanın müxtəlif milli dövlətlərə parçalanması onları təmin etmirdi. Sosialistlər isə vahid xalq cümhuriyyəti prinsipini müdafiə etdiklərindən zahirən islamçılardan fərqlənsələr də, əslində mərkəziyyətçi mövqedən çıxış etməklə onlarla mahiyyət etibarı ilə birləşirdilər. Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında islamçılardan tutmuş bolşevik partiyasına (N. Nərimanov, M. Əzizbəyov qurultayda bolşevik partiyasını təmsil edirdilər) qədər Azərbaycanın bütün siyasi qüvvələri təmsil olunmuşdu. Qurultayda ölkənin siyasi quruculuğu mövzusunda çıxış edən M.Ə.Rəsulzadə bildirdi ki, gələcək Rusiya federativ şəkildə təşkil olunmalıdır. O qeyd etdi ki, Rusiya kimi nəhəng bir dövlətin mərkəzləşdirilmiş şəkildə idarə olunması onun tərkibindəki ayrı-ayrı xalqların milli hüquqlarını tapdalayır, millətlərin inkişafına mane olur. M.Ə.Rəsulzadə göstərirdi ki, «Tarix özü Tamerlanın, Çingiz xanın, Makedoniyalı İsgəndərin və Roma imperatorlarının timsalında şəhadət verir ki, bir dövlətə daxil olan ayrı-ayrı xalqlar arasında heç bir qüvvə azad, könüllü dövlət ittifaqından savayı möhkəm birlik yarada bilməz».



M.Ə.Rəsulzadənin fikrincə, Rusiyaya daxil olan ayrı-ayrı xalqlar öz müqəddəratını azad təyin etmək hüququna malik olmalı, muxtariyyət yaratdıqdan sonra Rusiya xalqları ittifaqında birləşməli idi. Xarici siyasət, ümumdövlət əhəmiyyətli bir sıra məsələlərin həlli üçün ayrı-ayrı muxtar qurumların nümayəndələrindən ibarət ümumittifaq şurası yaradılmalı idi.

Qurultayın qəbul etdiyi Rusiyanın dövlət quruluşunun ərazi-federativ əsasda olması prinsipi uzun müzakirələrə səbəb olsa da, yekdilliklə bəyənildi. Bu əhəmiyyətli məsələ ilə yanaşı, qurultayda bir sıra digər məsələlərə də baxıldı. Qurultay 6 mart bəyannaməsini qəbul edəcəyi təqdirdə Müvəqqəti hökuməti müdafiə edəcəyini bildirdi. Birinci dünya müharibəsinə münasibətdə isə qurultayın tutduğu mövqe aydın və radikal idi. O, müharibənin dərhal dayandırılmasını, təzminatsız sülh bağlanmasını tələb edirdi.

Qurultayın gündəliyində duran məsələlərdən biri də millətlərarası münasibətlər problemi idi. Ə.M.Topçubaşovun çıxışında qeyd olunurdu ki, «keçmiş rus hökumətinin

Rusiyanın digər xalqlarına münasibəti ayrı-seçkilik, xalqları bir-birinin üzərinə salışdırmaq zəminində qurulmuşdu. Ermənilər və azərbaycanlılar arasındakı toqquşma məhz bu fitnəkar insana nifrət siyasətinin nəticəsidir».

Millətlərarası münasibətlərin demokratik əsaslar üzərində qurulması ideyasını müdafiə edən qurultay nümayəndələri Qafqaz xalqlarının yaxınlaşmasını qarşılıqlı hörmət, anlaşma və ümumi demokratik ideallara rəğbət kimi qiymətləndirirdilər.

Qurultayda təhsil məsələsi də müzakirə olundu. Bu məsələ ilə bağlı məruzə ilə çıxış edən Ə. Əfəndizadə Azərbaycanda təhsilin vəziyyəti və perspektivləri haqqında məlumat verdi. Qurultay onun məruzəsi əsasında Azərbaycan dilində ümumi, icbari və pulsuz təhsilə keçmək haqqında qərar qəbul etdi. Qurultayda təhsil probleminin müzakirələrində müəllim kadrlarının hazırlanması məsələsinə də toxunuldu və ana dilində müəllim kadrlarının hazırlanması üçün pedaqoji seminariyaların və institutların açılması təklif olundu. Qurultay həmçinin universitetin yaradılması təklifini irəli sürdü. Qurultay təklif olunan bir sıra ictimai-siyasi və mədəni-kulturoloji vəzifələri, o cümlədən təhsillə bağlı problemləri həll etmək üçün milli fond yaratdı. Qurultayda fəxri qonaq kimi çıxış edən H. Z. Tağıyev həmin fonda 50 min rubl məbləğində pul bağışladı.

Qurultaya dəvət olunmuş iki qadının: Ş. Əfəndizadə və S. Talışxanovanın çıxışları maraqla qarşılandı. Həmin qadınlardan sonra çıxış edən sabiq Bakı qazısı Mir Məhəmməd Kərim bu qadınların şəriətə zidd olaraq, kişilərin qabağında üzüaçıq çıxış etməsini tənqid etdi. Bu, iclasda əks reaksiya doğurdu və bütün zal ayağa qalxaraq, natiqin kürsüdən enməsini tələb etdi. M.Ə.Rəsulzadənin təşəbbüsü ilə qurultay qadın məsələsi ilə bağlı qətnamə qəbul etdi. Həmin qətnamədə deyilirdi: «. Bütün başqa xalqlarda qadınlar kişilərlə birlikdə cəmiyyətin ictimai-siyasi həyatında iştirak edir və öz millətinin tərəqqisi üçün çalışırsa, Azərbaycan qadını cəmiyyətdən kənarda qala bilməz və qalmamalıdır».

A.Balayevin qeyd etdiyi kimi, «...Qurultay Azərbaycan milli hərəkatında demokratik qüvvələrin əsas triumfu oldu. Qurultayın qərarları göstərdi ki, Azərbaycan milli hərəkatına hər cür milli məhdudiyyət və konservatizm yaddır və o nəinki müsəlman və türk xalqları arasında, habelə bütün Rusiyada inqilabi hərəkatın avanqardı kimi çıxış edir».

1917-ci ilin may ayında Moskvada keçirilən I Ymumrusiya müsəlmanları qurultayı bu həqiqəti bir daha təsdiqləmiş oldu. Qurultayı hazırlamaq və keçirmək üçün Əhməd Salikovun sədrliyi ilə «Rusiya müsəlmanlarının müvəqqəti mərkəzi bürosu» yaradılmışdı. Büro ümumiyyətlə, qurultayın fəaliyyət proqramını işləyib hazırlamalı idi. Görülən işlər haqqında ətraflı informasiya vermək məqsədilə «Rusiya müsəlmanları müvəqqəti bürosunun xəbərləri» adlı bülleten də nəşr edilmişdi.

Bülletendə qurultayın əhəmiyyəti, məqsədi açıqlanır, müzakirə olunacaq məsələlər haqqında xalqa məlumat verilirdi. «Rusiya müsəlmanlarının müvəqqəti mərkəzi bürosu» qurultayda müzakirəyə verilmək üçün 27 milli-məhəlli təşkilat və partiya tərəfindən təqdim edilən 109 maddədən ibarət təklif və tövsiyə paketi hazırlamışdı.

1917-ci il may ayının 1-dən 11-dək Moskvada keçirilən Ymumrusiya müsəlmanlarının qurultayı XX yüzillikdə Rusiya imperiyasında yaşayan türk-müsəlman xalqlarının ən böyük yığıncağı idi. Qurultay Azərbaycan milyonçusu Şəmsi Əsədullayevin Moskva müsəlmanlarına hədiyyə verdiyi binada keçirilirdi. Böyük siyasi fəallıq içərisində

keçən qurultaya 600 nəfərlik nümayəndə heyəti dəvət edildiyi halda, 900 nəfər iştirak edirdi.

Qurultayın rəyasət heyəti müvəqqəti büro tərəfindən hazırlanmış aşağıdakı proqramı təqdim etdi:

1. Rusiyanın (gələcək) idarə şəkli;
2. Mədəni və məhəlli muxtariyyət;

a) Dini və milli fəaliyyətlərin müvəqqəti təşkilatı, gələcəkdə daimi təşkilat ( qurma) əsasları;
b) mədəni və maarif fəaliyyətləri, bunları müsəlmanlar arasında yayma yolları;
v) məhkəmə fəaliyyətləri.
q) məhəlli idarələr.

3. Müharibəyə münasibət.
4. Müəssisələr məclisi.
5. Qadınlar məsələsi.
6. Fəhlə məsələsi.
7. Torpaq məsələsi.
8. Kənar ölkələr ( Qafqaz, Türküstan, Qazaxıstan) məsələləri. Keçmişdəki sümürgəçlik siyasəti və b.
9. Əsgəri təşkilat məsələsi.
10. Siyasi təşkilat məsələsi.
11. Müəssisələr məclisinə seçkilərdən qabaq istifadə ediləcək taktika.
12. Müharibədən zərər çəkənlərə yardım üsulları.
13. Bütün Rusiya müsəlmanlarınm böyük milli soveti-ni (şura) seçmək.

Proqram qurultay iştirakçıları tərəfindən qəbul edildikdən sonra buraya daxil edilən məsələləri araşdırmaq üçün 9 komissiya yaradıldı. Qurultayın may ayının 3-də keçirilən iclasında Rusiyanın idarə şəkli ilə bağlı məruzələr dinlənildi. Bakıdakı Qafqaz müsəlmanları qurultayında olduğu kimi, burada da əsas məsələ– dövlət quruculuğu ilə bağlı müzakirələrdə iki müxtəlif mövqe ortaya çıxdı.



Həmin mövqe müxtəlifliyi ilə əlaqədar olaraq, qurultay nümayəndələrinə iki qətnamə təqdim olundu. Əhməd Salikovun təqdim etdiyi layihəyə görə, Rusiyada yaşayan xalqlara milli-mədəni muxtariyyət verilməklə unitar dövlət sistemi qorunub saxlanılırdı. Onun fikrincə «Rusiya dövlətinin ərazi federativ əsasda yenidən təşkil edilməsi müsəlman əhalisinin geniş təbəqələrinin marağına uyğun deyildi».

M.Ə.Rəsulzadənin təqdim etdiyi layihə isə özünün radikallığı ilə seçilirdi. Azərbaycan milli hərəkatının təkamülündən doğan bu layihədə «Rusiyanın dövlət quruluşu forması müsəlman xalqlarının mənafeyinə uyğun olan milli ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik respublika» kimi təqdim olunurdu.

Qurultayda Qafqaz, Türküstan, Qırğızıstan, Başqırdıstan və Krım tatarlarının nümayəndələri məhəlli muxtariyyətə üstünlük verirdilər ki, bunun da əsas səbəbi tatarların Rusiyanın hər tərəfinə yayılması idi. M.Ə.Rəsulzadə öz çıxışında qeyd etdi ki, «Rusiya xalq cümhuriyyəti üsulu ilə idarə edilməlidir. Amma Kamçatkadan Qara dənizə, Arxangelskdən İran sərhədinə qədər eninə və uzununa dünyanın altıda birini qapsayan və nüfuzu 170 milyonu aşan bir məmləkət və böyük bir çeşidli millətdən meydana gələn bir dövlət bir mərkəzdən idarə oluna bilərmi? Bir məmləkət ki, uzunlamasına azından bir ay, eninə azından 7 gün dəmiryolu səfərinə ehtiyac göstərir, bir məmləkət ki, günəş bir tərəfdən çıxıb o biri tərəfdən batarkən təkrar sabah olur, belə bir məmləkət bir nöqtədən idarə oluna bilərmi? Əlbəttə, xeyr! Bunu biz deyil, rus düşüncə sahiblərinin özləri söyləmişlər, həm də indi deyil, çox əvvəl söyləmişlər. Şübhəsiz ki, Rusiya ədəmi-mərkəziyyət üsulu ilə idarə olunmalıdır».

Böyük siyasi xadim həmin çıxışında Əhməd Saliko-

vun məruzəsində irəli sürülmüş «federasiya idarə şəklinin türk-müsəlman qövmlərini parçalayacağı» iddiasını rədd edərək bildirdi ki, «Biz türk-tatar övladı bir millətin övladlarıyıq. Biz türk oğlu türküz. Bununla iftixar edəriz. Türk mədəniyyəti, türk mənliyi vücuda gətirmək istəriz. Rusiyada yaşayan 30 milyonluq müsəlmanın böyük qismi, təxminən bu millətə mənsubdur. Əsrlərdən bəri cəhalət bəlası, məzhəb ayrılığı üzündən bir-birindən ayrı düşən, yalnız bir-birindən deyil, öz mənliyindən belə ayrı qalan bu milyonlarda indi birləşmək meyli var və meyl çox şiddətlidir. Biz türk-tatar millətləri eyni soydan türk oğlu türk olmaqla bərabər ayrı şivələrə və çeşidli özəlliklərə də malik olduğumuz inkar ediləməz. Bu gun Volqa boyundakı tatarların özlərinə məxsus ədəbiyyatı, mətbuatı, ədibləri və şairləri var. Türküstan cığataycası zəngin bir ədəbiyyata malikdir. Qazax və qırğızların mətbuatı da yol almaqdadır. Bunlardan heç birisi cəbrə təslim olub kəndi özəlliyini fəda etməz. Azərbaycan türkü də öz dilinə, ədəbiyyatına və adətlərinə əlvida deyəməz. Bu özəllikləri qaldırmaq nə gərəklidir, nə də faydalıdır. Buraxın hər kəs öz yolunda təbii surətdə yürüsün. Çeşidli türk irmaqlarının axıb nəhayət, töküləcəkləri tək bir dəniz var: Böyük Türk dənizi».

M.Ə.Rəsulzadənin çıxışı Kazan türklərinin lideri Sədri Maqsudini, Əhməd Salikov və tərəfdarlarını əsəbləşdirdi və bəzi nümayəndələr hətta salonu tərk etdilər.

Qurultayın may ayının 7-də keçiriyi iclasında bu mövzu ilə bağlı çıxış edən nümayəndələrin 18 -i federasiya, 14-ü isə mərkəziyyətçi mövqeyi müdafiə etdi. Səsvermə nəticəsində Əhməd Salikovun mədəni muxtariyyətlə məhdudlaşan və mərkəzi dövlət sitemini müdafiə edən layihəsi səs çoxluğu ilə (291 lehinə, 422 əleyhinə) rədd edidi. M.Ə.Rəsulzadənin federasiya sistemini əsas tutan



layihəsi isə əleyhinə 271 səsə qarşı lehinə 446 səslə qəbul edildi.

Nəticədə M.Ə.Rəsulzadənin layihəsi əsasında Rusiyanın idarə şəkli haqqında aşağıdakı qərar çıxarıldı:

1. Müsəlman millətlərinin mənfəətlərini gerçəkləşdirmək üçün ən uyğun rejim ittifaq və torpaq muxtariyyatına dayanan və bəlli torpaqları mövcud olmayan millətlərə milli mədəni muxtariyyat təmin edən xalq cümhuriyyətidir.

2. Rusiyada yaşayan müsəlman millətlərinin bütün dini və mədəni işlərini üsula görə yürütmək və müsəlmanların birlikdə hərəkət etmələrini saxlamaq üçün öz dairəsində qanun çıxarma haqqına sahib bütün Rusiya müsəlmanlarına məxsus bir mərkəzi müəssisə qurulur. Bu müəssisənin şəkli, heyəti və görəcək işləri bütün muxtariyyatlı müsəlman vilayətlərindən toplanacaq vəkillərin birinci qurucu məclisi tərəfindən təsbit edilir.

May ayının 4-də keçirilən iclasda milli maarif məsələsi ilə bağlı çıxış edən Ömər Terequlov çar hökumətinin müstəmləkəçi, ruslaşdırma siyasəti yeritməsinə baxmayaraq, istədiyinə nail olmadığını, lakin bununla belə türk-müsəlman xalqları arasında təhsil və maarif işinin bərbad vəziyyətdə olduğunu qeyd etdi. O, müsəlmanlar arasında məktəbəqədər tərbiyə müəssisələrinin olmadığını, «Üsuli-cədid» məktəblərinin və mədrəsələrin kadr sarıdan korluq çəkdiyini, tədrisin səmərəli aparılması üçün proqram və dərs vəsaitləri ilə bağlı çətinliklərə diqqəti yönəltdi. Qurultayın may ayının 8-də keçirilən iclasında milli maarif məsələsi yenidən müzakirə obyektinə çevrildi. Maarif məsələsi ilə bağlı problem və vəzifələrin araşdırılması və təhlil edilməsində Ömər Terequlov, Ayaz İshaqi, Həsən Ata Qəbaşi, Kəşşaf Tərcümani, Zakir Qədiri, Əfəndizadə və başqaları fəal iştirak

etdilər. Qurultayın həmin iclasında uzun müzakirələrdən sonra milli maarif məsələsi ilə bağlı 24 maddədən ibarət qərar qəbul edildi. Qurultayda dini məsələlərə də diqqət yetirildi. May ayının 6-da keçirilən iclasda dini problemlərə həsr olunmuş iki məruzə dinlənildi. Bunlardan Seyid Gəray Alkin din və mədəniyyət muxtariyyatı, Kəşşaf Tərcümani isə dini təşkilatlar mövzusunda çıxış etdilər. Həmin iclasda «Dini və ruhani idarələrin müvəqqəti təşkilatı» haqqında 7 maddədən ibarət qərar qəbul edildi. May ayının 11-də İlyas Alkinin sədrliyi ilə keçirilən iclasda Mərkəzi Rusiya, Sibir və Qazaxstan müsəlmanları dini idarəsinin seçkiləri keçirildi. Müfti vəzifəsi üçün altı namizəd irəli sürüldü. Onlardan Alimcan Barudi səs çoxluğu ilə müfti vəzifəsinə seçildi.

Qurultayda torpaq məsələsi də əsas problemlərdən hesab olunurdu. Mayın 9-da Ayaz İshaqinin sədrliyi ilə keçirilən iclasda qurultay nümayəndələri Şakir Məhəmmədyarovun torpaq məsələsi ilə bağlı məruzəsini dinləyib, 12 maddəlik qərar qəbul etdilər.

Qurultayda ən çox mübahisə doğuran məsələlərdən biri qadınların vəziyyəti idi. Çıxış edənlərin əksəriyyəti müsəlman qadınlarının hüquqlarının son dərəcə məhdudlaşdırıldığını, kişilərlə müqayisədə onlara ikinci növ vətəndaş kimi baxıldığını, həm də bu vəziyyətin yaranmasında din xadimlərinin aparıcı rol oynadığını qeyd etdilər. Müzakirələrdə fəal iştirak edən Alimcan Barudi və Musa Cərullah Bigiyev kimi nüfuzlu şəxslərin gərgin əməyi sayəsində aprel ayının 14-27-də keçirilmiş Kazan Qadınlar qurultayının qəbul etdiyi qərar eyni ilə qəbul edilmiş oldu. On maddədən ibarət həmin qərarın ən mühüm müddəaları aşağıdakılardır; qadınlarla kişilərin hüquq bərabərliyi, qadınların sosial- siyasi həyatda iştirakının təmin edilməsi, seçki hüququ, nigah zamanı qadınların rəyi ilə hesablaşılması, qadına ərindən boşanma hüququ verilməsi, 16 yaşından aşağı qızlara nigah kəsilməsinin qadağan edilməsi, ikiarvadlılığa yol verilməməsi və s.



Fəhlə məsələsini ayrıca qeyd edən qurultay may ayının 9-da və 10–da keçirilən iclaslarını bu məsələyə həsr etdi. Qurultayın bu məsələ ilə bağlı qəbul etdiyi qərar layihəsində deyilirdi: «Fəhlə məsələsi onların özlərinə aid bir məsələ olduğundan öz konqreslərində həll edilir. Amma fəhlələrin təhsil işləri türk-tatar xalqı üçün ümumi bir məsələ olduğundan onlar arasında elm və maarif yaymaq bütün müsəlmanların vəzifəsidir».

Qurultayın mayın 9-da keçirilən iclasında əsgəri təşkilat haqqında məsələ müzakirə olundu. Bu məsələ ilə bağlı Albay Əliyev və Əbdüləziz Münasibov məruzə etdilər. Məruzələrin müzakirəsindən sonra əsgəri təşkilat haqqında 10 maddədən ibarət qərar qəbul edildi.

Qurultayın ən əhəmiyyətli cəhətlərindən biri Mərkəzi Müsəlman Şurasının -Milli Şuranın yaradılması oldu. Milli Şura «məmləkət içində məmləkət təşkil edə bilən» qüdrətə malik Rusiya müsəlmanlarının gələcək təşkilati məsələlərinə rəhbərlik etməli, onların fəaliyyətinin siyasi istiqamətlərini müəyyənləşdirməli idi. Ayaz İshaqinin təklifi ilə Milli Şuranın bir təşkilat kimi məqsəd və vəzifələrini müəyyənləşdirən qərarlar qəbul edildi. Qərarda Milli Şuranın fəaliyyəti aşağıdakı kimi səciyyələndirildi:

–Rusiya müsəlmanlarının qurultayı Rusiya müsəlmanlarının bütün siyasi təşkilat və partiyalarınm birlikdə hərəkət etmələrini və eyni yolu izləmələrini lazım bilmişdir.

–Rusiya müsəlmanlarının fəaliyyətlərini koordinasiya etmək və istiqamətləndirmək məqsədi ilə bütün zümrə və qəbilələrin təmsilçilərindən mütəşəkkil Milli Şura mey-

etdilər. Qurultayın həmin iclasında uzun müzakirələrdən sonra milli maarif məsələsi ilə bağlı 24 maddədən ibarət qərar qəbul edildi. Qurultayda dini məsələlərə də diqqət yetirildi. May ayının 6-da keçirilən iclasda dini problemlərə həsr olunmuş iki məruzə dinlənildi. Bunlardan Seyid Gəray Alkin din və mədəniyyət muxtariyyatı, Kəşşaf Tərcümani isə dini təşkilatlar mövzusunda çıxış etdilər. Həmin iclasda «Dini və ruhani idarələrin müvəqqəti təşkilatı» haqqında 7 maddədən ibarət qərar qəbul edildi. May ayının 11-də İlyas Alkinin sədrliyi ilə keçirilən iclasda Mərkəzi Rusiya, Sibir və Qazaxstan müsəlmanları dini idarəsinin seçkiləri keçirildi. Müfti vəzifəsi üçün altı namizəd irəli sürüldü. Onlardan Alimcan Barudi səs çoxluğu ilə müfti vəzifəsinə seçildi.

Qurultayda torpaq məsələsi də əsas problemlərdən hesab olunurdu. Mayın 9-da Ayaz İshaqinin sədrliyi ilə keçirilən iclasda qurultay nümayəndələri Şakir Məhəmmədyarovun torpaq məsələsi ilə bağlı məruzəsini dinləyib, 12 maddəlik qərar qəbul etdilər.

Qurultayda ən çox mübahisə doğuran məsələlərdən biri qadınların vəziyyəti idi. Çıxış edənlərin əksəriyyəti müsəlman qadınlarının hüquqlarının son dərəcə məhdudlaşdırıldığını, kişilərlə müqayisədə onlara ikinci növ vətəndaş kimi baxıldığını, həm də bu vəziyyətin yaranmasında din xadimlərinin aparıcı rol oynadığını qeyd etdilər. Müzakirələrdə fəal iştirak edən Alimcan Barudi və Musa Cərullah Bigiyev kimi nüfuzlu şəxslərin gərgin əməyi sayəsində aprel ayının 14-27-də keçirilmiş Kazan Qadınlar qurultayının qəbul etdiyi qərar eyni ilə qəbul edilmiş oldu. On maddədən ibarət həmin qərarın ən mühüm müddəaları aşağıdakılardır; qadınlarla kişilərin hüquq bərabərliyi, qadınların sosial- siyasi həyatda iştirakının təmin edilməsi, seçki hüququ, nigah zamanı



qadınların rəyi ilə hesablaşılması, qadına ərindən boşanma hüququ verilməsi, 16 yaşından aşağı qızlara nigah kəsilməsinin qadağan edilməsi, ikiarvadlılığa yol verilməməsi və s.

Fəhlə məsələsini ayrıca qeyd edən qurultay may ayının 9-da və 10–da keçirilən iclaslarını bu məsələyə həsr etdi. Qurultayın bu məsələ ilə bağlı qəbul etdiyi qərar layihəsində deyilirdi: «Fəhlə məsələsi onların özlərinə aid bir məsələ olduğundan öz konqreslərində həll edilir. Amma fəhlələrin təhsil işləri türk-tatar xalqı üçün ümumi bir məsələ olduğundan onlar arasında elm və maarif yaymaq bütün müsəlmanların vəzifəsidir».

Qurultayın mayın 9-da keçirilən iclasında əsgəri təşkilat haqqında məsələ müzakirə olundu. Bu məsələ ilə bağlı Albay Əliyev və Əbdüləziz Münasibov məruzə etdilər. Məruzələrin müzakirəsindən sonra əsgəri təşkilat haqqında 10 maddədən ibarət qərar qəbul edildi.

Qurultayın ən əhəmiyyətli cəhətlərindən biri Mərkəzi Müsəlman Şurasının -Milli Şuranın yaradılması oldu. Milli Şura «məmləkət içində məmləkət təşkil edə bilən» qüdrətə malik Rusiya müsəlmanlarının gələcək təşkilati məsələlərinə rəhbərlik etməli, onların fəaliyyətinin siyasi istiqamətlərini müəyyənləşdirməli idi. Ayaz İshaqinin təklifi ilə Milli Şuranın bir təşkilat kimi məqsəd və vəzifələrini müəyyənləşdirən qərarlar qəbul edildi. Qərarda Milli Şuranın fəaliyyəti aşağıdakı kimi səciyyələndirildi:

–Rusiya müsəlmanlarının qurultayı Rusiya müsəlmanlarının bütün siyasi təşkilat və partiyalarının birlikdə hərəkət etmələrini və eyni yolu izləmələrini lazım bilmişdir.

–Rusiya müsəlmanlarının fəaliyyətlərini koordinasiya etmək və istiqamətləndirmək məqsədi ilə bütün zümrə və qəbilələrin təmsilçilərindən mütəşəkkil Milli Şura mey-

dana gətirilməlidir.

– Milli Şura 30 nümayəndədən təşkil olunur:

a) Türküstan, Buxara və Xivədən 7, Qafqazdan 5, Krımdan 2, Qazaxstandan 5, Litva tatarlarından 1, Mərkəzi Rusiya və Sibir müsəlmanlarından 10 nəfər;

b) Milli Şura üzvlərini adı çəkilən qruplardan hər biri özü seçməlidir;

v) qurultay hər bölgənin Milli Şuraya imkan nisbətində qadınların da seçilməsini vacib bilir.

– Milli Şura Müəssisələr Məclisi toplanıncaya qədər müsəlman millətlərinin birlikdə hərəkət etmələrini təmin etmək vəzifəsi daşıyır.

– Qurultay Müəssisələr Məclisi seçilincəyə qədər bütün milli . məhəlli birliklərin Milli Şura qərarlarına tabe olmalarını lüzumlu hesab edir.

– Milli Şura öz üzvlərindən 12 nəfərdən ibarət icra komitəsi seçməlidir. – İcra komitəsi ilə bölgə məhəlli təşkilatlar arasındakı münasibətlərin metod və şəkillərinin təhlili, təsbiti ilə Milli Şura məşğul olmalıdır.

– Milli Şuranın idarə yeri Rusiya hökumət mərkəzinin yerləşdiyi şəhər olmalıdır. – Müəssisələr Məclisi seçkilərinin taktikasını təyin etmək üzrə avqustun 25-də Ymumrusiya müsəlmanlarının ikinci qurultayı çağırılmalıdır. Qurultayın işilə Milli Şura məşğul olmalıdır. – Milli Şura «Rusiya müsəlmanlarının şurası» adlandırılacaqdır».

Milli Şuranın yaradılması ilə bağlı qərar qəbul edildikdən sonra şura üzvləri seçildi. Ayrı-ayrı bölgələr üzrə keçirilən seçkilərdə İdil-Ural və Sibir müsəlmanları 10 nəfər nümayəndə seçdilər. Türküstan, Qazaxstan və Krım müsəlmanları müvəqqəti üzvlər seçərək, əsas üzvləri vətənlərinə qayıtdıqdan sonra müəyyənləşdirəcəklərini bildirdilər. Litva, Qafqaz və o cümlədən Azərbaycan təmsilçiləri şura üzvlüyünə nümayəndə təqdim etmədilər.



Milli Şura üzvlüyünə seçkilərlə qurultayın işi tamamlandı. Qurultay Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynadı. Azərbaycan milli hərəkatının liderləri ilk dəfə olaraq, öz fikirlərini eyni məqsəd uğrunda mübarizə aparan türk xalqları ilə bölüşmək imkanı əldə etdilər. Qurultay Rusiyada yaşayan türk-müsəlman xalqlarının potensial imkanlarını üzə çıxarmaqla yanaşı, onların zəif tərəflərini də aşkar etdi. Burada fikir mübadiləsi edən mühafizəkarlar, dinçilər, liberallar, millətçilər, türkçülər, sosialistlər görüşlərindəki firqə ayrılıqlarına baxmayaraq, ölkənin və millətin taleyi ilə bağlı qlobal məsələlərdə birlik nümayiş etdirdilər. Azərbaycan nümayəndə heyətinin qurultaydakı fəaliyyəti ümumtürk milli hərəkatının radikal addımlarla inkişafına təkan verdi. Xüsusilə M.Ə.Rəsulzadə və Ə. M. Topçubaşovun qurultaydakı siyasi fəallığı bu amili şərtləndirdi. Sonralar prof. Zəki Vəlidi Toğanın qeyd etdiyi kimi, « əgər 700 kişinin içərisində Məhəmməd Əmin Rəsulzadə bəy və arkadaşları olmasaydı, qurultay istiqlal və muxtariyyət qəbul etməkdə çətinlik çəkəcəkdi».

Qurultayın fəal iştirakçılarından olan, sonralar mühacirətdə yaşamış tatar ziyalısı Abdulla Taymas isə M.Ə.Rəsulzadənin Rusiya müsəlmanları qurultayındakı çıxışı ilə bağlı yazırdı: « Bu parlaq fikir sayəsində Məhəmməd Əmini bütün Rusiya türklüyü tanımış, artıq o, sadəcə Azərbaycan türkçülüyünün deyil, bütün Rus türkçülüyünün əzizi olmuşdur».

### 3.3. Milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə.

Fevral burjua inqilabından sonra bütün Zaqafqaziyada hakimiyyətə Xüsusi Zaqafqaziya Komitəsi (mart-noyabr 1917) nəzarət edirdi. Xüsusi Zaqafqaziya Komitəsi 1917-ci il mart ayının 9-da Tiflisdə yaranmışdı. Komitənin sədri V. Xarlamov, üzvləri isə M. Papacanov, M. Cəfərov, A. Çxenkeli, K. Abaşidze idi. Komitənin 12 aprel 1917-ci ildə «Bütün Zaqafqaziya əhalisinə» adlı müraciətində onun yaradılmasının məqsədi açıqlanır, əhali səbrə, dözümə, həmrəyliyə, dostluğa çağırılırdı. Müraciətdə Komitənin iqtisadi-siyasi sahədə platforması əks olunmuşdu.

1917-ci il iyun ayının II yarısında «Müsavat» partiyası ilə «Türk ədəmi-mərkəziyyət» partiyası birləşərək, «Türk ədəmi -mərkəziyyət partiyası Müsavat» adı altında fəaliyyətə başladı.

Partiyanın 8 nəfərdən ibarət Mərkəzi Komitəsi yaradıldı ki, bu da Bakı və Gəncə bürolarını əhatə edirdi. Bakı bürosuna M.Ə.Rəsulzadə, M. Hacinski, M. Rəfiyev, M. Vəkilov, Gəncə bürosuna isə N. Yusifbəyli, H. Ağaoğlu, Ş. Rüstəmbəyov və M. M. Axundov seçildilər.

Bu iki partiyanın birləşməsi Azərbaycanda siyasi qüvvələr nisbətinin tənzimlənməsində, istiqlal uğrunda mübarizənin bir səmtə yönəldilməsində mühüm rol oynadı. Məhz bu iki partiyanın birləşməsi Azərbaycan muxtariyyəti və sonra istiqlaliyyəti ideyasının gerçəkləşməsinin zəminini qoydu. Azərbaycan problemində milli qayəli iki böyük firqənin eyni mövqedən çıxış etməsi ölkənin siyasi həyatına aydınlıq gətirdi. Bu dövrün hadisələrini təhlil edən erməni tarixçisi B. İşxanyan həmin faktlara söykənərək yazırdı ki, « Zaqafqaziyanın erməni və gürcü millətlərindən fərqli olaraq türk-tatar əhalisinin



ictimai-siyasi həyatında. demək olar ki, ideya ayrılığı və firqə qruplaşması yoxdur».

M.D.Hüseynov «Müsavat» partiyası ilə «Türk ədəmi-mərkəziyyət» partiyasını müqayisə edərək belə nəticəyə gəlir ki, «Eyni zamanda «Türk Ədəmi-Mərkəziyyət partiyası» əslində Azərbaycan bəylərinin, «Müsavat» isə Azərbaycan türk burjuaziyasının siyasi təşkilatı idi. Bu partiyaların fəaliyyət mərkəzləri coğrafi baxımdan Azərbaycanın iqtisadiyyatı ilə üst-üstə düşürdü. Bakı yalnız Azərbaycanda deyil, bütün keçmiş Rusiya imperiyasında ən böyük sənaye mərkəzi idi. Gəncə isə Azərbaycan mülkədar və torpaq sahiblərinin mərkəzi idi».

Lakin «Müsavat» və «Türk ədəmi -mərkəziyyət» partiyalarının fərqləndirilməsi kökündən yanlışdır və sovet tarixşünaslığında mövcud olan əsassız sinfi konsepsiyanın nəticəsidir. Kitabın sonuna əlavə edilmiş hər iki partiyanın proqramı ilə tanışlıq bu müddəanın yanlış olduğunu sübut edir. M.D.Hüseynovdan fərqli olaraq, faktlara obyektiv yanaşan S.E.Sef isə bu partiyaların birləşməsini onların vahid sosial bazaya malik olması ilə izah edirdi. S. E. Sefin fikrincə, «Müsavat» partiyasının türk ziyalıları arasında burjua təmayülçülüyünün güclənməsi onu şəhər və kəndlərin kapitalist təbəqələri ilə ittifaqa çəkirdi. Öz-özlüyündə isə «Türk ədəmi-mərkəziyyət» partiyasının xırda burjuaziyası sərkərdəsiz ordu vəziyyətində idi.

1917-ci il oktyabr ayının 26-31-də 500 nəfərlik nümayəndənin iştirakı ilə «Müsavat» partiyasının ilk rəsmi qurultayı keçirildi. «Təşkilinin altıncı ildönümünə təsadüf edən bu qurultayda «Müsavat» ağır qurtuluş mübarizəsinə hansı proqramla qoşulduğunu qərarlaşdırdı. Məmləkətin dörd bir tərəfindən gələn millətçi və istiqlalçı nümayəndələr yeni ruh, yeni iman, yeni ümidlə

millәti bu proqram әtrafında birlәşmәyә çağıracaqdılar. Qurultay әsrlәrlә Azәrbaycan torpaqları üzәrindә dalğalanmış Elxanilәrin göy bayrağını firqә bayrağı kimi qәbul edirdi. Çingizlәrin zәfәr dolu dövrlәrini, Elxani Azәrbaycanının dünyaya hökm edәn zamanlarını xatırladan bu bayraq eyni zamanda qurtuluşun vә yüksәlişin timsalı idi».

Qurultayda partiyanın Mәrkәzi Komitәsi yaradıldı vә M.Ә.Rәsulzadә yekdilliklә onun sәdri seçildi. Qurultay «Müsavat» partiyası ilә «Türk Әdәmi-Mәrkәziyyәt» partiyasının birlәşib, bir ad altında fәaliyyәt göstәrmәsini bәyәndi. Qurultayda öz müqәddәratını tәyin etmәk uğrunda mübarizә aparan Rusiya türklәrinin gәlәcәk haqqında arzuları onun aydın vә hәmin dövr üçün sәciyyәvi olan proqramında öz әksini tapdı:

1. Rusiya dövlәtinin şәkli-idarәsi milli mәhәlli muxtariyyәtlәr әsası üzәrindә qurulu qoşma (federativ) xalq cümhuriyyәtlәrindәn ibarәt olmalıdır.

2. Hürriyәti-kәlam, mәtbuat, vicdan, ictimaat, tәşkilat vә tәtil kimi siyasi hürriyyәtlәrlә bәrabәr muxtariyyәtlәrdәki hökumәt şәklinin qoşma xalq cümhuriyyәtlәrindәn ibarәt olması, işçi qanununun bütün muxtariyyәtlәrdә bir növlә tәtbiqi vә torpaq mәsәlәsinin әsasәn keyfiyyәti-hәll vә islahı kimi demokratik әsaslar Rusiya qoşma xalq cümhuriyyәtinin Qanuni-Әsasisinә daxil olub dövlәtcә tәxti-tәminә alınmalıdır.

3. Müәyyәn mәhәllә malik olan (yәni Rusiya mәmlәkәtinin müәyyәn bir qәtәsindә әksәriyyәtlә yaşamaqda olan) hәr millәtә muxtariyyәt haqqı verilmәlidir. Firqә tәrәfindәn Azәrbaycan, Türküstan, Qırğızıstan, Başqırdıstan kimi türk ölkәlәri mәhәlli muxtariyyәt almalıdırlar. İdil boyu ilә Krım tatarları vә Rusiyada yaşayan digәr türk qövmlәrinә mәhәlli mümkün olmazsa, milli muxtariyyәt verilmәlidir. Qeyd: Başqa türk olmayan dindaşlara da firqә muxtariyyәt tәlәb edib onlara hәr vәchlә yardım etmәk borcundadır.

4. Müәyyәn mәhәllә malik olmayan millәtlәrә milli mәdәni muxtariyyәt haqqı verilmәlidir.

5. Muxtariyyәtlәrin hüdudunu tәyin etmәk, daxili Әsas Qanunlarını tәrtib eylәmәk istәr mәhәlli, istәrsә dә milli muxtariyyәtlәrin öz mәclisi–müәssisanlarında hәll olunmalıdır.

6. Cümhuriyyәt heyәtinә daxil olan muxtariyyәtlәr öz aralarında müştәrәk gördüklәri mәqsәd vә tәlәblәr üzәrindә әqdi-ittifaq edә bilmәlidirlәr.

7. Cümlә muxtariyyәtli әyalәtlәr mәrkәzi hökumәtlә ancaq vәtәn müdafiәsi, mәsquqat (pul kәsmә), gömrük, xarici siyasәt, dәmir yolu, poçt, teleqraf vә s. bu kimi işlәrlә mәrbut olmalıdır.

8. Muxtariyyәtli әyalәtlәr idari, mali, tәşrii, mәdәni vә әdli kimi daxili mәsәlәlәrdә müstәqil olmalıdırlar.

9. Rusiya cümhuriyyәtinin ümumi işlәrini idarә etmәk üçün bütün muxtariyyәtlәrin nümayәndәlәrindәn ibarәt bir konqress tәşkil olunmalıdır.

10. Hәr bir muxtariyyәtin mәrkәzindә qanun qoymaq vәzifәsi ilә müvәzzәf bir mәclisi- mәbusan vә qoyulacaq qanunları icra etmәklә müvәzzәf bir şurayi-vükәla (nazirlәr şurası) tәşәkkül etmәlidir.

11. Hәr bir muxtariyyәtli әyalәt mәhәlli işlәrdә geniş imtiyazlara malik vilayәt, qәza, nahiyәlәrә bölünmәlidir».

«Türk әdәmi-mәrkәziyyәt» partiyası «Müsavat»ın ilk qurultayında qәbul olunmuş proqramda Rusiya türklәrinin, o cümlәdәn Azәrbaycanın milli- mәhәlli muxtariyyәt mәsәlәsi hәrtәrәfli şәkildә әks olunmuşdu. Qurultay partiyanın Mәrkәzi Komitәsinә Azәrbaycanın milli-mәhәlli muxtariyyәtini reallaşdırmaq istiqamәtindә

tapşırıqlar verdi. Qurultay eyni zamanda Bakı şəhər bələdiyyəsində partiya əleyhinə çıxış edən və partiyanın fəaliyyətinin şəriətə zidd olduğunu göstərən Şeyx Qəni başda olmaqla ruhani idarəsinin fəaliyyətini təhlil etdi. Qurultay Bakı şəhər bələdiyyə seçkilərində «Müsavat» əleyhinə təbliğat apararaq, partiyanı dinsizlikdə ittiham edən ruhani idarəsini tənqid etdi. Ruhani idarəsindən bitərəf mövqedə dayanması, siyasi mübarizəyə qoşulmaması tələb olundu.

Qəbul olunmuş proqram sənədi «Müsavat» partiyasının islamçılıq mahiyyətindən uzaqlaşaraq, türkçülük mövqeyinə keçdiyini göstərir. «Müsavat» partiyasının yeni proqramında millət və milli dövlət quruculuğu haqqında danışılır və güclü dövlət kimi milli əsasa söykənən dövlətdən bəhs olunurdu. Partiyanın proqramında göstərilir ki, «millət dil, din, ənənə, ədəbiyyat, mədəniyyət, tarix və hüquq bağlılığına əsaslanan insan birliyidir. Yalnız din birliyi milləti təşkil etmir. Hər bir millət başlıca olaraq ümumi dili, ədəbiyyatı, adət-ənənəsi ilə seçilir. Bu baxımdan türklər bir milləti təşkil edir».

«Müsavat» partiyası proqramının bu bəndi nəinki millətin nə olduğunu açıqlayır, həm də köhnə proqramın nöqsanlarını aşkara çıxarırdı.

Proqramda aqrar məsələ öz dolğun əksini tapmışdı. Partiya torpaqların onu becərənlərə- kəndlilərə qeydşərtsiz verilməsi tərəfdarı kimi çıxış edirdi. S.E.Sef «Müsavat» partiyasının aqrar məsələyə münasibətdə torpaqların kəndlilərə verilməsi tərəfdarı olmasını əsas tutaraq, sovet tarixçilərindən fərqli olaraq, partiyanı mürtəce mülkədar sahibkar firqəsi kimi qiymətləndirməyin əleyhinə çıxırdı. Rus kadetləri isə «Müsavat»dan fərqli olaraq aqrar məsələdə başqa mövqedə dayanır və torpaqların kəndlilərə verilməsi əleyhinə çıxış edirdilər.



Əslində aqrar məsələyə münasibətdə Müsavatçılarla bolşeviklərin mövqeyi eyni idi. Qurultay işə başlarkən Petroqradda silahlı üsyan və Oktyabr çevrilişi haqqında xəbər Azərbaycana çatdı. Oktyabr ayının 26-da Bakıda müxtəlif siyasi partiyaların, həmkarlar təşkilatlarının, hərbi hissələrin və Xəzər donanması üzvlərinin iştirakı ilə təcili yığıncaq çağırıldı. Bolşeviklərin etirazlarına baxmayaraq, eser, menşevik və daşnaklar Bakı şəhərində ali hakimiyyət orqanı kimi İctimai Təhlskəsizlik Komitəsi yaradılması haqqında qərar çıxardılar. Hətta sol eserlər də bu komitənin yaradılmasına səs verdilər. Bu qərarla razılaşmayan bolşeviklər hakimiyyət məsələsini geniş müzakirəyə çıxardılar. Hoyabr ayının 2-də Bakı Sovetinin konfransında onlar şəhərdə ali hakimiyyət orqanı kimi Bakı Sovetinin elan olunmasına nail oldular. M. V. Basin, N. P. Vatsek, P. A. Çaparidze, İ. T. Fioletov, S. Şaumyan və başqaları Bakı Soveti İcraiyyə Komitəsinin yeni tərkibinə seçildi. Rusiyada baş verən Oktyabr inqilabını Azərbaycandakı bir çox digər partiyalar kimi «Müsavat» da rəğbətlə qarşıladı. Onlara elə gəlirdi ki, bolşeviklər öz vədlərinə sadiq qalacaq, ayrı-ayrı millətlərə öz müqəddəratını təyin etmək hüququ verəcək və Azərbaycana da özünün muxtariyyətini qurmaq nəsib olacaq. M.Ə.Rəsulzadə yazırdı ki, «1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə muxtariyyət verəcəkdi».

Buna görə də «Müsavat» partiyası Oktyabr inqilabının ilk günlərində bolşeviklərlə eyni mövqedən çıxış edirdi. «Müsavat» partiyasının noyabr ayının 7-də qəbul etdiyi qətnamədə siyasi vəziyyətə belə qiymət verilirdi: «Müvəqqəti hökumətin bütün fəaliyyəti, xüsusilə onun müharibəni uzatmağa yönəldilmiş xarici siyasəti, Rusiya xalqlarının milli tələblərinə münasibətdə tutduğu mövqe

demokratiya üçün kifayət deyildi, bu, hökumətin süqutu ilə başa çatdı. Qətnamədə eyni zamanda qeyd olunur ki, siyasi sabitliyin qorunmasında bütün məsuliyyət hakimiyyətin üzərinə düşür. Ona görə də «Hakimiyyətin yalnız müəyyən bir partiyanın əlinə keçməsi demokratiyanı inqilabın özü üçün büsbütün təhlükəli edə bilər, nəticədə isə əksinqilabın güclənməsi və qələbəsi labüdləşər. Məhz bu ümumi mövqedən çıxış edərək, «Müsavat» partiyası hesab edir ki, hakimiyyət demokratik, yekcins olmalı, inqilabi demokratiyanın nümayəndələrindən yaradılmalıdır».

Müsavatçılar bu qənaətdə idilər ki, «vahid və bölünməz Rusiya» ideyasını müdafiə edən eser və menşeviklərin hakimiyyətə gəlməsi Rusiyada yaşayan milli azlıqların, o cümlədən azərbaycanlıların vəziyyətini çətin ki, yaxşılaşdırardı. Daşnaklara gəldikdə isə onların Azərbaycana qarşı siyasətinin şərhə ehtiyacı yox idi. Buna görə də həmin ərəfədə bolşeviklər yeganə partiya idilər ki, millətlərə öz müqəddəratını təyin etmə, hətta ayrılma hüququ vəd edirdilər. Bu «Müsavat»ın liderlərində belə bir ümid oyadırdı ki,bolşeviklər öz vədlərinə əməl edəcək və Azərbaycana öz müqəddəratını təyin etmək hüququ veriləcək. Ona görə də, «Müsavat» partiyası eser, menşevik və daşnaklardan ibarət olan İctimai Təhlükəsizlik Komitəsinin buraxılmasını tələb etmişdi. Müharibəyə münasibət məsələlərində də «Müsavat»la bolşeviklərin mövqelərində müəyyən eyniliklər var idi. Müharibəni qələbəyədək davam etdirmək tələbilə çıxış edən eser, menşevik və daşnaklardan fərqli olaraq, hər iki partiya onun dərhal dayandırılması tələbi ilə çıxış edirdilər. Hər iki partiyanın proqramlarında müəyyən məsələlərə münasibətdə eyniliklərin olması da onları yaxınlaşdıran amillərdən idi. Bolşeviklərin Müsavatçılarla bu ərəfədə



yaxınlaşmasının səbəbi isə, S. E. Sefin qeyd etdiyi kimi, onunla bağlı idi ki, Oktyabr inqilabından sonra bolşeviklər Bakıda hakimiyyəti dinc yolla ələ ala biləcək gücə malik deyildilər.

Lakin «Müsavat»la bolşeviklərin əlaqəsi və müəyyən məqamlarda eyni mövqedən çıxış etmələri səthi və formal səciyyə daşıyırdı. Çünki Ki İmartın müşahidə etdiyi kimi,Azərbaycan milli hərəkatının liderləri tezliklə hiss etdilər ki, «1917-ci il inqilabı mahiyyətcə rus inqilabıdır» və o, qarşısına «başlıca olaraq rus problemini həll etmək» məqsədini qoymuşdur.

V. Kolarz isə yazırdı ki, «1917-ci ilin Oktyabr inqilabı rus müstəmləkəçiliyinə son qoymaq əvəzinə ona yeni təkan verdi».

«Müsavat» partiyası güclədikcə onunla Bakı Soveti arasında olan münasibətlər pisləşirdi. 1917-ci ilin noyabr ayının 8-12-də Bakıda Qafqaz Müsəlmanları Milli Komitəsinin konfransı oldu. «Müsavat»ın rəhbərliyi altında keçən həmin konfransda Azərbaycanın öz müqəddəratını təyin etməsi hüququnun reallaşdırılması və muxtariyyətini yaratması üçün təcili olaraq Milli Təşəbbüs Məclisinin çağırılması qərara alındı. Konfrans qeyd etdi ki, «mövcud vəziyyət hakimiyyətdən daha qətiyyətli addımlar atmağı, Rusiya Federasiyasında yeni muxtar birliklərin yaradılmasını tələb edir».

. Konfransın qərarı Azərbaycanın Rusiyadan ayrılması tələbinə yönəldilmişdi, lakin Bakı Soveti bunu açıq şəkildə həyata keçirmək istəmirdi. Müsəlman Milli Məclisi Azərbaycanın Rusiyadan ayrılması tələbini ardıcıl olaraq müdafiə edir, müsəlman qarnizonları yaratmaq tələbilə çıxış edirdi. Məhz həmin şuranın təzyiqi ilə 1917-ci ilin dekabr ayının 14-də general Levandovskinin imzası ilə Qafqaz cəbhəsinin bir polku və polkun ləvazimatı ilk döv-

rdə yenicə formalaşmaqda olan Azərbaycan ordusuna verildi.

«Müsavat» partiyasının Rusiyanın ayrı-ayrı əyalətlərində şöbələri fəaliyyət göstərirdi. Partiyanın fəaliyyəti Ukraynanın paytaxtı Kiyev şəhərində daha canlı idi. «Müsavat»ın Kiyev şöbəsinə o zaman orada təhsil alan gənc yazıçı Y. V. Çəmənzəminli rəhbərlik edirdi.

«Müsavat» firqəsinin Kiyev şöbəsi əsasən burada oxuyan azərbaycanlı türk tələbələrini əhatə edirdi. Şöbə Azərbaycanla sıx əlaqə saxlayır, Ukraynada baş verən siyasi hadisələrlə «Açıq söz» qəzeti vasitəsi ilə Azərbaycan oxucularını vaxtaşırı tanış edirdi. Ukraynanın istiqlaliyyətindən sonra «Müsavat» partiyasının Kiyev şöbəsi muxtariyyət və istiqlal ideyalarının kütlələrə aşılanmasında ardıcıl fəaliyyət göstərirdi. Şöbənin sədri Y. V. Çəmənzəminli Azərbaycan türklərinə xitab şəklində qələmə aldığı «Ayılın, toplaşın» adlı məqaləsində xalqın müxtəlif təbəqələrinə müraciət edib, onları «firqəbazlıqdan», «əqidə davası eləməkdən» çəkindirməyə, şəxsi mənafeləri bir kənara qoyub, Azərbaycan muxtariyyəti ideyası ətrafında birləşməyə çağırırdı.

«Müsavat» partiyasının Azərbaycan siyasi həyatının başlıca qüvvəsinə çevrildiyini Bakı Sovetinə və Ymumrusiya Müəssisələr Məclisinə keçirilən seçkilərin nəticəsi qəti olaraq təsdiqlədi. 1917-ci ilin oktyabr ayının 22-də Bakı Sovetinə keçirilən seçkilərdə «Müsavat» partiyası səslərin 40 faizini toplayaraq birincilik qazandı. Səslər aşağıdakı şəkildə bölüşdürüldü:

Müsavat – 9617;
Bolşeviklər – 3823;
Eserlər – 6305;
Menşeviklər – 687;
Daşnaksütyun – 5288.



Əhalisinin tərkibi beynəlmiləl olan Bakı şəhərində belə bir qələbə partiyanın hegemon bir qüvvə olduğunu sübut edirdi. Sovet tarixşünaslığında Bakıda yeganə hegemon qüvvə kimi təqdim olunan bolşeviklər səslərin yalnız 15 faizini qazanmışdılar.

1917-ci ilin noyabr ayının 26-28-də Ymumrusiya Müəssisələr Məclisinə keçirilən seçkilərdə «Müsavat»ın əldə etdiyi nəticələr onun nüfuzunun təkcə Bakıda deyil, bütün Zaqafqaziya regionunda bərqərar olduğunu bir daha nümayiş etdirdi. Həmin seçkilərdə Zaqafqaziya üzrə seçicilərin səsləri siyasi partiyalar arasında belə nəticələnmişdi:

Menşeviklər – 661 934;
Müsavat – 615 816;
Daşnaklar – 558 400;
Müsəlman sosialist bloku – 159 700;
Eserlər – 117 522;
Bolşeviklər – 95 581;
Hümmət – 84 748;
İttihad - 66 504.

Bu tarixi reallığın üzərindən sükutla keçən M.D.Hüseynov iddia edirdi ki, 1917-ci ilin sonlarına qədər «Müsavat» partiyasının Bakının türk-müsəlman əhalisi arasında nüfuzu olmamışdır və Bakı fəhlələri bolşeviklərə meyl etmişlər.

S. Belski və A. Manvelov isə bir qədər obyektiv düşünərək, bolşeviklərin bu seçkilərdə məğlubiyyətinin səbəbini Azərbaycan zəhmətkeşlərinin böyük əksəriyyətinin «Müsavat» partiyasının və digər müsəlman ictimai təşkilatlarının təsiri altında olması ilə izah edirdilər ki, bu da obyektiv reallığın etiraf olunmasıdır.

Ymumrusiya Müəssisələr Məclisinin bolşeviklər tərəfindən buraxılmasından sonra məclisin Zaqafqaziya üzrə

üzvləri yaranmış hakimiyyətsizlik şəraitində yeganə yolu Zaqafqaziya Seymini yaratmaqda gördülər. 1918-ci il fevral ayının 23-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı kimi Seym öz işinə başladı. Maraqlıdır ki, Zaqafqaziya Seyminin fəaliyyətini bolşevizm nöqteyi-nəzərindən təhlil edən S.T.Arkomed də onun yaranmasını dövr üçün təbii zərurətdən doğan bir hadisə kimi qiymətləndirir.

RSDFP-nin Zaqafqaziya diyar komitəsi adından Zaqafqaziya komissarlığına yazılmış 16 yanvar 1918-ci il tarixli məktubla bolşeviklər «Zaqafqaziyanı Rusiyadan ayırmaq və bununla Oktyabr inqilabının nailiyyətlərinə zərbə vurmaq məqsədi izlədiyini» iddia etdikləri Seymin fəaliyyətində iştirak etmək niyyətində olmadıqlarını bildirdilər.

Zaqafqaziya Seyminin N.Çxeidzenin sədrliyi ilə keçən ilk iclasında Bakı və Yelizavetpol dəmir yolunun işləməməsi ucundan Azərbaycan nümayəndələri iştirak edə bilməmişdilər. Azərbaycan fraksiyasını təmsil edən yeganə iştirakçı kimi təsis iclasında çıxış edən Sultanov yığıncağın təxirə salınmasını xahiş etdi.

Seymdə müxtəlif partiyaların nümayəndələri topladıqları səslərin sayına uyğun yerlərə malik idilər. Seym bütövlükdə on siyasi partiya ilə təmsil edilmişdi. Buraya menşevik, Müsavat, daşnak, kadet, eser, sosial-federalist, ittihad, milli -demokrat, müsəlman sosialistləri bloku və hümmət daxil idi. Milliyyət baxımından isə Seym azərbaycanlı, gürcü və ermənilərdən ibarət idi. Zaqafqaziya Seymində çoxluğu müsəlman partiyaları bloku təşkil edirdi. Əgər menşeviklər 33, daşnaklar 27, eserlər 5 yerə malik idilərsə, «Müsavat» 30 yer əldə etmişdi. Bundan əlavə, müsəlman sosialist bloku 7, hümmətçilər 4, ittihadçılar 3 yerə malik idilər.



Azərbaycan fraksiyası 4 partiyaya («Müsavat», «İttihad», «Hümmət» və Müsəlman Sosialist Bloku) məxsus 44 millət vəkili ilə təmsil olunmuşdu. Fraksiyanın lideri M.Ə.Rəsulzadə idi. Zaqafqaziya Seymi öz fəaliyyətinə Türkiyə ilə sülh danışıqlarının müzakirəsi ilə başladı. Martın 1-də keçirilən iclaslarda Seymin xüsusi komitəsi sülhün şərtlərini və prinsiplərini müəyyənləşdirməyə çalışdı. Daşnak fraksiyası adından çıxış edən A. Xatisyan Türkiyə ilə mehriban qonşuluq və ermənilərə Türkiyə daxilində muxtariyyət verilməsi təklifini irəli sürdü. Gürcü menşevikləri də sülh məsələsində maraqlı idilər. Seymin Azərbaycan fraksiyası sülhə tərəfdar olmaqla yanaşı, Zaqafqaziyanın Türkiyə tərkibinə hər hansı formada daxil olmasının əleyhinə idi. Həmin iclasda Seym aşağıdakı şərtlərlə sülh müqaviləsinə tərəfdar olduğunu bildirdi.

1. Seymin sülh bağlamağa səlahiyyəti vardır.
2. Türkiyə ilə yekun sülh müqaviləsinin bağlanmasını Seym özünün əsas vəzifəsi hesab edir.
3. Türkiyə ilə sülh müqaviləsi 1914-cü il sərhədlərinin bərpa edilməsinə əsaslanmalıdır.
4. Zaqafqaziya nümayəndələri Şərqi Anadolunun təyini müqəddəratına və Türkiyə dövləti daxilində Türkiyə Ermənistanına muxtariyyət verilməsinə çalışacaqlar».

Trabzonda keçiriləcək sülh konfransında iştirak etmək üçün gürcü Akaki Çxenkelinin rəhbərliyi ilə nümayəndə heyətinin tərkibinə Azərbaycan fraksiyasından X.Xasməmmədov, M.H.Hacınski, M.Mehdiyev, İ.Heydərov, Ə.Şeyxülislamov daxil edilmişdilər. Azərbaycan fraksiyası Türkiyə ilə sülh müqaviləsinin imzalanmasını bölgədə vəziyyətin sabitləşməsi üçün əsas amil hesab edirdi. Onlar sülh müqaviləsinin bağlanmasına ona görə təkid edirdilər ki, Azərbaycanda və onun ətrafında vəziyyət

get-gedə gərginləşirdi. «Qafqaz cəbhəsindən qayıdan erməni hərbi hissələrinin Bakıda dayanması, Yaxın Şərqdə olan ingilis hərbi hissələrinin İranın şimalına -Cənubi Azərbaycana doğru hərəkət etməsi nəticəsində Bakı üçün yaranan təhlükə, almanların Qafqazda fəallaşması və Bakı neftini ələ keçirməsi niyyətləri Azərbaycan milli fraksiyasını narahat etməyə başlamışdı».

Mart ayının 3-də Sovet Rusiyasının Brest-Litovsk müqaviləsini imzalaması ermənilərin iddia etdikləri «Türkiyə Ermənistanı» planlarını alt-üst etdi. Çünki bu müqavilənin şərtlərinə görə, 1877-1878-ci il rus-türk müharibəsinə qədərki sərhəd xətti bərpa edilməli, Qars, Ərdəhan və Batum vilayətləri rus qoşunlarından azad olunmalı idi. Brest-Litovsk müqaviləsinə əlavə olaraq, Rusiya ilə Türkiyə arasında bağlanmış əlavə müqaviləyə görə rus qoşunları işğal etdikləri türk ərazilərində və Rusiya sərhədlərində erməni silahlı birləşmələrini tərksilah etməli idilər.

Mart ayının 14-də Trabzon sülh konfransı öz işinə başladı. Türkiyə nümayəndə heyətinə Rauf Orbay başçılıq edirdi. Zaqafqaziya nümayəndə heyəti danışıqlarda Brest-Litovsk müqaviləsinə etirazını bildirdi. Türkiyə tərəfi isə Zaqafqaziyanın müstəqilliyinin elan edilmədiyi təqdirdə belə etirazın əsassız olduğunu bildirdi. Onların fikrincə, Zaqafqaziya hökuməti müstəqil dövlət kimi tanınmaq istəyirsə, Rusiyadan ayrıldığını rəsmən bildirməli və istiqlaliyyətini elan etməlidir.

Seymin martın 22-də keçirilən iclasında nümayəndə heyəti Trabzon sülh konfransı haqqında məruzə etdi. Seymin həmin iclasında gündəliyə iki məsələ daxil edilmişdi:

1 Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi haqqında.



2 . Əvvəllər elan edilmiş sülh şərtlərində dəyişikliklər haqqında.

Lakin Vehib Paşanın Zaqafqaziyanın mübahisəli ərazilərinin boşaldılmasını tələb etməsi Seymdəki ziddiyyətləri daha da dərinləşdirdi. Gürcü və erməni fraksiyası Türkiyə hökumətinə qarşı müharibə aparmağı təklif etdi. Azərbaycan fraksiyası isə Türkiyəyə qarşı müharibənin əleyhinə olub, güzəştlərlə sülhə nail olmağa üstünlük verirdi. Gürcü fraksiyasından N. Jordaniyanın Türkiyənin tələblərini rədd etmək təklifinə cavab olaraq F. Xoyski bildirdi ki, Zaqafqaziya üçün sülh indi hər şeydən vacibdir. Seym Türkiyənin haqlı tələblərini yerinə yetirməli, öz müstəqilliyini elan etməlidir.

Azərbaycan fraksiyası adından çıxış edən M.Mehdiyev, X.Xasməmmədov, Ə.Şeyxülislamov bu fikirdə idilər ki, Türkiyə ilə müharibə aparılacağı təqdirdə azərbaycanlılar bu savaşda iştirak etməyəcəklər.

Bakıda baş verən mart qırğını ilə bağlı xəbər Seymdə vəziyyəti gərginləşdirdi. Azərbaycan fraksiyası adından çıxış edən Müsəlman sosialist blokunun üzvü Z. Məmmədbəyov Bakıda törədilən vəhşiliklərə cavab olaraq, təcili tədbirlər görülməsini və bu vəhşiliyin qarşısının alınmasını tələb etdi. M.Ə.Rəsulzadə isə Azərbaycana kömək edilməyəcəyi təqdirdə Seymi boykotla hədələdi. Lakin Seymin gürcü və erməni fraksiyası Azərbaycana kömək etməkdən boyun qaçırdılar. Onlar belə bir dəlil gətirirdilər ki, nə qədər ki, Türkiyə tərəfdən təhlükə var, bolşeviklərlə düşmənçilik edə bilməzlər.

Mart qırğını XX əsr Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri idı. Xaricdə bu faciə ilə bağlı müəyyən tədqiqatlar aparılmışdır. Çox təəssüf ki, bu dəhşətli hadisə sovet tarixşünaslığı tərəfindən saxtalaşdırıldığından, uzun müddət xalqa yanlış şəkildə təqdim olunmuşdur.

Hətta hadisələrin cərəyan etdiyi dövrdə belə «Naş qolos» qəzetindən başqa Azərbaycanın bütün bolşevik təmayüllü mətbuatı mart qırğınını «vətəndaş müharibəsi» kimi qiymətləndirdi. «Naş qolos» qəzeti bu hadisəyə erməni-türk xalqlarının milli ədavəti kimi qiymət verdi. Bakıda və Azərbaycanın digər bölgələrində baş verən 1918- ci ilin mart-aprel hadisələrini əsas tutan Amerika tarixçisi R. Syuni «««Bakı Kommunası», 1917-1918-ci illər. Rus inqilabında sinif və millət» adlı monumental tədqiqatında müşahidə etmişdir ki, Zaqafqaziyada, xüsusilə Bakıda inqilabi mübarizə sinfi mahiyyət daşımamış, millətlərarası müharibə zəminində baş vermişdir.

S. E. Sef mart hadisələrində ayrı-ayrı partiyaların fəaliyyətini və bolşeviklərin hakimiyyət uğrunda apardığı mübarizənin xronologiyasını izləyərək bu nəticəyə gəlir ki, mart hadisələrini heç cür Bakı Oktyabrı adlandırmaq olmaz. Bundan üç il sonra yazdığı məqalədə bu hadisələri məhz Bakı Oktyabrı kimi qiymətləndirir.

H. Z. Əliyevin fikrincə, guya «Müsavat» ın liderləri Nuru və Xəlil paşa ilə gizli surətdə danışıqlar apararaq belə sazişə gəlmişlər ki, Türkiyə qoşunlarının Azərbaycanı işğal etməsinə yardım məqsədilə üsyan qaldırsınlar. Martın 31-də Bakıda baş verən qiyam məhz həmin gizli sazişin nəticəsidir.

Əslində isə heç bir mənbəyə və sənədə söykənməyən bu fikrin həqiqət olmadığını sübut etməyə ehtiyac yoxdur. Yalnız son illərdə Azərbaycan tarixçilərinin bəzi tədqiqatlarını nəzərə almasaq, bu faciənin mahiyyətinin aşkarlanmasında ciddi bir iş görülməmişdir. Azərbaycan milli hərəkatının inkişafına böyük təsir göstərmiş mart hadisələrini B. İşxanyanın qeyd etdiyi kimi, Zaqafqaziyada cərəyan edən hadisələrdən təcrid olunmuş halda qiymətləndirmək olmaz.



«Müsavat»ın xalq arasında artan nüfuzundan qorxuya düşən erməni milli partiyaları və bolşevik ermənilər Bakıda hakimiyyət məsələsini tam həll etmək, Azərbaycan xalqının milli ruhunu öldürmək məqsədilə erməni- türk qırğını törətmək kimi iyrənc üsula əl atmaqdan çəkinmədilər. Həmin dövrün siyasi ab-havasını araşdırmış olan erməni siyasi xadimi Hovanes Kaçaznuni qeyd edirdi ki, «bolşeviklərə yalnız iki partiya real qüvvə çıxara bilərdi: «Müsavat» və «Daşnaksütyun» partiyaları. «Daşnaksütyun» belə hesab edirdi ki, «Müsavat»la onun dostluğu bolşevik təhlükəsi olduqda lazımdır. Bakıda bizim köməyimizlə bolşeviklər «Müsavat»ı darmadağın etdilər».

Oktyabr inqilabından sonra Qafqazın sovetləşdirilməsi problemi Rusiya bolşeviklərinin qarşısında duran aktual məsələlərdən idi. 1917-ci il dekabr ayının 16-da Petroqrad Xalq Komissarları Soveti öz iclasını «Qafqazda vəziyyət haqqında» məsələyə həsr etmiş və Bakı Sovetinin sədri S. Şaumyan «Qafqaz və Qərbi Ermənistan üzrə fövqəladə komissar» təyin olunmuşdu. Bunun ardınca Bakı Soveti rəhbərliyi şəhərdə Qızıl Ordu hissələri adı ilə erməni qoşun birləşmələrini yaratmağa başladılar. Bu iş erməni siyasi və hərbi xadimlərinin nəzarəti altında icra olunurdu. Daşnak Z. Avetisyan Qızıl Ordunun qərargah rəisi, Hamazasp üçüncü briqadanın komandiri, polkovnik Qazarov isə korpus komandiri vəzifələrini icra edirdilər.

1918-ci ilin yanvar ayında Müsəlman korpusunun komandiri general Talışinskinin Bakıda həbsi şəhərin türk-müsəlman əhalisi arasında qəzəb doğurdu.

Bu qarşıdurmadan istifadə etmək marağında olan erməni daşnakları şəhərin türk-müsəlman əhalisi ilə ermənilər və bolşeviklər arasında silahlı toqquşma yaratmaq istədilər. Lakin Azərbaycan ziyalı və siyasi

xadimlərinin ciddi səyi nəticəsində bu toqquşmanın qarşısı alındı. Mitinq və yığıncaqlarda çıxış edən M.Ə.Rəsulzadə, N. Nərimanov, N. Yusifbəyli və başqa siyasi şəxsiyyətlərin bu istiqamətdəki fəaliyyəti səmərəsiz qalmadı. Lakin erməni millətçiləri rus–xristian əsgər və matrosları arasında türk-müsəlman icmasına qarşı nifrət ruhunda təbliğat aparır, hər vasitə ilə sülhə, barışığa mane olmağa çalışırdılar. Artıq 1918-ci ilin ilk aylarında Bakıda 8 mindən artıq erməni qoşun birləşmələri yaradılmışdı. Hətta İrandan və Qafqaz cəbhəsindən Rusiyaya qayıdan rus əsgərlərinin müəyyən hissəsi də bu dəstəyə qoşulmuşdu. Qırğın ərəfəsində erməni silahlı qüvvələrinin sayı 20 min nəfərdən artıq idi. Bundan əlavə, rus ordusu inqilab ərəfəsində Qafqazdan çəkilən zaman ordunun bütün silah və təchizatı erməni daşnaklarının əlinə keçmişdi.

Tarixi fakt və sənədlərin araşdırılması mart qırğınının qabaqcadan düşünülmüş, planlı surətdə hazırlanmış və həyata keçirilmiş bir soyqırım olduğunu sübut edir. Qanlı hadisənin başlanmasından bir qədər əvvəl Bakı Sovetinin iclaslarında və digər yığıncaqlarında S. Şaumyan, M.Ə.Rəsulzadə və A. Kazımzadəni təhlükəli şəxslər kimi qiymətləndirir, onlara məxsus silahlı qüvvələrin Türkiyə sultanına arxalandığı fikrini təbliğ edirdi.

1918-ci il mart ayının 15-də S. Şaumyan Bakı Sovetinin iclasında çəkinmədən: «Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir», - deyə bəyan etmişdi. Bir gün əvvəl, mart ayının 14-də S. Şaumyanın əmri ilə erməni Əmirovun komandanlığı altında Şamaxı şəhərinə bolşevik silahlı birləşmələri göndərildi. Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə silahlı bolşevik dəstələri yeridildi. Toqquşmanı başlamaq üçün bəhanə bu ərəfədə H. Z. Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsinin «Evelina» gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 nəfər hərbçinin gəlişi oldu. Dəfndən sonra zabitlər həmin gəmi ilə geri qayıtmalı idilər. Erməni daşnakları əsgər və matroslar, eser və menşevik partiyaları, rus milli şurası arasında şaiyə yaydılar ki, «Evelina»dakı zabitlər Muğandakı Malokan kəndlərini dağıtmaq üçün xüsusi göstəriş almışlar.

Erməni daşnaklarının əli ilə şəhərin müxtəlif yerlərində Azərbaycan türklərinin əleyhinə mitinq və yığıncaqlar keçirilməyə başladı. Bunun nəticəsində Bakının bütün qeyri-türk siyasi birlikləri və hərbi qüvvələri «Evelina»nın tərksilah edilməsi tələbini irəli sürdülər.

Mart ayının 30-da döyüşlər başlandı. Döyüşlərə rəhbərlik üçün S.Şaumyan, A.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan və M.Yolçiyan daxil olmaqla Bakı Soveti yanında inqilabı müdafiə komitəsi yaradıldı.

Həmin gün saat 5-də açılan ilk atəş Azərbaycan türklərinin üzləşdiyi soyqırımının başlanğcı oldu. Azərbaycan ziyalıları bu faciənin qarşısını almaq üçün əllərindən gələni edirdilər. S. Şaumyanla bolşevik sıralarında fəaliyyət göstərən N. Nərimanovun bu sahədəki xidmətləri təqdirəlayiqdir. Bunu 1918-ci ilin aprel ayının 1-də «Hümmət» qəzetində çap olunmuş «Qanlı faciədən dörd saat qabaq» adlı redaksiya məqaləsi də təsdiq edir: «Yoldaşımız doktor N. Nərimanov «İsmailiyyə» binasında və «Təzə pir» məscidində mitinqlərdə olan əhvalatlardan xəbərdar olub tezliklə öz evində bir məclis çağırdı. Bu məclisdə «Hümmət» firqəsinin üzvlərindən savayı kəndçi ittifaqının sədri və müavini Mirzə Axund və uyezdni komissar Əliheydər Yusifov da hazır idilər. Doktor N. Nərimanov Qafqaz komissarı Şaumyanın vədəsini almışdı. Saat 12-də Şaumyan bu məclisə gəldi.

Doktor N. Nərimanov məclisi açıb təsirli bir nitq söylədi və axırda üzünü Şaumyana tutub dedi:

–Yoldaş. Siz də və mən də müsəlmanların halını bilirik. Hərgah bir iğtişaş başlansa, ayaq altında qalan fəqir-füqara olacaqdır. Həmin fəqir-füqara ki, siz də və mən də onun yolunda işləyirik. Ona binaən sizdən təvəqqə edirəm, sizə yalvarıram, bu işi sülh ilə qurtarınız. Hər iki tərəfi sakit etmək üçün mən təklif edərdim, tüfənglər müsəlman siyasi firqələrə və yainki bunlardan ibarət bir komitəyə tapşırılaydı.

Şaumyan cavab verdi:

–Doktor N. Nərimanovun sözlərinə bütün-bütünə şərik olduğumdan var qüvvəmlə bu işi yatırtmağa səy edəcəyəm. Bu məclis saat 4-də qurtardı. Və Şaumyan hərbi inqilab komitəsinə gedib doklad etdi. Görünür ki, yoldaşımız doktor N. Nərimanovun təklifi qəbula keçibmiş. – Çünki müsəlman vəkilləri təsdiq edirlər ki, – bunlara Çaparidze dedi:

–Siz arxayın gediniz, sabah tüfəngləri müsəlman siyasi qüvvələrinə verəcəyik.

Vəkillər icraiyyə komitetində olarkən atışma başlanır; hankı tərəfdən və kim başlayır, müsəlmanlara məlumdur».

M.Ə.Rəsulzadə martın 30-da İnqilabi Müdafiə Komitəsində Bakı Soveti rəhbərləri ilə keçirdiyi görüşdə alınmış silahların «Hümmət» təşkilatı vasitəsilə qaytarılması istiqamətində razılığa nail olsa da, daşnak-bolşevik hökuməti öz sözlərinə əməl etmədi. Çünki onlar bir tərəfdən «Hümmət»ə inanmır, N.Nərimanovun isə «sağ təmayülçü» lüyündən narazı idilər.

Həmin dövrün canlı şahidi və fəal iştirakçısı, erməni bolşeviki H. Əsiryans qeyd edir ki, «1918-ci ilin fevralında T. Əmirov bizi yığıb bildirdi ki, S. Şaumyan və



A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdaredici siqnaldan sonra biz hücum edib «Müsavat»ın qərargahını tutmalı idik və belə də oldu».

Ermənilərə və bolşeviklərə qarşı bərabər olmayan döyüşdə kütləvi qırğına məruz qalan türk-müsəlman əhalisi martın 31-də müqavimət göstərməyi dayandırdı. Həmin gün cürbəcür səbəblərlə danışıqların müsbət nəticələnməsinə mane olan İnqilabi Müdafiə Komitəsi istədiyinə nail olduqdan sonra ultimatum verdi. Ultimatumda İnqilabi Müdafiə Komitəsinin tələblərinin gündüz saat 3-ə kimi yerinə yetirilməyəcəyi təqdirdə müharibəni davam etdirəcəkləri qeyd olunurdu. Həmin gün saat 4-də A. Aşurov, Ə. Topçubaşov, Molla Hacı Mir Möhsün, Hacı Hüseyn Tağıyev, Əbdül Kazımzadənin təmsil olunduğu milli partiya və cəmiyyətlərin nümayəndələri «Astra» otelində danışıqlara başladılar. Fioletov, Dudin, Suxartsev, İranın Bakıdakı konsulu Həbibulla xan, Erməni Milli Şurasının üzvləri– L. Atabəyov, Ter–Mikasyanın da iştirak etdiyi iclasa A. Caparidze sədrlik edirdi. Ə. Kazımzadə törədilən faciələrdə «Müsavat»ı təqsirləndirənlərə qəti etirazlarını bildirdi və bu hadisələr üçün bütün məsuliyyətin bolşevik-daşnak hərbi birləşmələrinin üzərinə düşdüyünü qeyd etdi.

Lakin uzun müzakirə və mübahisələrdən sonra İnqilabi Müdafiə Komitəsinin ultimatumu qəbul olundu. Başdan-başa bolşevik hakimiyyətinin möhkəmləndirilməsinə yönəldilmiş ultimatumda deyilirdi:

1. «Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin hakimiyyəti qəbul edilir.

2. Əksinqilabi «vəhşi diviziya» Bakı və onun rayonlarından çıxarılır, yerdə qalan başqa müsəlman əsgə-

ri hissələri, habelə erməni milli qoşun hissələri ya Bakıdan çıxarılır, ya da tamamilə Fəhlə, Əsgər və Matros Deputatları Sovetinə tabe edilir, əhalinin bütün silahlanma işi Bakı Sovetinin nəzarətinə keçirilir.

3. Bakıdan Tiflisə və Petrovska dəmir yolunun açılması üçün təcili tədbirlər görülür».

İnqilabi Müdafiə Komitəsi döyüşlərin dayandırılması barədə göstəriş versə də, bu göstəriş yalnız kağız üzərində qaldı. Erməni birləşmələri müqavimət göstərməyə qabil olmayan türk-müsəlman əhalisinə divan tutmağa başladılar. Şəhərin Məhəmmədli və Poxludərə məhəllələrinin əhalisi demək olar ki, son nəfəsinə qədər qılıncdan keçirildi. Qoşunlar Azərbaycan əhalisinə məxsus bütün ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını dağıtdılar. «Kaspi» mətbəəsi, «Açıq söz» qəzeti redaksiyası, «Müsəlman Xeyriyyə Cəmiyyəti»nin yerləşdiyi «İsmailiyyə» binası vəhşicəsinə yandırılmışdı.

«Təzə pir» məscidinin minarələri mərmilərlə deşik-deşik oldu. Bir sıra yerlərdə döyüşən əsgərlərə erməni ziyalılarının rəhbərlik etməsi faciənin milli zəmin üzərində qurulduğunu qəti sübut edir.

Bu dəhşətli qırğında hər iki tərəfdən 20 mindən artıq adamın iştirak etdiyi göstərilmişdir.

Get-gedə şiddətlənən türk-müsəlman soyqırımı aprel ayının 2-də gecədən xeyli keçənə qədər davam etdi. Şəhərin sağ qalan əhalisi başqa yerlərə qaçmağa məcbur oldu. Mart faciəsi təkcə Bakıda 12 mindən artıq azərbaycanlı əhalisinin vəhşicəsinə öldürülməsilə nəticələndi.

Lakin ermənilərin vəhşilikləri onların yalnız Bakıda törətdikləri qanlı faciə ilə bitmədi. Türklərin qanına susamış S. Lalayanın başçılıq etdiyi daşnak birləşmələri aprel ayının 3-16-da təpədən dırnağa qədər silahlanmış iki



mindən artıq qüvvə ilə Şamaxı əhalisinə qanlı divan tutdu. Yerli ermənilər və malokanlar da daşnak-bolşevik ordusuna kömək edirdilər. Beləliklə, şəhərdə tam üstünlüyə malik olan ermənilər qanlı hadisələr zamanı 8 mindən artıq günahsız azərbaycanlının qanını tökdülər. Şamaxı qəzasının 72 kəndi daşnak-bolşevik hərbi birləşmələri tərəfindən dağıdıldı və yandırıldı. Şamaxının sağ qalan azərbaycanlı əhalisi baş götürüb qaçmağa başladı.

Aprel ayında Hamazaspın rəhbərlik etdiyi erməni ordu birləşmələri Quba qəzasında vəhşiliklər törətmiş, müsəlmanların məskun olduğu 162 kəndi yerlə yeksan etmişdilər. Şamaxı və Qubanın ardınca Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də eyni faciəni yaşadı.

M.Ə.Rəsulzadə 1918-ci ilin mart faciəsini sırf siyasi-milli amil kimi səciyyələndirərək, bir il sonra bu hadisənin ildönümü ilə bağlı yazırdı: «Şaumyanların Bakıda törətdikləri hadisələr Petroqrad və Moskva hərəkətlərinə qətiyyən bənzəmirdi. Orada sinfi bir hərb, burada isə sinfi hərb adı ilə milli qətl icra edilirdi. Daşnaklar intiqam alırdılar. Martın 18-dən 20-nə qədər Bakı türk demokratiyasının qafasında partladılan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyət və istiqlal əqidəsi ilə yaşayanları məhv etmək üçün idi».

1918-ci il aprel ayının 13-də S. Şaumyan RSFSR Xalq Komissarları Sovetinin sədri V. İ. Leninə rəsmi məktub göndərmişdi. Hesabat səciyyəsi daşıyan məktubda mart hadisələrinin mahiyyəti saxtalaşdırılmış şəkildə təqdim olunmuşdu: «Müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti tükdən asılı idi. Yelizavetpolda və Tiflisdə yerini möhkəmləndirmiş feodal (bəy və xan) ziyalıları başda olmaqla partiyalar menşeviklərin alçaq və qorxaq siyasəti nəticəsində özlə-

rini son zamanlarda Bakıda da çox təcavüzkarcasına aparırdılar. Əgər onlar Bakıda üstün gəlsə idilər, şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar».

Məktubda erməni daşnak silahlı birləşmələrinin bu qırğında iştirakının bolşeviklər tərəfindən təşkil olunduğu etiraf edilirdi: «Bizim 6 min nəfərə yaxın silahlı qüvvələrimiz var idi. «Daşnaksütyun»da 3-4 min nəfərlik milli hissələr var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin (daşnakların) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi. Lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik».

Məktubda ölənlərin sayı bilərəkdən azaldılmış, hər iki tərəfdən bu rəqəmin cəmi 3 minə yaxın olduğu göstərilmişdi.

1918-ci ilin mart qırğını Azərbaycanın türk-müsəlman əhalisi üçün faciə ilə nəticələnsə də, bu qanlı hadisə milli hərəkatı boğa bilmədi, əksinə onun inkişafında mühüm mərhələ oldu. Daşnak-bolşevik siyasi xadimləri törətdikləri qanlı faciələrə baxmayaraq, öz istədiklərinə nail ola bilmədilər. Azərbaycan türkləri arasında birlik ideyası gücləndi. Xalq başa düşdü ki, onun nicatı özünə arxalanmaqda, öz milli təşkilatının arxasınca getməkdədir. Bu hadisə Azərbaycanda milli siyasi partiyalar arasında müstəqil dövlətçilik ideyasını möhkəmləndirdi. Məhz mart qırğınından sonra Zaqafqaziya Seymi daxilində ziddiyyətlər barışmaz həddə yüksəldi və bunun nəticəsində ay yarım sonra Seymin fəaliyyətinə xitam verildi. Azərbaycan Cümhuriyyəti 1919-1920-ci illərdə mart ayının 31-ni milli matəm günü kimi qeyd etmişdir. Azərbaycanın sovetləşməsindən sonra bu hadisənin mahiyyəti saxtalaşdırılmış, milli matəm günü kimi qeyd



olunması yasaq edilmişdir. Azərbaycan Cümhuriyyəti hökuməti 1918-ci ilin avqust ayının 31-də görkəmli hüquqşünas Ələkbər bəy Xasməmmədovun sədrliyilə Fövqəladə Təhqiqat Komissiyasının yaradılması barədə fərman imzalamış, həmin komissiyaya I dünya müharibəsindən sonra Zaqafqaziya müsəlmanlarının üzləşdiyi zorakılıqlar barədə təhqiqat aparılmaq tapşırılmışdır. Komissiya öz qısa fəaliyyəti ərzində Azərbaycanda mart-aprel aylarında baş verən qanlı faciə ilə bağlı xeyli sənəd və material toplamışdır. Komissiyanın sənəd və materialları Azərbaycan Respublikası Dövlət Arxivində, Siyasi Partiyalar və İctimai hərəkatlar Mərkəzi Dövlət Arxivində mühafizə edilməkdədir. Cənubi Azərbaycanın görkəmli siyasi xadimi, mart hadisələrinin canlı şahidi Seyid Cəfər Pişəvəri yazırdı: «Mən 1918-ci ilin mart ayında daşnakların vəhşiliklərini, saysız-hesabsız günahsız adamların, xüsusilə bitərəf iranlıların öldürülüb, karvansaralarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşəm. Bu çox faciəli və nifrətləndirici bir hərəkət olmuşdur».

Mart hadisələrindən sonra Bakı həmin il sentyabrın 15-nə qədər ermənilərin hakimiyyəti altında qaldı. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti hökuməti hadisələrə inqilabi məna vermək üçün M. Əzizbəyovu şəhərin əhalisi olmayan müsəlman bölgəsinin komissarı təyin etdi.

Bu hadisələrdən sonra İ. Suxartsev Bakı Sovetinin iclasında fərəh içərisində bildirmişdir ki, «Müsavat» firqəsi darmadağın edildi və Türkiyənin Bakı cəbhəsi alındı.

Bakıda hakimiyyətə şəriksiz yiyələnmiş olan bolşevik daşnak birləşmələri 1918-ci il aprel ayının 25-də Bakı Xalq Komissarları Sovetini yaratdılar. V. İ. Lenin Bakı Sovetinə şəxsən özü himayədarlıq edirdi. Məhz onun

fərmanı ilə Bakı Sovetinə RSFSR dövlət xəzinəsindən yarım milyon rubl pul vəsaiti ayrılmışdı. V. İ. Lenin Bakı kommunasının üzvü S. M. Ter-Qabrielyanla göndərdiyi məktubda milli partiyalara qarşı maksimum fəallıq göstərməyi tələb edirdi.

Azərbaycan fraksiyasının etirazlarına baxmayaraq, Seymin 13 aprel iclasında Türkiyə ilə müharibə haqqında qərar qəbul edildi və Ali Müdafiə Şurası yaradıldı. Ali Müdafiə Şurasında Azərbaycan fraksiyasından bir nəfər də təmsil olunmadı. Lakin aprelin 15-də Batumun Türkiyə tərəfindən tutulması Seymin fəaliyyətində əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Aprel ayının 22-də Zaqafqaziya özünün müstəqilliyini elan etdi. Bakı Xalq Komissarları Sovetinin yaradılması ilə bağlı məsələnin müzakirəsi zamanı Seymin Azərbaycan fraksiyası qəti şəkildə bildirdi ki, Zaqafqaziya hökuməti Bakı Xalq Komissarları Sovetinin hakimiyyətinə son qoymazsa, onlar öz fəaliyyətlərini dayandıracaqlar. Seym Bakıya bir qədər hərbi əsgər göndərməyə nail oldusa da, bunun köməyi olmadı. Seymin iclasında Bakı XKS-nə münasibətdə erməni fraksiyası özünün bitərəf olduğunu elan etsə də, onlar Bakının bolşeviklərdən təmizlənməsi əleyhinə idilər. Lakin Türkiyə amilinin artdığını hiss edən erməni fraksiyası bildirdi ki, onlar Bakı hadisələrini bir şərtlə ləğv etməyə hazırdırlar ki, gələcək hakimiyyətdə təmsil olunsunlar, Bakıda erməni qoşunlarının saxlanmasına icazə verilsin, qurulacaq hökumət isə yalnız müsəlmanlardan ibarət deyil, beynəlmiləl mahiyyətdə olsun. Bu həyasız təklifi rədd edərək, Azərbaycan fraksiyası adından çıxış edən X.Xasməmmədov bildirdi ki, «Bakıda və Şərqi Zaqafqaziyada bütün hakimiyyət azərbaycanlılara məxsusdur, əgər biz Bakını müvəqqəti olaraq itirmişiksə də, lakin onu bütövlükdə və əbədi olaraq qaytarmaq üçün hər şey etmə-



liyik.

Həmin iclasda Azərbaycan fraksiyasının təklifi ilə Seym iki maddəlik qərar qəbul etmişdi:

1. Bakıda hakimiyyət müsəlmanlara verilməlidir.
2. Müsəlman hərbi hissələri həmin hökuməti müdafiə etmək üçün Bakıya daxil olmalı, erməni hərbi hissələri isə tərksilah edilib oradan çıxarılmalıdır.

Lakin bu tipli qərar və qətnamələrə baxmayaraq, Seymin daxilində gedən fikir ayrılıqları Bakının bolşeviklərdən xilas edilməsinə əməli yardım göstərmədi. Seymdə ziddiyyətlər gündən-günə güclənməyə və dərinləşməyə başladı. Seymin müxtəlif millətlərə məxsus fraksiyaları ayrı-ayrılıqda xarici dövlətlərlə müstəqil dialoqlara və sövdələşmələrə can atırdılar. May ayının 11-də Türkiyə ilə sülh danışıqları aparmaq üçün Batum konfransı öz işinə başladı. Konfransda Azərbaycan fraksiyasını M.Ə.Rəsulzadə və M. Hacınski təmsil edirdilər. Batum sülh konfransındakı ziddiyyətlər Zaqafqaziya Seymi daxilindəki qütbləşməni və ayrı-ayrı fraksiyaların xarici qüvvələrə meylini daha da gücləndirdi. Azərbaycan nümayəndələri Türkiyə, erməni və gürcü fraksiyalarının təmsilçiləri isə Almaniya ilə sazişə can atırdılar. Azərbaycanın Türkiyəyə meyl etməsinin başlıca səbəbi bu dövlətin simasında özünün xilaskarını görməsi, yaranmış böhranlı vəziyyətdən onun yardımı ilə çıxmasına ümid bəsləməsi idi. T.Svietoçovskinin qeyd etdiyi kimi «Mart günləri»ndən sonra Azərbaycan rəhbərləri muxtariyyət hüququndan daha çox ayrılmaqdan danışır və ümidlərini Azərbaycan inqilabına deyil, Türkiyənin yardımına bağlayırdılar».

Sülh konfransındakı ziddiyyətlər və gürcülərin almanlarla seperat danışıqları Seymi iflic vəziyyətə saldı. Artıq mayın ortalarından başlayaraq Seymin dağılması

prosesi gücləndi. Mayın 25-də Batum sülh konfransından Tiflisə qayıdan N. Jordaniya gürcü fraksiyasının iclasında Almaniya ilə gizli razılaşmanın nəticəsi kimi Gürcüstanın istiqlaliyyətinin elan edilməsi məsələsini qoydu. Bu xəbəri eşidən Azərbaycan fraksiyasının ermənilərsiz federasiya yaratmaq təklifi gürcülər tərəfindən qəbul olunmadıqda, Azərbaycan istiqlaliyyətinin elan edilməsi məsələsi qəti olaraq reallaşdı. Seymin Azərbaycan fraksiyasının 25 may tarixli iclasında qərara alındı ki, «Gürcüstanın ayrılıb müstəqilliyini elan edəcəyi halda, Azərbaycan öz müstəqilliyini elan etməlidir».

Mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi. Həmin iclasda gürcü fraksiyası Gürcüstanın Seymdən çıxması haqqında bəyanat verdi. Bu bəyanatdan sonra Seymin buraxılması haqqında qərar qəbul edildi. Həmin gün gürcü fraksiyasından ibarət Milli Şura Gürcüstanın müstəqilliyini elan etdi. Bu hadisənin səhəri gün mayın 27-də Azərbaycan fraksiyasının fövqəladə iclası keçirildi. İclas M.Ə.Rəsulzadənin sədrliyi ilə Azərbaycan Milli Şurasını seçdi. Milli Şuranın F. Xoyskinin sədrliyi ilə 9 nəfərdən ibarət icraiyyə orqanı seçildi. May ayının 28-də Milli Şura Azərbaycanın istiqlaliyyətini elan etdi və 6 bənddən ibarət «İstiqlal bəyannaməsini– «Əqdnaməni» imzaladı. Bəyannamənin mətnində deyilirdi: « Böyük Rusiya inqilabının cərəyanında dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması Zaqafqaziyanın rus orduları tərəfindən tərkini mövcud bir vəziyyəti siyasətə hasil oldu. Kəndi qəvvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzət kəndi əllərinə alaraq Zaqafqaziya qoşma xalq cümhuriyyətini təsis etdilər. Vəqayi–siyasiyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya qoşma xalq cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü. Rusiya ilə Osmanlı imperatorluğu arasında zühür edən müharibənin təasiyəsi yüzündən hasil olan vəziyyəti-hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor. Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi Milliyyeyi islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamiləlhüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi xalq cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti-həsənə təsirisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bir cümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssissan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai ümumiyyə ilə intixab olunmuş Şurayi -Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur».

İstiqlal Bəyannaməsinin oxunuşundan sonra Milli Şura Azərbaycan hökumətinin yaradılmasını F. Xoyskiyə həvalə etdi. F. Xoyskinin elan etdiyi ilk Azərbaycan hö-

kumətinin tərkibi aşağıdakı kimi idi: F. Xoyski-Nazirlər Şurasının sədri və daxili işlər naziri; X. Sultanov–hərbi nazir; N. Yusifbəyli- xalq maarifi və maliyyə naziri; M. Hacinski xarici işlər naziri; X. Məlikaslanov- poçt, teleqraf və yollar naziri; Ə. Şeyxülislamov-əkinçilik və əmək naziri; X. Xasməmmədov- ədliyyə naziri; M.Y.Cəfərov-ticarət və sənaye naziri, C. Hacinski- dövlət nəzarəti naziri. Beləliklə Milli Şura Azərbaycan xalqının uzun illərdən bəri apardığı milli istiqlal uğrunda mübarizəsini gerçəkləşdirdi.



## Nəticə

Azərbaycan xalqının milli istiqlal mübarizəsi çox çətin, mürəkkəb və gərgin inkişaf yolu keçmişdir. Bu proses ana dilli mətbuatın nəşri uğrunda mübarizədən başlamış söz, mətbuat, şəxsiyyət azadlığı, sosial demokratiya, milli ərazi muxtariyyəti və nəhayət, müstəqil dövlətçilik səviyyəsinə qədər yüksələn bir inkişaf mərhələsi keçmişdir.

Azərbaycan xalqının milli istiqlal mübarizəsinin 1875-1918-ci illəri əhatə edən dövrü başlıca olaraq 3 mərhələni əhatə edir:

1. Milli istiqlal mübarizəsinin başlanğıc dövrü ( 1875-1904-cü illər);

2. Milli istiqlal mübarizəsinin canlanma dövrü (1905-1914-cü illər);

3. Milli istiqlal mübarizəsinin yüksəliş dövrü (1914-1918-ci illər)

Qeyd etmək lazımdır ki, bu mərhələlər şərti səciyyə daşıyır və tədqiqata elmi aydınlıq gətirmək xatirinə aparılmışdır. Əslində, Azərbaycan xalqının milli istiqlal mübarizəsi XIX yüzilliyin sonlarından başlayaraq, dönməz sistemli tarixi bir proses olmuşdur. Lakin milli istiqlal mübarizəsi tarixinin dövrləşdirilməsi onun təkamül yollarını daha dərindən izləməyə, aparıcı fakt və məqamlarını görməyə və müşahidə etməyə imkan verir.

Azərbaycan tarixinin 1875-1918-ci illər dövrü milli istiqlal mübarizəsi tariximizin ən mürəkkəb, ən təzadlı mərhələlərindən biridir. Əslində bu dövrü əvvəlki və sonrakı tarixi proseslərdən təcrid etmək, müstəqil zaman kəsiyində dəyərləndirmək mümkün deyil. Ona görə də tədqiqat işində Azərbaycan xalqının milli istiqlal mübari-

zəsi Azərbaycan tarixi konteksində qiymətləndirilmişdir.

Dünyada cərəyan edən ictimai–siyasi və tarixi proseslərlə sıx əlaqədə olan Azərbaycan xalqının milli istiqlal mübarizəsi özünəməxsus spesifik xüsusiyyətlərə malikdir:

1. Bu hərəkat davamlı, ardıcıl səciyyə daşıması ilə seçilir. Azərbaycan xalqının milli istiqlal mübarizəsi ilkin oyanış mərhələsindən milli idealın gerçəkləşməsi – müstəqil dövlət quruculuğuna qədər daim təkamül prosesində olmuşdur.

2. Azərbaycan xalqının milli istiqlal mübarizəsi feodalizm münasibətlərinin tənəzzülü, kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı ilə səciyyələnir. Kapitalizmin gəlişi vahid dilə, mədəniyyətə və iqtisadi təmələ söykənən Azərbaycan xalqının millət kimi formalaşmasının əsas amilinə çevrilir.

3. Azərbaycan xalqının milli istiqlal mübarizəsi Rusiya imperiyasının ağır sümürgəçlik siyasətinin nəticəsi kimi xalqın milli varlığını təsdiq etmək idealından yaranmışdır.

4. Azərbaycanın milli etnik tərkibinin qeyri-yekcinsliyi bu hərəkatın inkişafının təkanverici amilinə çevrilmişdir.

5. Azərbaycan xalqının milli istiqlal mübarizəsi Rusiyada, İranda, Türkiyədə və bütün dünyada baş verən qlobal tarixi hadisələrin təsiri ilə sürətlənmiş və zənginləşmişdir. Rus-yapon müharibəsi və bu müharibədə çar imperiyasının məğlubiyyəti, 1905-1907-ci illər rus inqilabı, I dünya müharibəsi, İran məşrutə hərəkatı, Türkiyədəki «İttihad və tərəqqi» cəmiyyəti, gənc türklər hərəkatı, 1917-ci il fevral və oktyabr inqilabları Azərbaycan xalqının milli istiqlal mübarizəsinə özünəməxsus keyfiyyətlər və çalarlar aşılamışdır. Nəticədə milli istiqlal



mübarizəsi hümmətçilikdən millətçiliyə, millətçilikdən istiqlalçılığa doğru inkişaf yolu keçmişdir.

6. Azərbaycan xalqının milli istiqlal mübarizəsini təmsil edən qüvvələr sərt radikal mövqeyə malik olmamış, avantürizmə qapılmamış, bütün məqamlarda real siyasi məqsədlər uğrunda mübarizə aparmışlar.

7. Azərbaycan xalqının milli istiqlal mübarizəsi liderlərinin tədqiqatları, siyasi-ictimai mübarizəsi göstərir ki, 1917-ci ilin otyabr inqilabınadək Rusiya tərkibində milli ərazi muxtariyyəti uğrunda mübarizə aparılmışdır. Lakin oktyabr inqilabından sonra milli ərazi muxtariyyəti şüarı tədricən müstəqil dövlətçilik şüarı ilə əvəz edilmişdir. Eyni zamanda müstəqil dövlət quruculuğu uğrunda mübarizə şüarı da təkamül mərhələsi keçmişdir. Azərbaycan xalqının milli istiqlal mübarizəsini təmsil edən qüvvələr əvvəlcə Zaqafqaziyanın müstəqilliyinə nail olmuş, bundan sonra isə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış, nəticədə 1918-ci ilin 28 mayında Azərbaycan Cümhuriyyəti elan olunmuşdur.

Tədqiqata cəlb olunan dövrdə Azərbaycan xalqının milli istiqlal mübarizəsi tarixini aşağıdakı sxemdə əks etdirmək olar:

Maarifçilik – sosial–demokratçılıq – islamçılıq – türkçülük – istiqlalçılıq.

8. 1918-ci ilin may ayının 28-də Azərbaycan Cümhuriyyətinin elan edilməsi milli istiqlal mübarizəsinin qanunauyğun nəticəsidir. Azərbaycan xalqının iradəsi və uzun müddətli mübarizəsinin yekunu olan bu dövlətin Şərqdə və bütün türk-islam dünyasında ilk demokratik dövlət olması da təsadüfi deyildir. Çünki çar Rusiyasının köləlik boyunduruğunda maddi və mənəvi hüquqları tapdanan Azərbaycan xalqının əldə etdiyi istiqlaliyyəti demokratik dövlətçilik prinsiplərinə söykənmədən yaşaya

bilməzdi. Cəmi 23 ay (1918-ci ilin 28 mayından 1920-ci ilin 27 aprelinə qədər) yaşayan bu dövlət Azərbaycan xalqının milli azadlıq, istiqlaliyyət ideallarını gerçəkləşdirdi. Azərbaycan Cümhuriyyəti milli-müstəqil dövlətçilik ideologiyasının formalaşmasında, istiqlal məfkurəsinin geniş kütlələrə aşılanmasında çox mühüm rol oynadı. Məhz bu Cümhuriyyətin yetişdirdiyi və formalaşdırdığı tarixi – siyasi şəxsiyyətlər 1920-ci ilin aprelində rus sovet imperiyası və onun yerli əlaltılarının iştirakı ilə Azərbaycanda baş verən çevrilişlərdən sonra İran, Türkiyə və Avropa ölkələrinə mühacirət edərək Azərbaycanın istiqlaliyyəti uğrunda son dərəcə mürəkkəb bir şəraitdə mübarizəni davam etdirmiş, istiqlal məfkurəsini sönməyə qoymamışlar.

Azərbaycan xalqı XX əsrin sonlarında– 1991-ci ilin oktyabr ayının 18-də tarixin ona verdiyi imkanlardan bəhrələnərək, özünün müstəqilliyini elan etmişdir. Xalqımız yenidən müstəqil dövlətçiliyin çətin və şərəfli yoluna qədəm qoymuşdur. Hazırda gənc Azərbaycan respublikasnın istiqlaliyyəti BMT və dünyanın əsas dövlətləri tərəfindən tanınmışdır. Vətənimizin paytaxtında onlarla ölkənin səfirlikləri fəaliyyət göstərir. Eləcə də Azərbaycanın uzaq və yaxın xarici ölkələrdə yeni-yeni səfirlikləri, konsulluqları və iqtisadi nümayəndəlikləri fəaliyyət göstərməkdədir. Azərbaycan regionda əhəmiyyətli nüfuza malik olan siyasi atributlardan birinə çevrilməkdədir. Gənc Azərbaycan respublikası XX yüzilliüin əvvəllərində olduğu kimi yenə erməni təcavüzünə məruz qalmış, torpaqlarımızın 20 faizdən çox hissəsi işğalçılar tərəfindən zəbt olunmuş, bir milyona qədər qaçqın və məcburi köçkün öz doğma yurdlarından didərqin düşmüşlər. İqtisadiyyatda və xalq təsərrüfatının müxtəlif sahələrində yeni qurulan dövlətə məxsus təbii çətinliklər mövcuddur.



Ermənistandan və vətənimizin işğal olunmuş torpaqlarından qovulmuş bir milyondan artıq qaçqın ağır, dözülməz şəraitdə yaşamaqdadır. Lakin bütün bunlar Azərbaycan xalqının mübarizə əzmini, ona tarixdən miras qalmış istiqlal məfkurəsini, müstəqil dövlətçilik ideyasını söndürə bilmir.

Azərbaycan xalqının milli istiqlal mübarizəsinin 1875-1918-ci illər mərhələsi haqqında milli məfkurə işığında ilk dəfə tədqiqat işi aparıldığından, bu dövrün bütün problemlərinin tam dərinliyi ilə öyrənildiyini, araşdırıldığını iddia etmək doğru olmazdı. Əslində dərs vəsaiti bu sahədə yalnız ilk təşəbbüs kimi qiymətləndirilməlidir. Bu dövr tariximizin ən mürəkkəb, keşməkeşli dövrlərindən biridir. Əsərdə 40 ildən artıq bir dövrü əhatə edən milli istiqlal mübarizəsi tarixi izlənilsə də, onun yalnız aparıcı xətləri, aspektləri tədqiqat obyektinə çevrilmişdir. Buna görə də belə geniş tarixi dövrə həsr olunan tədqiqatda mövzu ilə bağlı ən mühüm fakt və hadisələrə toxunulmuşdur.

Bu mənada dərs vəsaiti xalqımızın milli istiqlal mübarizəsinin 1875-1918-ci illər mərhələsinə işıq tutan, prospekt səciyyəli bir tədqiqat rolunu oynamaqdadır. Gələcəkdə onun ayrı-ayrı fəsillərinin və problemlərinin müstəqil tədqiqat üçün mövzu mənbəyi olacağı şübhə doğurmur.

## Резюме

Учебное пособие на тему «Борьба Азербайджанского народа за национальное независимость» (конец XIX - начало XX столетия) посвяшена либо, односторонно, либо совершенно неисследованной проблеме истории Отечества. В связи с этим в учебном пособие поставлено выполнение следующих задач:

-определить отношение к произведениям, возникшим в связи с исследованием проблемы в Азербайджанской историографии, обнаружить недостатки советской историографии по исследованию этого периода и проблем, используя архивные материалы, включить в научный оборот новые исторические источники и факты;

-определить основные этапы Азербайджанского национального движения, проанализировать путь борьбы за национальную независимость, историко-политические события, проследить процесс эволюции истории национального движения, исследовать его до сих пор не изученный период конца XIX- начало XX столетия.

Во введении обоснованы актуальность и хронологические рамки проблемы, определены цели и задачи, проанализированы историография источниковедение проблемы.

В первой главе исследованы развитие капиталических отношений в Азербайджане, эволюция национальной буржуазии и пролетариата и борьба за создание школ на родном языке, национальной печати, распространение в Азербайджане исламских и тюркских общественно -политических течений, деятель-



ность интеллигенции-просветителей в области формирования национально-демократического мышления.

Во второй главе изучаются создания первых политических организаций в Азербайджане, роль Азербайджанской интеллигенции в организации союза мусульман Росии, деятельность Азербайджанских депутатов в Государственной Думе Росии влияние на развитие национального движения просветителей и благотварителей, армяно-азербайджанский конфликт в 1905-1906 гг. и его роль в национально-освободительном движении, образовании партии «Мусават» и период ее первой деятельности.

В третьей главе исследуются социально-экономическая и политическая жизнь Азербайджана в период первой мировой войны, деятельность лидеров «Мусават»а, возрастание национального движения после февральской революции, борьба за независимость.

В заключении подведены основные итоги и обобшения исследования , выдвинуты практические рекоминдациии предложения.

## Summary

The thesis as a manual is called The struggle of Azerbaijan for a national independence (late in the XIX-early in the XX centuries).

In deals with one of the main problems in the history of the Azerbaijan, which was investigated very little or one-sided-the History of the Azerbayjan people s struggle for national liberation.

The aim of the thesis is:

-to show attitude to the given literature connected with the investigated problem in Azerbaijan historian, to uncover shortcomings made by Soviet historians about this period and to add to the scientific ciirculation new historical sources and facts by using archives dokuments:

-to define the main periods of the Azerbaijan national movement, to way of struggle for liberation and historicol-political movements to follow the process of the history of national. movement and investigate the periods between late in the XIX and early in the XX centuries.

Introduction deals with the actuality, the aim and the means, analysis of the historian and source study and the scientific novelty and practical importance of the problem.

The fist charpter deals with the development of the capitalist relations and the creation of the national bourgeosie and proletariat, enlightment movement, struggling for the foundation of the national schools and press, spreading islamist and turkism in Azerbaijan, the activity of the Azerbaijan intelligensia in the formation of the national-democratic ideas.

The second chapter deals with the foundation of the first national organizations, the role of the Azerbaijan in-



telligence in the foundation and organization of the Russian Moslems Unity, the activity of the Azerbaijan deputies in Russia State Duma, the influence of the educational and charitable societies to the development of the national movement, the Armenian-Azerbaijan conflict in 1905-2906 and its role in the development of the national movement, foundation of the «Musavat, and early period of its activity.

The third charter deals with the social-economic and political life of Azerbaijan in the period of Word War I, the investigation of the activity of the «Musavat» leaders, the enthusiasm of the national movement after the February reevolution and struggle for independence.

All these questions are generalized and some practical recommendations and proposals are offered in the conclusion.

## Mənbələr və ədəbiyyat

### Sənədlər və statistik materiallar


1. Большевистская периодическая печать Азербайджана (1904-апреля 1920г), Б.:1964.
2. Борьба за победу Советской власти в Азербайджане, 1918-1920 г, Документы и материалы, Б.: 1967.
3. Бюллетень КРО г. Баку и его районов, 4 апреля 1918 г.
4. Бюллетень КРО г. Баку и его районов, 7 апреля 1918 г.
5. Выборгский процесс, Санкт-Петербург, 1908.
6. Государственная Дума, Четвертый созыв, сессия IV, ст.отчет, Санкт-Петербург, 1915.
7. Декреты советской власти, Т. I, М.: 1957.
8. Документы и материалы по внешней политике Закавказьи и Грузии, Тифлис, 1919.
9. Документы по русской политике в Закавказье, Б.: 1920.
10. Крестьянское движение в России в 1914-1917 гг. (Сб.документов), М-Л.: 1965.
11. «Nicat» cəmiyyətinin 2-ci sənə davamiyyəsinin (1907-1908) hesabatı, B. 1908.
12. Програмные документы мусульманских партий, Оксфорд, 1985.
13. Справочный ежегодник Баку и его район, Б.: 1912.
14. Списки населенных место Российской империи (По Кавказскому краю), Тифлис, 1870.
15. Устав Бакинского Мусульманского Просветительного общества «Ниджать», Б.:1906.




## Ədəbiyyat


16. Abbasov A. Əbədiyyətə qovuşan sənətkar, B.: 1985.
17. Авалов З.Д. Национальный вопрос на Кавказе, «Русская мысль», 1911, №12.
18. Авербах А. Я. Столыпин и Третья Дума, М.: 1968.
19. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны, Б.: 1974.
20. Алисова В. Мусульманский вопрос на Кавказе, «Русская мысль», 1911, №12.
21. Aslanoğlu N. «Əkinçi» qəzetində mədəniyyət problemləri, «Dədə Qorqud», 1993, №1.
22. Axundov N. Azərbaycanda dövrü mətbuat, B.: 1965.
23. Алиева Л.М. Рабочие-текстильщики Баку в начале XX в., Б.: 1969.
24. Аркомед С.Т Рабочее движение и социал-демократия на Кавказе, ч.1, Женева,1910.
25. Аркомед С.Т. Материалы по истории отпадения Закавказья от России, Тифлис, 1923.
26. Ахмедов Г. М. История развития школьного образования в Азербайджане в XIX веке, АДД, Б.: 1972.
27. Аршаруни А., Очерки панисламизма и пантюркизма. в России, М.: 1931.
28. Azərbaycan kitabı, 3 cilddə, I c., B.: 1963.
29. Azərbaycan tarixi, 3 cilddə, II,III cildlər, B.: 1964, 1973.
30. Azərbaycan tarixi, B.: Elm, 1993.
31. Azərbaycan tarixi, B.: Azərnəşr, 1994.
32. Azərbaycan Demokratik Respublikası, B.: 1992.
33. Azərbaycan KP tarixinin oçerkləri, I c., B.: 1986.
34. Азербайджан в годы первой русской революции (Сборник статей), Б.: 1966.
35. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi B.: 1992.
36. Bayramoğlu A., Y.V.Çəmənzəminli. «Musavatın Kiyev şöbəsində», «Müsavat», 1993, №1(5).
37. Багирова И.С. Политические партии и организации

Азербайджана в начале XX века (1900-1917), Б., 1997.
38. Балаев А. Азербайджанское национально-демократическое движение. 1917-1920 г., Б.: 1990.
39. Байрамов К.М. Массовые рабочие организации Азербайджана в борьбе за победу советской власти, Б.: 1983.
40. Байрамов К.М. Рабочий класс Азербайджана в борьбе за победу Великого Октября, Б.: 1987.
41. Бовыкин В.И. Очерки истории внешней политики России, М.: 1960.
42. Blyum A. Fəhlə sinfinə nə tövr azadlıqlar gərək (Camaat nümayəndəliyi barəsində). B.: 1907.
43. Bünyadov 3. İki əsrin hüdudunda. Azərbaycanda tarix elmi: vəziyyət və perspektivlər, «Elm və həyat» 1988, №10.
44. «Bizə hansı elmlər lazımdır?» Tiflis, 1907.
45. Вельский С, Манвелов А.Б. Революция 1917 года в Азербайджане, 1927.
46. Vəzirov J. (Çəmənzəminli). Kiyevdə «Müsavat» şöbəsi, «Açıq söz», 1 dekabr 1917.
47. Vəzirov Y. (Çəmənzəminli). Ukrayna və biz, «Açıq söz», 19 dekabr 1917.
48. Vəzirov Y. (Çəmənzəminli). Ayılın, toplaşın. «Açıq söz», 20 noyabr 1917.
49. Vəzirov Y. (Çəmənzəminli). Azərbaycan muxtariyyəti, B.: 1917.
50. Vəzirov Y. (Çəmənzəminli). Biz kimik və istədiyimiz nədir?, B.: 1919.
51. Vəzirov Y. (Çəmənzəminli). Tarixi, coğrafi və iqtisadi Azərbaycan, B.: 1993.
52. Vəliyev T.T. Azərbaycanın ipək emalı sənayesində kapitalizmin inkişafı. - Azərb. SSR EA «Xəbərləri» (İqtisadiyyat seriyası) 1971, №1.
53. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək elmalı sənayesi. B., 1977.
54. Vəliyev T.T. Azərbaycanın dağ-mədən sənayesində səhmdar cəmiyyətləri və neftli torpaqların zəbti. - Azərb. SSR EA «Xəbərləri» (Tarix, fəlsəfə və hüquq seriyası) 1979, №4.
55. Vəliyev T.T. İmperializm dövründə pambıqçılıq mahlıc istehsalı və səhmdarlıq. Социально-экономические предпосылки социалистической революции в Азербайджане kitabında B., 1983.
56. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı 1987.
57. Vəliyev T.T. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın qəzalarında sənayenin inkişaf səviyyəsi probleminin tarixşünaslığı. «Tarix və onun problemləri», 1977 №2.
58. Гаджибейли Дж. Избранное, Б.: 1993.
59. Гусейнов Дж. Г. Положение и классовая борьба крестьян Азербайджана в период первой мировой войны, АКД, Б.: 1967.
60. Гусейнов М. Д. Партия «Мусават» в прошлом и настоящем, Тифлис, 1927.
61. Гусейнов Т. Октябрь в Азербайджане, Б.: 1927.
62. Гулиев Дж.Б. Борьба коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане, Б.: 1970.
63. Гулиев Дж. Б. В.И. Ленин об Азербайджане, Б.: 1966.
64. Quliyev C. B. V.İ.Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə, B.: 1957.
65. Гусейнова Д.С. Азербайджанская интеллигенция в конце XIX, начале XX века. АДД. Б., 1993
66. Qurbanov Ş., Ömər Faiq Nemanzadə, B.: 1992.
67. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası, B., 1996
68. Геюшев А. О партии «Иттихади-ислам», «Елм», 5 января 1991.
69. Гюльмалиев М. М. Крестьянское движение в Азербайджане в последней четверти XIX века, АКД, Б.: 1984.

70. Дарабади П. Военные проблемы политической истории Азербайджана начала XX века, Б.: 1991.
71. Ефремов П. М. Внешняя политика России (1907-1917 гг.), М.: 1961.
72. Elçin. Məmməd Əmin Rəsulzadə, B.: 1994.
73. Əzizbəyova P.Ə. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində böyük rus xalqının qardaşlıq köməyi, B.: 1954.
74. Əliyev M. Əlimərdan bəy Topçubaşov, «Odlar yurdu», avqust, 1988.
75. Əliyev M. Məmməd Əmin Rəsulzadə, «Odlar yurdu», sentyabr, 1988.
76. Əliyev M. Məmməd Əmin Rəsulzadə, «Odlar yurdu», iyun, 1990.
77. Əfəndiyev N. Azərbaycanlılar Dövlət Dumasında, «Respublika», 16 aprel 1990.
78. Əfəndiyev S M. Tiflisdə müsəlman ictimaiyyun-amiyyun üzviyyəti, «Dəvət-Qoç», 22 iyun 1906.
79. Əfəndiyev S. M. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən, B.: 1957.
80. Əlibəyli H. Talan, «Müxalifət», 28 aprel 1992.
81. Жорж Де Малевил. Армянская трагедия 1915 года, Б.: 1990.
82. Зейналова К. А. Литературно-публисистическая деятельности М. Шахтахтинского в русской периодической печати, АКД, Б. 1984.
83. Zeynalov İ. Unudulmuş matəm günü, «Azərbaycan», 31 mart 1994.
84. Ziyadxanlı A. Azərbaycan, B.: 1919.
85. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. B.: 1992.
86. Zərdabi H. B. Seçilmiş əsərləri, B.: 1960.
87. İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi, B.:1957.
88. İbrahimov 3. İ. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi, B.: 1970.
89. İbrahimov E. Bakı nefti. «Səhər», 26 aprel 1990.



90. Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма Б., 1984.
91. Ибрагимов М. Дж. Предпринимательская деятельности Г.З.Тагиева, Б. 1990.
92. Ибрагимов Г. Татары в революции 1905 года, Казань, 1926.
93. Известия Бакинского Государственного Университета, 1922, №2.
94. İsmayılov X. Ü.Hacıbəyovun etik görüşləri, Fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya, B.: 1969.
95. İsmayılov M. Azərbaycan tarixi, B.: 1993.
96. Исмаилов М. А. Социально-экономического структура Азербайджана в эпохе империализма, Б.: 1982.
97. История Азербайджана, Т., II, Б.: 1958.
98. История дипломатии. Под. ред. А. А. Громыко, Т. 2, (1872-1914 г), М. 1963.
99. Yaqublu N. Məmməd Əmin Rəsulzadə, B.: 1991.
100. Кадышев А. В. Интервенция и гражданская война в Закавказье, М.: 1960.
101. Кардова В.А. Начало монополизации нефтяной промышленности России. Л., 1974.
102. Казиев М. А. Из истории революционной борьбы Бакинского пролетариата. 1905-1910 г. Б.: 1956.
103. Качазнуни О. Дашнакцутюн больше нечего делать. Тифлис, 1927.
104. Каширин Е. Д. Участие дагестанцев в революционном движении Баку в 1905-1917 годы. АКД, Махачкала, 1974.
105. Караев А. Г. Из недавного прошлого Б.: 1926.
106. Кочарлинский Ф. Литература Азербайджанских татар, Тифлис, 1903.
107. Кочарли Т. К. Исторический поворот в судьбах Азербайджанского народа, Б.: 1980.
108. Кочарли Ф. К. Революционно-демократическая

мысль в Азербайджане и Нариман Нариманов, АДД, Б.: 1966.
109. Köçərli F. K. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir, B.: 1976.
110. Köçərli F. K. Ü. Hacıbəyovun ictimai-siyasi görüşləri, B. 1965.
111. Köçərli X.S. Proletar beynəlmiləlçiliyinin alovlu carçısı, B.: 1982.
112. Климович Л., Ислам в царской России, М.: 1936.
113. Кряжин В.А. Национально-освободительное движение на ближнем Востоке, М.: 1923.
114. Кулиев М. Враги Октября в Азербайджане, Б.: 1927.
115. Лисичкин С. М. Очерки истории развития отечественной нефтяной промышленности, М-Л.: 1954.
116. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı, B.: 1992.
117. Məmmədli Q., Ü.Hacıbəyov (həyat və yaradıcılıq səlnaməsi), B: 1984.
118. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi, B.: 1992.
119. Məmmədquluzadə C. Seçilmiş əsərləri, I c., B.: 1951.
120. Musayev M. XIX əsrin axırlarında Bakı şəhərinin daxili ticarətinin inkişafının bəzi xüsusiyyətləri, «İqtisad»,1968, №1.
121. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi, B.: 1973.
122. Мильман А. М. Политический строй Азербайджана в XIX - начале XX века, Б.: 1966.
123. Мурадалиева Э. Б. Города Северного Азербайджана во второй половине XIX века, Б.: 1991.
124. Магеррамов Н. 1917-1920 годы: Факты преступлений армян против азербайджанцев, «Тарих», 22 декабр 1990.
125. Морозов А. В. Политика России и европейских держав на Балканах в период подготовки сербо-балканского договора 1912 г, «Вестник МГУ», 1978, №1.
126. Musayev İ., Cəfərova T. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət və milli-demokratik fikir. B., 1995
127. Наджафов Б. Лицо врага, тт. I, II, Б.: 1993, 1994.
128. Nəcəfov B. Azərbaycan Demokratik Respublikası, B.: 1992.
129. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası, B.: 1992
130. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası, B.: 1993.
131. Nemanzadə Ö.F. Seçilmiş əsərləri, B.: 1992.
132. Ordubadi M.S. Qanlı sənələr, 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi, B.: 1911.
133. Павлович М., Иранский С. Персия в борьбе за независимости, М.: 1925.
134. Павлович-Волонтер М. П. Вопросы колониальной и национальной политики и III Интернационал, М.: 1920.
135. Павлович М.П. Мировая борьба за нефть, М., 1923.
136. Писарев Ю.А. Великие державы и Балканы накануне I мировой войны, М.: 1985.
137. Pişəvəri S.C. Seçilmiş əsərləri, B.: 1965.
138. Ratqauzer Y.A. Şura Azərbaycanı uğrunda mübarizə, B:1929.
139. Ратгаузер Я. Революция и гражданская война в Баку, т. I, Б.: 1927.
140. Ратгаузер Я. Социальная сущность мусаватизма, «Первая всесоюзная конференция историков-марксистов», «Труды», М.: 1930.
141. Раевский А. Английская интервенция и мусаватское правительство. Б., 1927.
142. Раевский А. Партия «Мусават» и ее контрреволюционная сущность, Б.: 1929
143. Расулзаде М.Э. О пантюркизме, Оксфорд, 1990.

144. Rəsulzadə M.Ə. Əlimərdan bəy Topçubaşi, «Ədəbiyyat və incəsənət», 4 mart 1990.
145. Rəsulzadə M.Ə. «Şeytan» işinin nəticəsi, «Təkamül»,16 dekabr 1906, №1.
146. Rəsulzadə M.Ə. Milli dirilik, «Dirilik», 1914, №1-6.
147. Rəsulzadə M.Ə. Tutacağımız yol, «Açıq söz», 1915, №1.
148. Rəsulzadə M.Ə. Getdiyimiz yol, «Açıq söz», 1916, №299.
149. Rəsulzadə M.Ə. Məktəb və mədrəsə, «Açıq söz», 1916, №133, 134, 135, 138, 143, 147.
150. Rəsulzadə M.Ə., Salikov Ə. Şəkli-idarə haqqında iki baxış, 1917.
151. Rəsulzadə M.Ə. İslam dini və ana dili, «Açıq sez», 27-28 fevral 1917.
152. Rəsulzadə M.Ə. Azərbaycan təşkilində Müsavat, B.: 1920.
153. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, B.:1990.
154. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri, B.: 1991.
155. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı,
156. Çağdaş Azərbaycan tarixi, B.: 1991.
157. Rəsulzadə M.Ə. Əsərləri, I cild, B.: 1992.
158. Самедов В. Распространение марксизма-ленинизма в Азербайджане, т. I, Б.: 1962.
159. Сеф С.Е. Борьба за Октябрь в Закавказьи, Тифлис, 1932.
160. Сеф С.Е. Социальная сущность «Мусават»а, «Большевик Закавказья» 1928, №5-6.
161. Сеф С.Е. Правда о Шамхоре, Тифлис, 1927.
162. Сеф С.Е. Как большевики пришли к власти, Б.: 1927.
163. Сеф С.Е. Бакинский Октябрь, «Пролетарская революция», 1930, №11.
164. Сеидзаде Д.Б. Из истории Азербайджанской буржуазии в начале XX века, Б.:1978.
165. Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России, Б.:1991.
166. Сеидзаде Д.Б. Общественно-политическая деятельность Азербайджанской буржуазии. АДД. Б., 1993.



167. Сидельников С. М. Образование и деятельности I Государственной Думы, М.:1962.
168. Стельник Б. Я. Буржуазия Азербайджана в I Государственной Думе. Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане, Б.: 1983.
169. Сулейманов М. Дни минувшие, Б.: 1990.
170. Сумбатзаде А. Промышленность Азербайджана в XIX в., Б.: 1964.
171. Сумбатзаде А. Социально-экономические предпосылки победы советской власти в Азербайджане, Б.: 1972.
172. Стригунов И. В. Из истории формировании Бакинского пролетариата в 70-90 г. XIX в., Б.: 1960.
173. Советский Азербайджан: мифы и действительности, Б.: 1987.
174. Стеклов А. Армия Мусаватского Азербайджана, Б.: 1928.
175. Siyasi tarix (S. Aslanovun və S. Qəndilovun redaktorluğu ilə), B.: 1993.
176. Siyasi tarix (S. Qəndilovun redaktorluğu ilə), B.: 1995.
177. Sultanlı V. Məmməd Əmin Rəsulzadənin ədəbi dünyası, B.: 1993.
178. Sultanlı V. Ağır yolun yolçusu. Bakı: 1996.
179. Tağıyev Ə. Azərbaycanda məktəb tarixi, B.: 1993.
180. Топчубашов А. Первый татарский драматург, «Каспий», 26 октябрь 1903 г, №230.
181. Topçubaşov Ə. M. Azərbaycanın təşəkkülü, İstanbul, 1918.
182. Токаржевский Е. А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане, Б.: 1957.
183. Триа В. Кавказские социал-демократы в персидской революции, Парис, 1910.

184. Fikrin karvanı. B.: 1984.
185. Həsənov C. «Ağ ləkə»lərin qara kölgəsi, B.: 1991.
186. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər, B.: 1993.
187. Həsənov C. 1918-ci ilin martı: vətəndaş müharibəsi, yoxsa türk-müsəlman soyqırımı? «Azadlıq», 29-31 mart 1994.
188. Həşimova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti, B.: 1992.
189. Hacıbəyov Ü. Əsərləri., III c., B.: 1975.
190. Hüseynzadə Ə. Rusiya camaatının vəsaiti-inqilabı, «Həyat», 1905, №111.
191. Hüseynov Ş. A. Azərbaycan dilində ilk bolşevik nəşrləri, B.: 1987.
192. Фролов В. И. Влияние войны на нефтяную промышленность «Нефтяное дело», 1914, №2-9.
193. Фролов В.И. Цена нефти и война, «Нефтяное дело», 1914, №21.
194. Хасанов Х. Х. Формирование татарской буржуазной нации, Казань, 1977.
195. Хейфец А. Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны, М.: 1964.
196. Çıraqzadə V. İstiqlal yollarında, B.: 1992.
197. Cənubi Azərbaycan tarixi oçerkləri, (1828-1917), B.: 1985.
198. Cəfərov N. Milli ictimai fikir tariximizdən (1914-1917), B.: 1993.
199. Şahgəldiyev K. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi, B.: 1960.
200. Шахтахтинский М. Школьная жизнь мусульман, «Кавказ», 1882, №160.




## Xariçi ədəbiyyat
## Avropa dillərində


201. Allen. W. Muratoff R. Caucasian Battlefields. A history of the wars on the Turco-Caucasian border. 1828-1921. Cambridge, 1953.
202. Benningsen A., Wimbush. E. Moslem national communism in the Soviet Union; A. revolutionary strategy for the colonial world, Chicago, London, 1979.
203. Bihl. W. Die Kaukasus politik der muttelmashte. Vienna, 1975.
204. Fisher. L. The war for Baku, «Oil imperializm», Chicago, London, 1976.
205. Guy Imart. Un intellectuel Azerbaidjanais Face a la Revolution de 1917 Samad-Aga Agamalu oglu. Cahiers du Monde Russe it Sovietugue, Paris. Oct,Dec Y-YIII, 1967.
206. Kazemzadeh. F. The Struggle for Transkaucasia. New York, 1951.
207. Kolarz. V. Russia and her colonia, London, 1953.
208. Lang. D. M. A modern history of Georgia. London, 1953.
209. Pires. P. The Formation of the Soviet Union: Communist and nationalizm. 1917-1923, Cambridge, 1964.
210. Rasulzade M. E. Das problem Azerbaidchen. Berlin, 1938.
211. Rasulzade M. E.L «Azerbaiyan en lutte pour l'independence, Paris, 1930.
212. Seton Watson . The new imperialism, London 1961.
213. Suny R. The Baku Communa. 1917-1918, Class and nationality in the Russian revolution, New Jersey, Princeton University. Press 1977.
214. Srektor I. The Soviet Union and the moslem world, Washington 1958.
215. Swietochowski. T. Himmat Party. Sosializm an the national question in Russian Azerbaiycan, Cahiers du monde Russe et Sovietigue.P. XXI (1-2).
216. Warren Hostler. Turkizm and Soviets, London, 1957.

## Türk dilində


217. A.Azeri. Mart faciesi, Yeni Kafkasya, 31 mart, 1924, №13.
218. A.Karaca. Azerbaycanyn yakın tarihine kısa bir bakış. Ankara 1982. Azerbaycan, yıl 4, sayı 4, 1955.
219. A.Taha. Sovyet rus strategisi ve Türkiye. Istanbul, 1976.
220. A.Ağaoğlu. Islamlıkda kadın. Istanbul, 1959.
221. A.N.Kurat. Türkiye ve Rusiya: XYIII yüz yıl sonundan kurtuluş savaşina kadar Türk-Rus ilişkileri, Ankara, 1970.
222. A.N.Kurat. Birinci dunya savaşında Türkiyede bulunan alman generallarının raporları, Ankara, 1966.
223. «Azerbaycan», yıl 35, sayı 269, 1989.
224. A.S.Zenkovski. Rusiyada pantürkizm ve müslümanlık. Istanbul, 1983.
225. A.Bedevi Kuran. Inkilap tarihimiz ve Jon Türkler, Istanbul, 1945.
226. A.Hocaoğlu. Arşiv vesikalarıyla tarihde ermeni mezalimi, Istanbul, 1976.
227. A.Süslü. Ruslara gore Ermenilerin yaptıkları mezalim.Ankara, 1987.
228. A.Yıldırım. Rus-Türk-Ermeni münasibetleri (1914-1918), Ankara, 1990.
229. A.Beninqsen. Chantal L. Quelquejay. Stepte Ezan sesleri. Istanbul, 1981.
230. A.Beninqsen, Chantal L.Quelquejay. Sultan Qaliyev ve sovyet müslümanları, Istanbul, 1981.
231. A.H.Bayat. Ali bey Hüseynzade, Izmir. 1993.
232. A.Turanli. Mektubi-mahsisi, «Türk», 24 Kasym, 1904.
233. Ağaoğlu S. Babamdan hatiralar, Ankara, 1939.
234. Ağaoğlu S. Babamin arkadaşları, Ankara, 1957.
235. A.Battal Taymas. Kazan türkleri, Ankara, 1968.
236. Baykara H. Azerbaycanda yenileşme hareketleri, Ankara 1966.
237. Eliyarh S. Azerbaycan milli hareketinin ilkin dönemleri, «Azerbaycan», yil 43, sayi 298, 1994.





238. Eroğlu V. Ermeni mezalimi, Istanbul, 1986.
239. Ğ. Aküzüm. Mehmet Emin Resulzadeye gore çeşitli cepheleriyle Azerbaycan istiklal müsadelesi, Ankara, 1977.
240. General V.Ünüvaz. Istiklal harbinde bolşeviklerle sekiz ay (1920-1921), Istanbul, 1948.
241. Gülseven F. Ahmet Ağaoğlunun hayatı, fikirleri, siyasi ve sosial mücadeleleri, «Azerbaycan», yıl 40, sayı 250, 1990.
242. I.İlgar. Rusiyada birinci müslüman kongresi, Istanbul, 1988.
243. I.Murat Yıldırım. Selam türkün bayrağına, Izmir, 1992.
244. I.Temo. Ittihad ve Terakki cemiyyetinin teşekkülü, Istanbul 1936.
245. K.Oder. Azerbaycan, Istanbul, 1982.
246. K.Oder. Azerbaycan ekonomisi, Ankara, 1952.
247. Keykurun N. Turk Ademi - Merkeziyyet firkasinin faaliyyeti ve Musavat partisiyle birleşmesi, «Musavat Bülteni», 1962, sayı 4.
248. Kirzioğlu F. Kars ili ve çevresinde ermenilerin yaptıkları mezalim, Ankara, 1970.
249. Kemal O.Ermeni meselesi, Istanbul, 1986.
250. Konukçu E. Ermenilerin Yeşil yayladakı türk soykırımı, Ankara, 1990.
251. Keykurun N. Azerbaycan istiklal mücadelesi hatıraları, Istanbul, 1964.
252. H.Pata Kut. Bitmeyen savaş. Istanbul, 1972.
253. H.Kohn. Panislamizm ve Rus milliyetçiliği, Istanbul, 1983.
254. Haluk S Ermenilerin Baküde yapdığı 31 mart 1918 katliamı.
255. M.E.Resuloğlu. Musavat partisinin kuruluşu, Musavat Partisi Bülteni, 1962, sayı 4.
256. M.E.Resulzade. Ihtilal mefkuresi ve genclik, Istanbul, 1925.
257. M.E.Resulzade. Milli Azerbaycan hareketinin karakteri,

Azerbaycan yurd bilgisi, 1934, №29.
258. M.E.Resulzade. Kafkasya türkleri, Ankara, 1993.
259. M.E.Resulzade. Azeri metbuatının şanli hatırası, «Yeni Kafkasya», yil 3, sayi 9, 1926.
260. M.E.Resulzade. Bir türk milliyyetçisinin Stalinle ihtilal hatıraları, «Dünya», 1954.
261. M.E.Resulzade. İlim ve siyaset, «Istiqlal», I ekim 1933.
262. Milli Azerbaycan «Musavat» Partisi Bülteni, 1962, №4.
263. Musavat Partisi Yeni Program esasları, Vartava, 1936.
264. N.Devlet. Rusiya türklerinin milli mücadele tarihi, Ankara 1985.
265. Swietochowski T. Rus Azerbaycani (1905-1920), Istanbul, 1988.
266. Sünbül T. Azerbaycan dosyasi. Ankara, 1990.
267. Y.Aksuraoğlu. Turk ili, Istanbul, 1928.
268. Y.Aksuraoğlu. Türkçülük, Istanbul, 1928.
269. Z.V.Toğan. Bugünkü Türk ili Türküstan ve yakın tarihi. Istanbul 1981.

## Dövrü mətbuat

270. Azərbaycan, 1918, №41, 1919, №110, 190.
271. Azərbaycan müəllimi, 14 may 1992.
272. Açıq söz, 2 oktyabr 1915, 5 iyul 1917.
273. Baku, 17 fevralə 1917 q.
274. Bəsirət, 1915, №53
275. Dirilik, 1914, № 6, 7.
276. Əkinçi 1875, №5, 10, 11, 1876, №7, 11, 12, 15. 1877 № 6, 9, 10, 11, 18.
277. İqbal, 1910 №493. 1914, №811.
278. İstiqlal, 31 mart 1919.
279. Yeni İqbal, 1915, №8, 1917, № 524.
280. Кавказ, 1895, №182.
281. Кавказское слово, 1 января 1917.
282. Каспий, 4 мая 1894 г, 1 февраля 1896 г. 25 января 1898 г, №52,4 июня 1998г., 3 сентября 1906г, 8 апреля 1915г, 12нваря 1916г, 18 апреля 1917г, 19 апреля 1917г, 23 апреля 1917г, 25 октября 1917г, 28 ноября 1917г.
283. Kəşkül, 1889 q, №44, 60, 1891, №22
284. Новый Восток, 1922 г, №2
285. Санкт-Петербургские ведомости. 21-22 апреля 1905.
286. Tərcüman, 18 fevral 1895,
287. Tərəqqi, 16 sentyabr, 26 noyabr, 10 dekabr 1908.
288. Füyuzat, 1906, №1, 1907, №23.
289. Həyat, 1905, №1, №129.
290. Hümmət, 1 aprel 1918
291. Şərqi-Rus, 25 iyul 1903, 18 dekabr, 1904.

## Arxiv sənədləri

### Azərbayçan Respublikası Dövlət Arxivi

Fond 2, siyahı 4, qovluq 37, v. 5-40.
Fond 9 s, siyahı 1, iş 53, v. 42-43.
Fond 46, siyahı 1, sax. vah.364, v.9, 436.
Fond 46, siyahı 1. sax. vah.553, v. 706.
Fond 46, siyahı 2, sax. vah.78, v.2.
Fond 46, siyahı 2 sax vah 78 v.13.
Fond 46, siyahı 3, iş 360, v. 84.
Fond 62, siyahı 1, sax.vah.59, v.48-49, 84, 153, 164-165.
Fond 62, siyahı 1 sax. vah. 64 v. 1-2.
Fond 92, siyahı 1, iş 991, v. 7-12.
Fond 132, siyahı 1, sax.vah.31, v.59-60, 44, 66, 67.
Fond 309, siyahı 1, iş 945, v. 3.
Fond 312, siyahı 1, iş 59, v. 54.
Fond 389, siyahı 6, iş 447, v. 1-9.
Fond 421, siyahı 1, iş 17, v. 21-34.
Fond 484, siyahı 2, sax. vah.2a, v. 6.
Fond 495, siyahı 1, sax. vah.18, v. 6.
Fond 524, siyahı 1, iş 17, v. 26-27.
Fond 524, siyahı 1 iş 18, 15 v. 10,17, 18.
Fond 524, siyahı 1 iş 1, v. 9-12.

Fond 524, siyahı 1 iş 20, v. 1, 2, 8, 13.
Fond 524, siyahı 1 iş 21, v. 21-22.
Fond 524, siyahı 1 iş 23, v. 1-2.
Fond 524, siyahı 1 iş 29, v. 3-4.
Fond 524, siyahı 1 iş 35, 4 v. 16-17.180.
Fond 524, siyahı 1 iş 44, v. 9-12.
Fond 970, siyahı 1, iş 1, v. 37-38, 43.
Fond 970, siyahı 1, iş 59, v. 54. 2.

## Azərbaycan Respublikası Siyasi Partiyalar və İçtimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi

Fond 276, siyahı 2, iş 20, v. 18, 47, 74, 76.
Fond 276, siyahı 2, iş 92 a, v.82-83.
Fond 276, siyahı 7, iş 168, v.46, iş14, qovluq 1, v.4.
Fond 276, siyahı 7, iş 115, qovluq 6.
Fond 276, siyahı 7, iş 168, qovluq 3.
Fond 276, siyahı 7, iş 216, qovluq 4.
Fond 276, siyahı 8, iş 18, qovluq 1.
Fond 276, siyahı 8, iş 33, qovluq 1, v. 1-2, 3,
Fond 276, siyahı 8, iş 268, qovluq 9, v. 73-74.
Fond 276, siyahı 8, iş 454, qovluq 14.
Fond 276, siyahı 8, iş 459, qovluq 15, v. 3, 5, 10.
Fond 276, siyahı 8, iş 505, qovluq 16.
Fond 276, siyahı 8, iş 526, qovluq 17.
Fond 277, siyahı 2, iş 1, 6 sax. vah. 13-16, 25-27.
Fond 774, siyahı 12, iş 56, v.152-154.



# MYHDƏRİCAT

Ön söz ........ 3

*I Bölüm.* **AZƏRBAYCAN XALQININ MİLLİ İSTİQLAL MÜBARİZƏSİNİN BAŞLANĞIC DÖVRÜ (1875-1904-CÜ İLLƏR)**

*1.1. Milli istiqlal mübarizəsinin sosial-iqtisadi və siyasi təməli.* ........ 8
*1.2. Maarifçilik hərəkatı və milli-mədəni inkişaf.* ........ 26
*1.3. Milli-demokratik ideyaların formalaşmasında aydınların rolu* ........ 46

*II Bölüm.* **BİRİNCİ RUS İNQİLABI VƏ MİLLİ İSTİQLAL MÜBARİZƏSİNİN CANLANMASI (1905-1914-cü illər)**

*2.1. Birinci rus inqilabı və Azərbaycan milli-demokratik fikri.* ........ 82
*2.2. Erməni-azərbaycanlı (türk) münaqişəsi və onun milli hərəkatın inkişafına təsiri.* ........ 119
*2.3. «Müsavat» partiyasının yaranması və milli istiqlal mübarizəsində onun rolu.* ........ 140

*III Bölüm.* **I DÜNYA MYHARİBƏSİ İLLƏRİNDƏ MİLLİ İSTİQLAL MÜBARİZƏSİNİN YÜKSƏLİŞİ (1914-1918-ci illər)**

*3.1. Müharibə dövründə Azərbaycanın iqtisadi və sosial-siyasi durumu.* ........ 155
*3.2. 1917-ci il Fevral inqilabı və istiqlal hərəkatının ümummilli prosesə çevrilməsi.* ........ 178
*3.3. Milli istiqlalın gerçəkləşməsi uğrunda mübarizə.* ........ 194
Nəticə ........ 223
Mənbələr və ədəbiyyat ........ 232

**МАМЕДОВ ХАГАНИ МАМЕД ОГЛЫ**

**БОРЬБА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА ЗА НАЦИОНАЛЬНОЕ НЕЗАВИСИМОСТЬ**
**(конец XIX-начало XX столетия)**

**MAMMADOV KHAGANI MAMMAD**

**THE STRUGGLE OF AZERBAIJAN FOR A NATIONAL INDEPENDENCE**
**(late in the XIX-early in the XX centuries)**

**Yığılmağa verilmişdir: 15.03.05**
**Çapa imzalanmışdır: 01.04.05**
**Kağız formatı 60X84 1/16**
**Ofset kağızı. F. ç. vərəqi 15,6.**
**Tiraj 1000. Sifariş №95**
**Qiyməti müqavilə ilə.**